Rystəm bəj

Aj saq ol!

Kərim

Mən də bir təsnif dyzəldərəm oqujaram. Bəjənsəniz adьnь «Təsnifi-dibdat bəj» qojarьq.

Mehdi bəj

Dostum eşidirsənmi, daha sənin ycyn ölym joqdur. Zejnal bəj myvəqqəti deputat bəjdir, sən isə dynja durunça... saq olsun Səfdərqulu bəj.

Hamь

Saq olsun Səfdərqulu bəj. Urra...

Nəbi

Aqa syfrə hazьrdьr.

Səfdərqulu bəj

Qospada, syfrəjə bujurunuz.

(Rəhim calьr, Kərim qaval vurur, hamь jemək otaqьna kecirlər.)

PƏRDƏ

TYRK BIRLIJI

Bir pərdədə

Mə'işətimizdən bir şəkil

1906

IŞTIRAK EDƏNLƏR:

Heĵdərqulu aqa Çə'fər bəĵ. Nəçəf bəĵ. Səfər bəĵ.	Bəĵlər.
Fridun bəĵ—təbib Səməd bəĵ—myhəndis Rəsul bəĵ—vəkil Mirzə Kərim—myəllim Əli bəĵ—student	Zijalьlar.
Haçь Çəbraĵьl. Kərbəlaĵь Hyseĵn. Məşədi Xudaverdi.	Taçirlər.

BIRINÇI PƏRDƏ

Əhvalat Qafqaz şəhərlərindən birində vaqe olur. Ç ə ' f ə r b ə j axşam saat 7-də qonaqlarьnь gəzləjərək dostu H e j d ə r q u l u a q a ilə səhbət edir.

Ç ə ' f ə r b ə j

Hejdərquli aqa, mən bu işi bojnuma cəkmişəm və umudvaram ki jərydəm, ançaq rəça edirəm ki, ozyny bir az saqlajasan. Xasijjətin tynddyr, hec zad ystə barьt kibi partlajьrsan.

H e j d ə r q u l u a q a

Çə'fər bəj, sən ələsən, hərgah məni padşahlьq dumasьna vəkil secməsələr—çəmi mylkymy, evimi, eşijimi satьb dyz Firəngistan dejə bir baş gedəçəjəm. Mən belə xəçaləti, təhməti jejə bilr.ərəm.

Ç ə ' f ə r b ə j

Indi mən bu məçlisdə məsələnin başьnь acaçaqam və səni də devlət dumasьna vəkil secməji işarə edəçəjəm.

H e j d ə r q u l u a q a

Nə ycyn işarə edirsən. Acьq aşkara de ki, Hejdərqulu aqadan lajьqlь hec kəs joqdur. Gərək onu secək.

Ç ə ' f ə r b ə j

Odur ki, tədbirin joqdur. Əvvəl çəmaətin xahişini dujmaq lazьmdьr, sonra da ona gərə iş gərmək

(Bu halda Nəçəf bəj, Səfər bəj, Fridun bəj, Rəsul bəj, Haçь Çəbrajьl, Mirzə Kərim və sajir qonaqlar daxil olurlar.)

Ç ə ' f ə r b ə j

Ja allah. Xoş gəlmisiniz. Bujurunuz, bujurunuz. Nəçəf bəj, Səfər bəj siz buraja bujurunuz. Haçь əmi, Mirzə Kərim bujurunuz buraja, divanьn ystə əjləşiniz. (Qonaqlar otururlar).

H e j d ə r q u l u a q a
(Əli bəjə)

Qardaş oqlu, kejfin neçədir? Gərynyr student paltarьnь coq sevirsiniz.

Ə l i b ə j

Əmi, işarənizi başa dyşyrəm, ançaq təqsir məndə dejil. Özynyzə mə'lumdur ki, bu son illərdə Rusjada elm təhsil etmək coq cətindir.

H e j d ə r q u l u a q a

Mənçə taqsьr özynyzdədyr, mənim təsəvvyrymə gərə studentlər dərslərini buraqьb padşahlьq işlərinə qarьşmaqlarь ejn səfahətdir. Bunlar tə'til edib dərs oqumamaqdan devlətə nə zərər doquнaçaqdьr. Mənə gərə həkymət dəxi də şad olur ki, universitetlər baqlanьb padşahlьqьn xarçь azalar.

S ə m ə d b ə j

Xajьr, Hejdərqulu aqa, səhv edirsiniz. Darylfynunlarьn baqlanmasь devləti necə il gerijə salьb bəjyk zərərlərə bais olur. Bu saat myhəndislərə bəjyk ehtijaç vardьr.

F r i d u n b ə j

Həkimlərə də həmcinin.

M i r z ə K ə r i m

Doqrudan da studentlər hyrrijjət uqrunda calьşьb bəjyk qurbanlar verirlər. Bunu inkar etmək olmaz.

Rəsul bəj

Biz də student vaqtında az calışmamışıq, pac-əq, şahlıq dumasının acılmasında bizim də pajımız var.

Nəçəf bəj

Onlar hamısı çavanlıq əlamətidir. Mənim kibi sinnə dolanda unudulub gedir.

Haçı Çəbrajıl

Bunu Nəçəf bəj doqru dejir. Mənim oqlum da gəjdən gedir. Dejirəm oqul, sənin Germanijada aldıqın təhsil mənə qızıl xəzinəjə durubdur. Indi calış pul qazan. Bu gyn, sabah evlənib arvad-uşaq sahibi olaçaqsan. Pulsuz adamın nə dili var, nə hyrməti. Hamıja gərək bəli, bəli, dejəsən.

Çə'fər bəj

Çəmaət, şair dejir ki:

Məsudimiz nə qəhvə və nə qəhvəxanədir.
Didari-jarı gərməjə bunlar bəhanədir.

Indi, əzizlərim, sizləri buraja jıqmaqdan mənim də ymdə məqsədim nə inki qırqavul pulovdur, bəlkə bir bəjyk mətləb ycyn bunlar bir bəhanədir. O myhym mətləb budur: devlət tərəfindən e'lan olunur ki, padşahlıq dumasi aprel ajının 27-ndə acılır. Ona gorə hər jerdə yzvylər secməjə hazırlıq gedir. Indi bizə də lazımdır ki, toplaşıb bu barədə məsləhət, məşvərət edək. Fikirlərimizi birləşdirib bir lajıqlı şəxs yzərində dajanaq. Elə olmasın ki, aramıza nifaq dyşyb hərə bir tərəfə cəkə. Belə olursa, bişək və şybhə bir nalajıqın biri secilib bizi çəmi Rusjada risvaj edəçəkdir...

Hejdərqulu aqa

Çə'fər bəj, baqışla sözyny kəsirəm. Dejirlər ki motal Qurbanəlinin oqlu ajı Kərim bərk deputatlıq

şevqinə dyşybdyr. Özy də harada otururso, dejir ki, şəhər dumasında məndən jaqşı danışan joqdur. Siz ələsiniz istəjir onu zarafat ycyn secəsən və devlət dumasının vəkilləri qnjazlara, qraflara belə reqomendatsija (tevsijə) edəsən; rəça edirəm tanış olasınız, Qafqas vəkili motal Qurbanəlinin oqlu qalajcı Məhəmməd Çə'fərin nəvəsi ajı Kərim. ha... ha... ha...

Çə'fər bəj

Hejdərqulu aqa doqru bujurur. Devlət dumasının yzvylyjy nə dərəçədə bəjyk mənsəb olduqunu çymləniz bilirsiniz. Bu duma şəhər dumasi dejil ki hər əttar, baqqal başmaqlarını taqqıldada-taqqıldada gəlib içlasda filan kycədə necə fanar asılsın, filan adama cajxana acmaqa izn verilsin ja joq dejə boşboqazlıq edib vaqt kecirsinlər. Bu duma padşahlıq dumasıdır. Oraja secilən vəkillər də gərək padşaha lajıq şəxslər olsunlar. Belə ki hər bir şejdən artıq gərək əsli, nəçabəti olsun, taki adı, familjasi cəkiləndə deməsinlər ki, bu çyrə adam eşitməmişik. Sonra qəd-qamətli olsun ki gözə gərynyb secilsin. Uça gur səsi olsun ki, danışdıqı sözynə qulaq asıb fikir versinlər: mənim təsəvvyrymə gorə secilən vəkil gərək bu syfətlərə sahib olsun. Səhv edirəmsə, bujrunuz, səhvimi dejiniz.

Fridun bəj

Bəli, səhv edirsiniz. Özy də artıq dərəçədə. Siz vəkilliji ləjaqəti bu yc syfətdə gəryrsynyz. Nəçabət, qəd-qamət, uça səs. Məjər padşahlıq dumasi əçajib adamlar jıqınçajıdır ki, elə adam gəndərək? xajır Çə'fər bəj, bizə qəd-qamətli adam lazım dejil. Bizə elmli, tədbirli, zaqondan, sijasətdən, vətənimizin kecmişindən və hali-hazırından baxəbər şəxs lazımdır.

Mirzə Kərim

Mənçə bu syfətlər də kifajət etməz. Gərək elə şəxs olsun ki vətənin, millətin uqrunda pulundan malından hətta çanından da kecə bilsin. Burada bəjlik, xanlıq, rəijjətlik bilmərrə gərək mylahəzə olunmasın.

Səməd bəj

Parlamanlar məhkəməjə bənzər. Orada Rəsul bəj kibi vəkillər artıq mənfəət gətirə bilərlər. Fridun bəj dyz bujurur. Gərək zaqon biləsən, bu da vəkil işidir. Natiqlik də onların sən'ətidir.

Kərbəlajı Hysejn

Mən tiçarət ycyn bir necə dəfə zaqranitsaja getmişəm. Orada coqdan parlamanlar işləjir. Zaqranitsada oqumuş çavanlarımız o ysula jaqşı bələddirlər. Məsələn baçının oqlu Əli Hejdər parlaman zaqonlarını jaqşı bilir. Özy də yc xariçi dildə danışır.

Məşədi Xudaverdi

Kərbəlajı dyz dejir. Coq lajıqlı oqlandır. Fikiləməjiniz ki, baçım oqlu olduquna gərə tə'rif edirəm. Xajır, doqrudan da başlı oqlandır.

Əli bəj

Bu işdə qohumluq, dostluq, aşnalıq gəzləmə lazım dejil. Məhz vətənimizin xejrini mylahəzə etmək lazımdır. Bizim olkədə nəçabətdə, mal dəyələtdə hamıdan artıq Hejdərqulu aqadır. Mənim özym də yc ildir ki onun pulu ilə təhsil edirəm, lakin bununla belə o da secgijə qutu qoja Fridun bədə, mən insafımdan kecib Fridunu qojub Hejdərqulu aqaja aq şar salmaram.

Hejdərqulu aqa
(tez ajaqa qalqıb)

Necə? Neçə? Nə dejirsən? A gədə Fridun, bir gər onun aqzından caxır iji gəlirmi? Jəqin o buraja icib gəlmiş.

Fridun bəj

Mən sizin nökəriniz dejiləm. Təvəqqe edirəm ədəb ilə danışasınız.

Hejdərqulu aqa

Kəs səsini gəda oqlu gəda, atan ölənə kibi mənim qapımda nökər idi. Baban da atamın nökəri. Bujur gərək, aqa Fridun bəj mən sənlə nə tevr rəftar edirəm. Sən gərək minlərçə şykr edəsən ki, mənimlə bir məçlisdə oturub söhbət edirsən.

Fridun bəj

Siz hələ qəflət juqusundasınız, ajılmamısınız. O zaman ki siz aqalar dilsiz, aqızsız rəijjətin malınan, çanınan, namusunun sahibi olub nə istəmişsiz izsə etmişsiniz—getdi. Indi hyrrijjət zamanıdır. Indi insan mylk-maaş ilə joq, elm, ədəblə şərəf qazanır.

Hejdərqulu aqa

Ha, ha, ha. Çəmaət, eşidirsiniz nə dejir? Daha biz motal Qurbanəlinin oqluna nə ycyn rişxənd edirik. A gəda mən qəflət juqusundajam ja sən. Ajıl, gər nə fikrə dyşmysən. Məjər padşahlıq dumasi sənin kibi köpəklər jeridir. Səməd bəj, Rəsul bəj, Mirzə Kərim, Əli bəj (hamısı birdən)

Ejb olsun sizə, Hejdərqulu aqa.

Hejdərqulu aqa

Xajır. ejb sizə olsun ki, bu kibi eşşəji mejdana çıqarıb vəkil secməjə təklif edirsiniz.

Fridun bəj

Bimə'rifət, nadan.

Hejdərqulu aqa

A gəda mən bimə'rifətəm? Mən nadanam? Ajь oqlu, ajь! (Kyrsyny əlinə gətyryb Fridun bəjin ystə hyçum edir. Qonaqlar ajaqa qalqьrlar. Çə'fər bəj Hejdərqulu aqanьn əlindən dutur.)

Çə'fər bəj

Hejdərqulu aqa, sənə qurban olum, sakit ol.

Hejdərqulu aqa

Cəkil kənara, gərym bu pota oqlu nə çyr'ət edib o sözləri mənə dejir. (Kyrsy ilə vurub Fridun bəjin başьnь jarьr. Kuj, qalmaqal qalqьr.)

PƏRDƏ

ŞAHSƏNƏM VƏ GYLPƏRI

Bir pərdədə yc şəkilli pjes

1921

IŞTIRAK EDƏNLƏR:

P i n ə c i Q a f a r.
Ş a h s ə n ə m—Onun arvadı.
M i r z ə F ə r ə ç—Kyçə məktub jəzanı.
G ü l p ə r i—Onun arvadı.
A x u n d m o l l a Q a s ı m

BIRINÇI ŞƏKIL

Pinəci Qafarın otaqı. Joqsul, zəhmətkeş otaqı mənzərəsi.

Pinəci Qafar

(Başmaq jamajarkan oqujur. Şahsənəm də tikiş tikir)

Pinəci mənəm işləməsəm mədarım kecməz, mənim,
Bu qışı burda qışlamasam mədarım kecməz mənim.

Şahsənəm

Qafar birçə o oqumaqı kəs, mənə qulaq as.

Qafar

Bujur kəsdim, nə dejirsən?

Şahsənəm

Onu dejirəm ki, mən kimdən əksijəm?

Qafar

Arvad nə demək istəjirsən? Başa dyşmyrəm.

Şahsənəm

Coq jaqşı başa dyşyrsən. Ançaq özyny anlamamazlıqa qojmusan.

Qafar

A nadyryst balası, sən nə dedin ki, mən də başa dyşəm.

Şahsənəm

Dejirəm ki, mən kimdən əksijəm?

Qafar

Allahy əkbər a tın-tın Həsənin qızı. Telqraf Gyllynyn balası. Axı sən nə dejirsən ki, mən başa dyşym.

Şahsənəm

Belə mən dejirəm ki, kimin arvadından əksijəm.

Qafar

Əstəqfrullah. Lə'nət şejtana. A myrtədin qızı, elə tutu quşu kibi təkrar edirsən ki, mən kimdən əksijəm, mən kimdən əksijəm. Bunu kec, bunu eşitdim, sözynyn dalını söjlə.

Şahsənəm

Belə sözymyn dalı da budur, qabaqı da. Mən kimdən əksijəm.

Qafar

Lə'nət sənə kor şejtan. Arvad ajdınça de görym məndən nə istəjirsən? Səni başa dyşə bilmirəm.

Şahsənəm

Qafar, görürəm əllərin qabar olan kibi bejnin də qabarlajıbdır. Başına söz girmir.

Qafar

Axır sən mənə nə dejirsən ki, mənim də bejnimə girməsin.

Şahsənəm

Belə mən onu dejirəm ki, mən kimdən əksijəm. Məşədi İbadın arvadı kecəl Pystədənmi? Kərbəlajı Qulamın arvadı çızdalan Nabatdanmı? Joqsa dəllək Kərbəlajı Çə'fərin arvadı aqzı əjri Fatmadanmı? De çavab ver.

Qafar

Hə, beləçə indi başa dyşdym. Sən mənnən paltar davası eləjirsən, eləmi?

Şahsənəm

O da var. Amma indiki davam başqa şejdir.

Qafar

Onda başla gəlsin.

Şahsənəm

Jaqşь, a Qafar nəjə məni «Şejx Sən'ana», «Eşq Intiqamə», «Iblisə» aparmьrsan?

Qafar

Aj rəhmətlijin qьzь, barь zijarətin birini de, mən də gərym başьma nə cara qьlaram. Bu kəsadlьq vaqtda mən səni yc zijarətə neçə aparьm, arvad, «Şejx Sən'an»ьn qəbri uzaq əlkədədir. O ki qaldь «Eşqi-intiqam», «Iblis» zijarətgahlarьna onlarьn nə adlarьnь eşitmişəm, nə də myqəddəs qəbri-şəriflərini gərmyşəm.

Şahsənəm

Jaqşь a Qafar, bəs bilmirsən onda hər aqşam sən də dostun Mirzə Fərəç də evdən cьqьb bir də geçə jarьsь gəlirsiniz. De gərym haradan gəlirsiniz?

Qafar

Arvad, sənə min dəfə demişəm, min bir dəfədə dejirəm. Biz hər geçə məşədi Əlibalanьn cajcь dykanьna jьqьşьrьq. Orada dərviş baba şirin-şirin hekajələr, maraqlь naqьllar səjləjir, biz də qulaq asьrьq. Sonra da qəsidə oqujur. Dinləjib axirət ycyn savab qazanьrьq. Indi geçələr hardan gəldijimizi bildinmi?

Şahsənəm

Bu şirin dil ilə məni aldada bilməzsən. O gyny mən də, Gylpəri də hamamda idik. Tratirdən (teatro) səhbət acьldь. Məşədi Ibadьn arvadь Pystə əllərini belinə qojub bizə fors atьrdь. Lovqa-lovqa danь-

şьb dejirdi ki, aj jazьqlar, allah sizi piti bişirməjə, çəhrə əjirməjə jaradьbdьr. Siz evdə qalьb geçəgyndyz işləjirsiniz, ərləriniz də tratirlarda kef çəkirlər. Şejx Sən'an ojnuna getdim, Mirzə Fərəç ilə usta Qafarь orada gərdym. «Eşq və intiqam», «Iblis» ojunlarьna getdim jenə də onlarь orada gərdym.

Qafar

O Pystə arvad xьrp jalan dejir. Buna birinçi və axьrьnçь sybut odur ki, jalan dedijinə gərə qurban olduqum Imam Çə'fər Sadьq onun aqzьnь əjibdir. Bu imam əzy dyz danьşan adam olduquna gərə jalan dejəni sevmir. O arvad gərəsən kimi gərybsə bizə oqşadьbdьr.

Şahsənəm

A Qafar, jə'ni sən bilmirsən ki, mən haraja getmək istəjirəm?

Qafar

Zijarətə.

Şahsənəm

Hə, o zijarəti də tratirda göstərirlər?

Qafar

Nəmənə? Səni teatroja aparьm? Ojunbazxanaja? O məhtərəm axund-mollalarьmьzьn təqlidini cьqaran jerə?

Şahsənəm

Hə, nə var? Nə ycyn gözlərini bərəldirsən. Belə tratira getmək istəjirəm.

Qafar

Arvad, gəryrəm əqlin caşьbdьr. Bu axşam vaqtь bizi gynaha batьrma. Dur aqzьnь suja cək. Dur, lylejin eşikdə doludur. Arvad nədir, teatroja getdi

nədir? Arvadlar gərək evdə otursun pitisini bişirsin, çəlıməsini əjirsin, vəssəlam.

Şahsənəm

Qafar, mən özgə şej bilmirəm. Bu saat durub məni «Eşqi-intiqam» tratrina apararsan.

Qafar

Arvad, göryrəm sən dəli olmusan. Mən neçə səni eşqbazlıq teatrosuna aparım. Orada baçı qardaşa aşiq olur. Axırda da hər ikisi ölyr. Şejx Sən'an ondan da bəttərdir. Şejx Sən'an bir mə'myn kişi olduqu halda bir gyrçy qızına aşiq olur. Caxır icir, boğuna xac taqır, daha bilmirəm nələr, nələr eləjir. Arvad, o ki, «Iblis»ə qaldı, onu gərən gyndən bəri az qalmışam on jeddi ryk'ət namaz əvəzinə jyz on jeddi ryk'ət qılam.

Şahsənəm

Baq, Qafar, adamın boğuna beləçə qojarlar ha. Bəs sən dejirdin ki, oraja getmirəm. Dur bu saat dinməz, söjləməz məni tratraja apar.

Qafar

Arvad jaqşısı budur ki, sənin qol-qabırqanı sındırmamışş buradan gedim. (Gejinib gedir.)

Şahsənəm

Çəhənnəmə get, gora get. Indi mən də tratira gedəndə görym sən nə dejəçəksən. (Gylpəri daxil olur.)

Gylpəri

Salam əlejkym aj Şahsənəm baçı.

Şahsənəm

Əlejkyməssəlam aj Gylpəri. Arvad carşafını jerə qoj otur, Qafardan söjləjəçəjəm.

Gylpəri

Bəs özy hanı? Teatroja getdi?

Şahsənəm

Aj arvad, onu hardan bildin?

Gylpəri

Dynən Qafar bizdəjdi, Mirzə Fərəç ilə söz qoşdular ki, bu geçə teatroja getsinlər. Mənim kişim soruşdu ki, Qafar, hansı teatroja gedək, o da dedi: Bulvarın janındakı... Şoqəribin adı jadımdan çıqdı. Hə, satır-alır.

Şahsənəm

Aj qız elə dejil. Mənim jaqşı jadımdadır ki, onda bir it sözy də var. Hə jadıma dyşdy. Satır aq it (Satiragit).

Gylpəri

Hə dejəsən sən dyz dejirsən. Dur ora gedək.

Şahsənəm

Qafargil bizi görsələr neçə olsun?

Gylpəri

Carşafa byrynərik tanıja bilməzlər. dejirlər o teatroja coq arvad-uşaq gedir, onların icində bizi hardan tanıja bilərlər.

Şahsənəm

Indi ki belə oldu, qoj tanısınlar. Bəs başqa arvadlar nə ycyn gedirlər?

Gylpəri

Doqru dejirsən. O gyny Nabat dejirdi ki ərim ilə oraja getmişdim. Orada çinlər jerin icindən çıqıb şejtan ilə danışırlar.

Şahsənəm

Aj arvad, nə əçəb qorqmamışş,

Gülpəri

Neçə qorqmamış, bərk qorqubdur. Hətta istəjibdir durub qacsın, əri əlindən dutub saqlajıbdır. Dejibdir ki, qorqma onlar çin dejil, adamlardır onların ojunlarını cıqardırlar.

Şahsənəm

Daha durma, vaqt kecir. Gedək. Joqsa ojunu başlarlar.

Gülpəri

Gedək. (Gedirlər.)

IKINÇI ŞƏKIL

Əhvalat Satiragit teatrosunun zalında vaqe olur. Teatronun səhnəsi pərdə ilə qapalı. Sıralar teatroja gələnlər ilə doludur. Mirzə Fərəç, dal sırada oturmuş. Qafar birinçi sırada baqa-baqa Mirzə Fərəçi aqtarır.

Qafar

Adə gərəsən mənim joldaşım harada oturubdur. (Birdən gəzy arvadına sataşır.) Arvad sənsən?

Şahsənəm

Bəli, mənəm.

Qafar

Burada nə qajrırsan?

Şahsənəm

Tratira gəlmişəm.

Qafar

Coq qələt etmisən, səfeh qızı səfeh. Əl ajaqın qırılmamış qalq, qabaqıma dyş.

Şahsənəm

Ölәsən də getməjəçəjəm. Bəs bir belə arvad burada nə qajrırlar.

Qafar

Çanına dərd qajırırlar. Dyş qabaqıma.

Gülpəri

A Qafar, Şahsənəm doqru dejir, bəs bu qədər arvadların ərləri joqdur. Joqsa elə qejrətli bir tək siz cıqmısınız.

Q a f a r

Allahy əkbər, bu papaqdır, joqsa sizin başınızdakı jajlıq. (Papaqını jerə vurur.) Adə bura baq. Mysəlman arvadı teatr? Bəs bizim namusumuz, qejrətimiz harada qaldı?

M i r z ə F ə r ə ç

Adə Qafar, Qafar buradajam.

Q a f a r

A kişi buraja gəl.

M i r z ə F ə r ə ç

Adə jerimiz burdadır. Sənin bilitin də məndədir.

Q a f a r

Adə bilit çəhənnəmə arvadlar burdadır.

M i r z ə F ə r ə ç

Adə hansı arvadlar?

Q a f a r

Şahsənəm ilə Gylpəri.

M i r z ə F ə r ə ç

Gylpəri də.

Q a f a r

Hə, hə, tez ol gəl.

M i r z ə F ə r ə ç
(onlara tərəf gələrkən)

Ej dad bidad Ərdəbil. Gylpəri nadyryst qızı, nadyryst, hərgah sabah acılar, səni paraxoda qojub bir baş Ərdəbilə göndərməsəm mənim atam, babam jeddi qat əçdadımın ərvahinə lə'nət olsun. Qalq köpəjin qızı köpək.

G y l p ə r i

Ölsən də getməjəçəm. Bəs bir belə arvadların ərləri joqdur. Joqsa kişi təkçə siz cıqmısınız?

M i r z ə F ə r ə ç

Bəli, mysəlman ançaq bizik. Arvad nədir teatr nədir? (Arvadların əllərindən dutub dartırlar, sıradan qıraqa cıqardırlar. Onlar da dartınıb əllərindən cıqırlar. Zalda qacırlar. Qafar ilə Mirzə Fərəç onları qovurlar.)

YCYNÇY ŞƏKIL

Pinəci Qafarın evi.

M i r z ə F ə r ə ç

Qafar, sən bunlardan myqəjət ol, mən də gedib axund molla Qasım aqanı caqırım gəlib bu binamusların talaqını versin.

Q a f a r

Jaqşı get. (Mirzə Fərəç cıqır.) Baq burada teatro dejil. And olsun atamın ərvahinə, bir balaça o jan-bu jan eləsəniz elə bir sillə səkərəm ki, jerinizdə qalarsınız.

Ş a h s ə n ə m

Allah vurub səni, hynərindir əlini qaldır.

G y l p ə r i

Jaqşı, siz bizi boşadırsınız, biz də o siz bəjənmədijiniz kişilərə ərə gedirik. Onlar da tez-tez bizi teatroja apararlar.

Q a f a r

Allahy əkbər, lə'nət sənə kor şejtan. Indi durub ikisini də boqub əldyrəçəjəm ha.

Ş a h s ə n ə m

Allah vurub səni. Durub səni o qədər dəjərik ki, arvad boşamaq da jadından cıqar.

Q a f a r

Arvadın hynəri nədir ki, kişijə əl atsın.

Ş a h s ə n ə m

Baq hynəri belədir. (Durub onunla dutaşır. Gylpəri də köməjə gəlir. Qafarın ajaqından çəkir, Qafar jıqılır, onu jumruqlajırlar. Bu halda Mirzə Fərəç və onun dalınça molla Qasım daxil olurlar.)

Q a f a r

Ədə Mirzə Fərəç, qojma arvadlar hejimi kəsdilər. (Arvadlar Qafarı buraqıb Mirzə Fərəçin ystə dyşyrlər, jumruqlajırlar. Molla aralaşdırır, ona da bir iki jumruq dəjir.)

M o l l a Q a s ı m

Aj baçılar, bir toqdajın. (Arvadlar dajanırlar.) Bəs mollaja belə ehtiram edərlər?

Ş a h s ə n ə m

Bir molla ki, geçə jarısı bu iki səfihin səzynə baqıb biz bicarələrin talaqını verməjə gələ, elə axundun ehtiramını saqlamazlar.

Q a f a r

Arvad bəsdir, bizi bijabır etdin.

M o l l a Q a s ı m

Usta Qafar, bir arvad ki, biz ruhanilərə, biz şəriət ərlərinə biehtiramlıq elədi, onu boşa getsin. Şəriət də belə bujurub.

Q a f a r

Dyz bujursan aqa.

Ş a h s ə n ə m

Kyl sənin başına, a belə ər. A qanmaz kişi, gərmyrsən bu molla nə dejir. Mən sənin arvadınam joqsa bu şorgəz molla?

M o l l a Q a s ı m

Usta Qafar, bu sözdən sonra bu arvadın nikahı pozuldu. Indi çanın azaddır.

Şahsənəm

Belə kyl molla başına.

Molla Qasım

İndi bu arvaddan sual çavab edin, A baçı sən bilirsən ki, biz ruhanilər mysəlman arvadlarına teatroja getməji haram bujurmuşuq.

Gylpəri

Bilmirəm.

Molla Qasım

Bilmirsən indi bil.

Gylpəri

Bəs kişilərə neçə?

Molla Qasım

Onlara da nəhj etmişik.

Gylpəri

Bəs nejə gedirlər?

Molla Qasım

Gərək getməsinlər. Gynah da etməsinlər. Lakin arvad ilə kişidə fərq vardır. Şejtan həzrət Adəmi aldada bilmədi. Amma Həvvanı aldatdı. Behiştdən hər ikisini cıqartdı. Kişini o ojun cıqardanlar joldan cıqa da bilməzlər. Arvad isə naqisyl'əql olar. Tez aldadarlar.

Gylpəri

Aj molla, bilirəm sən bizim nikahımızı gerı oqumaqa gəlmişsən. Sən hec zəhmət cəkmə. Mən kəbinimi hələl edib çanımı azad edirəm. Elə rəhmətlik atam məni gəzləri jaşlı bu qoça kaftara vermişdi.

Mirzə Fərəç

Nəmənə? Qoça kaftar? İndi ki belə oldu, daha səni boşamıram.

Gylpəri

Ölsən də boşanaçaqam.

Mirzə Fərəç

Mən də boşamajaçaqam.

Qafar

İndi ki iş bu məqama catdı, Şahsənəm mən də səni boşamalı olmadım.

Şahsənəm

Ölsən də boşanaçaqam.

Molla Qasım

Bir mənə də qulaq asın. Gəryrəm siz arvad boşajan dejilsiniz. Mənim zəhmət haqqımı veriniz cıqım gedim.

Qafar

Nəmənə? Sən nə qajırdın ki, zəhmət haqqı da istəjirsən?

Mirzə Fərəç

Rəhmətlijin oqlu bu geçə jarısız gəlib arvadlarımızı əlimizdən almaq istədiji bəs dejil, bir də zəhmət haqqı istəjir.

Qafar

Biz arvadlarımızı boşamaq istəmirik.

Molla Qasım

Çəhənnəmə boşajınız. Mənim zəhmət həqqimə nə dejirsiniz?

Mirzə Fərəç

Uzun myşərrəf eləmə. Dur rədd ol.

Qafar

Bas bajıra.

Molla Qasım

Allah sizin bərəkətinizi kəssin. Bu geçə vaqtı məni avara etdiniz.

M i r z ə F ə r ə ç

Sənə dejirəm uzun myşərrəf etmə. Dur rədd ol. (Molla səjlənə-səjlənə gedir.)

Ş a h s ə n ə m

Aj qьz Gylpəri, dur biz də bunlarьn açьqьna dəniz kənarьna gəzməjə gedək.

G y l p ə r i

Dur gedək. (Qapьja tərəf gedirlər Qafar ilə Mirzə Fərəç qabaqlarьnь kəsirlər.)

M i r z ə F ə r ə ç v ə Q a f a r

Hara gedirsiniz?

G y l p ə r i v ə Ş a h s ə n ə m

Bulvara, gəzməjə. (Vuruşurlar.)

M i r z ə F ə r ə ç v ə Q a f a r

Biz də gedirik! (Onlara qoşulub gedirlər.)

PƏRDƏ

CARXЬ-FƏLƏK

Pjes—iki pərdədə, dərd şəkildə.

1921-çi il.

IŞTIRAK EDƏNLƏR:

P i r i - F a n ı. Uzun aq saqqallь və saclь bir qoça, libasь—uzun aq ləbbadə, ystdən qurşaq.
V ə l i a q a. Mylkədar bəj.
A q a S a l e h. Zavod sahibi.
A q a Ş i r ə l i. Mylkədar.
M u s a b ə j. Aqa Salehin zavod mydiri. Myhəndis.
B a h a d i r. Gənç bir işçi.

Q ə h r a m a n. }
F ə r m a n. } Bahadirin joldaşlarь.
N a d i r. }

Q u r b a n ə l i. Kəndli.
G y l s ə n ə m. Onun arvadь.
Q a f a r. Pinəci
S a n d r o. Restoran xidmətcisi. (Laxej.)

L i d a. }
Z i n a. } Cəngilər.
M a r u s j a. }
M a r q o. }

Bir taqьm işçi arvad və kişilər.
A l l a h q u l u. Işçi.

BIRINÇI ŞƏKIL

Səhnə pərdə ilə iki hissəjə bəlynyr. Bir hissəsi restoran odasьnь və digər hissəsi piri-Faninin kumasьnь və həjətini göstərir. Kumanьn janьnda bir qurumuş aqaç kətyjy: Hər iki mənzilə qapьlar acьlьr. Pərdə qalqdьqda piri-Fani kumanьn aqzьnda oturmuş və bir carx hərəkət halьnda gərynyr. Carxьn pərləri həm otaja, həm də həjətdə gərynyr. Q u r b a n ə l i və G y l s ə n ə m piri-Faninin həjətinə daxil oiurlar.

Q u r b a n ə l i

Ej pir daha səbrim tykənmiş, bir ilimin zəhmətini bir gyndə itirdim. Qan-tər icində əkib beçərdijim məhsulu Vəli Aqa zor ilə əlimdən aldь. Uşaqlarьmь ruzusuz qojdu. Bu qьş gynyndə gəzləri jaşlь cəllərə saldь. (Aqlajьr.)

G y l s ə n ə m

A kişi qьzьl inəji demədin.

Q u r b a n ə l i

Onu da sən səjlə, mənim danьşmaqa taqətim joqdur.

G y l s ə n ə m

Aj pir baba, belə sənə bu Gylsəi əmin çanь qurban olsun. Mal-qaradan təkçə bir inəjimiz qalmьşdь. Inək demə bir maral, bujnuzlarь gəjlə gedirdi, qujruqu jer ilə syrynyrdy. Kənddə qьzьl inəjin

tə'rifi dillərdə səjlənirdi. Yc gyn bundan ilәri aqanьn naxьrcьsь inəjimi damqalajьb bəjin naxьrьna qatmьş. Səbəbi guja qьzьl inək aqanьn qoruquna girmiş. Ej pir baba, o aqaja biz nə edə bilərik? Səndən başqa bizim imdadьmьza jetən joqdur. Bizə bir carə qьl.

P i r i-F a n i

Əjləşin, çavabьnьzь alarsьnьz (Əjləşirlər, Pinəci Qafar daxil olur, pirə təzim edib ərz ejləjir.)

Q a f a r

Ej pir, bu qabarmьş əllərimin zəhməti ilə Aqa Şirəlinin karvansarasь qapьsьnda pinəcilik edib jeddi baş kylfət ruzusunu bir tevr ilə qazanьram. Bu gyn xozejindən əmr cьqmьş ki, pinəci Qafar ja dutduqu jerə kira versin, ja da dutduqu jeri azad etsin. Hər iki hal mənim ycyn myşgyldyr. Bu qьş zamanь mən haraja gedim? Nə qazanьram ki, uşaqlarьmьn boqazьndan kəsib ona kirajə verim? Məjər sansьz evlərinin kirajəsi ona kafi deјil ki, mən zavallь qasьbь kycələrə buraqьr. Ej pir, səndən imdad istəjirəm.

P i r i-F a n i

Əjləş, çavabьnь alarsan. (Allahqulu və bir taqьm işci daxil olurlar, pirə tə'zim edirlər.)

A l l a h q u l u

Ej piri-Fani, aqa Saleh xozejin bu gyn bizləri zavoddan cьqarьb kycəjə atdь. Indi biz nə edək? Arvad-uşaqlarьmьz açьndan fəriad edirlər.

P i r i-F a n i

Səbəb nə olmuş?

A l l a h q u l u

Gyndəlik muzdumuz coq az idi, aldьqьmьz para kylfətimizi ədəmirdi. Bir qədər artьrьlmasьnь xozejindən rəça etdik, qəbul etməjib dedi: indijə kibi gyndə on saat işləmisiniz, bu gyndən həmin məbləqə on iki saat işləjəçəksiniz. Bu şərtə biz razь olmadьq.

P i r i-F a n i

Əjləşiniz, çavabьnьzь alarsьnьz. (Əjləşirlər, bu halda Bahadir qollarь cirməkli, dəşy və başь acьq, dalьnça Qəhraman, Fərman və Nadir daxil olurlar.)

P i r i-F a n i

Şikajətəmi gəlmisiniz?

B a h a d i r

(əllərini belinə qojub)

Xajьr, siz piri-Faninin bu məzlumlara verəçək çəvabьnьzь gözləjirik.

P i r i-F a n i

Əjləşiniz, eşidərsiniz. (Bahadir joldaşlarьnь başьna çəm edib ajrь əjləşirlər.)

P i r i-F a n i

Ta çavablarьnьzь alьnça sykutda bulunmalьsьnьz. (Piri-Fani başьnь aşaqь salьb fikrə gedir, sairləri də sakit ona myntəzir olurlar.)

BIRINÇI PƏRDƏ

IKINÇI ŞƏKIL

Sandro otanьn qapьsьnь acьr, Vəli, Aqa Saleh, Aqa Şirəli və Musa bəj daxil olurlar.

V ə l i A q a

Sandro!

S a n d r o

Padano.

V ə l i A q a

Qatso! Dynia nədən ibarətdir?

S a n d r o

Aqa, şərabdan, qьzdan, qurzinsqi dydykdən.

V ə l i A q a

Malades Sandro, kecmişləri unutmamьsan. Hanь Tiflisdə sizin qəstində kef etdijim gynlər? Hanь Marqo, hanь Tamara...

S a n d r o

Aqa, Marqo dynən Tiflisdən gəlmişdir.

V ə l i A q a

Sandro, bu myzdə ilə məni diriltdin. Al. (Pul verir.) Bu sənin muştuluqun, qoj başqa lakej padavat etsin. Sən Marqonun dalьnça get.

S a n d r o

Aqa, xəbər etmişəm gələçəkdir.

A q a S a l e h

Sandro, bizim qьzlara da xəbər vermisənmi?

S a n d r o

Bəli xozejin vermişəm.

A q a Ş i r ə l i

Sandro stolu dyzəlt, mən açьndan əlyrəm.

S a n d r o

Aqa bu saat. (Сьqьr.)

A q a Ş i r ə l i

Aqa Saleh, eşitdim bu gyn rabocilərin zabastovqa ediblər?

A q a S a l e h

Istədilər myzdlərin artьrsьnlar, əz jerlərini də itirdilər.

M u s a b ə j

Xozejin, gərək bir qədər artьrьb aqьzlarьn jumajdьn. Gyndə on iki saat zəhmətə hec bir fə'lə dəzməz.

A q a S a l e h

Nejə dəzməz, qoj bir-iki gyn aç qalsьnlar, hamьsь gəlib ajaqlarьma jьqьlьb jalvaraçaqlar. Allah onlarь bizlər ycyn işləməjə jaradьbdьr.

V ə l i A q a

Bizləri də şampanski icməjə. (Sandro daxil olur, stola icgi və jemək qojur.)

A q a Ş i r ə l i

Aj saq ol Sandro. Şampanskini buza qojmusanmь?

S a n d r o

Bəli qojmuşam.

V ə l i A q a

Sandro—qьzlar neçə oldu?

S a n d r o

Aqa bu saat gələrlər.

A q a S a l e h

Vəli Aqa tamada vəzifəsi siz ilədir.

V ə l i A q a

Oqul dejirəm bu gyn mənimlə içə bilsin. Hamьnьzь şəhid edəçəjəm. (Bu halda Lida, Marusja və Zina daxil olurlar.)

Q ь z l a r

Urra.

X o z e j i n l ə r

Urra.

L i d a

Şirocqa. (Aqa Şirəlinin ystə jyjyryr.)

M a r u s j a

Sali (Aqa Salejin ystə jyjyryr.)

Z i n a

Musicqa, Musicqa. (Musa bəjin ystə jyjyryr.)

V ə l i A q a

Sandro, evimi jьqdьn. Marqo harda qaldь. Məni xanьmsьz qojdun.

S a n d r o

Aqa bu saat gedim gətirim. (Gedir.)

A q a S a l e h

Tamada nə jatmьsan? Xanьmlar icmək istəjirlər.

Vəli Aqa

Bu saat kim nə icmək istəjirsə desin: qonjaq var. zubrovqa var, benedeqtin var, nastojaşşij smirnovqa var.

Aqa Şirəli

Mən qonjaq icəçəjəm.

Aqa Saleh

Mən də.

Marusja

Mən votqa icəçəjəm.

Vəli Aqa

Saq olsun Marusqa xanьm, mən özym də votqa icəçəjəm.

Aqa Saleh

Marusja, nastojaşşij rusdur. (Bu halda Marqo və calqьcьlar daxil olurlar.)

Valja. Valicqa. (Istəjir Vəli bəj tərəfə gəlsin.)

Vəli Aqa

Marqo, jerində dur. Ustalar calьnьz! Marqo, ordan syzə-syzə gəlib mənlə göryşərsən. (Calqьcьlar calьrlar, Marqo da oinaja-ojnaja gəlib Vəli aqa ilə göryşyr.)

Aqa Şirəli

Saq olsun Marqo, nə gözəl ojnajьr.

Aqa Saleh

Saq olsun belə Gyrcystan tavadь. Qaspada Marqo xanьmьn saqlьqьna icək. (Icirlər.)

Aqa Şirəli

Devran bizimdir, bizim.

Aqa Saleh

Mylki-sylejman bizimdir bizim.

Vəli Aqa

Marqo xanьm da mənimdir mənim.

Aqa Şirəli

Carxь-fə'ləji döndərən olmaz.

Aqa Saleh

Biz aqalarь bu busatdan endirən olmaz.

Vəli Aqa

Sandro, şampanski və mejvə gətir.

Sandro

Bu saat aqa. (Gedir.)

Marusja

Sali, pul var?

Aqa Şirəli

Var, var.

Lida

Şirocqa, ev var?

Aqa Şirəli

Var, var.

Marqo

Valicqa, mylk var?

Vəli Aqa

Duşocqa var, var.

Zina

Musicqa, pəs sənin nəjin var?

Musa bəj

Bənim də səni sevən yrəjim var.

Z i n a

Fu! O hammalda da var. Diləncidə də var.

(Sandro şampanski və meivə gətirir, aqalar jemək icməjə məşqul olurlar, səssiz bir-birlərinin saqlьqьna icirlər səhbət edirlər.)

PƏRDƏ

IKINÇI PƏRDƏ

UCUNÇU ŞƏKIL

Ə v v ə l i n ç i s ə h n ə

P i r i-F a n i

Ej məndən dərdlərinə carə istəjən fyqəraji-kasibə! Siz o vaqtь bu əzijjətdən, bu zillətdən xilas olarsьnьz ki, carxь-fələk sizə tərəf cənə. O zaman bu qurumuş aqaç kətyjy gəjərər, əlvan cicəklər ilə bəzənər, japraqlanar, bar verər. Onun cicəkləri, japraqlarь və mejvələri adi nəbatat kibi olmaz. Hər cicəjin başqa bir rəngdə japraqlarь və mejvəsi, həmcinin jer yzyndə gordyjynyz və eşitdijiniz çəvahir, altun və gymyş kibi ziqijmət daşlь o mə'dən şejləri bu aqaçda əmələ gəldikdə Simyrq adьnda bir quş ucub gələr. Bu aqaçda məskən edər, onu qorujar. Sizlərdən hər biriniz özynyz ycyn nə istəsəniz Simyrq qaqasь ilə dərib atar.

A l l a h q u l u

Ej pir baba, sənə çanьm qurban. O zaman hacan olar?

P i r i-F a n i

Onun vaqtьnь bilmək olmaz. Fəqət səbr edib əhmətinizdə davam edərsinizsə, elə ne'mətə nail larsьnьz.

B a h a d i r

(uçadan qəhqəhə ilə gylyr).

P i r i-F a n i

Nəjə gylyrsən ej çavan?

B a h a d i r

(ajaqa qalqьb ona tərəf gəlir)

Sənin belə dedijin əfsanəjə gylyrəm. Ej əqlin qajib etmiş qoça, Necin bu əvam zavallьlarь belə xurafat ilə aldadьrsan. Bu qurumuş, cyrymyş qurtlanmьş kətyk jenidən gəjərərmi? Cicəklərmi? Belə əfsanə ilə Məzlumlarь aldatdьqьn jetər. Al! (Ajaqь ilə vurub aqaç kətyjyny sьndьrьr.)

H a m ь

Ah..

P i r i-F a n i

(ajaqa qalqьb)

Nə etdin? Ej dəliqanlь. Bu bicarələrin umud cьraqьnь səndyrdyn.

B a h a d i r

Elə jalancь cьraqlar coqdan sənməli idi.

P i r i-F a n i

Indi nə etmək istəjirsən?

B a h a d i r

Indi carxь döndərmək istəjirəm.

P i r i-F a n i

Baçarmazsan, coqlarь bu jolda fot olmuşlar.

B a h a d i r

Qəhraman, Fərman, Nadir joldaşlar hec bir fik' dynjada qurbansьz jeriməmiş Hərgah carx mə, vurub fot edərsə, Qəhraman dalьmça sən gələrsə, sonra Fərman, dalьnça Nadir ta carxь saqlajьb tərsə cəndərməjinçə əl cəkməjin. Hajdь ijit joldaşlarьm.

Q ə h r a m a n

Joldaş Bahadir toqda. Sən bizim rəhbərimizsən, sənin saq qalmaqьn bu məzlumlara lazьmdьr. Əvvəl mən qurban olmaq istəjirəm. (Atьlьb carxьn pərindən dutur carx onu kənara atьr.)

H a m ь

Ah zavallь. Өldy. (Qurban өzyny atьr carx onu da vurur.)

P i r i-F a n i

Dajanьn divanələr, (Bahadir carxdan dutub saqlajьr. Nadir kөmək edir carxь döndərirlər).

PƏRDƏ

DƏRDYNÇY ŞƏKIL

Ikinçi şəkildəki səhnə

A q a Ş i r ə l i
(qьşqьrьr)

Aman toqdajьn, qərq oldum tufan, tufan...

A q a S a l e h

Ədə Musa bəj qojma, qojma. Carx dənmyş, tormozla, tormozla.

M u s a b ə j

Aj xozejin, bu fələk carxьdьr. Ona tormoz vurmaq olmaz.

V ə l i A q a

Vaj bizim halьmьza, carxi-fələk indi tərsinə dənmyş.

(Bahadir və jerdə qalanlar odaja girirlər.)

B a h a d i r

Aj aqalar, indi carxi-fələk sizlər ycyn tərsinə dənmyş. Piri-Faninin kumasьna bujurunuz. Bizə səjləjən kibi sizə də gəzəl-gəzəl naqьllar səjləsin. Qurumuş aqaçda sizin ycyn çavahir bitirsin. Altun mejvələr dərib versin. (Aqalar məjus başlarьnь aşaqь salьb piri-Faninin kumas na tərəf gedirlər.)

B a h a d i r

Xanьmlar siz də aqalarьnьzьn qulluquna təşrif apargьnьz.

M a r q o

Biz burada siz ilə qalmaq istəjirik.

B a h a d i r

Bizim nə pulumuz var, nə də şampanskimiz. Bujurun gedin. (Qьzlar gedirlər.) Sandro bu icgiləri, zadь buradan gətyr.

S a n d r o

Aqa bu saat.

B a h a d i r

Biz aqa dejilik. Joldaşьq.

S a n d r o

Bəli, bəli joldaş, joldaş.

B a h a d i r

Ustalar, internasional calьnьz. (Onlar da calьrlar).

PƏRDƏ

QARANLĿQDAN IŞĿQA

Bir pərdəli pijes

1921

IŞTIRAK EDƏNLƏR:

O q u z . Qoça bir tyrk.
U l u q. Onun oqlu.
Ə b d y s s ə l a m . Qoça bir ərəb.
Q a s ь m . Onun oqlu.
Z e j n ə b. Onun qьzь: Uluqun namzədi.
Ç ə m ş i d. Qoça bir fars.
Q u b a d. Onun oqlu.
F i r ə n g i z . Onun qьzь.
B a h a d i r. Qoça bir hindli.
Ə k b ə r . Onun oqlu.
L i -x u n -ç a n q. Qoça bir cinli.
X u n-x u z . Onun oqlu.
M a r z a v a n. Əçinnə zandarmasь.
Ç u r ç a n. Əçinnə qomandanь, Daxnaşьn pəhləvanь.
I k i m ə ' m u ı.
Bir taqьm əçinnə qoşunu.

BIRINÇI PƏRDƏ

Səhnə qaranlıq bir maqara icini göstərir. Pərdə qalqdıqda çavanlar ajaq ystə və qoçalar oturmuş görynyr.

Əbdyssəlam

Ej Oquz oqlu Uluq, bizi buraja toplamaqdan məramın nədir? Bilmək istərik.

Çəmşid

Ej Oquz oqlu, qəljanımın vaqtıdır, dejəçəjini tez söjlə, dözə bilmirəm.

Li-xun-çanq

Ej Oquz oqlu, tirjakim qaldı. Mətləbini əçələ söjlə.

Uluq

Ej əhli zylmat! Bu qaranlıq dynjada əsrlərçə jatdıqın jetər, bu qədər sərxoş olub alcaqlara qul olduqun jetər, həşərat kibi ajaqlar altında syryndyjynyz jetər. Qəflət juqusundan ajıl. Açizliji, zəifliji buraq. Kim olduqunu dyşyn. Səni işıqdan məhrum edib bu qaranlıqa salan divlərî, çinləri jıq, əz, qır, özyny onların zylmyndən xılas et. Bu zylmat aləmindən işıqlı dynjaja cıq!..

Bahadir

Ej Oquz oqlu, nə söjləjirsən? Məjər bu zylmat aləmindən başqa bir qejri dynja da var?

Uluq

Bəli, var. Onun adı işıqlı dynjadır. Onu jyksək intihasız fəzadən gynəş işıqlandırır. Işıqlı dynjanın gözəlliji vəsfə gəlməz. Jaşıl mənzərəli daqlar, yzərindən şaqıltı ilə aqıb myhitlərə tökylən nəhrlər, qajalardan fəvvarələnib ucan şəlalələr, cicəklərlə bəzənmiş cəmənlər, sejrangahlar, gylşənlər, onlarda ötyşən quşlar, ucuşan rəng-bə-rəng pərvanələr, myxtəlif heivanlar işıqlı dynjanı zijanətləndirir...

Əbdyssəlam

Ej Oquz oqlu, toqda, əçəba əfsanəji söjləmək ycynmy bizi buraja toplamısan.

Li-xun-çanq

Ej Oquz oqlu, elə naqılları bu coçuqlara söjlə, biz qoçaları belə xyrafat ilə aldada bilməzsən.

Çəmşid

Ej sykuta getmiş Oquz! Oqlun dəli olmuş, başına carə qıl.

Əbdyssəlam

Oquz, bu gyndən əhdmiz pozulur. Mən qızım Zejnəbi belə sərsərijə verməm.

Oquz

Ej Əbdyssəlam, əhdini tez pozursan. Uluq sərsəm olmuşdur,—bu doqru, fəqət onu əqlə gətirmək asandır.

Uluq

Ej mənə çynun nami verən əhli-zylmat! Mən söjlədijim əfsanə dejil, həqiqətdir. Mən o işıqlı dynjanı bytyn vyçudumla hiss edirəm, göryrəm, eşidirəm. Sizlər isə—paslanmış, qabarlanmış əqliniz-

lə qyvvətdən dyşmyş, zəjifləşmiş hissinizlə onu dərk edə bilməjirsiniz.

(Səhnə dalьndan kamanca səsi gəlir.)

Ah!.. Jenə qulaqьma o dynjanьn musiqi sədasь gəlir... Dinləjin, dinləjin... Eşidirmisiniz?

Qoçalar

Eşitmirik.

Uluq

Eşitməjirsiniz, cynky karsьnьz...

(Juqarьdan aq işьq gərynyr.)

Baq... baq... o səmadəki nuri gəryrmysynyz?

Qoçalar

Gərmyryk.

Uluq

Gərmyrsynyz; cynky korsunuz. Ej əhli-zylmat! Mən Oquz oqluna inanьnьz. Bu divlər tərəfindən hərylmyş səddləri jьqьb, bu qajalarь dəlib deşərəm, sizi bu zylmatdan işьqlьqa cьqardaram. Hər kəs mənə inanьrsa bu qьrmьzь inqilab bajraqь altьna gəlsin. (Qьrmьzь bajraqь qaldьrьr.)

Zejnəb

Sənə inanьb bajraqьn altьna gəlirəm. (Gəlib bajraqьn altьnda durur.)

Firəngiz və Qubad

Biz də sənə inanьrьq. (Onun tərəfinə kecirlər.)

Çavanlar

Sənə inanьb bajraqьn altьna gəlirik. (Uluqu tərəfə kecirlər.)

Qoçalar

Ej divanələr nə edirsiniz?

Oquz

Məjər Daxnaş divin əçinnə qoşununu unutmuşsunuz?

Uluq

Xajьr, unutmamьşьq. Onlarla qovqa etməjə hazьrьq. Indijə kibi bizə mane olduqunuz jetər. Cəkiliniz, daha bəsdir. Səbr kasamьz dolub daşmьş. Ja hamьmьz bu jolda ələçəjik, ja da divlərə qalib gəlib işьqlь dynjaja cьqaçajьq. (Marzavan iki nəfər mə'mur ilə daxil olur.)

Marzavan

A! Gizli jьqьnçaq! Qьrmьzь bajraq! Oquz, bu nə işdir? Söjlə.

Oquz

Çənab Marzavan, bu gyn bizim bajramьmьzdьr. Çavanlar bir qədər şadlьq etmək istəjirlər.

Çəmşid

Çənab Marzavan bu gyn bahar gynydyr. Qədim zamandan bəri bu gyndə baharь jad edərək, qьrmьzь libas gejib bajram etmək rəsmdir. Bu qьrmьzь bajraqa başqa mə'na verməjiinz.

Uluq

Çəmşid baba doqru dejir. Bu gyn bizim ycyn tarixi bir gyndyr. Bu gyn biz bu inqilab bajraqьnь qaldьrьb siz zalimlərdən xilas olmaq istəjirik. Baxtьjar, azadə insanlar sьrasьna girmək istəjirik.

Çavanlar

Bəli, istəjirik!

Marzavan

A!.. Isjan! Inqilab! Bunu alьn. (Uluqu göstərir.)

Q a s ь m və Q u b a d
(qьlьnçlarьnь sьjьrьb)

Qojmarьq!

Ə k b ə r
(qьlьnçьnь cəkib)

Hər kəs Uluqa əl qaldьrarsa, başьnь bojnundan ajьraram.

X u n-x u z

Gərynyr Xun-xuzun əgri moqol qьlьnçьnьn gyçyny bilmək istəjirsiniz.

B a h a d i r

Çənab Marzavan, bu əqlsiz çavanlarьn sözlərinə fikir verməjiniz, əfv ediniz. Biz vəlinə'mətimiz olan ali həzrət Daxnaşьn ən sadiq, xalis, əməkdar bəndələrijiik. Onun mərhəmətləri sajəsində səadətlə jaşajьrьq. Ona ita'ət etmək bizim ycyn vaçib bir əmrdir.

L i-x u n-ç a n q

Tanrь ədalət, səxavət sahibi olan Daxnaş həzrətlərinə ömri-tulani baxş etsin. Bizlərə öz evladь kibi nəzər jetirir. Tirjakimizi bol-bol verir.

U l u q

Ej azadlьqьnь, irz-namusunu, istiqbalьnь tirjəkə, şərabə, qьzьla satan qoçalar! Daha jetər. Cəkiliniz, joqsa sizi də bu zalimlərə qatьb inqilabə qurban edərəm. Qubad, Qasьm, Xun-xuz bunlarь dutunuz, həbs ediniz! (Marzavanьn və mə'murlarьn ystə hyçum edirlər. Carpьşma dyşyr. Marzavan və bir mə'mur qətlə jetir. O biri mə'mur qaçьr. Əkbər onun dalьnça gedir).

Q o ç a l a r

Vaj bizim halьmьza!

Ç ə m ş i d

Bu saat Daxnaşьn qoşunu buraja təkyləçəkdir, qacmaq lazьmdьr.

Q o ç a l a r

Qacaq, qacaq. (Gedirlər.)

U l u q

Joldaşlar, durmajьnьz. Divlərin hərmyş olduqu bu daqlarь ucurdalьm. (Balta, kylyng, synbə, cəkiç və qejri gətyryb daqь səkməjə başlajьrlar. Əkbər daxil olur.)

Ə k b ə r

Daxnaşьn qoşunu gəlir.

U l u q

Joldaşlar. Hazьr olun! Kişilər birinçi sьrada, qadьnlar ikinçi sьrada durunuz! (Uluq dəstənin başьnda durub, Çurçan bir taqьm əçinnə qoşunu ilə daxil olur).

Ç u r ç a n

Jahu! Sizsiniz inqilab qaldьran? Isjan edən? Təslim olunuz!

U l u q

Siz alcaqlara təslim olmarьq! (Qьlьnçьnь sьjьrьb.) Mybariz istəjirəm. Çurça, çyr'ətin var isə, mejdana cьq!

Ç u r ç a n

Ha... ha... ha... Ej jazьq coçuq! Gor kimi mybarəzəjə caqьrьrsan. Daxnaşьn birinçi pəhləvanь Çurçanь!

U l u q

Qılınç meydanında söz lazım deyil. Bujur. Meydan acıqdır.

Ç u r ç a n

Aj... aj... belə. Al gəldi! (Uluq ilə vuruşur. Uluq Çurçanı öldyryr, qoşun qacır.)

U l u q

Joldaşlar, indi iş dalınca olmalı. (Iki hissə olub daqı ucururlar, dal pərdədə bir sərdabə görynyr. Onun yc tərəfində yc böyük hərflə jazılmış: E. L. M.)

Q a s ı m

Uluq, jenə zylmat. Pəs və'd etdijin işıqlı dynja hanı?

F i r ə n g i z

Uluq, o gözəl dynjanı ver.

Ə k b ə r

Uluq, səndən çavab gözləjirik.

U l u q

Joldaşlar, şybhəjə dyşməjiniz. Bizi qaranlıqdan işıqlıqa yc şej cıqarar. Qyvvət, zəhmət, bilik. Ikisini əmələ gətirmişik qalıbdır biri. Zənnimcə bu sərdaba zylmatdan işıqa qapıdır. Onu acmaq lazımdır. Xun-xuz yst qarmaqı aşaqı cək.

X u n - x u z

(E. hərfini cəkir)

Acılmır.

U l u q

Qasım, saq qarmaqı cək.

Q a s ı m

(L. hərfini cəkir)

Acılmır.

U l u q

Əkbər, sol qarmaqı cək.

Ə k b ə r

(M. hərfini cəkir)

Acılmır.

U l u q

Indi kənara cəkilin! (Yc hərfi bir-birinə japışdırır. Sərdaba yzərində qırmızı işıq ilə böyük bir «elm» jazılır. Sərdabadan aq işıq görynyr.)

Ç y m l ə s i

Ah, acıldı. (Zejnəblə Firəngiz oryşyrlər.)

U l u q

Xun-xuz, inanmajan babalarımızı caqır, gəlib görsynlər, taki inansınlar. (Xun-xuz gedir)

Z e j n ə b

Ah, yrəjim dözməjir. Işıqlı dynjanı tez görmək istəjirəm. (Xun-xuz daxil olur.)

F i r ə n g i z

Ah! O dynjanı işıqlı edən gynəşi birçə tez görə idim. (Qoçalar danışa-danışa gəlirlər.)

Ç ə m ş i d

Elə şej ola bilməz.

L i - x u n - ç a n q

Hec vaqtı inanmam.

B a h a d i r

Elə şej mymkyn dejil.

Ə b d y s s ə l a m

O myşkyl işdir. Inanmam.

(Işьqь gəryrlər.)

Ç y m l ə s i

Ah! Doqru. Işьq gəlir.

U l u q

Ej əhli-zylmat, hazьr olun, işьqlь dynjaja cьqьrьq. (Sənə qaranlьq olur. həzin-həzin musiqi səsi gəlir. Dal pərdə qalqьr. Mənzərəli daqlar, cicəklərlə bəzənmiş cəmən və sular gərynyr. Bir taqьm qьz, cijinlərində çyrdək bulaqьn başьna toplaşьb, kimi su doldurur. Kimi səhbət edir. Bu halda daqьn arasьndan çərgə ilə Uluq, Əkbər, Zejnəb, Firəngiz. Qasьm, Qubad, Xun-xuz cьqьrlar.)

Z e j n ə b

Ah, işьqlь dynja nə gözəldir!

F i r ə n g i z

Ah, nə jyksək, nə işьqlь gəjlər.

Q a s ь m

Sənə baqdьqça göz dojmajьr, ej cəşməli, həm jaşьllь daqlar.

Q u b a d

Nə xoş mənzərən var ej cicəkli cəmənlər.

Ə k b ə r

Ej gəjdə syzən azadə şahin! Məni qajnaqьna alьb da qaldьr. O jyksək səmadə bir qədər sejr edim. Bu təzə çəhana dojunça baqьm.

X u n x u z

Ötynyz, ej xoş avazlь, qəlbə zevq verən quşlar!

Ç y m l ə s i

Əhsən sənə, əhsən sənə ej həqiqət işьqь.

U l u q

(al bajraqь qaldьrьb)

Məhv ol bu çəhandan dəxi ej dəhşətli-zylmətl

PƏRDƏ

IŞTIRAK EDƏNLƏR:

Ə m i r A s l a n a q a. 50 jaşında böyük mülkədar.
Ç a h a n g i r a q a. onun oğlu, 22 jaşında bolşevik.
P ə r i Ç a h a n x a n ı m. onun qardaşı qızı. Çahangirin nişanlısı. 20 jaşında.
G ö h ə r x a n ı m. Əmir Aslan ağanın arvadı.
Ə d i l b ə j. Çahangir ağanın dayısı—bolşeviklərin tərəfdarı.

H a d i l ə l ə. Çahangirin lələsi.

S ə l i m b ə j
H e j d ə r b ə j.
M u x t a r b ə j.
M e h r ə l i b ə j.
} bəylər

H a ç ı I m a m q u l u. Taçir 60 jaşında.
M o l l a S a d ı q. Axund.
Ç ə ' f-ə r q u l u. Kəndli qulaq.

S ə n ə m
S ə f ə r
Ə h m ə d
} Əmir Aslan ağanın xidmətçiləri.

Bir neçə qoşun əhli. Bir neçə kənd əhli.

BIRINÇI PƏRDƏ

Hadisə ilk baharda böyük mülkədar Əmir Aslan ağanın daş döşündə yapılmış kəndində vaqe' olur. Kəndin üst tərəfində hasarlanmış əski bir köşk (qəl'ə), onun yaqınında Əmir Aslan ağanın evi. Səhnə Əmir Aslan ağanın otağını göstərir. Otağın divarları və səqfi Firdovsinin «Şahnamə» əsərinin qəhramanları rəsmi ilə müşəvvər, pəncərələrin şüşələri rəng-bə-rəng, açıq pəncərələrdən dağlar; çay və qəl'ə görünür.

Göhər xanım

(jalnız.)

Xudaja, mən nə günahın sahibi idim ki, məni belə böyük bir bəlajə giriftar etdin? Tam üç ilidir ki gözlərimin nuru, çijər-parəm, jurdumun çırağı, tək bir evladımın həsrətini çəkirəm. Çahangirim, gözəl oğlum, çavan oğlum, başına nə bəla gəldi ki, bu uzun müddətdə gəlib əziz vətəninə çıqa bilmədin? Söjləjirlər ki, Rusjada inqilabdır. Orda su jerinə qan aqır. Insanlar açından tələf olurlar. Jarəbbi! Bu tökülən göz jaşıma rəhmin gəlsin. Ej uça tanrı! Ej böyük allah! Ej çəmi jaranmışın pənahgəhi! Oğlumu səndən istəjirəm, çijər-paramı tezlikla mənə jetir. (Hadi lələ daxil olur, Göhər xanım iztirab ilə.) Hadi lələ, nə xəbərlə gəlmisən? Oğlumdan bir şej bildinmi?

Hadi lələ

(mə'jus bir hal ilə)

Xajır xanım. Şəhərdə bir adam qalmadı ki, ondan Çahangir ağanı sormamış olam. Lakin bir şej hasil olmadı. Rusja jolu hər tərəfdən bağlı, bir gediş-gəliş joq...

Göhər xanım

(ağlar səs ilə)

Demək heç ümid joq, carə joq...

Hadi lələ

Xanım, birçə carə var...

Göhər xanım

O nə carədir? Tez ol, de, yrəjim tab etmir.

Hadi lələ

Xanım, sənə mə'lumdur ki Çahangir ağanı bu əllərim üstə böjütmüşəm. Geçələr naqıl dejib jatırmışam. Gündüzlər gəzdirib müqəjjəd olmuşam. Mən bilirdim ki, onun ajrılığına dözə bilməjəçəjəm. Onun üçün də Rusjaja gedən zaman Əmir Aslan ağanın ajaqlarına jıqılıb jalvardım ki, məni Çahangir ağadan ajırma, onunla Rusjaja getməjə mənə də izn ver, razı olmadı. Bu əhvalat jadındadırmı?

Göhər xanım

Bəli, jadımdadır. Sənin də jadındadırmı? Mən də onun ajaqlarına düşüb jalvardım ki, məni bədbaxt etmə, bu səkkiz il oquduğu kifajət edər. Bir belə mal, dövlət sahibidir. Daha nəjə ehtijaçı var ki, çavan ömrünü qürbət ölkədə çürüdə. Mənim də sözümə qulaq asmadı. Dedi gərək mənim oğlum Universitet qurtara. Özün də bilirsən ki, istər dünja alt-üst olsun, Əmir Aslan ağa dedijindən dönməz.

Hadi ələ

Aqanın o xasiyyətini mən də bilirəm. İndi fikrim budur ki, Bakıya gedəm, oradan bir xəbər biləm. Bu da mümkün olmasa, Rusiyaya gedəm, aqamı arayıb tapam.

Gövhər xanım

(təəccüblə)

Sənmi?

Hadi ələ

Bəli mən. Gecələr yata bilmirəm, xəyalıma çür-bə-çür fikirlər gəlir. Dejirəm bəlkə o təhlükədədir, məni imdadına çağırır, mən isəm burada istirahət edirəm. Yox, xanım, daha səbr edə bilmirəm. Gedməliyəm.

Gövhər xanım

Hadi ələ, Əmir Aslan aqa səni buraqarmı?

Hadi ələ

Bilirəm, buraqmaz, lakin mən ondan izinsiz gedəcəyəm və bir də aqanın mənə nə ehtiyacı var? Qulluqunda duran xidmətçilər çoqdur. Mənim getməyimdən xəbəri olmayacaqdır. Sizin də bu sirri kimsəyə deməyəcəyinizə əminəm.

Gövhər xanım

Ondan arxayın ol, ançaq məni təsvişə salan bir tərəfdən Rusiya yollarının bağlanması, orada və Qafqazda tərəfən vuruşma, carpışma o biri tərəfdən də sənin qoçalıqındır. A kişi, bu sinnidə haraya gedib çıqacaqsan?

Hadi ələ

Bunların hamısı dyzdyr, lakin allahımı da unutmamalı. Hər bir şey onun əlindədir. Ja məramimə nail olaçaqam, ja da bu yolda fot olaçaqam!

Gövhər xanım

Hadi ələ, sənin bu fədakarlığın məni bir tərəfdən şad edir, o biri tərəfdən qəmgin. Şadam ki, bu qorqulu, işlan zamanında sənin kibi fədakar, əmək dar xidmətçilərimiz var. Qəmginəm ki, bu sinnində istirahət əvəzində belə qorqulu və ağır səfərə gedirsən. Nə deyim? Get, allah sənə yar olsun. Həgah oğlumu tapıb mənə yetirsən, səni lazımınca razı edib ələnə kibi yadımdan çıqarmaram, yola gətyrməyə lazımından artıq pul və qızıl veröçəyəm ki, bəlkə onların gyçilə bir iş görə biləsən. (Bu hala da Əmir Aslan aqa daxil olur.)

Əmir Aslan aqa

Yenə baş-başa verib nə plan çəkirsiniz?

Hadi ələ

Aqa, Gövhər xanım ilə mənim Çahangir aqadan başqa nə söhbətimiz olaçaq?

Əmir Aslan aqa

Gərçəkdən Çahangirdən bir xəbər yoqdur? Özym də mat qalmışam.

Gövhər xanım

Əlbəttə mat qalarsan. Sənin tərslijindən indi mən bədbaxt ana carəsiz qalmışam.

Əmir Aslan aqa

Gövhər, sus yenə övqatımı təlx etmə.

Gövhər xanım

Xayır baqışla, bu uzun myddət susduqum kifayət edər. Daha bəsdir. Səbr kasam dolub daşmış. Məni arvad yerində, xanım yerində qoymayırsansa evladının anası yerində qoy. Onu da istəmirsənsə bir jad qadın, bir məzlum insan yerində qoy. Qapın dakı nökər qorqudan sənə söz qaytarmırsa da, he

Gөhər xanьm
(iztirab ilə)

Demək Çahangirin də dirilijinə umud joqdur?

Əmir Aslan aqa

Onu demədim. O onun fərasətinə baqar: hərgah başьnda bir şej var isə, başqalarь kibi xariçi məmləkətə qacьb çanьnь qurtarar və bir də mənim oqlum ruslarьn qnjaz, qraf, baron və qejr nyçəba evladlarьndan artьq və əzizmidir? Onlar neçə olar, o da onlar kibi.

8

Hadi lələ

Aqa, Çahangir aqa diuç, rəhmdil və hamь ilə mehriban rəftar edən bir çavandьr. Onnula kimin işi ola bilər?

Əmir Aslan aqa

Belə hərc-mərçlikdə onun kibi dilsiz, aqьzsьzlar tələfə gedə bilərlər. Çahangir mənə və mənim nəslimə əsla oqşamajьbdьr. Baq buna və bunun nəslinə oqşajьbdьr (Barmaqilə Gөhər xanьmь göstərir.) Mənim əcdadьm atan, kəsən, vuran, jьqan, hökmydar bir nəsl olmuş. Əbəs jerə familijamьz «Şirzadə» dejildir. Baq bizim nəslə lajьq mərhum qardaşьmьn qьzь Pəri Çahandьr: at minməkdə, tyfəng atmaqda çymləni hejrətə gətirir (Bu halda Pəri Çahan xanьm cərkəsi libasda, əlində qьrmanç daxil olur və qacaraq Əmir Aslan aqanьn bojnuna atlanьr.)

Pəri Çahan xanьm

Əmuçə, sənə bir jaqşь xəbər gətirmişəm!

Gөhər xanьm

Qьzьm. Çahangirdənmi?

Pəri Çahan xanьm

Xajьr. Əmuçə, muştuluquma (myzdə) nə verəçəksən?

Əmir Aslan aqa

Qızım, hər nə istəsən.

Pəri Çahan xanım

Xaidar dajca mənim.

Əmir Aslan aqa

Sənin. Ingilis tyfəngim də ystəlik.

Pəri Çahan xanım

Hadi lələ, sən nə verəçəksən?

9 Hadi lələ

Xanım mənim nəjim var ki, nə də verəm?

Pəri Çahan xanım

Sən də bu geçə mənə Mələkzada naqıl kibi bir gözəl naqıl söjlərsən.

Əmir Aslan aqa

Indi söjlə görym nə xəbər gətirmişsən?

Pəri Çahan xanım

Əvvəl mənə bir qəziijjə yz verdijini söjləjim, sonra gətirdijim xəbəri. Əmuçə, qaşqa at altımda qoruqdan gəlirdim. Qarşıma bir kəndli çıqdı. Qaşqa atı camura salmaqa hejfim gəldi. Oqlana dedim:— Joldan çıq. Kəndli mənə açıqlı baqıb dedi:— Hejvanı məndən əzizmi dutursan? Mən nejə camura girim? Bu çavabdan qan başıma sıcradı. Qaşqa atı tərkimləjib kəndlijə bir elə qırmanç çəkdim ki, özyny qurbaqa kibi camura atdı.

Əmir Aslan aqa

Aferin, qızım, əcəb etmisən. Gərək qabıqına salıb buraja gətirəjdin. Çəzasını mən verərdim. Kəndcini tanıdınmı?

Pəri Çahan xanım

Bəli, Ədil dajının sabiq rəijjəti Həsənqulu idi. Daldan qışqırdı ki, dajanın, aj aqalar vaqtınız jaqınlaşmış.

Əmir Aslan aqa

Elə itaətsizlik ançaq Ədil bəjin rəijjətlərindən baş verər. Ixtijar verib, kəndliləri başına çıqartmışdı.

10 Hadi lələ

Həsənqulu ilə atası Çənnətəli də başarmajır. Davakar, sərt dəliqanlının biridir.

Pəri Çahan xanım

Sonra Mirzə Saləhə rast gəldim. Dedi ki, qubernator dajına teleqraf gəlmiş ki, Şimali Qafqasda daqıstanlılar bolşevikləri elə pozmuşlar ki, o şiş papaqlarını da qojub qaçmışlar.

Əmir Aslan aqa

Nə gözəl xəbər. Nə şadlıq myzdəsi. Saq olsun qəhraman daqıstanlılar! Indi baron Vrangel də arqalarını kəsib onlara elə bir ysul dutsun ki, daha bir də Rusjada bolşevik adı çəkilməsin. (Səfər daxil olur.)

Səfər

Aqa, bəjlər gəlib sizi görmək istəjirlər.

Əmir Aslan aqa

De, gəlsinlər. (Əmir Aslan aqadan başqa qejriləri çıqırlar. Sonra Mehrəli bəj, Səlim bəj, Hejdər bəj və Muxtar bəj daxil olurlar.)

Mehrəli bəj

Coq təəççybly işdir.

Hejdər bəj

Əqlə sıqışan iş dejil.

Əmir Aslan aqa

Coq gözəl xəbərdir.

Səlim bəj

Əmir Aslan aqa, nə dejirsən? Coq gözəl xəbərdir?

Mehrəli bəj

Əmir Aslan aqa, hacandan bolşevik tərəfdarı olmuşsunuz?

Əmir Aslan aqa

Sən də hacandan əqilini itirib məndən belə səfeh sual edirsən?

Mehrəli bəj

Doğru bujurursan, bu xəbəri eşidəndən bəri əqlimi itirmişəm.

Əmir Aslan aqa

Doğrudan da biz bir-birimizi anlamajırıq. Oturun görün bu xəbər sizi nə üçün belə caşdırmış? Qəhraman daqıstanlılar düşmanımız bolşeviklərə elə bir toj dutmuşlar ki ta həşrədək jadlarından cıqarmazlar.

Bəjlər
(gülüşürlər)

Ha... ha... ha...

Əmir Aslan aqa

Nejə gülürsünüz?

Mehrəli bəj

Öz halımıza gülürük. Görünür əhvalatdan Myxbir dejilsiniz. Qubernator Nadir bəjə Bakıdan teleqraf vasitəsilə xəbər vermişlər ki, Azərbajcan

həkyməti bolşeviklərə təslim olmuşdur. İndi orada Şura həkyməti qurulmuşdur.

Əmir Aslan aqa

Bu xəbər səhihmidir?

Muxtar bəj

Bəli, doğrudur, teleqrafı Nadir bəjdən alıb özüm oqumuşam.

Əmir Aslan aqa

Teleqraf nə vaqt gəlmiş?

Muxtar bəj

Bu gün səhər.

Əmir Aslan aqa

Bəs nə üçün Nadir bəj mənə mə'lum etməmiş?

Muxtar bəj

Ədil bəj orada idi. Jəqin onunla xəbər göndərəcəkdir. O da gələçəkdi, ançaq mən onu gözləjə bilmədim, tez cıqdım. Odur özü gəlir.

(Ədil bəj daxil olur.)

Ədil bəj

Joldaşlar, salam əlejkym.

Əmir Aslan aqa

Ah, jenə qulaqıma bu söz dəjdi!

Ədil bəj

Əzizim, necin oqatını təlx edirsən? Joldaş, jə'ni birlikdə jola cıqan adam, məsələn: Muxtar bəj məni gözləməjib qacdı, joldaşlıq etmədi. İndi hansınızdan muştuluq almışsa, ona şərikəm.

Əmir Aslan aqa

Ədil, zarafatı buraq, mənə Nadirdən nə xəbər gətirmişsən?

Ədil bəj

Bujur, öz mybarək dəst xətti ilə jazılmış məktubu. (Məktubu verir.)

Əmir Aslan aqa

(məktubu oqujarkan)

Biqejrətlər. Binamuslar, vətəni satanlar, gərəsən hərəsi nə qədər rişvət almış. Bəs batmış Azərbajçan əsgərləri harada qalmışlar? (Hirslə məktubu çırıb atır.)

Ədil bəj

Hansı əsgərləri dejirsən? Xanlar, bəjlər, taçirlər evladlarından topjanmış əsgərlərmi?

Mehrəli bəj

Ədil bəj, biz buraja bir-birimizə tə'nə, myzəmmət etməjə jıqılmamışıq. Sənin də oqlun olsajdı, hamıdan tez Irana, Turana qacırtmışdın. Biz buraja Əmir Aslan aqanın məsləhətinə toplaşmışıq. Nə tədbiri varsa, bujursun.

Əmir Aslan aqa

Azərbajçan hökyməti bolşeviklərə təslim olmuşdur, fəqət mən Hidajət aqanın oqlu Əmir Aslan elə dinsiz, vəhşi bolşeviklərə təslim olmaram. Bujursunlar zor ilə tabe etdirsinlər. Bu mənim çavabım. Hansınız mənimlə həmrəjdir—bujursun, gözym ystə jeri var. Hər kəs papaq əvəzinə başına arvad jajlıqı örtmək istəjirsə, ona da jol acıqdır. Getsin, bolşeviklərə qul olsun. Bu mənim sizə dejəçək axırıncı sözym. O babalarım tərəfindən tə'mir olmuş. «Lacın juvası» adlı qəl'əni göryrmysynyz? (Barmaqilə acıq pənçərədən görykən koşky göstərir.) Indijədək bir dyşmana təslim olmamış, nə qədər də mən saqam—təslim olmajaçaqdır.

Ədil bəj

Babaların onu kimin qyvvəsilə saqlamışlar?

Əmir Aslan aqa

Öz rəijjətinin gyçy ilə

Ədil bəj

Doqrudur. Indi həmin kəndlilər daha siz aqalara qul olmaq istəmirlər. Indi onlar «çəmi insan birdir» dejə haqlarını tələb edirlər.

Muxtar bəj

Haqlarını tələb etsələr, dərd jarıdır. Indijə kibi jerləri bizim ycyn bəçərmişlər, qoj indi də özləri ycyn bəçərsinlər, lakin onların fikri hökyməti özlərindən japıb bizlərə aqalıq etməkdir.

Əmir Aslan aqa

Ha... ha... ha... Həsənqululardan, Çənnətəlilərdən, Fatma Nisalardan hökymət! Dynja dəli olmuşdur. Dajanın, bu saat o hökymət yzvlərini sizə təqdim edəçəjəm. (Qışqırır.) Əhməd, Səməd, Səfər. (Nökərlər çəld daxil olurlar.) A gədələr, bu saat çəmi xidmətciləri buraja toplarsınız, dejin aqa caqırır. Geç gələnin dərisi qırmançımın altında cıqaçaqdır.

Nökərlər

Baş ystə aqa.

Əmir Aslan aqa

Hajdı. (Nökərlər çəld cıqırlar.)

Səlim bəj

Bu axır vaqtlarda kəndlilər lap jollarından cıqmışlar. Biz aqalarına əsla itaət etməjirlər.

Hejdər bəj

Bizlərin çymləsindən əqilli Ədil bəj cıqdı. Vaqtında çəmi mylkyny satıb pullarını çiblərinə dol-

durdu. Indi asudə jejib, icib gəzir. Nə mylk və nə də evlad dərdi cəkir. Biṛ qarьsь vaṛ, o da өzyndən qocaqdьr.

Ədil bəj

Mənə kəndlilər tərəfindən hec vaqt xata doqunmaz; cynky mylkym də olan zamanь, indi də onlar ilə ədalətlə rəftar etmişəm. Dar gynlərində onlara kөmək etmişəm. Onlar ilə bərabər hər fəsildə qan-tər icində işləjjb topraq bəçərmişəm. Kəndlilər ilə dostluq edib evimə caqьrmьşam, evlərinə qonaq getmişəm. Mən onlar ilə belə rəftar edib mylkədar olmuşam. Siz nə çyr rəftar etmişsiniz? Kəndlilər qьrmacdan başqa sizdən bir mehriban səz eşitməmişlər..

Əmir Aslan aqa

Cynky sənin baban kəndli olmuş. Nəcabətdə sənin haqqьn joqdur.

Ədil bəj

Oraja əl atsaq coqlarьnьzьn babalarь xanlarьn qapьsьnda nөkər və mehtər olduqu mejdana cьqar.

Mehrəli bəj

Ədil bəj, mənim silsiləmdə kimsənin qapьsьnda nөkər ja mehtər olmuş şəxs joqdur. Mənim ulu babam Nadir şahьn myqərrəb sərkərdələrindən olmuşdur.

Muxtar bəj

Mənim əçdadьm da elə alcaq vəzifə sahibi olmamьşdьr. Mənim nəslim şanlь, şərəfli Turanьn çahangiri Əmir Tejmur xanьn nəslindəndir. Şybhən var isə tarixə baq.

Ədil bəj

(rişxənd ilə)

Inanьram, əzizim. Tarixə baqmaqa lyzum joqdur. Ançaq bilmirəm nə ycyn Tejmur xanda dajandьn? Juqarь qalqmadьn? Odu, Hejdər bəj qurçalanьr. Bu saat əçdadьnьn ululuqunu aparьb Nuha cьqardaçaqdьr.

Hejdər bəj

Neçə? Joqsa mənim silsiləmin qədimlijinə şybhə edirsən?

Ədil bəj

Xajьr, əstəqfyrullah. Sənin familjan Iranьn əski Kəjan mylkynyn nəslindəndir. Səlim bəjinki daha qədimdir. Pişdadjan syfaləsindən Çəmşidin doqmaça nəvəsindən tөrəjibdir. Əmir Aslan aqa isə, o Tutəng xanьn evladьndan tөrəmədir. Tutəng xan da Nuh nəbinin doqmaça nətiçəsidir.

(Bu halda Əhməd, Səməd, Səfər, Sənəm və bir taqьm arvad, uşaq, kişi qorqa-qorqa daxil olurlar.)

Əmir Aslan aqa

Iləri gəliniz! Qulaq asьnьz. Baq, bu gyndən bəj, xan, aqa, nөkər, qulluqcu aradan gөtyrylyr. Indi çymləmiz bərabər olduq. Daha siz ilə məndə hec fərq joqdur. Bujurunuz, əjləşiniz. Biz bəjlər ilə söhbət ediniz. Jejiniz, iciniz, kejf ediniz. Nəjə dajanmьsьnьz? Oturunuz. (Xidmətcilər durduqlarь jerdə diz ystə cөkyrlər.) Orada joq, bujurunuz bu divanlar ystə, bu sandalьlarda əjləşiniz (Hec kəs jerindən qalqmajьr.)

A gədə Əhməd. Qalq, buraja gəl. Sənəm sən də

(Qorqa-qorqa gəlirlər.) Sən burada, sən də orada oturunuz.

Əhməd

Aqa, mən onu çyr'ət edə bilmərəm. Məni başına cevir, azad et. Mən aqalarьn hyzurunda neçə əjləşim?

Sənəm

(aqlar səslə)

Aqa, məni o qьrmançьn ilə dəj, amma bu işə əmr etmə.

Əmir Aslan aqa

(əlini xidmətcilərə tərəf uzadaraq)

Bu dilsiz, aqьzsьz hejvanlardanmь həkymət qurulaçaqdьr? Dejirəm dynja dəli olub, mənə inanmajьrsьnьz (Ajaqьnь jerə cьrparaq.) Durun! Syrynyn! (Xidmətcilər qacьrlar. Bir qədər sykutdan sonra.)

Ədil bəj

Sizin bu imtəhanьnьz mənə bir şej vermədi. Əmir Aslan aqa, siz kəndli, işci, joqsul kytləsilə hec bir zaman oturub durmamьsьnьz, ona görə də təçribəniz joqdur. Qьrmьzь ordu Bakьdan bu tərəflərə jyryş edərsə, etməsində şybhə joqdur; cynky Azərbajçan bir Bakьdan ibarət dejil, o vaqtь indi hyzurunuzda qojun kibi diz ystə cokən xidmətci Əhmədlər. Səmədlər, Səfərlər və qejriləri bolşevik tərəfinə kecib sizə jaqь olaçaqdьr; cynky sizin zylmynyzdən xьlas olmaq jolu jalьnьz odur. Mənfəətləri də oradadьr.

Əmir Aslan aqa

Hec vaqtь. Kəndlilər bolşevik tərəfinə kecməzlər. Sybutum on səkkizinçi il.

Ədil bəj

O başqa zaman və başqa hal idi. Indini onunla myqajəsə etmə, jeni həkymətə tabe olmaqdan başqa jol joqdur.

Əmir Aslan aqa

Hec vaqtь. Onlarь Kyrdən bu tərəfə kecməjə qojmarьq. Gyrçystan və Ermənistanь da unutma.

Ədil bəj

Baqalьm. (Сьqьr; bəjlər mə'jus başlarьnь aşaqь salьb sykuta gedirlər.)

Əmir Aslan aqa

Nə sykuta getmişsiniz? Joqsa gopcu Ədilin səzyndən xofə dyşmyşsynyz?

Hejdər Bəj

Dyşməjə haqqьmьz var; cynky Şura həkymətinin qanununda topraq kəndlinindir.

Əmir Aslan aqa

O nejə? Jer kəndlinin dədəsindən qalьb ja babasьndan? Bu topraqlarьn ystyndə babalarьmьz su jerinə qan aqьtmьşlar. Onun bir addьmьnь kimsəjə vermərəm.

Muxtar bəj

Şura həkymətinin qanunda nə inki topraq, hec xysusi mal, mylk də joqdur.

Əmir Aslan aqa

Deməli bu ev də mənim dejil?

Muxtar bəj

Bəli.

Əmir Aslan aqa

Daha kifajətdir. Bəs beləmi həkymətə tabe olmaq istəjirsiniz? Mylkymyzy, ev eşijimizi, alьb əzymyzy də Rusja mylkədarlarъ kibi gyllə qabaqьna qojub tələf etdikdə bizə nə jol qalьr? Tabe olmaqmь?

Mehrəli bəj

Xajьr, mən bu anə kibi şərəflə jaşamьşam. Indi də lazьm gələrsə gejrətlə ölərəm.

Əmir Aslan aqa

Qəhrəman bəjiŋ nəvəsindən, başqa çavab gəzləmək olmazdь. Siz neçə?

Muxtar bəj, Səlim bəj, Hejdər bəj

Biz də bu fikirdəjik.

Əmir Aslan aqa

Saq olunuz. Umudvaram ki sizlərin kəməkliji ilə babalarьmьzьn jurdunu dyşmandan mydafəə edə billəm. Qьrmьzь ordudan əsla xof etməjin. O nizami qoşun dejil. Əlsiz-ajaqsьz, açiz, kasьb-kusublardan toplanmьş dəstədir. Bizim ijit dəliqanlьlarьn myqabilində əsla durmazlar, fəqət sə'j və qejrət lazьmdьr. Siz bu gyndən işə şyru' ediniz. Dəstələr toplajьnьz, ləvazimat çəm ediniz. Kəndliləri hər vəsitə ilə olmuş olursa, əz tərəfinizə çəkiniz. Onlarь bolşeviklərin vəhşiliji ilə qorqudunuz. Dejiniz ki, onlar dini, məzhəbi, şəriəti aradan gətyryrlər. Nikahi ortadan qaldьrьb arvadlar hamьja maxsus olur. Ruhaniləri, tiçarət əhlini kəməjə caqьrьnьz. (Bu halda haçь Imamqulu və molla Sadьq daxili olurlar.)

Səlam əleikym.

Əmir Aslan aqa

Əleikym səlam. Bujurunuz əjləşiniz. Jaqşь vaqtda gəlmişsiniz.

Haçь Imamqulu

Əmir Aslan aqa, Bakьdan gələn xəbər səhihmidir?

Əmir Aslan aqa

Hansь xəbər, Haçь?

Haçь Imamqulu

Bolşeviklərin Bakьnь almaq xəbəri.

Əmir Aslan aqa

Bəli, doqrudur.

Molla Sadьq

Haçь, gərdyn ki mən jalan dejən adam dejiləm?

Haçь Imamqulu

Bəs onda fikriniz nədir?

Muxtar Bəj

Nə olaçaq? Irana qojub qacmaq.

Molla Sadьq

Haçь, eşitdinmi? Gərdyn ki, mənim məsləhətim bizi dyşmandan xilas edər. Bəjlər də mən dejənə gəlmişlər, şəriət də bunu əmr edir. Hifz bədəni vaçib bujurmuş. Bəla gəlməmiş fərar et demiş.

Mehrəli bəj

Molla Sadьq, sizin bujurmaqьnьza gərə şəriətimiz, dyşman vətəniniz ystə gəldikdə qoj qac, çanьnь qurtar demişdir. Bəs onda pejqəmbərimizin bujurduqu hybbil-vətən harada qaldь?

Molla Sadьq

Orasь səhih, lakin bolşeviklər bizim ycyn bir bəlaji-əzimdir ki, xydavəndi-aləm dutduqumuz əməlin çəzasь ycyn göndəribdir.

Səlim bəj

Bəs o çəza Iran əhli ycyn göndərilməmişdir? Joqsa oradakьlarьn hamьsь əməli saleh insanlardьr? Əgər çəza varsa, bizi Iranda da dutaçaqdьr, Turanda da.

Hejdər bəj

Molla Sadьqьn fikri budur ki, nə məsləhət olaçaq isə olsun, fəqət icində Arazь kecmək olsun. Haçь sizin fikrinizi də bilmək istəjirik.

Haçь Imamqulu

Mənə qalsa, həkymətə itaət etmək. Biz həkm qulujьq. Başda kim duraçaqsa dursun.

Əmir Aslan aqa

Hec dedijini anlajьrsan, əqlini itirmiş kişi? Məjər bilməjirsən ki, bolşeviklərin ən bəjyk dyşmanlarь biz xanlar, bəjlər, siz sərvətdarlar və molla Sadьq kibi ruhanьlardьr? Onlar bu yc sьnьfь jer yzyndən gətyrmək fikrindədirlər. Joqsa fikrin odur ki, bolşevik zamanьnda da malь beşə alьb jyz beşə sataçaqsan? Onlar alьş-verişi bilmərrə aradan gətyryrlər. Indi anladьnmь? Xəsis, malьnь jeməjən kişi?

Muxtar bəj

Haçь, bundan ilavə pul da aradan qaldьrьlьr.

Haçь Imamqulu

Elə də iş olarmь? Pulsuz da dynja jaşajarmь?

Muxtar bəj

Haçь, onu get bolşeviklərdən soruş.

Əmir Aslan aqa

Daha bitdi. Haçь Imamqulu və molla Sadьq, hər birinizin fikrini bildik. Indi bizim də fikrimizi biliniz. Biz bəjlər qət' etmişik ki, bolşevik həkymətinə tabe olmajaq. Bizim ystymyzə gəlsələr myharəbə edib babalarьmьzьn jurdunu mydafəə edəçəjik. Bu bizim qət'namamьz. Buna siz də tabe olmalьsьnьz. Molla Sadьq, siz Məhrəli bəjin itaətində olaçaqsьnьz, hər nə əmr etsə, fori bitirəçəksiniz. Haçь Imamqulu, siz də Muxtar bəjin əmrinə tabe'siniz. Millətdən topladьqьnьz paranь millət jolunda məsrəf edəçəksiniz.

Haçь Imamqulu

Başьnьza dənym, Əmir Aslan aqa, mənim param harda idi ki, məsrəf də edim?

Əmir Aslan aqa

Onu Muxtar bəj bilər. O onun vəzifəsidir.

Muxtar bəj

O bizim xysusi işimizdir. Əmrinizin dalьnь bujurunuz.

Əmir Aslan aqa

Molla Sadьq, siz də o fəsahət, bəlaqət qapьsь olan aqzьnьzь acьb çəmaəti bizim itaətimizə caqьraçaqsьnьz. Indi çymləniz myrəxxəssiniz. Gediniz, iş dalьnça olunuz. (Ajaqa qalqьrlar.) O da məxfi qalmasьn ki, hər kim mənim əmrimdən baş qacьrarsa gyllə qabaqьna qojulaçaqdьr.

Muxtar bəj

Haçь Imamqulu, eşitdinmi?

Mehrəli bəj

Molla Sadıq, anladınmı?

Bəjlər

Əmir Aslan aqa, xydahafiz.

Əmir Aslan aqa

Xydahafiz, qejrətli bəjlərim. (Cıqırlar.)

PƏRDƏ

IKINÇI PƏRDƏ

Birinçi pərdənin səhnəsi.

Pəri Çahan xanım

(jalnız)

Ah! Nə dəhşətli xəbər! Nə fəna bir hal! Qırmızı ordu tərəfindən kəndlər dutulmuş. Kəndlilər də bolşeviklərə qarışıb bəjlər yzərinə ysjan edirlər. Bizim rəijjətə də e'tibar joqdur. Bu axır vaqtlar xidmətcilərimizin rəftarı bizlə bysbytyn dəjişilib. Xanədanımızda ən myti, ən fədakar sanılan Hadi lələ bolşeviklər gələn gyndən joq olmuşdur. Jəqin o da onlar tərəfə kecibdir. Daha bundan sonra kimə umud baqlamalı? Kimdən niçat gəzləməli? Ah, harada qalmışsan ej sevgili əmuzadəm! Gəl, gəl mejdanda tək qalmış zavallı əmuçəmin imdadına cat. Uqrunda göz jaşı tökməkdən kor olan xəstə əmmənin fəriadına jetiş.

(Hadi lələ daxil olur)

Hadi lələ

Uğurlar olsun Pəri Çahan xanım.

Pəri Çahan xanım

Ah! Hadi lələ! A kişi haraja getmişdin? Bir ajdan artıqdır ki, joq olmuşsan.

Hadi lələ

Bakıja getmişdim.

Pəri Çahan xanım

Nə işə?

Hadi lələ

Çahangir aqadan xəbər bilməjə, de gərym Gəhər xanımın xəstəliji nədir?

Pəri Çahan xanım

Nə olaçaqdır? Çahangirin qəm-qyssəsini çəkməkdən bicarə əmməm şam kibi ərijir.

Hadi lələ

Gətirdijim xəbərdən dirilər?

Pəri Çahan xanım

Çahangirdənmi xəbər gətirmisin?

Hadi lələ

Bəli.

Pəri Çahan xanım

Ah! yrəjim neçə atlanır, Hadi lələ, tez ol, səjlə. Mən sənin barəndə nə fikirdəjdim. Əfv et.

Hadi lələ

Jəqin fikir etmisən ki, mən bolşevik tərəfinə kecmişəm. Beləmi?

Pəri Çahan xanım

Bəli, mən nə edim? Bolşeviklər gələn gyndən sən joq olmuşdun. Əlbəttə şybhəjə dyşmək olardı.

Hadi lələ

Xanım, fikriniz səhv dejil

Pəri Çahan xanım

A kişi nə dejirsən? Doqrudanmı onlar tərəfə kecmişsən?

Hadi lələ

Bəli.

Pəri Çahan xanım

Joq, joq, inanmaram. Sən məni imtəhan edirsin. Sən elə qan iciçi, dynjanı oda dutub viran edənlər tərəfinə kecməzsən. Sən istəməzsən ki, belə gözəl jurdumuz tarmar olub qızıl qana bojana.

Hadi lələ

Bu son sözlərinə mən də şərikəm. Lakin bolşeviklər qan iciçi dejillər. Bunlar dyşmanların iftirasıdır. Bolşeviklər məzlumlar, joqsullar, fyqərajikasibə tərəfdarıdırlar. Onların fikri işci-kəndli sınıfının azad etməkdir. Bu jolda oz qanlarını tökyrlər. Məjər bu pis bir hərəkətdir? Pəri Çahan xanım istəjirsiniz ki doqrudan da əçdadının gözəl mylki və belə binası sən dejən hala dyşməsin—sənə həvalə olunan bir təklifi qəbul et. Mən onun ycyn buraja göndərilmişəm.

Pəri Çahan xanım

O nə təklifdir? Səni kim göndərmişdir?

Hadi lələ

Sənə mə'lumdur ki, Azərbajçanda Şura hökyməti qurulduqdan sonra bir neçə mylkədar bəjlər itaətdən bojun qacırıb tabe olmaq istəmirlər. Ona görə də Qırmızı ordu hissələri bu tərəfə gəlib cıxmışdır. Hər jerdə kəndlilər Qırmızı ordu tərəfinə kecirlər. Təklif budur ki Əmir Aslan aqa qovqasız təslim olsun. Səndən başqa da onu bu jola gətirən şəxs tapılmaz. Bizə mə'lumdur ki, bu saat Əmir Aslan aqa Nadir bəjgildə bəjlərlə birlikdə məşvərət edirlər.

Pəri Çahan xanım

Mənə bu təklifi kim edir.

Hadi lələ

Çahangir aqa.

Pəri Çahan xanım

Kim? Çahangir? Mənim sevgili nişanlım. Əmuzadəm? Joq, joq. Elə iş ola bılməz. Inanmam.

Hadi lələ

Bujur, öz dəst-xətti ilə sizə jazdığı məktub, (verir.)

Pəri Çahan xanım

(məktubu acıb oqujur)

Ah! Doğru. Çahangir bolşevik olub. Ordu başında durubdur, əçdadının jurdunu da dutmaq istəjir. Ah, əqlim caşır! Otaq başıma fırlanır. Çahangir, Çahangir. Hansı şejtana·aldanıb belə alcaq, gədajə jaraşan vəzifəni öhdənə gətyrmysən. Məni də, sevgili əmuzadəni, məhəbbətin uğrunda atəşə janan nişanlını belə jola də'vət edirsən? Joq, joq, mən sənin kibi alcaq olmaq istəməm. Əçdadımın jurdunu, şərəfini sənin kibi dyşmandan mydafəə etməjə hazıram. Onun uğrunda çanımı fəda etməjə hazıram. Hadi kişi, ağan Çahangir məndən çavab istəjir. (Məktubu çırıb Hadi lələjə atarkən.) Bu mənim birinçi çavabım. (Sonra bojnundan altun medaljonu icindəki Çahangirin rəsmi ilə barabar cıqarıb Hadi lələjə ataraq.) Al, tam yc ildir ki, bu rəsmi yrəjim ystə sevə-sevə saqlamışam. Geçələr onu baqrıma basıb əzizləmişəm. Öpmyşəm. Ta hiçran oduna dözyb təsəlli tapmışam. Hadi kişi...

Hadi lələ

Pəri Çahan xanım, kifajətdir. Məni oda jaqma. Mən sənin lələnəm. Sənj də Çahangir ağa kjbi bu əllərim ystə bəsləmişəm. Mənə Hadi kişi demə.

Pəri Çahan xanım

Bolşevik tərəfinə kecmiş lələni mən istəməm. Dinlə, ycyncy verəçəjim çavab qaldı. Bilirmisən o nədir?

Hadi lələ

Xajır, xanım.

Pəri Çahan xanım

Indi gərərsən. Cıq, ej illərçə qəlbimdə məskən etmiş ilan! Cıq, ej zəhərli, məni atəşə jaqan məhəbbət. Orada indi başqa məhəbbət, başqa eşq aşjan edəsidir. Hadi kişi, Çahangirə de ki, Pəri Çahanın yrəji onun ycyn daha qapanmışdır. Acmaq istər isə xənçər ilə gəlsin. Indi gedə bilərsən.

Hadi lələ

Pəri Çahan xanım, belə etmə, gəl sən bu qoça lələnin məsləhətinə qulaq as. Bu xanadanın daqılıb pərakəndə dyşməjinə bais olma.

Pəri Çahan xanım

Bais olan sənin ağan Çahangirdir. Bu nəsihəti ona et. Daha bitdi. Gedə bilərsən.

Hadi lələ

Çahangir ağa Çənnətəlinin evində sənin çavabına myntəzirdir. Onda bujurunuz gedək, mənə verdijin çavabı onun özynə ver. Joqsa mən bu ağır məs'ulijjəti öhdəmə götyrməkdən qorquram.

Pəri Çahan xanım

Hə. Indi başa dyşdym ki, Çənnətəlinin oğlu Həsənqulu nə ycyn joldan cıqmajıb mənə elə sərt çavab verirdi. Demək Çənnətəlinin ailəsinin Çahangir ağa ilə əlaqəsi varmış.

Hadi lələ

Bəli.

Pəri Çahan xanım

Bən başına qırmanç çəkdijim Həsənqulunun evinə getmərəm. Aqan Çahangirin çyr'əti varsa, bujurub buraja gəlsin.

Hadi lələ

Çahangir aqanın çyr'ətini sən məndən jaqşı bilirsən. Buraja gəlirsə, ona hec bir xəta doqunmaz; cynky sizi ihatə edənlərin hamısı onun tərəfdarlarıdır. Başından bir tyk dyşməjə qojmazlar. Əmir Aslan aqanın bu saat harada olduqu və hər qədəm atdıqı bizə mə'lumdur. Baş ystə, çavabını Çahangir aqaja dejərəm, lazım bilsə gələr, bilməzsə, qoşuna hyçum əmrini verər. Daha başqa əmrin joqdur ki?

Pəri Çahan xanım

Joqdur.

Hadi lələ
(gedərkən)

Pəri Çahan xanım. Fikirləş. Son pəşimanlıq faida verməz. (Cıqır.)

Pəri Çahan xanım
(tək)

Ah! Bu gyn başlanaçaq myharəbəni xatırıma gətirməkdən qorquram. Bytyn bədənim ditrəjir. Əmuçəm janında təslim adını cəkmək mymkynmydyr? O öz əllərilə çəmi evini-eşijini atəşə dutub jandırar, fəqət təslim olmaz. (Caqırır.) Əhməd! Əhməd! (Səs vermir.) Səməd! Səməd! Bunlar harada batmışlar? Səfər! Səfər! (Sənəm daxil olur).

Sənəm

Nə bujurursan, xanım?

Pəri Çahan xanım

A qız, nökərlər haradadır? Hec səsimə səs verən joqdur.

Sənəm

Xanım, evdə hec kəs joqdur.

Pəri Çahan xanım

Haraja getmişlər? (Sənəm başını aşaqı salıb çavab vermir.) Nəjə çavab vermirsən?

Sənəm

Xanım, qorquram.

Pəri Çahan xanım

Kimdən?

Sənəm

Ərim Əhməddən!

Pəri Çahan xanım

Nə ycyn?

Sənəm

Xanım, xidmətcilərin hamısı bolşevikləri gözləjirlər. Onlar tərəfə kecəçəklər. Nökərlər, Çənnətəligilə getmişlər. Onun oqlu Həsənqulu bolşevikdir.

Pəri Çahan xanım

Sənəm, sən də onlar tərəfdarısan?

Sənəm

Mən joq. Ançaq qorquram. Əhməd dejir ki bizim sirrimizi aqalara versən, səni öz əlimlə boqub öldyrəçəjəm. Xanım, bir Hadi lələdən başqa hec kimə bel baqlamajın. O da burada joqdur.

Pəri Çahan xanım

Ah, saf qəlbli sadədil Sənəm, indi hec özymə də inanmıram. Qorqma, sirrini bir kəsə deməram, ançaq Əhmədi buradan rədd etmək lazım-

dьr. Başqalarьnь da o joldan cьqardьbdьr. Onu özym kəndə göndərəçəjəm. Əmməm neçədir?

Sənəm

Mydam bəhran icindədir. Ajьlanda da su istəjir. Xanьm, izn ver mən gedim.

Pəri Çahan xanьm

Jaqşь, sən get janьnda ol, bir azdan sonra mən də gələçəjəm. (Sənəm gedir.) Ej zavallь ana. Hec bilirmisən ki jolunu gözlədijin oglun nə fikirdədir? Baba jurdunu tapdajьb, sən xəstə anasьnьn başьnda gyllələr jaqdьraçaq! Joq, joq. Əgər indi buraja gələrsə, saq buraqmam. (Divardan asьlmьş zinətli xənçəri əlinə alьr.) Babamьn bu şanlь silahilə onun xain qəlbinj jьrtmalьjam. (Çahangir aqa daxil olur.) Ah gəldi! (Xənçəri sьjьrьb ona tərəf jönəlir.)

Çahangir aqa

(dəşlərin gərib)

Vur.

Pəri Çahan xanьm

Sən nə ixtijar ilə buraja qədəm basdьn?

Çahangir aqa

Bura mənim jurdum dejilmi?

Pəri Çahan xanьm

Joq. Ilәridə sən bu sarajьn, bu jerlərin sahibi, Hidajət aqanьn nəvəsi, Əmir Aslan aqanьn vahid varisi Çahangir aqa idin, fəqət indi vətən və millət xaini—bolşevik joldaş Çahangirsən.

Çahangir aqa

Dedjiklərinin hamьsь dyzdyr, lakin bir şejdə səhv edirsən. Pəri Çahan, mən sən dejən kibi şanlь, şöhrətli bir aqa idim. Lakin indi qьrmançьn ilə dəjdyjyn Həsənqulu kibi zəhmətkəş joldaş Çahangirəm. Bəli, burasь doqrudur, fəqət mən vətənimin, millətimin dyşmanь dejiləm. Onun məzlum, miskin, səfil, cьplaq əməkcilərini ən səmim qəlblə səvən joldaş Çahangirəm. Onlarь əsrlərçə zylm və çəhalətdə saqlajan zalьmlardan azad etmək jolunda calьşan joldaş Çahangirəm.

Pəri Çahan xanьm

Vətənin o zalimləri kimdir?

Çahangir aqa

Birinçisi belə sarajlar sahibi aqalar

Pəri Çahan xanьm

Xajьr, sənin kibi vətəninə xəjanət edən alcaqlar.

Çahangir aqa

Pəri Çahan, alcaq o şəxsə dejərlər ki, başqalarьnьn zəhmətilə jaşaja, zalьm o kəsdir ki, öz mənfəəti ycyn başqalarьnь sьqa, əzə, məhv edə. Bu saat orada, bir azdan sonra burada tökylən qan kim və nə ycyndyr?

Pəri Çahan xanьm

Millət və vətən ycyn.

Çahangir aqa

Jalan! Mənim atam Əmir Aslan aqa kibi mylkədarьn aqalьqьnь saqlamaq ycyn. Topraqlarьnь myhafəzə etmək ycyn. Məjər millət jalьnьz bəjlərdən ibarətdir? Bəs bu miljonlarça kəndci, işçi, joqsullar? Joqsa onlar vətən evladlarь dejil? Pəri Çahan, aqalьq daha bitdi; cynky onu myhafəzə edən, onun jolunda qanlarьnь sel kibi aqьdan kəndli və fəhlə indi hyququnu daha anlamьş. Buna sybut kəndlilərin bizim tərəfə kecməsidir. Bu gyn iki qyvvə bir-birilə toqquşur. Biri haqqь mydafəə edir, digəri zylmy. Pəri Çahan, səni bu haqq jola də'vət edirəm.

Pəri Çahan xanım

Mən sən tərəfdə haqq görmürəm. Kəndlilərin sizin tərəfə köçmələri buna sübut ola bilməz. Onlar başların torpağına, belə gözəl saraylarına sahib olmaq istəyirlər.

Çahangir ağa

Doğrudur. Buna da haqları var.

Pəri Çahan xanım

Hansı qanun ilə?

Çahangir ağa

Təbiətin qanunu ilə. İşləməyən yeməz. Torpaq onu bəçərib zəhmət çəkənlərindir.

Pəri Çahan xanım

Mən elə qanun eşitməmişəm.

Çahangir ağa

İlərilərdə mən də sənin kibi eşitməmişdim. Bu torpaqların sahibi olmağımı gəylər təsdiq etmiş sanırdım. Rəiyyətləri özümüzün qulu hesab edirdim. Fəqət Qarl Marksın əsərlərini oquduqdan sonra anladım, haqq yolunu tapdım.

Pəri Çahan xanım

Sonra da bolşevik oldun. Özün kibi zalımlara qoşulub böyük Rusyanı tarmar etdiniz. İndi də bu gözəl ölkəni o hala salmaq istəyirsiniz.

Çahangir ağa

Pəri Çahan, zülm yuvaları dağılmasa, məzlumlar azad olmazlar. İndi yıxırıqsa, sonra tikəçəyik. Nə etməli? Əmir Aslan ağalar öz ixtiyarları ilə tabe olmayırlar. Pəri Çahan, atamın bizim tərəfə gəlməyinə ümüdüm yoqdur; çünky həmişə bujurma-

da, vurmada, kəsmədə ömür sürmüş qartlaşmış ağa, bunların hamısından əl çəkib işçi-kəndli tərəfdarı olmaz, fəqət bizim müqabilimizə çıxıb qoğa etməsin niyyətilə sənə Hadi lələ ilə o məktubu göndərdim. Çavabın da söylədi.

Sən neyə zülm tərəfdarı olursan? Biz o zülmü insanlar arasından götürmək istəyirik. Baq, gör bu nə böyük, nə yüksək bir idealdır ki, məni öz əlim ilə bu yurdumuzu tapdadıb məhv etdirir. Atamın müqabilinə çıqardır. Mehriban anamı unutdurur. Tam üç il həsrətini çəkdiyim sən sevgili əmuzadəmi mənə düşman etdirir. Pəri Çahan, sevgilim, gəl mənimlə birlikdə vətənimizin məzlumlarını çəlladlar əlindən xilas edək.

Pəri Çahan xanım

Çəlladları mən sən tərəfdə görürəm.

Çahangir ağa

Son sözümü dinlə, fikirləş çavabını ver. Baq gör bizmi çəlladıq, yoqsa siz ağalar. Milyonlarça işçi-kəndlilər əsrlərçə sitəmgərlər əlində didinir, cejnənir, ayaqlar altında tapdalanıb əzilir. Hamısı aç, çıplaq, zillətdə, əziyyətdə, fəryadları əflaka çıqmış. Əsarət zənçiri altında bədənləri inçəlib yüzülür. Baq, bu bicarələr indi bizdən niçat gözləyirlər. Pəri Çahan. Gedəlim, onların fəryadına çatalım. Əsarət zənçirlərini kəsib xilas edəlim. Pəri Çahan, bu şərəfi başqasının öhdəsinə atma. Şərq aləminin pərisi ol ki, əsrlərçə adın dünyada baqi qalsın. Qırmızı ordu içində nə qədər nəçib qəhraman qadınlar var. Sən də şərqin məzlumları qəhramanı ol.

Pəri Çahan xanım

Elə böyük vəzifəni, elə yüksək şiarı özün üçün bəslə. Mən isəm bu gün ufaçıq bir vəzifə qəbul

edirəm. O da «Lacьn juvasь»nь sənin vəhşi ordundan mydafəə edib onun «Orlean xanьmь» olmaq istəjirəm.

Çahangir aqa

Daha bitdi. Sən də atam kibi belə sarajdan, belə çah-çəlaldan öz ixtijarьn ilə əl çəkmək istəmirsən, fəqət mən zor ilə çəkdirərəm. Bu zylm ilə bina olmuş sarajdan bir əsər qojmaram. (Cьqьr.)

Pəri Çahan xanьm

(tək)

Ah! Çahangirdə nə böjyk təqjir! Sabiqdə mənim kibi babalarьmьzьn şan-şöhrətilə fəxr edərdi, fəqət indi isə, onlara zalьm dejib nifrət edir. Mənim də qəlbimə şybhə saldь. Gərəsən hamь jol doqrudur... (Əmir Aslan aqa daxil olur.) Ah, əmuçəm gəldi.

Əmir Aslan aqa

Qьzьm, bolşeviklər yzərimizə hyçumu başlamьş. Bu saat Mehrəli bəjin dəstəsilə vuruşurlar. Umudum budur ki, ijid bəjlər onlarь pozub bu tərəfə kecməjə qojmajaçaqlar. Pəri Çahan, bu gyn oqlum burada olmalь idi. Qəhrəmananə məharəbə edib, Lacьn juvasьnь dyşmandan mydafəə edəjdi. Onu fələk əlimdən aldь. Jerində sən qalmьsan. Ijidlikdə hec bir oqlandan geri qalmazsan. Qəhraman qьzьm, babalarьmьz jurdunun mydafəəsini sənə həvalə edirəm. Bu gyn bizim ycyn başqa jol joqdur. Ja zəfər, ja ölym. Qьzьm, səni mə'jus göryrəm, joqsa dyşmandan xof edirsən? Ona əsir olmaq istəjirsən?

Pəri Çahan xanьm

Hec vaqtь. Məni mə'jus edən şej başqadьr. Ah, Çahangir...

Əmir Aslan aqa

Qəm etmə, qьzьm. Inşaallah dyşmana qalib gələçəjik. Get hərbi libasьnь gejj, hazьr ol. (Pəri Çahan xanьm cьqьr.)

Əmir Aslan aqa

(tək)

Pəri Çahan anadan olanda mərhum qardaşьm Kamran coq mə'jus oldu ki, oqlan dejil, lakin mən bu ijit qьzь min oqula vermərəm. (Mehrəli bəj sol əli sarьlmьş daxil olur.)

Mehrəli bəj

Əmir Aslan aqa, sol çəbhəni dyşman aldь.

Əmir Aslan aqa

Nə dejirsən? Məjər sənə əmr etməmişdim ki, onu məhkəm saqla? Bir adamьn qalьnçaja qədər vuruşmada davam et!

Mehrəli bəj

Mən nə edim? Tərəfdarьmьz kəndlilər fyrsət tapdьqca bolşeviklər tərəfinə kecdilər. Bir də baqьb gördym ki, ətrafьmda bir az qyvvə qalьb. Jenə də vuruşmadan cəkilmədim. Bu vaqtь əlimə gyllə dəjdi. O az qyvvə də pozulub daqьldь. Ançaq onu qənimət bildim ki, arvad-uşaqь gətyryb buraja qacdьm.

Əmir Aslan aqa

Qorquram Ədil bəjin dediji doqru ola. Kəndlilərin çymləsi bolşevik tərəfinə kecə. Sol çəbhənin alьnmasь Səlim bəjin halьnь aqьrlaşdьrdь. Bu saat Kollu dərənin ystyny dutmaq lazьmdьr. Joqsa qьrmьzьlar Səlim bəjin arqasьna kecib onu pozaçaqdьr.

(Hejdər bəj təngənəfəs daxil olur.)

Hejdər bəj

Əmir Aslan aqa, qırmızılar Kətykly kəndini aldı. Bizimkilər qacırlar.

Əmir Aslan aqa
(qəzəbnak)

Siz onlardan gerijə qalmazsınız. Davşan kibi bir səs cıqdıqda qojub qacırsınız.

Hejdər bəj

Mən nə edim? Allah arvad tajifasını mysəlman ycyn bir bəjyk bəla jaratmışdır. Aqlaşma qurub ərlərinin ətəklərindən japışıb davaja getməjə qojmajırlar. Başqa millətin qadınları tyfəng gətyryb ərləri ilə barabar dyşman ilə vuruşur, bizimki isə şaxsej dejə yzlərini çırırlar, saclarını jolurlar.

Əmir Aslan aqa

Bu onların taqsırı dejil. Siz kibi ərlərin, ataların taqsırıdır. Ləzgi qadınları dyşman ilə myharəbə edib ərlərindən geri qalmajır. Pəri Çahana mən tərbijə vermişəm. Hansınızdan qocaq dejil?

(Səlim bəj daxil olur.)

Səlim bəj

Əmir Aslan aqa, Gyllyçy kəndini dyşmən zəbt etdi.

Əmir Aslan aqa

Nə fəna xəbər! Onun alınmasilə jol buraja acıldı. Hejdər bəj, mənim adamlarımdan otuz tyfəngci gətyryb Ucurum dərəsinin kecidini (jol) kəs. Daha durma.

Hejdər bəj

Bu saat. (Çəld cıqır.)

Əmir Aslan aqa
(Səlim bəjə)

Səjlə gərym. Nə tevr oldu ki elə məhkəm jeri boşladın?

Səlim bəj

Hejdər bəjin dəstəsi pozulduqdan sonra sol çəbhə acıldı. Mən Muxtar bəjdən kəmək istədim. Cavab verdi ki, özym iki tərəfdən ihatə olunmuşam. Tez Əmir Aslan aqadan həm özyn və həm də mənim ycyn kəmək istə. Bu vaqtı dyşman arqama kecib məni pozdu.

Əmir Aslan aqa

Kollu dərədə qyvvə qojmuş olsajdın, qırmızılar arqana kecə bilməzdilər.

Səlim bəj

Neçə qojmamışdım? Qojmuşdum. Onlara umud baqlajıb geri cəkilmədim. Atışmada davam etdim. Bir də xəbər dutdum ki, onlar da qacıb daqılmışlar, dyşman da arqama kecmiş.

Əmir Aslan aqa

Səlim bəj, onda dajanma, mənim atlılarımdan lazım bildijin qədər gətyryb Muxtar bəjin kəməjinə get. Onu təhlykədən qurtar, sonra Qaja dibi kəndinə cəkiliniz.

Səlim bəj

Baş ystə. (Cıqır.)

Əmir Aslan aqa

Mənim Qaja dibi kəndim nə qədər davam edərsə, buranın qorqusu joqdur. Onun dar və gizli jollarını ancaq oranın əhli bilir. Bələdci olmasa, qoşun bir

şej edə bilməz. (Molla Sadıq və haçı Imamqulu daxil olurlar.)

Haçı Imamqulu

Bu nə bəladır? Bu nə tufandır?

Molla Sadıq

Dutduqunuz əməlin çəzasıdır ki, xydavəndi-aləm verir. Biz ruhanilərə qulaq asmajıb evladlarınızı rus məktəblərinə qojdunuz. Indi dindən, məzhəbdən cıqıb öz vətənlərini, ata, analarını atəşə dutub qırırlar. Dynjanın axırıdır. Yləma bujurmuşlar ki, vaj o zamandan ki, aradan şəriət, din, bəjyk-kiciklik, aqa-nökərlik gətyrylə. Baq, indi haman zamandır ki, gəlmişdir.

Əmir Aslan aqa

Molla Sadıq sən bizə nəsihət verməjəmi gəlmisən?

Molla Sadıq

Xajır, Əmir Aslan aqa, məni əfv et, yrəjim janır. Onun ycyn danışıram. Mən arvad-uşaqımı gətyryb sizə pənah gətirmişəm.

Əmir Aslan aqa

Coq xoş gəlmişsən. Gözym ystə jerin var. Bu gyn mənim ilə barabar tyfəng gətyryb o dedijin dinimizi, şəriətimizi dyşmandan myhafəzə edəçəksən. Joqsa boş jerə nə və'z edirsən?

Mehrəli bəj

Əmir Aslan aqa dyz bujurur:

Molla Sadıq

Mən ömrymdə əlimə silah almamışam.

Haçı Imamqulu

Mən də arşından başqa əlimə hec zad gətyrməmişəm.

Əmir Aslan aqa

Indi gətyrərsiniz.

Molla Sadıq

Başına dönym. Əmir Aslan aqa, məni o tək balan Çahangir aqanın başına cevir, azad et. Mən də bu jolda ələnlərimizin dəfnini edib dua edərəm ki, allah onların gynahından kecsin.

Haçı Imamqulu

Məni də arvad-uşaqların kəşijini cəkməjə tə'jin et.
(Bu halda Səlim bəj və Hejdər bəj daxil olurlar.)

Əmir Aslan aqa

Səlim bəj, nə ycyn qajıtdın?

Səlim bəj

Hejdər bəj qajtardı.

Əmir Aslan aqa

Hejdər bəj, nə ycyn?

Hejdər bəj

Muxtar bəjin dəstəsi qırmızılar tərəfindən ihatə olunub təslimə məçbur olmuşlar.

Əmir Aslan aqa

Ah, nə fəna xəbər! Bəs Muxtar bəjin özy neçə olubdur?

Hejdər bəj

Bir rəvajətə görə əsir dyşyb, başqa rəvajətə görə nökərləri onu jaralı halında Qaja dibi kəndi-

nə aparmьşlar. Xilasə onun barəsində hec bir dyz xəbər joqdur.

Ə m i r A s l a n a q a

Ucurum dərəsini boşaltmamьsan ki?

H e j d ə r b ə j

Xajьr, lakin qьrmьzьlar çəmi qyvvəsini Qaja dibi kəndinə atmьş. Mənim myqabilimdə hec kəs joqdur.

Ə m i r A s l a n a q a

Ona baqma. Vaqta ki, qьrmьzьlar Qaja dibini almaq fikrindədir, Ucurum dərəsinin bəjyk əhəmijjəti var. Indi sənin qyvvəni daha da artьrmaq lazьmdьr. Ucurum dərəsini məhkəm saqlamaqь əmr edirəm.

H e j d ə r b ə j

Əmrini bitirməjə hazьram. Ucurum dərəsindən özymy atьb həlak edərəm, fəqət gerijə çəkilmərəm.

Ə m i r A s l a n a q a

Elə də lazьmdьr. Daha durmaq jeri dejil. Mehrəli bəj sən jaralьsan. Burada qal. Arvad-uşaqlarь Laçьn juvasьna topla. Səlim bəj, biz də Qaja dibinin köməjinə gedək. (Qalqьrlar. Bu halda Çə'fərqulu daxil olur.)

Ç ə ' f ə r q u l u

Aqa, Qaja dibi kəndini bolşeviklər aldь.(Qorquşurlar.)

M o l l a S a d ь q

Buradan qacmaq! Indi buraja gələrlər.

H a ç ь I m a m q u l u

Durun, arvad-uşaqlarь gətyryb daqlara qacaq.

Ə m i r A s l a n a q a

Sakit! Qorqaq jassarlar! Çə'fərqulu, Qaja dibi coq məhkəm, jollarь da sərt qajalьq, onu neçə aldьlar? Joqsa dənyklyk olmuşdur?

Ç ə ' f ə r q u l u

Xajьr aqa, bizimkilər coq mərdanə vuruşurdular, ançaq iki səbəb təslimə bais oldu. Biri kəndin qaja tərəfi dutulub atəş acьlmasь...

Ə m i r A s l a n a q a

Qoşuna bələdci olmasa, o jolu kimsə bilməz. Jəqin kəndcilərdən bir binamus cьqmьşdьr.

Ç ə ' f ə r q u l u

Xajьr aqa, elə şəxs bizdən cьqmamьş

Ə m i r A s l a n a q a

Bəs kimdən cьqmьş?

Ç ə ' f ə r q u l u

Orduja jol göstərən haçьnьn oqlu bolşevik Həsən olmuşdur.

B ə j l ə r

Aj binamus!

M o l l a S a d ь q

Haçь, gördynmy dedijim neçə dyz oldu? Sənə demədimmi bu uşaqь Rusjaja göndərmə? Sözymə baqmadьn.

H a ç ь I m a m q u l u

Ah, oqlum saq imiş, gəlib cьqdь!

M e h r ə l i b ə j

Elə biqejrət oqul hec gəlib cьqmьjajdь.

Ə m i r A s l a n a q a

Ikinçi səbəb?

Çə'fərqulu

Aqa, sorma, deməjə çyr'ət etmirəm.

Əmir Aslan aqa

Sənə əmr edirəm, de.

Çə'fərqulu

Ikinçi səbəb qьrmьzьlarьn başьnda duran şəxs.

Əmir Aslan aqa

O kimdir?

Çə'fərqulu

Çahangir aqa!

Hamь

Ah!

Əmir Aslan aqa

(əlini xənçərin dəstəsinə qojur)

Sus! Qorqudan gəzlərinizə qaranlьq cəkyb kimi isə mənim oqluma oqşatmьşssьnьz. Mənim nəslimdən Həsən kibi əz vətəninə xain cьqmaz.

(Ədil bəj və Hadi lələ daxil olurlar.)

Ədil bəj

Bu partьltьnь, gurultunu eşitməjirsiniz? Bu nə toplaşьb səhbət etməkdir?

Mehrəli bəj

Biz sənin kibi millətə xain olub vətəni satmamьşьq. Onun uqurunda çanlar fəda etməjə jьqьşmьşьq.

Ədil bəj

Mehrəli bəj, bu jalancь sözləri buraq. Mən sizin əsl məqsədinizi gəzəlçəsinə bilirəm. Nə ycyn vətən, millət dejə baqьraraq, bu məzlum kəndliləri qьrdьrьrsьnьz? Onlarьn coqu lhələ əz mənfəətlərini anla-

mamьşlar, onun ycyn də qьrmьzьlar ilə myharəbə edirlər. Fəqət tezlik ilə anlajaçaqlar. Onda syngyny bolşeviklərə joq, sizin yzərinizə cevirəçəklər. Siz qəhraman, taç-taxtlarь zəlzələjə salan Qьrmьzь ordunun myqabilindəmi durmaq istəjirsiniz? Neçə oldu Qalcaqlar, Judeniclər, Denikinlər?

Məni bəlyk qomandanь axьrьnçь dəfə olaraq sizin janьnьza göndərmiş. Qan tökylməmiş təslim olmaqьnьzь tələb edir.

Səlim bəj

Bizə birinçi dəfədir ki, təslim təklifi olunur. Amma siz axьrьnçь dəfə olaraq dejirsiniz.

Ədil bəj

Birinçi dəfə bu Hadi lələ təslim əmrini gətyrmyşdyr.

Əmir Aslan aqa

Elə təklif olmamьş, ola da bilməz.

Ədil bəj

Pəri Çahan vasitəsilə. Belədirmi, Hadi lələ?

Hadi lələ

Bəli.

Əmir Aslan aqa

Pəri Çahan mənə bir şej deməmişdir.

Hadi lələ

Xanьm məktubu oquduqdan sonra çьrьb atdь.

Əmir Aslan aqa

Ah, nə gözəl çavab! Jaşasьn qəhraman qьzьm! (Qьşqьrьr.) Pəri Çahan. (Pəri Çahan xanьm cərkəs libasьnda, ysty əslihəli daxil olur.)

Pəri Çahan xanьm

Məni caqьrьrsan, əmuçəm?

Əmir Aslan aqa

Bəli, səni, qeyrətli qardaşımın ijit qızı! De görüm çırdıqın məktub kimdən idi? (Pəri Çahan xanım başını aşaqı salıb dinməjir) Qızım, nejə dinməjirsən?

Pəri Çahan xanım

Məktub qırmızıların qomandanı Çahangirdən idi.

Əmir Aslan aqa
(jerindən çəld qalqıb)

Ah! Çə'fərqulu doqru dejirmiş! Aqalar, bu divarda cəkilmiş rəsmlərə baqınız. Bu Rüstəm Zalın, o da oqlu Səhrabın rəsmidir. Rüstəm müharəbədə evladını tanımamış onun sinəsini paralamışdır. Mən isəm bu gün mənə xain olmuş çijər-parəmi bu xənçər ilə qətl edəçəjəm. Indi Qırmızı orduja hücumu mən başlajıram. Qalqın, hajdı, ardımça (Ədil bəj və Hadi lələdən başqa qejriləri cıqırlar.)

Ədil bəj

Baçım Gəhər əhvalatı bilirmi?

Hadı lələ

Xajır, xəstəliji çihətinçə deməji məsləhət bilmədim və başqalarına da tapşırmışam ki, deməsinlər.

Ədil bəj

Jaqşı tədbirdir. Sən get vəzijjəti Çahangirə söjlə. Mən də baçımı joqlajıb gəlirəm. (Cıqırlar.)

PƏRDƏ

UCUNÇU PƏRDƏ

Ikinçi pərdənin səhnəsi

Əmir Aslan aqa. Mehrəli bəj, Səlim bəj, Muxtar bəj, Hejdər bəj, Çə'fərqulu, Pəri Çahan, molla Sadıq, haçı Imamqulu oturub müşavərə edirlər.

Əmir Aslan aqa

Qeyrətli bəjlər, bolşevik Çahangir bu məktubla bizi təslimə təklif edir. Jazır:

Sizə aldanmış kəndlilərin qanları daha tökülməsin məqsədilə təslim olmaqınızı tələb edirəm. Bizə mə'lumdur ki, o bicarələri gürçü, erməni və türk köməkləri gələçəkdir—dejə aldadıb qırdırırsınız. Onu da bilməlisiniz, təslimi rədd edib qovqada davam etsəniz, jarın qəl'ə alındıqdan sonra siz üsjancı bəjlər güllə qabaqına qojulaçaqsınız.

Imza: *Çahangir.*

(Bəjlər başlarını aşaqı salıb fikrə gedirlər.)

Əmir Aslan aqa

Mehrəli bəj, fikrinizi bilmək istəjirik

Mehrəli bəj

Mənçə düşmana hilə gəlməli. Guja təslimə hazırıq. Lakin iki gün möhlət istəjərik. Düşman buna razı olarsa, geçə ikən bir neçə adam qacırıb ətraf-

dan kəmək toplarıq. Sonra iki tərəfdən hyçumu başlarıq. Birini buradan, o birini dyşmanın arqasından.

M u x t a r b ə j

Mən bu fikrə şərik dejiləm. Əvvəla dyşman bizə məhlət verməz. Versə də bu az vaqtda dyşmanın gəzy qabaqında kimdən qyvvə toplajaçajıq? Mənçə özymyzdən başqa qejri kəməjə umud baqlamamalı.

H e j d ə r b ə j

Əlimizdə olan qyvvə ilə qəl'əni saqlaja bilməjəçəjik. Geç tez onu boşlajıb cəkilməjə məcbur olaçajıq. Belə olan surətdə mən qəl'əni vermək tərəfdarıjam.

S ə l i m b ə j

Çahangir aqanın tələbi ajdındır. O təslim olunuz dejir. Qəl'əni veriniz demir. Bizi buraqıb bu boş qəl'əni nə edəçəkdir? Lakin təslim şərtindən bir şej jazmır, təslim olursaq—bizlə nə çyr rəftar olunaçaq? Mə'lum dejil.

Ç ə ' f ə r q u l u

Səlim bəj doqru bujurur. Təslim şərti ajdın dejil. Mənçə biz də jazıb şərtimizi mə'lum etməlijik. Bəlkə istədijimizi qəbul edəçəkdir.

Ə m i r A s l a n a q a

Qızım, sənin fikrin nədir?

P ə r i Ç a h a n x a n ı m

Çahangir hərbi toqdadıb ortalıqa təslim məsələsini atmışdır. Bu iki şejdən xalı dejildir. Ja budur ki, doqrudan da qan tökylməsini istəmir, ja da

əlində olan qyvvə ilə Lacın juvasını almaqdan açizdir.

Ə m i r A s l a n a q a

Afərin, qızım, bu son sözyn dyzdyr. Çahangir təslim məsələsilə bizə hərbi hilə gəlir. Mənə mə'lumdur ki, o mərkəzdən qyvvə və top tələb edir; cynky doqrudan da əlindəki qyvvə ilə qəl'əni almaqdan açizdir. Bu fyrsətdən istifadə etməli. Təslim tərəfdarları bilsinlər ki, istər zor ilə, istərsə öz ixtijarımızla bolşeviklərə tabe olarıqsa hec bir təfavyty joqdur. Hər iki halda gyllə qabajına qojulaçajıq. Onlardan bizə niçat jolu joqdur. Belə olan surətdə öz əllərimiz ilə başlarımızı qurbanmı verməlijik?

B ə j l ə r

Hec vaqtı!

Ə m i r A s l a n a q a

Təslim tərəfdarı varmı?

B ə j l ə r

Xajır.

M o l l a S a d ı q

Əmir Aslan aqa, mən də, haçı da sylh tərəfdarıjıq.

Ə m i r A s l a n a q a

Siz bizim işimizə qarışmajın. Sizin vəzifəniz buraja qojun syrysy kibi tökylən arvad-uşaqları sylh ilə saqlamaqdır.

H a ç ı I m a m q u l u

Biz də onu istəjirik ki, qurtlar gəlib bu syryny jırtmasınlar.

Əmir Aslan aqa

Qorqmajьn, o çanavarlarьn myqabilində belə arslanlar durmuşlar. (Kaqьz gətyryb jazьr, sonra oqujur.)

Qulaq asьn. Jazdьqьm çavabь oqujum.

Bəjlər

Bujurunuz.

Əmir Aslan aqa

«Lacьn juvasьnь almaqa Lacьn kibi ijitlər lazьmdьr. Sizin kibi baiquşlarьn hynəri deјil». Bu çavabь bəjənirsinizmi?

Bəjlər

Bəjənirik.

Əmir Aslan aqa

Çə'fərqulu, al, elcijə ver. (Çə'fərqulu alьb gedir.)

Əmir Aslan aqa

Indi planьmьzь cəkək. Bolşevik Çahangir jarьn qьrmьzь bajraqьnь Lacьn juvasьna taqmaq arzьsьndadьr. Bu işi sabaha qoјmaqdan belə mə'lum olur ki, o sabah kəmək gəzləјir. Bu fyrsəti ona verməməli. Onu qabaqlamalьјьq. Biz hyçumu bu gyn başlamalьјьq.

Mehrəli bəj

Əmir Aslan aqa, madam ki, bu fikrə gələçəkdiniz, mənim təklifimi rədd etməməlijdiniz.

Muxtar bəj

Neçə?

Mehrəli bəj

Dyşmana hyçumu qəflətən, onu gəzləmədiji bir vaqtda etməli. Biz bunun əksinə əməl etdik. Dyşmana xəbər verdik ki, hazьr ol, ystynə gəlirik.

Hejdər bəj

Biz elə çavab jazmamьşьq.

Mehrəli bəj

Mə'nasь elə cьqdь.

Səlim bəj

Sizin fikriniz məhlət istəmək idi. Ondan da vaz kecdiniz.

Mehrəli bəj

Doqru; cynky bu gyn hyçum edəçəjimizi bilmirdim.

Muxtar bəj

Bilsəjdin nə təklif edərdin?

Mehrəli bəj

Sabaha kibi məhlət istəjib, bu gyn qəflətən hyçum edərdik.

Əmir Aslan aqa

Hec təfavyty joqdur. Bolşeviklər biz tərəfdən hyçum gəzləmirlər. Onlar inanmьşlar ki, biz hyçumdan qorqub qəl'ədən cьqmajaçajьq. Hər halda çavab vermişik.

Mehrəli bəj

Doqru. Indi hyçum planьnь bujurunuz.

Əmir Aslan aqa

Çəmi qyvvə dərt jerə bəlynəçəkdir. Bir qьsmь Mehrəli bəj ilə Pəri Çahanьn ixtijarьnda olub Lacьn Juvasьnь mydafəə edəçəkdir. Jerdə qalan yc his-

sənin birinin başında Muxtar bəj, o birinin başında Səlim bəj və ycynçysynyn başında Hejdər bəj duraçaqdır.

Muxtar bəj, sənin dəstənə böjyk əhəmijjət verirəm. Əgər mən cəkdijim planı əmələ gətirə bilsən, şəksiz dyşmana qalib gələçəjik. O da budur: Dəsteni Lacın juvasının arqasında duran «Keci daqından» endirib «Jaşıl orman» dejilən meşəjə kecirirsən. Sonra orman ici ilə gizli jyryş edib, Qaja dibi kəndinin arqasında pusquja jatarsan. O zaman Səlim bəj Ucurum dərəsindən; mən də Hejdər bəj ilə Qaja dibi kecidindən hyçumu başlaram. Dyşman qyvvəsini bizim ystymyzə atar. Sən, Muxtar bəj, jenə də pusquda qalıb myharəbəjə girməzsən. Elə ki gərdyn dyşmanın arqasında qyvvə qalmadı, çymləsi hyçuma başladı, qəflətən arqadan soqularsan. Bu plana e'tiraz varmı?

B ə j l ə r

Xajır.

M e h r ə l i b ə j

Plan jaqşıdır. Lakin Lacın juvasında qalan qyvvəni də hyçuma atmalı.

Ə m i r A s l a n a q a

Joq. O qyvvə ehtijat ycyn olub, təhlykə zamanı hərbə atılmalı. Daha noqsanı var isə, dejiniz.

M e h r ə l i b ə j

Xajır, joqdur.

Ə m i r A s l a n a q a

Indi son sözymy dinləjiniz. Çymləniz şir zəjan kibi hyçuma atılmalısınız. Geri cekilməni bilmərrə unutmalı, bejninizdə, xəjalınızda, fikrinizdə bu olmalı:—Iləri, iləri, iləri. Belə olursa, dyşmanı bu daqlardan, bu qajalardan gerijə atıb mylkləri-

mizi əlimizdə saqlaja biləçəjik. Əjər bu tale'mizdə joq isə, ərlərə jaraşan mərdlik ilə əlym şərbətini icərik. Bizim ycyn başqa jol joqdur. (Ajaqa qalqır-) Hajdı, ijitlərim, gedəlim. (Molla Sadıqdan və haçı Imamquludan səvajı gedirlər.)

M o l l a S a d ı q

Haçı, bu divanələrin oduna biz nə ycyn janaq?

H a ç ı I m a m q u l u

Molla Sadıq, nə demək istəjirsən?

M o l l a S a d ı q

Bolşeviklər bizə qalib gələçəklər, buna mənim şybhəm joqdur.

H a ç ı I m a m q u l u

Mənim də şybhəm joqdur.

M o l l a S a d ı q

Onda bizim halımız neçə olaçaqdır?

H a ç ı I m a m q u l u

Jəqin bolşeviklər çymləmizi qətl'am edəçəklər.

M o l l a S a d ı q

Etməjə də haqları var; cynky Əmir Aslan aqanın tərslijindən hər iki tərəfdən coq qan tökylmyşdyr, o indi bu ucuq qəl'əjə pənah gətirmişdir.

H a ç ı I m a m q u l u

Xajır a. O çəngavərlərin myqabilində belə qələlər davam etməz.

M o l l a S a d ı q

Çahangir aqa ədalətli bir hakim kibi qan tökmək tərəfdarı dejil; lakin əqlini qaib etmiş kişi, görmirsənmi, eşitmək belə istəmir. Haçı, bunların icində bir özymlə səni əqilli göryrəm. Aqil olan şəxs çanın bihudə jerə gydaza verərmi?

Haçь Imamqulu

Xajьr verməz. Fikrin nədir?

Molla Sadьq

Bolşeviklər tərəfə kecmək.

Haçь Imamqulu

A kişi nə dejirsən? Dəli olmusan nədir?

Molla Sadьq

Nə ycyn dəli oluram? Biz өz ixtijarьmьzla bolşeviklərə təslim oluruq. Qan tөkməkdə də iştirak etmirik. Bundan ilavə mən Çahangir aqanьn şəriət myəllimi olmuşam. Sənin də oqlun Həsən onun kөməkcisidir. Onlardan bizə nə xata jetişə bilər?

Haçь Imamqulu

Bu doqru, fəqət nə jol ilə bu zalьm aqalardan xilas ola bilərik? Qəl'ədən cьqmaq imkanь varmь?

Molla Sadьq

Var. Mən ançaq sənin razьlьqьnь gөzləjirəm.

Haçь Imamqulu

Mən razьjam. Bəs arvad-uşaq neçə olsun?

Molla Sadьq

Nə arvad-uşaq? Өlym zamanь arvad-uşaqmь jьda dyşər? Gedək өz çanьmьzь xilas edək.

Haçь Imamqulu

Doqru dejirsin. Gedək. (Cьqьrlar, sonra Gөhər xanьm Sənəmin kөməklijilə alt qatdan Əmir Aslan aqanьn salonuna gəlir. Divanьn ystə oturur.)

Gөhər xanьm

Gөr nə zəjif dyşmyşəm. Bir mərtəbəni cьqmaqa nəndə taqət qalmajьbdьr. Sənəm, Pəri Çahanьn otaqьndan bir jastьq gətir, bir az uzanьb rahat

olum. (Sənəm jastьq gətirib divana qojur. Gөhər xanьm uzanьr.)

Gөhər xanьm

Sənəm, qəl'ədən nə xəbər var?

Sənəm

Hələ davam edir.

Gөhər xanьm

Allah, sənə pənah aparьram. Bizi bu qan iciçi dyşman əlinə vermə. Sənəm, dejirlər bolşeviklər kөrpə uşaqlarь da qьrьrlar.

Sənəm

Xanьm, hamьsь jalandьr. Mən onlardan hec qorqmuram. Onlarьn bөjykləri coq rəhmli adamdьr. Neçə dəfə təklif etdi ki, mənə qan tөkdyrməjin, təslim olun. Hajьf ki, Əmir Aslan aqa qulaq asmьr. Bu gyn jenə təklif etmişdi, bilmirəm aqa razь oldu ja joq.

Gөhər xanьm

Olmaz. Mən onun tərslijini bilirəm. Hec kəsə qulaq asan dejil. Sənəm, çanьm xəstə olmasaidь, gedib o bөjyjyn ajaqlarьna jьqьlьb өpərdim, jalvarardьm, işə qansьz ənçam edərdim. O bөjyk Rusjadan gəlmiş. Gөrəsən mənim oqlumdan bir xəbər bilərmi?

Sənəm

Onu bilmirəm, ançaq Çahangir aqanьn saq olduqunu söjləjirlər.

Gөhər xanьm

Aj qьz, onu kim dejir? Bəs nejə mənə xəbər vermirsiniz? O adamь tapdьrьb doqru xəbər bilərdim.

Sənəm

O gyny Əhmədgil dejirlər ki, Bakıda bir adam səjləjirmiş ki Çahangir aqa Rusjada qoşun bəjygy olubdur.

Gəhər xanım

Hər nə olursa olsun, ta ki saq salamat olsun. Sənəm, pəncərəni ac, kyrsy qoj oturub bir az əzymy havaja verim. Nəfəsim təngişir. (Sənəm pəncərəni acır kyrsy qojur. Sonra Gəhər xanımın qoluna girib aparır.)

Sənəm

Qoj jastıqı da qojum jumşaq olsun. (Jastıqı qojur, Gəhər xanım oturur.)

Gəhər xanım

Nə gəzəl hava. Hər jan gyl, cicək. Nə ycyn bu insanlar bir-birlərini qırırlar?

Sənəm

Xanım, izn ver gedim, xərəjini hazırlajım.

Gəhər xanım

Jaqşı get.

Sənəm
(gedirkən)

Dərmanını gətirimmi icəsən?

Gəhər xanım

Joq. Lazım dejil. Dərmandan hec bir xejir gərmyrəm. (Sənəm cıqır. Səhnə bir myddət sykutda qalır. Sonra tyfəng, top səsləri gurultu salır. Gəhər xanım qalqır ki pəncərəni ortsyn, bu zaman ajaq ystə dura bilməjib jıqılır. Top, tyfəng səsi kəsilir. Ura sədası qalqır. Bir azdan sonra o da

kəsilir. Sənəm daxil olur. Gəhər xanımı jıqılmış gəryb çəld ystyny alır.)

Sənəm

Vaj. Xanıma nə oldu.

Gəhər xanım

Sənəm, məni qaldır. Divanın ystə apar... (Sənəm qaldırıb divanın ystə uzadır.)

Gəhər xanım

Sənəm, ölyrəm. Amma bu dynjadan nakam gedirəm... Oqlumu gərməjib gedirəm... Onun tojunu etməjib gedirəm... Ah, Çahangirim, bir səni gərəjdim... Axırətə rahat gedəjdim.

Sənəm
(kənara)

Ah, yrəjim davam etmir. Istəjirəm sirri acıb dejəm. Joq. Qoj bilməsin.

Gəhər xanım

Sənəm, gəzlərimə qaranlıq cökyr... Sənəm, Pəri Çahana de ki əmmən vəsijjət etdi... Çahangiri aqtarıb tapsın... Ona getsin. Nəslimiz kəsilməsin. (Səsi kəsilir.)

Sənəm

Ah. Jazıq arvad öldy. Mysijbətli öldy. Dərdli, qəmli öldy. Jaqşı insan idi. Hec kəsi inçitməzdi. Bu uzun myddətdə ondan bir açı söz eşitmədim. Başqa xanımlar kibi olmajıb bir kəsə əzijjət verməzdi. Coq çəfa cəkdin, indi rahat jat. (Gedib jorqan gətirib ystynə salır. Pəri Çahan daxil olur.)

Pəri Çahan xanım

Sənəm, qəl'ə alındı. Indi buraja gələçəklər. Qacmaq lazımdır. Əmməm də jatmış. Onu durquzmaq lazımdır.

Sənəm
(ağlar səslə)
O daha durmaz...

Pəri Çahan xanım
Nə dejirsən? Əmməmə nə olmuş?
(Sənəm ağlajır.)

Pəri Çahan xanım
Ah. Jazıq əmməm! (Gedib divanın önyndə diz ystə çökyr.) Jat, rahat ol. Sən bizdən xoşbaxtsan. Son bəlalari görməjəçəksən.

Sənəm
Xanım vəsijjət etdi ki, Pəri Çahan Çahangiri tapıb ona getsin. Ondan ajrılmasın.

Pəri Çahan xanım
Ej bicarə əmməm. Pəri Çahan onu tapdı. Sözlərinə baqmadı. Jenidən itirdi. Nə etməli? Qəzanın istədiji bu imiş. (Əmir Aslan ağa başı acıq, tykləri pərişan, dəli halda daxil olur.)

Əmir Aslan ağa.
Mən hardajam?.. hə... bildim. Bajquş juvasında. Mən Rystəm Zalam... Ej ijit bəjlərim! Iləri, vur! At!

Pəri Çahan xanım
Ah, bəla ystə bəla! Əmuçəm dəli olmuş.

Əmir Aslan ağa
Jenə qırmızı. Ora qırmızı, bura qırmızı (Pəri Çahana.) Sən kimsin? Hə, sən də qırmızı, o jatmış da qırmızı, çəmi çahan qırmızı... Mən qırmızı sevməm. (Divara baqır.) Çəkil. Çəkil, sənə dejirəm, çəkil! (Tavana baqır.) Oradan ilan sallanmışdır. Ah, dyşdy! Neçə oldu? Haraja girdi. (Araıır)

a, budu girdi. (Dəşyny çırıb baqır) hə... yrəjimə girmək istəjir... Qojmaram. (Qəməsini cıqarıb yrəjinə soxarkən.) Əl myzyrr hejvan!..

Pəri Çahan xanım
Ah! Əmuçəm özyny öldyrdy!.. Çahangir, Çahangir! Şan şöhrətli xanədanını viran etdin. Gəl tamaşaja. (Çahangir əlində qırmızı bajraq. Ədil bəj. Hadi lələ, Həsən bir taqım qoşun əhli və bir taqım arvad-uşaq ilə daxil olur.)

Pəri Çahan xanım
Baq, gylləndən olmyş anana. Baq, dəli olub xənçər ilə özyny öldyrmyş atana, japdıqın əmələ tamaşa et! Yrəjin şad olsun!

Çahangir
Pəri Çahan, zylm ilə japılmış bina, zylm ilə qurulmuş xanədan—axırda fot olar. Hec kəs önyny ala bilməz. Mane olanlar belə fot olarlar. Indi jeni dynja zyhur etmiş. Əski dynja əski qanunlarilə gərək jıqılsın. Pəri Çahan nə ycyn bu əski zylmkar, tökdykləri qan icində boqulan dynjadan əl çəkmirsən? Bu ölylər icində qalmaqmı istəjirsən?

Pəri Çahan
Joq, istəmirəm.

Çahangir
Bu inqilab bajraqı altına gəlirmisən?

Pəri Çahan
Bəli, gəlirəm. (Onun tərəfə kecir.)

Çahangir
Bu şanlı bajraqı al, ona jəmin et.

Pəri Çahan

(alьr)

Ej qьrmьz inqilab bajraqь. Bu gyndən bytyn əmrymy sənin jolunda calьşmaqa, qurban verməjə jəmin edirəm.

Намь

Jaşasьn Pəri Çahan

PƏRDƏ

EŞQ VƏ INTIQAM

Faciə beş pərdədə jeddi şəkildə

31 Janvar 1922-ci il

IŞTIRAK EDƏNLƏR.

Ə l i m ə r d a n . Quldur dəstəsinin atamanı.
İ b a d . Onun yoldaşı.
P i r i b a b a . Ovçu, meşə qarauluusu.
J a s ə m ə n. Əlimərdanın arvadı.
X a l i s ə n ə n ə. Piri babanın arvadı.
C ə n g i z . Surətən Əlimərdanın oğlu.
Q ə m ə r. Əlimərdanın qızı.
Ç ə b i . Əlimərdanın nökəri.
Ş a h b a z b ə y . Mülkədar bəy.
H ə ç ə r x a n ı m . Onun arvadı.
Ş ə m s i b ə y . Onun oğlu.
Z ə h r a x a n ı m . Onun qızı.
S ə f i b ə y . Qəza naziri.
X a v ə r . Xidmətçi qız.
S ə f a
H e j d ə r q u l u } Nökərlər.
Pristav.
Strajniklər.

BIRINÇI PƏRDƏ

Səhnə meşə icində aqaç cəpər ilə hasarlanmьş bir həjət göstərir. Həjətin saq tərəfində Piri babanьn kumasь, sol tərəfində meşə sahibi Həsənqulu aqanьn iki mərtəbə evi görynyr. Həjətdə necə jerdə sqamjalar qojulmuşdur. Jasəmən kumanьn önyndə oturub özyny gynə verir. Janьnda bir beşik. Pərdə qalqdьqda Piri baba cijnində tyfəng, əlində qьrqavul daxil olur.

Piri baba

Jasəmən, gör sənə nə kək qьrqavul avlamьşam.

Jasəmən

Ah nə gözəl qьrqavuldur.

Piri baba

Qьzьm gərək bu gyn də durmajajdьn. Özyny gözlə. Joqsa yzylərsən.

Jasəmən

Baba, doqrudur mən şəhərdə tərbijə almьşam, amma əslim kyrddyr. Bizim arvadlar köc ystyndə atdan dyşyb doqarlar. Jenə atь minib köcdən qalmazlar. Yc gyn jatdьqьm kifajət edər. Yrəjim darьxdь, cьqdьm ki, özymy bir az havaja verim.

Piri baba

Bəs Xalisə hardadьr?

Jasəmən

Xalisə nənə bulaqdan su gətirməjə həm də caqanьn əsgilərini jumaqa gedibdir.

Piri baba

Topal gəlib cьqdьmь?

Jasəmən

Xajьr.

Piri baba

Gərəsən nə qəziijjə yz verdi ki, bu yc gynyn ərzində gəlib cьqa bilmədi. (Tyfəngi aqaçdan asьb Jasəmənin janьnda oturur). Jasəmən, Əlimərdanьn sədasь bizim topraqdan gəlir, görynyr Irandan bu tərəfə kecmişdir.

Jasəmən

Ah, baba, bu nə əmrdyr ki, mən syryrəm. Bu gyn tamam jeddi ajdьr ki, Əlimərdan məni burada qojub özy qacaq olmuşdur. Bu uzun myddətdə nə gecə, nə gyndyz xəjalьmdan, yrəjimdən sevgili ərim cьqmajьr. (Aqlajьr.)

Piri baba

Jasəmən səbr et, naşykyr olma. Allaha dua et, yrəjin təsəlli tapsьn. Bu bəlalar, bu çəfalar ki, sən cəkirsən, hamьsь Əlimərdanьn uçundandьr. Rəhmətlik qardaşьmьn çəmi xasijjəti oqlu Əlimərdana kecmişdir Atasь kibi təkəbbyr, kinli, höcət, qocaq bir dəliqanlьdьr. Hansь bir rəijjət qьzьnьn irz, namьsьna aqalarь doqunmamьşdьr?

Jasəmən

Allah o aqalarь dynja yzyndən məhv edəjdi, ta bizlər də rahat gyn görəjdik.

Piri baba

Nə etməli qьzьm, dynja belə gəlib belə də gedəçəkdir. Qyvvətli zəifi basaçaq, əzəçək; zalьm məzlumu inçidəçək, məhv edəçək; devlətli kasьbь sьqaçaq, boqaçaqdьr. Qьzьm, bunlar tək insanda

dejil, hejvanda da belədir. Tamam qьrq ildir ki, mən bu meşədə əmr syryrəm. Bu daqlarda av edirəm. Hər bir hejvanьn, quşun, həşəratьn jaşajьşьna diqqət etmişəm. Bir də gəryrsən bir tərlan kəklik avlajьb qaja başьnda jeməjə məşquldur. Qəflətən ondan qyvvətli bir şahьn jьldьrьm kibi şaqadь. Onun əlindən aldь, havaja qalqdь. Baq, byçəkləri qurbaqalar, onlarь ilanlar, ilanlarь da kirpilər jejib tələf edirlər.

Jasəmən

Baba onlar hejvandьr, anlamьr. Əqilləri joqdur. Bəs bu insanlar nə ycyn bir-birlərini qьrьrlar?

Piri baba

Qьzьm, biri devlət ystə, biri şöhrət ystə, biri təməh ystə. səbəbləri coqdur. Mənim qardaşьm oqlu Əlimərdan da qejrət, namus ystə. Mənim nəsihətimə qulaq asmadь dedi: gərək Şahbaz bəjin nəslini qьrьb, jer yzyndən məhv edəm. Onun əmisi oqlu Taqь bəji və nökəri Fərəçi əldyryb qacaq dyşdy.

Jasəmən

Piri baba, nə vaqt ki, bədbaxtlьq bizə yz vermişdi. Əlimərdan məni sevib mehriban dolanьrdь. Qəmər qəzijjəsindən sonra bysbytyn dəjişilib arvad adьnь janьnda çəkmək mymkyn dejil. Mənlə xydahafiz edəndə dedi ki, Jasəmən, qьz doqsan əz əlimlə qədim ərəblər tək boqub ataçaqam. Baba, dənmyş taleim burada da məni ərimin janьnda xəçil etdi. Qьz doqdum.

Piri baba

Qəm etmə qьzьm, evlad şirin olar. Özyn gərəçəksən ki, neçə əzizləjib sevəçəkdir.

Jasəmən

Allah sən dejən kibi edəjdi baba.

Piri baba

Qorqma elə də olaçaqdьr, baq bu meşə sahibi Həsənqulu aqa da oqul həsrəti çəkirdi. Allah-təala ona qьzь Zylejxanь verdi. Mən bu sinnə catmьşam, amma atanьn qьza elə məhəbbət baqladьqьnь gərməmişəm, eşitməmişəm. Baq bu evi Həsənqulu aqa qьzь ycyn tikdirmişdir. Aqa burada həftələrlə av edəndə Zylejxa xanьm da qarabaşlarь ilə burada jaşardь. Xalisə onun istəkli qulluqcularьndan biri idi. Aqanьn ondan başqa evladь olmadь. Indi bu meşənin sahibi həmin Zylejxa xanьmdьr. Jasəmən, Əlimərdan da qьzьnь inşaallah elə sevəçəkdir.

Jasəmən

Ah o gyny gorsəjdim əlməzdim.

Piri baba

Xalisə gəlib cьqmadь. Xörək nə vaqtь bişəçəkdir?

Jasəmən

Odun joqdur. Olsajdь durub özym bişirərdim.

Piri baba

Onda mən durum oduna gedim, ona kibi də Xalisə gəlib cьqar. (Baltanь və ipi gətyryb gedir.)

Jasəmən

(Jalnьz caqanь beşikdən gətyryb)

Xydaja, dərgahьna əl gətyryb dua edirəm. Mənə əta etdijin bu mə'sum balanь ata məhəbbətindən məhrum etmə. (Laj laj calьr.)

Laj laj dedim jatasan,
Qьzьl gylə batasan.
Qьzьl gyl baqьn olsun
Kəlgəsində jatasan.
Balam a laj laj
Gylym a laj laj, a laj laj.

Mən aşiqəm balasьn
Lacьn verməz balasьn
Mən balamь istərəm
Balam istər balasьn.

(Bu halda həjat qapьsь dəjylyr. Jasəmən gedib acьr. Həçər xanьm quçaqьnda bir kərpə uşaq daxil olur.)

Həçər

Jasəmən, nə təəççyblə mənə baqьrsan? Joqsa məni tanьmьrsan?

Jasəmən

Bilmirəm, juqu gəryrəm ja doqrudan da Həçər xanьmь gəryrəm.

Həçər xanьm

Doqru dejirsən, Şahbaz bəjin arvadь quldurbaşь Əlimərdanьn evində, bu juqu dejil nədir? Gəl otur dərdimi sənə söjləjim. (Sqamjada otururlar). Jasəmən, iləridə sən mənim xidmətcim olmusan. Xajьr səhv etdim. Xidmətcim joq, sevgili baçьm olmusan, sirr joldaşьm olmusan. Jasəmən o gynlər jadьndadьrmь?

Jasəmən

Bəli jadьmdadьr.

Həçər xanьm

Başьmьzda eşq sevdasь, yrəjimizdə məhəbbət atəşi: sən Əlimərdanь sevirdin, mən Nadir bəji. Sən məhəbbət uqrunda çəfa cəkdinsə də axьrda sevgilinə gedib məramьna catdьn. Lakin mənim baharьm solub, zimistan oldu. Jadьndadьrmь bir gyndə iki şəxs mənə elci dyşdy. Biri sevdijim, söz verdijim Nadir bəj, o biri bəd əxlaq, bəd xasijjət, caxьr icən, gynlərin mejxanalarda kecirən Şahbaz bəj, Nadir bəj kasьb, Şahbaz bəj devlətli. Borç boqazьna cьqmьş, mylky, evi Şahbaz bəjin janьnda girovda olan

atamьn mejli kimdə olmasь mə'lum idi. Jadьndadьrmь mən Şahbaz bəjə getmək istəmədim.

Jasəmən

Bəli jadьmdadьr. Atanьz dedi: Həçər Şahbaz bəjə getməsən özymy öldyrəçəjəm. Anam da saclarьnь joldu ki, bizi bədbax etmə, kycələrə salma. Axьrь mən razь oldum Şahbaz bəjə gözləri jaşlь getdim. O gyndən çəfalarьm, bəlalarьm başlandь. Şahbaz bəj evimi çyrdy-xanaja, qumarxanaja dəndərib cəngənələr ilə kef etməjə başladь. Nadir mənim göz jaşьma dözə bilməjib baş götyryb bu vilajətdən getdi. Axьrda Şahbaz bəjin binamusluqu bir dərəçəjə catdь ki, öz syd baçьsь, qardaşь Əlimərdanьn baçьsь Qəmərin namusuna toqundu.

Jasəmən

Ah indi məni də gözy jaşlь qojan o binamus oldu.

Həçər xanьm

Jasəmən, o zaman o iki kərpəm olmasajdь, biri Şəmsi, o biri Zöhrə inan ki mən də özymy Qəmər kibi qajadan atmьşdьm.

Jasəmən

Zavallь Qəmər qardaşьm Ibada nişanlь idi. Bir-birlərini coq istəjirdilər. Sonra Ibad da gedib Əlimərdanьn qacaq dəstəsinə qoşuldu. Piri babanьn deməjinə görə siz altь ajdьr ki, Zyleixa xalanьzьn janьnda olursunuz və hec kəsə də görynməjirsiniz.

Həçər xanьm

Doqrudur, orada gizli olmaqьmьn sirrini gəlmişəm sənə acьb söjləjəm və səndən kömək istəjəm. Başqasь məni anlajьb dadьma catmajaçaqdьr.

Jasəmən

Söjləjiniz gərym məndən nə kömək istəjirsiniz? Özynyz bilirsiniz ki, əlimdən gələni myzajəqə etmərəm.

Həçər xanım

Jasəmən, Şahbaz bəj Parizə gedəndən yc aj sonra qəflətən Nadir bəj gəlib cıqdı. Dedi: Həçər sevgilim, bu iki ilin myddətində dynjanı səjahət edib gəzdim ki, bəlkə səni unudam. Fəqət baçarmadım. Axırda sənin firaqına dözə bilməjib gəlmişəm dejə fərjad etdi. Jasəmən biz qadınlar hissimiz ilə jaşajırıq. Biz qadınlar yrəklərimizin qulujuq. Mən də eşq atəşinə jandım. Nəticəsi bu. (Oqlunu göstərir.)

Jasəmən

Demək bu uşaq Nadir bəjindir?

Həçər xanım

Bəli, mənə tə'nə, məzəmmətmi edəçəksən? Mənə lə'nət, nifrətmi edəçəksən?

Jasəmən

Mən? xajır!.. Başqalarını bilmirəm. Indi söjləjiniz gərym məndən nə kömək istəjirsiniz?

Həçər xanım

Nadir ilə belə qət' etmişdik ki, mən Şahbaz bəjdən boşanıb azad olaçaqdım, sonra ona gedəçəkdim. Ah fələk çəmi səadətimi, umudumu bir anda puc etdi. Bir aj bundan əvvəl Nadir xəstə dyşyb şam kibi əridi. Axırda söndy. (Aqlajır.)

Jasəmən

Ah, sizin taleiniz də mənimki kibi cənmyş. (Gözlərini silir.)

Həçər xanım

Jasəmən, çəkdijim çəfalar gərynyr kifajət dejilmiş ki, təzə bəlalarım jenidən zyhur edir. Şahbaz bəj teleqrafla Parizdən cıqmaqını xəbər verir. Indi anlajırsanmı?

Jasəmən

Bəli anlajıram. Bu uşaqı gizlətmək lazımdır.

Həçər xanım

Bəli, onu da ançaq sən baçararsan.

Jasəmən

Nə tevr? Unutmajınız ki, siz mənim ərim Əlimərdanın dyşmanı Şahbaz bəjin arvadısınız. Sizlərdən buraja gəliş-gediş ola bilməz.

Həçər xanım

Mən onların hamısını fikir etmişəm. Ona görə də oqlumu həmişəlik sənə verirəm. Yc gyndyr ki, doqmuşam. Sənin qızın da həmən vaqtda. Hamıja dejərsən ki, əkiz doqmuşam. Sirr bizim aramızda qalar

Jasəmən

Bəs Piri baba ilə Xalisə nənə neçə olsun.

Həçər xanım

Bu barədə xalam ilə danışmışam. O dejir ki, mənim xatirim yçyn onlar razı olarlar və sirri də kimsəjə acmazlar.

Jasəmən

Mənim qorqum Əlimərdandan və Çəbidəndir.

Həçər xanım

Mənə mə'lumdur ki, Çəbi sənin doqmaqından hələ xəbərsizdir.

Jasəmən

Jenə də qorquram. Bu sirr bir vaqtb acьlar, onda mənim halьm neçə olar? Joq, joq, bu aqьr və qorqulu işi əhdəmə gətyrməjə çyr'ət etməjirəm.

Həçər xanьm

(ajaqa qalqьr)

Onda birçə jol qaldь.

Jasəmən

Hansь?

Həçər xanьm

Mən myqəssir ananьn əli ilə bu mə'sum uşaqьn əlməji. (Gedir.)

Jasəmən

(onun qabaqьnь kəsir)

Joq, joq onu etməjiniz, veriniz razьjam. (Uşaqь alьb beşijə qojur. Bu halda qapь dəjylyr.) Siz icərijə giriniz gərym kimdir. (Həçər xanьm kumaja girir.)

Piri baba

(qapьnьn dalьndan)

Jasəmən bizik qapьnь ac.

Jasəmən

(qapьnь acьr Piri baba ilə Xalisə nənə daxil olurlar.)

Piri baba

Xalisə tez ol oçaqь qala. Xörək bişir.

Xalisə nənə

Bu saat.

Jasəmən

Xalisə nənə, xörəji mən hazьr edərəm. Icəridə bir əziz qonaq səni gözləjir.

Xalisə nənə

Kimdir? Buraja qorqudan hec kəs gəlməz.

Jasəmən

Icəri get gərərsən.

(Xalisə nənə kumaja girir)

Piri baba

Joqsa Əlimərdandьr?

Jasəmən

Xajьr, Həçər xanьmdьr Piri baba.

Piri baba

Həçər xanьm?... O buraja əbəs jerə gəlməz, nə bejyk qəzijjə yz veribdir ki, çyr'ət edib gəlibdir.

Jasəmən

Baba, doqrudan da bəjyk qəzijjədir. Həçər xanьm səndən bir şej təvəqqe edəçəkdir onu qəbul etməjinizi mən də rəça edirəm.

Piri baba

Nədir?

Jasəmən

Sizi gözləjir gediniz desin. (Piri baba da girir. Jasəmən Həçər xanьmьn oqlunu quçaqьna gətyryb.) Ah nə gözəl uşaqdьr. Mən oqul həsrəti çəkirdim allah verdi. Bunu öz balam kibi sevəçəjəm. Əlimərdan dá məndən razь qalaçaqdьr. Allahьn sirrini bilmək olmaz. Gər kimi Əlimərdana oqul göndərdi. (Çəbi daxil olur.)

Çəbi

Gözləriniz ajdьn olsun, oqlandьr qьz?

Jasəmən

Oqlandьr.

Çəbi

Onda sahib şad olaçaqdır.

Jasəmən

Topal, biri də var.

Çəbi

O kimindir?

Jasəmən

O da mənimdir, əkiz doqmuşam. Biri oqlan biri qız.

Çəbi

Sahib bu saat özy gələçəkdir.

Jasəmən

(özyny itirir)

Ah yrəjim nə dəjynyr. Çəbi, o sudan tək mənə ver icim.

Çəbi

(su verərkən)

Sahibin gəlməsindən nejə qorqursan?

Jasəmən

Qorquram ki, ona burada bir xətər jetə.

Çəbi

Sahibin dəstəsi meşədədir. (Piri baba kumadan çıqır.)

Piri baba

Topal bu yc gyndə harda qalmışdın?

Çəbi

Kəndə anamı joqlamaqa getmişdim. Bərk naxoş olmaqına görə qojub gələ bilmədim. Indi bir az jaqşıdır.

Piri baba

Xalisə caqanın əskisini jujanda birini orada unudubdur. Get onu gətir gəl. (Çəbi gedir.)

Jasəmən

Baba böjyk bəlaja dyşdyk. Çəbinin deməjinə görə Əlimərdan bu saat buraja gələçəkdir. Mən coq qorquram.

Piri baba

Özyny itirmə, toqdaq saqla, hər bir şej allahın əlindədir nə istərsə o olaçaqdır. Xalisə, Xalisə.

Xalisə

(kumadan çıqır, Jasəmən uşaqı beşijə qojub çuna ilə yzyny örtyr)

Nə var?

Piri baba

Çəld Həçər xanımı Həsənqulu aqanın otaqında gizlət, özyn də janında ol.

Xalisə nənə

Nə var, nə olubdur?

Piri baba

Danışıq jeri dejil, Əlimərdan bu saat gələçəkdir.

Xalisə nənə

Vaj evimiz jıqıldı. (Qapı bərk döjylyr.)

Piri baba

Arvad çəld ol. (Xalisə nənə otaqa girir.)

Əlimərdan

(qapının dalından qışqırır)

Topal, (Piri baba gedib qapını açır, Əlimərdan və Ibad ystlərində əsləhə daxil olurlar.)

Əlimərdan

Əmi?

Piri baba

Çan!

Əlimərdan

Hamь salamatmь?

Piri baba

Salamat!

Jasəmən

(onun bojnunu quçaqlaiьr.)

Əlimərdan

Kyrd qьzь, toqda. Oqlandьr ja qьz?

Jasəmən

Qьz.

Əlimərdan

Qьz?

Piri baba

Qəm etmə, allah hər ikinizin istədijini veribdir. Jasəmən əkiz doqubdur. Biri oqlan, biri qьz.

Əlimərdan

Bu jaqşь. Kyrd qьzь, oqlan mənim qьz sənin. Gətir baqьm.

Jasəmən

(çunanь gətyryb)

Ikisi də jatьbdьr.

Əlimərdan

Onda tərpətmə. Qoj jatsьnlar. Kyrd qьzь, mən oqlumun adьnь Cəngiz qojdum. Qoj onun kibi bu biqejrət insanlarь qьrьb qan icində yzdyrsyn. Dyn-

janь onun kibi ditrətsin. Sən qьzьnьn adьnь nə qojursan?

Jasəmən

Izn versən Qəmər qojaram.

Əlimərdan

Onda izni qardaşьn Ibaddan al.

Ibad

Baçьm, hərgah onun kibi qejrətli, namuslu bir qьz jetirəçəksən izn verirəm. Mən əhd etmişəm ki, nişanlьm Qəmərin intiqamьnь dyşmandan almajьnça dynjada rahat jaşamajam.

Əlimərdan

Əmi, Şahbaz bəjin qardaşь Iljas bəj elə bildi ki, Irana qacmaq ilə mənim əlimdən qurtaraçaqdьr. Qardaşьnьn oqlu onu da babalarьnьn janьna göndərdi.

Piri baba

Əlimərdan, bu işdən əl cək. Su sənəji axьrda suda sьnar.

Əlimərdan

Əmi, insan ycyn də əlym bir dəfə olaçaqdьr.

Ibad

Piri baba, biqejrət olub uzun əmr syrməkdənsə namus ystə çavan əlmək daha əfzəldir.

Piri baba

Aj dəliqanlьlar. Aqibətinizi coq fəna göryrəm. Gəliniz mən qoça babanьzьn nəsihətinə qulaq asьnьz.

Əlimərdan

Əmi, aç qonaqlarь nəsihət ilə dojdurmaq olmaz. Nəjin varsa əmr et gətirsinlər jejək.

J a s ə m ə n

Bir azça səbr ediniz bu saat hazır edim.

Ə l i m ə r d a n

Ibad, xörək hazır olunça biz də bir az rahat olaq. (Otaqa tərəf jönəlirlər. Jasəmən onların qabaqını kəsib.)

J a s ə m ə n

Aj oraja getməjiniz,

Ə l i m ə r d a n

Nə ycyn?

P i r i b a b a

Orada Xalisə cimir.

Ə l i m ə r d a n

Ha-ha-ha... Aj qoça əmi. Dinç durmursan ha.

I b a d

Piri baba bizim kibi çavanların jarı jolda qojub kecər.

Ə l i m ə r d a n

Kyrd qızı buraja palas sal, oturaq. (Jasəmən palas salır, Əlimərdan və Ibad tyfənglərini aqaçdan asıb otururlar. Bu halda qapı dəjylyr. Əlimərdan çəld ajaqa qalqıb.)

Ə l i m ə r d a n

Kim ola?

P i r i b a b a

Təşvişə dyşmə. Jəqin Topaldır. (Qapını acır.)

Ə l i m ə r d a n

Topal?

Ç ə b i

Sahib.

Ə l i m ə r d a n

Hardan gəlirsən?

Ç ə b i

Bulaqdan, sahib.

Ə l i m ə r d a n

Ətrafda qaraltı zad gərynyrmy?

Ç ə b i

Uzaqdan atlı dəstəsi gərynyr. Caparlara oqşajır.

Ə l i m ə r d a n

Get busquda dur. Şybhəli adamlar olsa çəld gəlib xəbər ver.

Ç ə b i

Baş ystə sahib. (Gedir.)

I b a d

Təzə ujezdni nacalnik Səfi bəj bizim myqabilimizə cıqmaq ilə qubernatordan malades almaq istəjir.

Ə l i m ə r d a n

Ejbi joqdur, bujursun, onu da qnjaz Vacinadzenin gynynə salaram.

P i r i b a b a

Bir neçə vaqtdan bəri meşədə strazniklər gərynyr. Birinə rast gəlib soruşdum: Burada nə qajırırsınız? Çavab verdi ki Səfi bəjin əmrinə görə jolları qacaqlardan myhafəzə edirik.

I b a d

Ha-ha-ha... Piri baba coq jaqşı myhafəzə edirlər. Allah onları bəd nəzərdən saqlasın. Yc gyn bundan iləri iki joldaşımız Xaspolad və Qarabəkir,

qazjonnь poct ystə dyşyrlər. Bir, iki gyllə atan kibi ijit caparlar qojub qacьrlar. Joldaşlarьmьz da xəzinəni qulluqumuza gətirdilər.

Ə l i m ə r d a n

Əmi, mənim qorqumdan həkymət qulluqcularь çyr'ət edib kəndliləri inçidə bilmirlər. Mənim yc dyşmanьm var: həkymət, bəjlər, taçirlər... Həkymət xəzinəsi ilə, bəjlər çanlarь ilə, taçirlər də pullarь ilə mənə tevçe verirlər. Mən kəndliləri onlarьn zylmyndən saqlajьram.

(Jasəmən xərək gətirib syfrəjə qojur, bu halda meşədən tyfəng səsi gəlir. Əlimərdan və Ibad çəld qalqьb tyfənglərini gətyryrlər.)

Ə l i m ə r d a n

Əmi, xydahafiz, Kyrd qьzь, Cəngizdən myqəjjəd ol. Bir ijit, qocaq oqlan mejdana cьqartmaqь səndən tələb edirəm.

J a s ə m ə n

(onlarьn qabaqьnь kəsib)

Qojmaram, sizi əldyrərlər.

Ə l i m ə r d a n

Məni əldyrərlər, jerimdə oqlum Cəngiz qalar. (Gedirlər.)

J a s ə m ə n

Xydaja, dəxi səbr edə bilmirəm. Məni əldyr, bu əzabdan qurtar. Jeddi aj həsrətini çəkdijim sevgili ərim ilə belə gəryşdyk?.. (Aqlajьr.)

P i r i b a b a

Jasəmən səbr et, gəz jaşь təkməkdən nə cьqar?

J a s ə m ə n

Ondan başqa mənə nə qalьbdьr, ona da mь mane' olaçaqsan?

X a l i s ə n ə n ə

(gəlir)

Əlimərdan getdimi? Vaj qьzьm aqlajьrsan?

J a s ə m ə n

Xalisə nənə neçə aqlamajьm, bu birəhm fələk mən zavallьnь elə tilsimə salьbdьr ki, sevgili ərimin gəlməsi mənim ycyn qorqu, getməsi bəla. (Aqlajьr.)

X a l i s ə n ə n ə

Qьzьm jenə də səbr etmək lazьmdьr, hər bir qara gynyn bir aq gyny də var.

(Bu halda Səfi bəj, pristav və yc straznik daxil olurlar.)

S ə f i b ə j

Tərpənməjin. Piri kişi, Əlimərdanьn jerini de.

P i r i b a b a

Səfi bəj, Əlimərdan burada joqdur.

S ə f i b ə j

Jalan dejirsən. Quldurbaşь qardaşьn oqlunu ələ vermək istəmirsən. Fəqət mən sənə dedirdərəm. Bunlarь alьnьz (Strazniklər onlarь ihatə edirlər.)

P i r i b a b a

Səfi bəj, arvadlarь nə ycyn qorqudursan. Mənə inanmьrsan bujur axtar.

S ə f i b ə j

Mən dedim ki, sən əzyn jerlərini göstərəsən, ta ki, həm bu arvadlarь həm də əzyny Sibirja syrgynyndən xilas edəsən. Indi Əlimərdan buradan cьqsa tənbehin bəjyk olaçaqdьr. Tyfənglərinizi bunlarьn dəşlərinə dutun. (Strazniklər duturlar.) Belə hazьrda durarsьnьz. Yzərimizə tyfəng acьlsa ycyny də gyləjib jerə jьqarsьnьz. Sən Israfil bəj dalьmça gəl. Kumaja girirlər. Bir azdan sonra cьqьrlar.

P r i s t a v

Səfi bəj, jəqin o evdə gizlənmişlər. Oranı aramalı.

S ə f i b ə j

Doqru. (Bu halda Həçər xanım otaqdan cıqıb qacaraq gəlir.)

H ə ç ə r x a n ı m

Şəfi bəj, toxda, bunları nə ycyn gyllələjirsən?

S ə f i b ə j

Cynky Əlimərdanı burada gizlədib jerini demək istəmirlər.

H ə ç ə r x a n ı m

Indi sizə mə'lum oldu ki, Əlimərdan burada ola bilməz.

S ə f i b ə j

Bəli. Şahbaz bəjin arvadı olan jerdə Əlimərdan ola bilməz. (Piri babagilə) Azadsınız. Həçər xanım siz burada nə qajırırsınız?

H ə ç ə r x a n ı m

Şəhərə gedirdim, buraja dəndym ki Zylejxa xalamın sifarışını Piri babaja jetirəm.

S ə f i b ə j

O jolda duran fajton sizinkidirmi?

H ə ç ə r x a n ı m

Bəli.

S ə f i b ə j

Həçər xanım hec bilirsinizmi sizi nə bəjyk bəladan xilas edirəm. Əlimərdanın quldur dəstəsi meşədədir. Mən onu ihatə etmişəm. Bu gyn dajın Ilias

bəjin intiqamını ondan alaçaqam. Bujurunuz gedək. Adam qoşum sizi xalanızgilə aparsınlar. Şəhərə getmək mymkyn dejil.

H ə ç ə r x a n ı m

Piri baba, Xalisə nənə, xydahafiz. Jasəmən oğlunu gətir baqım.

S ə f i b ə j

Həçər xanım, dyşmanın ailəsinə mərhəmət etmək çaizmidir?

H ə ç ə r x a n ı m

Siz bilirsiniz ki, Jasəmən mənim sevgili xidmətcim olmuşdur. Onun və bu mə'sum uşağın nə gynahı var? (Jasəməndən uşağı alıb öpyr.)

Jasəmən səni və bunu bir allaha tapşırıram. (Tyfəng səsi gəlir.)

S ə f i b ə j

Həçər xanım gedək.

H ə ç ə r

Xydahafiz. (Gözlərini silir, gedirlər.)

J a s ə m ə n

Ej uça tanrı mən də sevgili ərimi sənə tapşırıram.

PƏRDƏ

IKINÇI PƏRDƏ

Birinçi pərdənin mənzərəsi. Birinçi pərdədən ijirmi il kecibdir.

P i r i b a b a

Ej vəfalь silahьm, sahibin tək sən də kəhnəlmisən. Paslanmьsan. Kecmişdə sənin gyllən hec puca cьqmazdь. Aqzьndan od parladьqda avь jerdə gərmyşəm. Indi sinnim həştada catmьş. Gəzlərimin nuru getmiş, qollarьmьn qyvvəti azalmьş. Indi səni qaldьrьb qьrqavulu nişana aldьqda qaqqьltь ilə ucub uzaqlaşьr. O qaqqьltь ilə sankь dejir: ej piri-natəvan, nə vaqta kibi bizləri avlajaçaqsan? Cəkil, rahat ol. Daha vaqtьn kecmiş, bəli kecmiş... (Jasəmən samavarь gətirib syfrəjə qojur). Jasamən, Qəmər durubdurmu?

J a s ə m ə n

Qəmər sybh tezdən durub meşəjə gedibdir.

P i r i b a b a

Erkən durmaq jaqşь şejdir. Bədəni saflaşdьrar. Ançaq o zaman meşə rytubətdir. Gəzməsin. Daqa cьqsьn təmiz hava udsun.

J a s ə m ə n

Qəmər şəhərdə o qədər darьxьb sьqьlьbdьr ki, buraja gələndən bəri evdə oturmaq istəmir. Dejir: anaçan doqquz aj dərs zamanь gynlərimi sanamьşam ki, jaj fəsli hacan gələçəkdir ki, Piri babama qonaq gedəm, dojunça meşəni, daqь, cəməni gəzəm.

P i r i b a b a

Qoj gəzsin, jesin, icsin, hala gəlsin, ançaq gəzməjə joldaşь joqdur. Məni dutur ki, Piri baba dur gəzməjə gedək. Dejirəm aj qьzьm babanьn nə gyçy qalmьşdьr ki, sənə joldaşlьq etsin. Sənin iti ajaqlarьn ilə jeriş etsin. Dejirəm səbr et, qardaşьn Cəngiz gəlsin, o zaman yrəjiniz istədikçə gəziniz. (Jasəmən caj təkyb Piri babaja verir.)

J a s ə m ə n

Piri baba, Qəmər ilə Cəngizi gərəndə elə bil ki, dynja mənimdir. Neçə mehriban baçь qardaşdьrlar. Neçə məni sevib ehtiramьmь saqlajьrlar. Cəngiz ona atalьq edir. Baq nə sənə baqdь, nə mənə baçьsьnь oqutdu.

P i r i b a b a

Cəngiz coq əqilli, kamallь çavandьr.

J a s ə m ə n

Allah sevgili ərimi əlimdən aldьsa da jerində belə oqul qojdu. (Qəmər quçaqьnda cicək və əlində dəstmal baqlьsь daxil olur.)

Q ə m ə r

Baba sabahьn xejir.

P i r i b a b a

Qьzьm aqibətin xejir.

Q ə m ə r

Baba tap gərym mənim bu dəstmalьmdakь nədir?

P i r i b a b a

Qьzьm, kirpidir.

Q ə m ə r

Vaj baba nədən bildin?

P i r i b a b a

Dəstmalьna baq. Өzyn bilərsən.

Q ə m ə r

(baqьr)

Ha, kirpinin tikanlarь dəstmalь dəlib cьqьbdьr.

P i r i b a b a

Bu kirpini nə edəçəksən?

Q ə m ə r

Sənin bostanьna buraqaçaqam.

J a s ə m ə n

Qьzьm bu hejvan bostanь tərk edər.

Q ə m ə r

Piri baba beləmi?

P i r i b a b a

Joq əqilli qьzьm, fikrini anlajьram. Kirpi bostanьn qurtlarьnь jejib tələf edər onu səlamat saqlar.

J a s ə m ə n

Qьzьm bunu sən hardan bilirsən?

Q ə m ə r

Mən kitabda oqumuşam. Piri baba da təbiətin icində jaşajьb gəryb gətyryьdyr. Baba, təzə qoruqcunu aparьm bostanьna buraqьm. (Gedir.)

P i r i b a b a

Jasəmən gəryrsən oqumaq nə gözəl şejdir.

J a s ə m ə n

Baba doqru dejirsən, ançaq oqujub elmili olandan sonra bizim kəndli qьzlarь өz ajaqь carьqlьlarьna ərə getməjirlər.

P i r i b a b a

Nə ycyn getməjirlər? Yrək elmə zada baqmaz. Səni bəjzadələr istəjirdilər. Bəs nə ycyn getmədin?

J a s ə m ə n

Cynky Əlimərdanь sevirdim. Biz mysəlmança oqumuşuq. Onlar kibi elmimiz joqdur. (Qəmər daxil olur) Qьzьm gəl otur cajьn sojujur.

Q ə m ə r

(caj icərkən)

Baba indi tap gərym. Bu cicəkləri nə edəçəjəm?

P i r i b a b a

Dəstə dutub otaqьna qojaçaqsan.

Q ə m ə r

Joq baba bilmədin, bunlardan taç həryb sənin başьna qojaçaqam. Bu meşənin, bu daqlarьn soltanь edəçəjəm. (Gylyşyrlər.)

P i r i b a b a

A qьzьm, mənim bu qoça qulaqlarьma gahdan bir gəlib catьr ki, rəijjətlər ysjan edib padşahlarьnь taxtdan salьrlar. Sən də təzədən mənim başьma taç qojmaq istəjirsən.

Q ə m ə r

Onlar өz rəijjətləri ilə ədalət ilə rəftar etməjiblər, onlara zylm ediblər, onun ycyn də taçlarьnь itiriblər. Fəqət sən, өz vəzifəni coq jaqşь ifa etmisən. Ona gөrə də meşə əhli məni өz tərəflərindən vəkil secib hyzurunuza göndəriblər ki, bu taçь qəbul edib onlara sultan olasan. (Gylyşyrlər.)

P i r i b a b a

Qьzьm, bu gətirdijin vəkalətnamaja tylkylər, davşanlar, kəkliklər, qьrqavullar da qol çəkirlərmi?

Q ə m ə r

Onlar tərəfindən bir qədər narazılıq oldu, fəqət əksərijjət səni özlərinə sultan secdilər.

P i r i b a b a

Qızım, bu meşənin sultanlıqını qəbul edirəm; bu şərtlə ki, sən də mənə vəliəhd olasan. (Gylyşyrlər.)

Q ə m ə r

Mən də qəbul edirəm. (Qapı dəjylyr) Birdən Cəngiz ola. (Gedib qapını acır, Həçər xanım, Zöhrə xanım, Şəmsi bəj daxil olurlar.)

H ə ç ə r x a n ı m

Qəmər nə gözəl, nə gəjcək qız olmusan. (Onu öpyr.)

J a s ə m ə n

Ah nə əziz qonaqlarım gəlmiş. (Həçər xanım ilə göryşyrlər.) Bujurunuz, bujurunuz, Piri baba coq şad olaçaqdır.

H ə ç ə r x a n ı m

Qəmər bu mənim oqlum Şəmsi bəj, bu da qızım Zöhrədir. Tanış olunuz. (Qəmər onlara əl verir, qonaqlar Piri baba tərəfə gəlirlər.)

P i r i b a b a

Həçər xanım coq xoş gəlmisiniz, səfa gətirmisiniz, mən qoçanı jad etmisiniz. Bujurunuz əjləşiniz. (Otururlar.)

H ə ç ə r x a n ı m

Zylejxa xalama qonaq gedirik, dedim dönyb sizlə göryşym. Coqdan bəridir ki, sizdən xəbərim joqdur. Jaqşı oldu ki, Qəməri də gördym maşaallah coq gözəl qız olubdur.

J a s ə m ə n

Qəmər on gyndyr ki, dərslərini qurtarıb gəlibdir. Dedi ana, gedək bu jajda Piri babaja qonaq olaq. O da təkdir.

P i r i b a b a

Xalisə vəfat edəndən bəri burada Topal ilə ikimiz oluruq. Jasəmən istədi məni də kəndə öz janına aparsın, razı olmadım; cynky balıq susuz jaşaja bilməjən kibi mən də meşəsiz ömr syrə bilmərəm.

H ə ç ə r x a n ı m

Cəngizdən nə xəbər var?

Q ə m ə r

Mənə jazmışdı ki, iki gyndən sonra cıqaçaqam, gərək bu gyn sabah gəlib cıqsın.

Ş ə m s i b ə j

Cəngiz həkimlikmi oqujur?

Q ə m ə r

Bəli.

Z ö h r ə x a n ı m

Jenə Kijev şəhərində oqujur?

Q ə m ə r

Bəli orada oqujur.

H ə ç ə r x a n ı m

Uşaqlar durun gedin bir az meşədə gəzin.

J a s ə m ə n

Qojunuz caj təzələjim, icsinlər sonra gedərlər.

H ə ç ə r x a n ı m

Zəhmət çəkməjin, bir azdan sonra gedəçəjik. Xalam bizi gözləjir.

Piri baba

Nə tələsirsən? Burdan Zyleyxa xanımgilə jarım saatlıq joldur. Bir az rahat olub cərək jejərsiniz, sonra gedərsiniz. Ona kibi də çavanlar meşədə gəzərlər. Qəmər də bu gyn məni meşə sultanı tə'jin edibdir. Təzə sultanın həkmy belədir gərək tabe olasınız. (Gylyşyrlər.)

Şəmsi bəj

Meşə sultanı Piri babadan rəça edirəm ki, mənə öz ormanında bir qədər av etməjə izn versin.

Piri baba

Izn verirəm, ançaq mənim tyfəngim ilə cətin av edə biləçəksən.

Şəmsi bəj

Öz tyfəngim odur fajtonda, sizinkinə ehtijaç joqdur. Xanımlar bujurunuz. (Çavanlar qalqıb gedirlər.)

Həçər xanım

Şəmsi, Hejdərquluja de ki, atları acıb rahat etsin, bir azdan sonra gedəçəjik.

Şəmsi bəj

Jaqşı dejərəm. (Gedirlər.)

Jasəmən

Xudaja Cəngizi də bunlar ilə belə mehriban görsəjdim dynjada bir qəmim olmazdı.

Həçər xanım

Jasəmən, ijirmi ildir ki, mən bədbaxt ana, oğlum Cəngiz icin göz jaşı tökmyşəm. Sən Jasəmənə həsəd aparmışam ki, Cəngizi baqrına basıb əzizləmisən. Ona syd vermisən, Oğlum demisən. Amma

mən jad kibi kənardan baqmışam. Ah ana ycyn dynjada bundan artıq əzab olarmı?

Piri baba

Həçər xanım bu gynə kibi səbr etmisiniz. Jenə də etməlisiniz. Joqsa çymləmizi bəjyk bəlaja salarsınız. Indijə kibi sirr acılmajıbdır. Bundan sonra da acılmamalı.

Jasəmən

Həçər xanım, mən də sizdən rəça edirəm ki məni bəlaja salmajasınız. Məjər mən Cəngizə doğma ana kibi baqmamışam?

Həçər xanım

Doğru dejirsən, sən Cəngizə həqiqi analıq etmisən. Ölənə kibi sənə qul olsam jenə də borçundan cıqa bilmərəm.

Piri baba

Həçər xanım, indi bizim sə'jimiz onda olmalıdır ki, ataları kibi çavanların da arasına ədavət dyşməsin.

Həçər xanım

Piri baba, Cəngizin burada olmasının xatası coqdur, Şahbaz bəjin qohum-əqrabası dinç durmajaçaqdır. Qorquram onu da Əlimərdan kibi tələf edələr.

Jasəmən

Nə qədər ki Əlimərdan dutulmamışdı, saqdı onun qorqusundan Cəngizə əzijjət verə bilmirdilər, amma indi mən də qorquram.

Piri baba

Həçər xanım, Cəngizin gələçəji ycyn hec fikirləşmisinizmi?

Həçər xanьm

Bəli o barədə xalam ilə danьşmьşam. Onun fikri odur ki, dajьsь oqlu Əli bəjin qьzьnь ona ala və çəmi mylkyny də onlarьn adьna kecirə. Əli bəjin qohum-əqrabasь coqdur. Ona hec kəs bata bilməz. Jasəmən sən bu fikrə nə dejirsən?

Jasəmən

Mən nə dejəçəjəm? Coq gəzəl fikirdir. (Qəmər, Zəhrə və Şəmsi bəj daxil olurlar.)

Qəmər

Ha-ha-ha...

Zəhrə

Ha-ha-ha...

Həçər xanьm

A qьzlar dejin gərym nəjə gylyrsynyz?

Qəmər

Piri baba, bu saatdan sən sultanь əzl edib jerinə Şəmsi bəji tə'jin edirəm.

Piri baba

A qьzьm buna səbəb nə olmuş?

Qəmər

Şəmsi bəjin bimisl avcь olmaqь.

(Zəhrə gylyr.)

Şəmsi bəj

Qəmər bəjim rəça edirəm məni Piri babanьn janьnda xəçil etməjəsiniz

Zəhrə xanьm

Xajьr gərək naqьl oluna, joqsa mən Piri babanьn əzlinə razь dejiləm.

Şəmsi bəj

Onda qojun mən özym səjləjim

Zəhrə xanьm

Xajьr mən razь dejiləm. Qoj Qəmər səjləsin. Nə etməli, siz iki mən tək. Qəmər bəjim səjləjiniz.

Qəmər

Piri baba, meşəjə girdikdə qarşьmьza davşan cьqdь. Bunu gördykdə Şəmsi bəj bizim, ölkənin birinçi avcьsь, xejli nəzakət ilə qoşa lyləsin cijnindən cьqarьb...

Piri baba

Av etdikdə avcьnьn tyfəngi əlində hazьr olmalьdьr.

Zəhrə xanьm

Bu da onun özynə arxajьn olmasьna bir sybut.

Qəmər

Davşan dajanьb durmuşdu, Şəmsi bəjin gylləsi acьldь, davşan jerindən tərpənmədi. Gyllənin biri də acьldь. Davşan jenə qacmadь. Burada Zəhrə xanьm ilə mən elə qəhqəhə etdik ki, davşan ildьrьm kibi götyryldy. (Gylyşyrlər.)

Piri baba

Görynyr davşan uzaqda durmuşmuş.

Zəhrə xanьm

Xajьr Piri baba, sonra ölcdyk, bizim ajaqьmьz ilə davşan on iki addьmda durmuşdu.

Şəmsi bəj

Piri baba, bunlar mənim avcьlьqьmь laqa qojub gyldy, fəqət öz qysurlarьnь acmaq istəməjirlər.

P i r i b a b a

Sən də onlarьnkini ac səjlə gərək nə olmuş.

Ş ə m s i b ə j

Piri baba, meşəjə bir az qalmьş onda gərdym ki, bu iki ijid xanьmdan bir elə qьşqьrьq qalqdь ki. dedim jəqin bunlarьn qarşьsьna arslan cьqmьşdьr. Bilirmisiniz Piri baba bunlar nə gərmyşlər?

P i r i b a b a

Jəqin sьcan gərmyşlər.

Ş ə m s i b ə j

Bəli. (Gylyşyrlər.)

P i r i b a b a

Oqlum, arvad tajfasьnьn əksəri sьcandan qorqur. Rəhmətlik Xalisə də belə idi. (Bu halda Çəbi əlində bir camadan dalьnça Cəngiz daxil olurlar.)

Q ə m ə r

Cəngiz gəldi. (Qacaraq gedib onun bojnunu quçaqlajьb өpyr.)

J a s ə m ə n

Ah oqlum gəldi, allah sənə şykyr. Aj qьz bir dajan mən də өpym. (Cəngizi өpyr.)

H ə ç ə r x a n ь m

Oqlum gəl səni mən də өpym. (Istəjir өpsyn, Cəngiz kənara cəkilir.)

C ə n g i z

Həçər xanьm, mən haradan sizin oqlunuz oldum. Mən sizin qulluqcunuz kyrd qьzьnьn oqlujam.

H ə ç ə r x a n ь m

Ah Cəngiz oqlum məni atəşə jaqma. Jasəmən mənim qulluqcum olmajьbdьr, sevgili baçьm olubdur.

Q ə m ə r

Cəngiz, gəl su tөkym əl yzyny ju. Joldan gəlmisən, jorulmusan. Gəl qardaşьm sonra danьşarsan.

C ə n g i z

Toqda, Həçər xanьm, Əlimərdanь өlmyş gөryb mən oqlu Cəngizi Rusjada bilib buraja gəlməjə çyr'-ət etmisiniz?

P i r i b a b a

Cəngiz, Həçər xanьm evladlarь ilə mənə qonaq gəlmişlər sənə, dəxli joqdur.

C ə n g i z

Bəs sən Əlimərdanьn əmisi dejilsən? Neçə qejrətin qəbul edir ki, onun dyşmanlarьnь qonaq edirsən? Məjər bilmirsən ki, mənim atam Əlimərdan Sibirjada əlləri, ajaqlarь qandalda sьzlajьb fərjad etməjinə səbəb binamus Şahbaz bəj olmuşdur.

Ş ə m s i b ə j

Cəngiz, mən elə fikir edirdim ki, atalarьmьzьn ədavəti biz evladlarьna kecməjəçəkdir; cynky hər iki tərəf bir-birlərindən intiqamьnь almьş. Mən əmim Iljas bəjin və başqa qohumlarьmьn qanьnь səndən iddia etmirəm. Fəqət indi gөryrəm ki, siz başqa fikrə dyşmyşsynyz, bismillah mən mejdandan qacan oqlan dejiləm.

C ə n g i z

Ha indi biqejrət Şahbaz bəjin oqlu Şəmsi bəj өzyny byruzə verdi.

Ş ə m s i b ə j

Quldurbaşь Əlimərdanьn oqlu Cəngiz də өz gədalьqьnь gөstərdi.

C ə n g i z

Mənə gəda dejirsən? (Onun ystynə jeriş edir, Zöhrə xanım başını uça dutaraq döşyny gərərək onun qarşısında durur.) (Həçər xanım qışqırıb qəşş edir, Qəmər ağlajır.)

Z ö h r ə x a n ı m

Cəngiz, biz dyşman da olsaq qapınıza gəlmişik, Sizə qonaq olmuşuq. Qonağın ehtiramı beləmi olur?

C ə n g i z
(başını aşağı salaraq)

Zöhrə xanım məni əfv ediniz, xəçalətimdən yzynyzə baqa bilmirəm. Dutduğum əməldən özym də peşimanam.

Z ö h r ə x a n ı m

Öz tərbijəsilə çavanlar arasında şöhrət tapmış Cəngizi indi tanıdım. Əfvinizi qəbul edirəm. Ançaq anamız Həçər xanımdan yzr istəməlisiniz.

C ə n g i z

Həçər xanım məni əfv etməlisiniz (Əllərindən öpyr, Həçər də onun alnından öpyr.)

H ə ç ə r x a n ı m

Oğlum Cəngiz, mənə jenidən ruh verib diriltdin. Allah səni hər bəladan hifz etsin.

Q ə m ə r
(gedib Cəngizin əlindən dutub Şəmsi bəjə tərəf gəlir)

Cəngiz Şəmsi bəj ilə də barış.

C ə n g i z
(ona əl verərək)

Şəmsi bəj məni əfv ediniz, o sözləri deməjə yrəjimin qəm, qyssəsi səbəb oldu. Qyrbətdə çəkdijim

əzijjətdən sonra əziz anamı, sevgili bacımı, qoca babamı saq və salamat gördykdə biixtijar ömryny Sibirjada cyrydyb axırı çanını namus jolunda fəda edən zavallı atam jadıma dyşdy. Özymy saqlaja bilməjib sizlərə biehtiramlıq etdim.

J a s ə m ə n
(gedib onu quçaqlajaraq)

Oğlum bu sözlərin ilə jaralı yrəjimi oğladın. (Ağlajır.)

P i r i b a b a

Jasəmən sakit ol. Naşykyr olma. Cəngiz kibi oğlun, Qəmər kibi qızın var. Ölym çymlə jaranmış ycyn var. Oğlum Cəngiz bəs mən qoca baban ilə nə ycyn göryşmyrsən?

C ə n g i z

Bağışla baba, bu gyn özymy başqa halda göryrəm. (Gedib onun əllərini öpyr.)

Q ə m ə r

Indi gəl gedək su tökym əl-yzyny ju. (Otağa gedirlər.)

Ş ə m s i b ə j

Ana siz də hazır olun, mən də gedib fajtonu qoşdurum.

P i r i b a b a

Oğlum nə tələsirsən, cörək jejib gedərsiniz.

H ə ç ə r x a n ı m

Şəmsinin fikrini anlajıram, o qorqur ki jenə aralarında toqquşma ola. Mən də onun fikrinə şərikəm.

J a s ə m ə n

Indi Cəngiz nə inki jenidən toquşmağı, hətta sə'j edəçəkdir ki, sizin gönlynyzy alsın.

P i r i b a b a

Jasəmən doqru dejir, Cəngizin yrəji coq jumuşaqdır, hec kəsi özyndən inçitməz.

Z ə h r ə x a n ı m

Biz Cəngizdən rənçidə olmuruq. Yrəji janqılı idi, onun ycyn də təbiətindən cıqdı. Sonra pəşiman olub bizdən yzr istədi. Bu bizə kifajət edər. Ilərilərdə mənə hec vaqtı ədavət göstərməjibdir. Coq mehriban rəftar edibdir. (Cəngiz və Qəmər gylə-gylə gəlirlər.)

C ə n g i z

Piri baba, eşitdim səni sultanlıqdan əzl ediblər.

P i r i b a b a

Aj oqlum, coq da jaxşı ediblər; mənim sultanlıqım kecmiş. Çavanlıqda atdıqım gyllə boşa cıqmazdı, indi isə coq vaqtı avdan əli boş qajıdıram.

C ə n g i z

Demək on iki addımda durmuş davşanı daha vura bilməjirsiniz (Gylyşyrlər.)

Z ə h r ə x a n ı m

Şəmsi paʃını aldın?

Ş ə m s i b ə j

Allah hec kəsi Qəmər bəjimin dilinə salmasın.

Q ə m ə r

Allah hec kəsi Şəmsi bəj kibi avcının umuduna qojmasın; cynky şamsız jatar. (Gylyşyrlər.)

C ə n g i z

Allah hec qardaşı Qəmər kibi baçının umuduna qoʃmasın; cynky səfərdən gəlmiş qardaşını cajsız qojar.

Q ə m ə r

Bu saat qardaşım. (Ona caj tökyb verir.) Gör baçın sənə badımçandan, pamidordan nə dyrly-dyrly ləziz xörəklər bişirəçəkdir.

Ş ə m s i b ə j

Qəmər bəjim, nə qədər xörək bişirməkdə mahir olsanız jenə də mənim baçım Zöhrəjə cata bilməzsiniz.

Z ə h r ə x a n ı m

Jəqin jenə də mənim qaʃqanaq məsələm mejdana cıqaçaqdır.

Ş ə m s i b ə j

Əlbəttə cıqaçaqdır. Çəmaət bir dəfə coq bərk açımışdım. Evdə Zöhrədən başqa hec kəs joqdu. O da oturub roman oqujurdu. Dedim baçım dur mənə qajqanaq bişir jejim. O vaqtı Zöhrə xanım təzəçə gimnazijanı qurtarmışdı. Baçım bişirdi mən də jedim. Nətiçəsi—indi də qajqanaqa baqa bilmirəm.

H ə ç ə r x a n ı m
(gylyr)

Zöhrə jumurtanı əvvəl suja salıb sonra jaq tökmyşdyr. (Gylyşyrlər.)

Ş ə m s i b ə j

Ana mən baçımın içadınını sirrini acmaq istəmədim. Sən necin acırsan?

C ə n g i z

Piri baba, arıların nə haldadır?

J a s ə m ə n

Anan ölsyn hər bal jeʃəndə boqazımdan getməjirdi. Bilirəm sən balı coq sevirsən.

Piri baba

Oqlum, sənin bəxtindən bu il balım boldur, nə qədər xatirin istəsə je. Qurtaran dejil.

Cəngiz

Çəbi lələ get Piri babanın o tə'rifli balından kəs gətir jejək.

Piri baba

Topal, çəkə aqaçının altındakı səbətdən kəs gətir. Onun balı coq dadlıdır. (Çəbi gedir. Səfa daxil olur.)

Həçər xanım

Səfa nə var xejir ola,

Səfa

Xanım siz gedəndən sonra Şahbaz bəj gəlib cıqdı. Nurəli bəjin evində qumar ojnajırmışlar. Aqa geçə də orada jatıb qalıbmış. Məndən soruşdu ki, Həçər xanım və uşaqlar haraja gediblər. Dedim Zylejxa xanımgilə qonaq gediblər, yc gyndən sonra gələçəklər. Elə bunu demiş oldum, aqa hirslənib qışqırdı. Səjməmiş bir xidmətci qojmadı. Mənə dedi ki atı minib caparsan. Harada catdın qajtararsan. Bu halda yrəji bitab olub jıqıldı. Qurban həkim dalınça getdi mən də sizin.

Şəmsi bəj

Ana durma gedək. Ax, atamın kəhnə azarı qalqmış.

Həçər

Gedək. (Qalqırlar). Səfa get fajtonun janında gözlə. (Səfa gedir.)

Piri baba

Allah şəfa versin, daha sizi saqlaja bilmərəm. Inşaallah jaqşı olar, jenə mənə qonaq gələrsiniz. (Həçər

xanım ilə Jasəmən, Qəmər ilə Şəmsi bəj və Cəngiz ilə Zöhrə xanım kənara cəkilib məxfi danışırlar.)

Cəngiz

Zöhrə xanım siz ilə əlvida edərək jenə də rəça edirəm ki, sizə etdijim ehtiramsızlıqı qəlbinizdən cıqarasınız.

Zöhrə xanım

Cəngiz, mənim qəlbimdə bilirsən sənə ədavət joqdur, başqa bir hiss...

Cəngiz

Myşgyl.

Zöhrə xanım

Nə ycyn?

Cəngiz

Cynky coq sədd var...

Zöhrə xanım

Yrəjin inçə oqları myqabilində elə səddlər duramaz...

Cəngiz

Yrəjin özynə sədd cəkməli.

Zöhrə xanım

O nə ycyn?

Cəngiz

Fələkin istədiji bu.

Həçər xanım

Uşaqlar gedək.

Zöhrə xanım

Əlvida Cəngizim.

Cəngiz

Əlvida. Xəjali-naumudum...

Həçər xanьm

Xydahafiz.

Piri baba

Xydahafiz jaqşь jol. (Gedirlər.)

PƏRDƏ

YCYNÇY PƏRDƏ

Səhnə Şahbaz bəjin qonaq otasьnь göstərir. Otaq Avropa səliqəsilə bəzənmiş; Şahbaz bəj səfərə hazьrlaşьr.

Şahbaz bəj

Xavər, Xavər. (Xavər daxil olur.)

Xavər

Nə bujursan aqa?

Şahbaz bəj

Şəmsi evdədirmi?

Xavər

Bəli evdədir.

Şahbaz bəj

Get, de: atan caqьrьr.

Xavər

Baş ystə (Gedir.)

Şahbaz bəj
(dərman icərək)

Bunun əvəzinə bir dəfə zəhr icib bu dynjadan xilas olmaqa çyr'ət edə bilmirəm.

(Şəmsi bəj daxil olur.)

Şahbaz bəj

Oqlum əjləş sənə dejəçək sözym coqdur. Şəmsi mənim bədənimdə bir saq ə'zam joqdur. Yrəjim, çi-

jərim xarab, mə'dəm xarab, dilim də gah dutulur, gah acılır. Indi myaləçəjə gedirəm. Fəqət saqalmaqa umudum joqdur. Demək bir az geç, bir az tez məni qəbrə qojaçaqsan. Sən mənim tək oqlumsan, babalarımızın jurdunun sahibisən. Doqrudur sənin dövlətinin coqunu mən tələf etmişəm, qumara vermişəm, kejf etmişəm, fəqət o tələf etdijimdən zijada mərhum qardaşım Iljas bəjdən sənə dövlət dyşəçəkdir. Indi de gərym dərdin nədir ki, əmin qızı Nəçibəni evdə dustaq etmisən.

Şəmsi bəj

Mən əmim qızını dustaq etməmişəm.

Şahbaz bəj

Bəs nə üçün evlənmirsən? Özün bilirsən ki, o sənə ad olubdur. Əqilli, kamallı, qojulduqu ada lajiq nəçibə bir gözəldir. Belə qızdan necin qacırsan?

Şəmsi bəj

Ata, o tə'rif etdijin syfətlərin çymləsi əmizadəmdə mövçuddur. Fəqət jenə də mən özümy və o zavallını bədbaxt etmək istəmirəm.

Şahbaz bəj

Səbəb?

Şəmsi bəj

Səbəb odur ki, mənim onda könlym joqdur. Qəlb də istəmədiji halda nə zevç və nə də zevçə.

Şahbaz bəj

Istəmədijinə səbəb nədir?

Şəmsi bəj

Onu yrəkdən sormalı və bir də mən coçuqluqdan əmim qızı ilə bir jerdə böjymyşəm, mən ona bacı kibi baqıram.

Şahbaz bəj

Oqlunı, məhəbbət bir jalan şejdir. Onu şairlər içad etmişlər. Ismi var özy joq. O bir xəjaldır. Uzaqdan dadlı, nəş'əli; javuqdan zəhərli, çəfalı, bəlalı, ömry puc edən bir şejdir. Beş gyn səfa versə, beş il çəfa verər. Atan onların hamısından kecmişdir.

Şəmsi bəj

Demək qəlb sevmədiji bir zevçə ilə ömr syrmək çəfa-bəla dejilmiş, eləmi?

Şahbaz bəj

Bilmirəm sən bu arvad tajfasına nə böjyk mə'na verirsən. Arvad al qoj evdə evdarlıq etsin, sən də kefdə, damaqda ol...

Şəmsi bəj

Ata mən onu edə bilməjəçəjəm. Sizin nəzəriniz qadınlara başqa, mənimki başqa. Mən könlym sevməjəni almajaçaqam.

Şahbaz bəj

Bəlkə sənin könlyn bir kəndlini, bir hammalın qızını istəjəçəkdir.

Şəmsi bəj

Ejbi nədir, istər alaram.

Şahbaz bəj

Ejbi coqdur, Şahbaz bəjin gəlini kimin qızıdır. Kəndli Çənnətəlinin?.. Bir özyn insaf et bu mənə jaraşarmı. Onda mən xəçalətimdən məçlislərə çıqa bilərəmmi? Taj tuşlarımın yzynə baqa bilərəmmi?

Şəmsi bəj

Ata siz məni öz getdijiniz jola də'vət edirsiniz, fəqət mən o jol ilə getməjəçəjəm; cynky nətiçəsi gözlərimin önyndədir.

Şahbaz bəj

Neçə? Mən nə pis iş görmyşəm ki, sən ondan xəçalət çəkirsən?

Şəmsi bəj

Ata mən istəmirəm ki, ata ilə oğulun arasından pərdə götyrylsyn. Sizin sualınıza çavab versəm o pərdə götyryləçəkdir.

Şahbaz bəj

Atanız, ananız Həçər xanımın sə'yi ilə o pərdə siz evladlarım ilə mənim aramdan coqdan götyrylybdyr. Siz məni qapımdakı nökərimçən saymajırsınız.

Şəmsi bəj

Taqsır özynyzdədir. O məzlumə bədbaxt anamız nahaq jerə myqəssir edirsiniz.

Şahbaz bəj

Ananız nə ycyn bədbaxt olsun? Mən onu hansı xanımdan əksik saqlajıram? Libas almamışam, çavahirat almamışam? Joqsa qulluq etməjə xidmətcilər dutmamışam?—Hansı şeji kəsr qojmuşam?

Şəmsi bəj

Nəzərinizçə bundan başqa şej qadına lazım dejil?

Şahbaz bəj

Mən bilmirəm, sən bilirsənsə de.

Şəmsi bəj

Ymdəsi məhəbbət, sonra ərin gözəl, mehriban rəftarı. Bunların hansı sizdə olubdur. Anamı qız ikən pul gyçynə gözy jaşlı özynyzə zevçə etmisiniz. Sonra gözəl rəftar ilə könlyny alıb özynə raqib etmək əvəzinə, həmin bu evi cyrdyxanaja, kəndxanaja döndərib onun inçə qadınlıq hissinj ajaqlarınız altına salıb tapdalamışsınız.

Şahbaz bəj

Jalan! bunun hamısı Həçərin dyzəltməsidir. Məni sizin nəzərinizdən salıb dyşman ètmək fikridir. Sizi məndən uzaqlaşdırmaqdır.

Şəmsi bəj

Bizi sizdən uzaqlaşdıran anamız dejil, sizin fəna əməlinizdir. Uşaq ikən biz baçı-qardaş sizdən bir mehriban söz eşitmədik. Həmişə evə sərxoş gəlmisən, biz də qorqumuzdan qacıb otaqımızda gizlənmişik. Bədbaxt anamız bizi baqrına basıb biz ilə bahəm göz jaşı tökybdyr. Mən dejərdim ana dur buradan qacaq, dejərdi: bala haraja qacaq, adam da öz evindən qacarmı. Bizə nə dejərlər. Jenə səbr etməli, anamız bizi bu evdə belə saqlajıbdır. Biz bəjydykdə də dutduqunuz binamus əməllərdən xəçalət çəkib Şahbaz bəjin evladları olduqumuzu gizlətmişik.

Şahbaz bəj

Sus nadyryst, daha sən mənim evladım dejilsən cəkil. Haraja istəjirsən get. Gözymyn önyndən syryn. (Şəmsi bəj cıqır.) Az qalmışam bunların əlindən baş götyryb jenə Firəngstana qacam. (Səfi bəj daxil olur.)

Səfi bəj

Dajı, dejəsən jenə Şəmsi ilə sözləşmisən, coq hirsli gedirdi, mənə də məhəl qojmadı.

Şahbaz bəj

Gör mənə nə dejir, Şahbaz bəjin evladı olmaqdan xəçalət çəkirəm.

Səfi bəj

Odur ki, dyşmanımızın oqlu ilə də dostluq edir.

Şahbaz bəj

Kim ilə?

Səfi bəj

Əlimərdanın oğlu Cəngiz ilə.

Şahbaz bəj

Nə dejirsən, Cəngiz odur Rusjada.

Səfi bəj

Xajır, Cəngiz bir ajdır ki, anası, bacısı ilə Piri babanın janında olur.

Şahbaz bəj

Səfi, Şəmsi Cəngiz ilə dostluq etməz.

Səfi bəj

Cağırın mənim janımda özyndən soruşun.

Şahbaz bəj

Xavər, Xavər. (Xavər daxil olur.)

Xavər

Nə bujursan ağa.

Şahbaz bəj

Şəmsi bəji buraja cağır.

Xavər

Şəmsi bəj getdi.

Səfi bəj

Zöhra xanım evdədirmi?

Xavər

Bəli evdədir.

Səfi bəj

Cağır gəlsin.

(Xavər gedir.)

Şahbaz bəj

Sən Şəmsini dejirdin, Zöhranı nə üçün cağırtırsan?

Səfi bəj

O da qardaşından geri qalmaz. Dajı, Cəngizə bir elə tələ qurmuşam ki əlimdən qurtarası dejil. Cəngiz guja gizlin hökymətin əlejhinə işləjir. Onu həbs edib dutduraçağam. Həbsxanaja göndərəçəjəm. Jolda guja qacırdı dejə gyllələdəçəjəm. Neçə tədbirdir.

Şahbaz bəj

Çox gözəl tədbirdir. Dajın Iljas bəjin qanını jerdə qojmajırsan.

Zöhrə xanım

(daxil olur)

Bibi oğlu xoş gəlmisən.

Səfi bəj

Saq ol dajı qızı... Zöhrə səndən bir şej barəsində mə'lumat istəjəçəjəm. Rəça edirəm dyzyn dejəsən. Əjləş. (Zöhrə oturur.)

Zöhrə xanım

Demək məndən silist edəçəksiniz.

Səfi bəj

Bəli, bujurunuz görym bir aj bundan irəli ananız Ələçər xanım, qardaşınız Şəmsi bəj ilə Zylejxa xanımgilə qonaq gedərkən joldan dönyb haraja getmişdiniz?

Zöhrə xanım

Piri babagilə.

Səfi bəj

Doğru! Orada kim ilə göryşmyşsynyz?

Zöhrə xanım

Piri baba, Jasəmən və qızı Qəmər ilə.

Səfi bəj

Daha kimin ilə?

Zəhrə xanım

Onu deməm.

Səfi bəj

Nə ycyn?

Zəhrə xanım

Cynky məçburəm.

Səfi bəj

Sizi məçbur edən kimdir?

Zəhrə xanım

Mənim viçdanım.

Şahbaz bəj

Sənin anan Həçər xanım, mənim dyşmanlarım onun dostudur. Dostlarım dyşmanıdır.

Səfi bəj

Siz demək istəmirsiniz mən dejərəm. Orada siz bizim nəslimizin dyşmanı quldurbaşı Əlimərdanın oqlu Cəngiz ilə göryşmyşsynyz belədirmi?

Zəhrə xanım

Elədir.

Səfi bəj

Bəs nə ycyn bunu demək istəmirdiniz?

Zəhrə xanım

Cynky bu jolda tökylən qanı daha kifajət bilirəm. Ataların ədavəti evladlarına kecməjini artıq bilirəm.

Şahbaz bəj

Mənim evlad arımın hec birində qejrət, namus olmadığını da mən bilirəm.

Zəhrə xanım

Ata, qejrət namus gözləjən şəxs, gərək bu ədavətin binasını qojmajajdı.

Şahbaz bəj

Səsini kəs Həçərin qızı.

Səfi bəj

Dajı doqru dejirsən. Bunların hec birində qejrət, namus joqdur. Əmiləri Iljas bəjin qatili Əlimərdanın oqlu ilə dostluq edirlər.

Şahbaz bəj

Bunların belə olmaqına jenə də Həçər baisdir.

Səfi bəj

Zəhrə, bu səfər ikinizin də taqsırından kecirəm. Bir də Cəngiz ilə mylaqat etsəniz məni əfv edəsiniz, onda sizin ilə başqa çyr rəftar edəçəjəm; cynky qulluq qohum-əqrəba tanımaz. Zəhrə onu bil ki, Cəngiz həkymətin ziddinə işləjir, mən onu həbs edəçəjəm.

Şahbaz bəj

Sən Gənçədə necə gyn qalaçaqsan?

Səfi bəj

Yc, dərt gyndən artıq qala bilmərəm. Dajı vaqt kecir gedək.

Şahbaz bəj

Səfa, Səfa.

Səfa
(daxil olur)

Nə bujurursan aqa.

Şahbaz bəj

Camadánı gətyr fajtona qoj. (Səfa gətyryb aparır.) Səfi halımı gəryrsən, ata bir jerə gedəndə evini oqluna tapşırar. O da olmasa arvadına, qızına. Həçər xanım məni görmək istəmir. Oqul elə, qız belə. Bunlar hamısı dua edirlər ki mən bu myaləçədən şəfa tapıb salamat qajıtmajam.

Zöhrə xanım

Ata, sənin azarlının xasiijəti elədir ki, hamını özynə dyşman hesab edirsən, xajır biz istəjirik ki, sən Gənçədən bu azardan saqalıb salamat gələsən. Biz də rahat olaq.

Səfi bəj

Dajı qızı doqru dejir. Sən əsəbi məzaçsan. Inşaallah Gənçədən saqalıb gələrsən, bu qara fikirlər də başından cıqıb gedər,

Şahbaz bəj

Jenə umudum sən qızmadır. Xydahafiz (Onu öpyr.)

Səfi bəj

Dajı qızı xydahafiz.

Zöhrə xanım

Xydahafiz, jaqşı jol. (Şahbaz bəj və Səfi bəj gedirlər.)

Zöhrə xanım

(jalnız)

Ah... Cəngiz, sevgilim, nə ycyn mənə qulaq asmadın? Nə ycyn məni də, özyny də bəlaja saldın. A... h... səni dutaçaqlar. Sənə min əzijjət verəçəklər, zindana salaçaqlar... Joq, joq, qojmaram, səni çəlladların əlindən alaram... Ja sənlə bir jerdə həbsxanaja gedərəm... Sənsiz mənə dirilik joqdur.

Həçər xanım

(daxil olur)

Zöhrə, Səfi bəj səni nəjə caqırmışdı?

Zöhrə xanım

Səfi bəj məndən silist edirdi.

Həçər xanım

Nə barədə?

Zöhrə xanım

Bizim Cəngizlə göryşməjimiz ona mə'lum olmuşdur.

Həçər xanım

Nə dejirsən, onu hardan bilmiş?

Zöhrə xanım

Bilmirəm, o barədə bir söz demədi. Cəngizi həbs etmək istəjir.

Həçər xanım

Nə səbəbə?

Zöhrə xanım

Səfi bəjin deməjinə görə guja Cəngiz hökymətin əlejhinə işləjir. Amma mən buna inanmıram. Bu hijlə ilə onu tələf etmək istəjir.

Həçər xanım

Ah bu nə fəna xəbər. Tezliklə Cəngizə xəbər verib qacırtmaq lazımdır.

Zöhrə xanım

Mən də o fikirdəjəm. Ançaq nə jol ilə.

Həçər xanım

Əhvalatı Qəmərə jaz, o da Cəngizi qacırsın.

Zöhrə xanım

Xajır, məktubla xəbər vermək qorquludur. Başqa jol aramalı.

Həçər xanım

Başqa nə jol var. Onda gərək birimiz gedək. O da qorquludur.

Zəhrə xanım

Qorqulu olsa da məktubdan bu jaqşıdır. O səfərki kibi Zylejxa xalama qonaq getmək bahanası ilə dönyb mə'lum etmək lazımdır.

Həçər xanım

Indiçə atan jola dyşdy. Biz də onun dalınça getsək şybhəjə dyşərlər.

Zəhrə xanım

Doqru dejirsən. Ona görə sən evdə qal, mən Şəmsi ilə sabah gedərəm.

Həçər xanım

Qorquram ona kibi Cəngizi dutalar.

Zəhrə xanım

Səfi bəjin Gənçədən qajıtması beş, altı gyn çəkər.

Həçər xanım

Onda qoj Şəmsi getsin sənin getməjin artıqdır.

Zəhrə xanım

Joq ana, mən gərək gedəm. Şəmsi baçarmaz. Cəngiz ona inanmaz. Mən olsam Qəmər ilə köməkləşib onu inandırarıq və qacırdarıq.

Həçər xanım

Jaqşı dejirsən, sənin getməjin vaçibdir. (Şəmsi bəj avcı libasında, əlində tyfəng, dalınça Səfa daxil olurlar.)

Şəmsi bəj

Ana iki gynə Zylejxa xalama qonaq gedirəm, izn ver Səfa fajtonu qoşub məni aparsın.

Həçər xanım

Indi atan getdi, sən də getmək istəjirsən, bəs evdə kim qalsın?

Şəmsi bəj

Bəs sən və Zöhrə nədir?

Həçər xanım

Biz arvadıq, evi kişisiz qojmaq olarmı?

Şəmsi bəj

Ana, sənə söz verirəm ki, iki gyndən artıq qalmajam. Indi əhvalım coq pərişandır. Havamı dəjişmək istəjirəm.

Həçər xanım

Onda səbr et Zöhrə də gedəçəkdir, xalan istəjibdir, onunla gedərsiniz.

(Hejdərqulu daxil olur.)

Həçər xanım

Hejdərqulu nə var, xejir ola.

Hejdərqulu

Inşaallah xejirdir, ançaq Zylejxa xanım bir az naxoşdur, məni göndərdi ki sizi aparam.

Zəhrə xanım

Ana biz də gedəçəjik?

Hejdərqulu

Xanım dedi ki, uşaqları da gətirsin.

Həçər xanım

Hejdərqulu dyzyny de, joqsa xalam bərk naxoşdur?

Hejdərqulu

Xejir xanım başınız ycyn qorqusu joqdur. Həkim gəlmişdi, dedi şojuq dəjibdir. Yc, dört gynə saqalıb duraçaqdır.

Həçər xanım

Səfa tez fajtonu qoş.

Hejdərqulu

Lazьm dejil, Zylejxa xanьmьn fajtonunu gətirmişəm, geçə gəlib cьqdьm karvansarada acdьm.

Həçər xanьm

Onda sən get tez fajtonu qoş gətir.

Hejdərqulu

Baş ystə.

Həçər xanьm

Hejdərqulu, aqşama dyşmərik ki?

Hejdərqulu

Xajьr xanьm: aqşama beş saat qalmьş orada olaçajьq. Fajtona dərt at qoşmuşam, ançaq jarьm saatlьq Piri babagilə dənəçəjəm. Xanьm ycyn gəjərti aparaçaqam.

Həçər xanьm

Coq jaqşь. Get. (Hejdərqulu gedir.) Səfa evi sənin umuduna qojuram. Jaqşь myqajat ol.

Səfa

Arxajьn ol xanьm.

Həçər xanьm

Get, Xavərə de bizim ycyn dəjişəçək hazьr etsin. (Səfa gedir.)

Şəmsi bəj

Ana bu coq jaqşь oldu. Hərgah bu gyn özymyzy Piri babaja jetirməsək Cəngizi dutaçaqlar.

Zöhrə xanьm

Onu sənə kim dedi?

Şəmsi bəj

Səfi bəj.

Həçər xanьm

Səfi bəj ilə sən hacan göryşdyn?

Şəmsi bəj

Bir az bundan iləri.

Zöhrə xanьm

Nə dejirsən, Səfi bəj atam ilə Gənçəjə getmədimi?

Şəmsi bəj

Xajьr, Səfi bəj Gənçədən kaqьz aldь. Oqujandan sonra qalmalь oldu. Atam tək getdi.

Həçər xanьm

Səfi bəj sənlə daha nə danьşdь?

Şəmsi bəj

Mənə böjyk divan qurmuşdu. Dedi: Zöhrə ilə də danьşmьşam, mən əhvalatь neçə olmuşdur tamamilə naqьl etdim. Hətta Cəngiz ilə sözləşdijimi də ondan gizlətmədim. Dedim hərgah mən biləjdim ki, Cəngiz oradadьr, hec vaqtь Piri babagilə getməzdim. Mən sə'j edirdim ki, onu inandьrьm ki fikrini acdьrьm. Məni tə'rif edib dedi: mən bilirəm ki sən qejrətli oqlansan. Bizi baçьn Zöhrə kibi dyşmana satmazsan.

Hejdərqulu
(daxil olur)

Fajton hazьrdьr.

Həçər xanьm

Uşaqlar gedək (Gedirlər.)

PƏRDƏ

DÖRDÜNÇÜ PƏRDƏ

Səhnə birinçi pərdənin mənzərəsini göstərir. Həjətdə sqamjanın qarşısında bir masa; ystyndə bir neçə kitab. Q ə m ə r kitabların şəklinə baqarkən gözynə bir məktub sataşır.

Q ə m ə r

(məktubu əlinə götyryb)

Bu Zöhrənin xəttinə oqşajır. Joq səhv edirəm. Zöhrə Cəngizə məktub jazmaz. Qoj acıb oqujum. Onda mə'lum olar. Joq özgənin məktubunu oqumaq qəbeh şejdir. Qoj başını acıb oqujum. Onda mə'lum olar. Dalını oqumaram. (Məktubu paketdən çıqarıb oqujur.) Ej qəlbimin sultanı sevgili Cəngizim. Paho, qəlbimin sultanı, sevgili, bu məktubdan ətr iji gəlir. Gərək oqujam. (Oqujur.) Tam bir ajdır ki, nə geçə, nə gyndyz bir an xəjalımdan çıqmajırsan. Ah hiçran atəşi məni jaqıb jandırır. Cəngizim dəxi səbr edə bilmirəm. Məhəbbətin uğrunda şam tək ərijən, eşqindən məçnun olan Zöhrəjə rəhmin gəlsin. Ha, doğrudan da jazan Zöhrə imiş. Ej bivəfa Zöhrə bəs sən məni belə dost imişsən? Mənə bir coq məktub jazmışsan, hec birində işarə belə etməmisən. İndi sirrini məndən bərk saqla. Başa dyşdym ki, Zöhrəni şair edən nə imiş. Cəngizə ah çəkdirən nə imiş. (Məktubu gizlədib kaqız jazır.) Zöhrə xanım məktubu belə jazarlar özy də şeir ilə. (Jazır.)

J a s ə m ə n

(icəridən)

Qəmər, Qəmər.

Q ə m ə r

Gəlirəm. (Gedir, Cəngiz otaqdan çıqır masaja tərəf gəlir. Qəmərin jazdıqı kaqızı əlinə götyryb.)

C ə n g i z

Bunu kim jazmış, Qəmərin xəttinə oqşajır. Görym baçım nə jazıb. Dejəsən şeirdir. (Oqujur.)

Ej gərdişin ədalı Şəmsi
Ej fəzanın nazlı sultanı.
Kainatı şad edən sənsən
Çəlıana nur verən sənsən.
Zijan ilə jaşar
Aləmə mybtəla Qəmər.
Ha-ha-ha...

(Qəmər daldan gəlib kaqızı onun əlindən dartıb alır.)

Q ə m ə r

Başqasının məktubunu oqumaq qəbeh şejdir. Belədirmi bəradərim Cəngiz?

C ə n g i z

Elədir baçım Qəmər.

Q ə m ə r

Bəs nə ycyn oqujursunuz?

C ə n g i z

Cynky məktub dejil, şeirdir. Şair şeir jazır ki, insanlar onu oqujub ləzzət aparsınlar. Hissləri inçələnib zərif olsun. Baçım Qəmər bu şeirinlə sən ədəbijjatımızda jeni bir çıqır acırsan. Daha bundan sonra şeirdə nə qafijə, nə mə'na lazım dejil.

Q ə m ə r

Neçə? Mənim şerimdə mə'na joqmu?

C ə n g i z

Mən ki tapa bilmirəm. Bəlkə özünüz o pünhan mə'nanı izhar edəsiniz.

Q ə m ə r

Ej qəlbimin sultanı Cəngiz. Qəmərin şeirinin mə'nasını anlamaqa sən hələ xamsan. Püxtə olmaqa coq səfər gərək.

C ə n g i z

Qəmər.

Q ə m ə r

Əfəndim.

C ə n g i z

Gözlərimə baq.

Q ə m ə r

(onun gözlərinə baqarkən)

Ah, bəradərimin gözləri nə gözəldir. Şahin baqışlı indi o gözlərdə bir iztirab, bir həjəcan görünür. Fəqət gülümsünəndə başqa lətafət, başqa məlahət... Ej bu gözlərə aşiq olan parlaq jıldız. Qəmər sənə həsəd aparır.

C ə n g i z

Ha-ha-ha...

Q ə m ə r

Baq belə, joqsa qaşqabaqlını tökəndə üzün Çəbi lələnin gülümsəməsinə bənzəjir.

C ə n g i z

Qəmər, güldürdüjün jetər. Bir az da səndən böjük qardaşını dinlə.

Q ə m ə r

Oj, məndən nə coq böjüksən. Hec hesab edə bilməjəçəjəm. Sən məndən min səkkiz jüz sanijə böjüksən.

C ə n g i z

Ha-ha-ha... Qəmər bu gün mən sənlə baçarmajaçaqam. Ona görə rəça edirəm bəndənizi əfv edəsiniz. Buradan təşrif aparasınız. Mənə dərs oqumaqa mane olmajasınız.

Q ə m ə r

Cəngiz daha zarafatı buraqdım.

C ə n g i z

Qəmər, bir neçə vaqtdan bəri mən səndə təqjir görürəm.

Q ə m ə r

Məsələn...

C ə n g i z

Məsələn ilərilərdə sən məndən hec bir şeji gizlətməzdin. Ürəjində nə olsa acıb mənə söjlərdin. Məndən gizlin bir sirrin olmazdı, indi isə onu görmürəm.

Q ə m ə r

Mən də səndə təqjir görürəm.

C ə n g i z

Məsələn...

Q ə m ə r

Məsələn bir neçə vaqtdan bəri sən hər aqşam bu sqamjada əjləşib saatlarça yüyqun şərq çəhətindən zühur edən bir parlaq ulduza tamaşa edirsən.

Cəngiz

Elə bu?

Qəmər

Bəli elə bu!

Cəngiz

Mənim ulduza baqmaqdmda sən nə sirr gö-ryrsən?

Qəmər

Göjdə ulduz coqdur. Nə ycyn sən ançaq o ulduza baqdrsan?

Cəngiz

Cynky o ulduz qejrilərindən parlaqddr. Mən onu coq artdq sevirəm.

Qəmər

Elə mən də bunu bilmək istəjirdim. O ulduzun add nədir?

Cəngiz

Coban ulduzu dejirlər. Dan ulduzu dejirlər.

Qəmər

Daha add joqmu?

Cəngiz

Qədim junanilər o ulduzu eşq və hysn iłahijjəsi sanddlar. Add da Dijana dejirdilər.

Qəmər

Bəs ərəblər o ulduza nə dejirlər?

Cəngiz

Bilmirəm. Gərək ki... Zöhrə.

Qəmər

Ha-ha-ha... gərək ki... Zöhrə.

Cəngiz
(açdqd)

Cəkil.

Qəmər

Gedirəm, gedirəm açdqdn dutmasdn. (Bir az gedir dajanddr, Cəngiz başdnd əllərilə dutub fikrə gedir. Qəmər gizli daldan onun bojnunu quçaqla-jdb saclarddndan öpyr qacdr.)

Cəngiz

Qəmər. (Qalqdb odasdna gedir.)

Qəmər
(jaldbz)

Ej zavallb qardaşdm. Göryrəm arslan yrəjini eşq atəşi jandddr. Söndyrmək istəjirsən fəqət ba-çarmajdrsan. Cynky atəş bytyn vyçudunu almdş. Damarlardna jerimiş. Göryrəm myşgylat coq. Sev-dijin dyşman qdzb, sən bir rəijjət oqlu. O bir aqa qdzb. Ah... Bilirmisin Cəngizim, Baçdn Qəmər də Şəmsi oduna jandr.

(Jasəmən və Piri baba kumadan cdqdrlar.)

Jasəmən

Qəmər, Cəngiz hanb? Bizlən gedirmi?

Qəmər

Bilmirəm getsə jaqşb olardb, kefi acdlardb.

Piri baba

Əlbəttə jaqşb olardb. Joqsa səhərdən aqşama kibi kitabdan əl cəkmir.

Jasəmən

Cəngiz. (Cəngiz otadan cdqdr.)

Cəngiz

Ana mən gedə bilməjəçəjəm. Joldaşdm gələçək-dir, onu gözləjirəm.

Qəmər

Ana jalan dejir, getmək istəmir, joldaşьnь bəhanə gətirir.

Cəngiz

Qəmər, indi də məni jalancь edirsən? Coq saq ol. Mən səni belə bivəfa baçь bilməjirdim. Get, get...

Qəmər
(əlindən dutub.)

Joq, joq. Mən bivəfa baçь dejiləm. Şəms ilə Qəmər altьnda mənim tək baçь tapa bilməzsən.

Cəngiz

Bu gyn Şəms ilə Qəmər dilindən dyşməjir. Bu nə sirrdir.

Qəmər

Cynky... xydahafiz. Ana gedək. (Gedirlər.)

Piri baba

Aj oqul bir belə nə oqujursan?

Cəngiz

Piri baba, tibb coq cətin elmdir. Gərək həmişə mytaləə edəsən.

Piri baba

Həkimlik cətin isə də gözəl sən'ətdir. Insanlara bəjyk xidmət edir.

Cəngiz

Piri baba, mənim fikrim oдur ki, həkimliji qurtarandan sonra gəlib kənddə oturam, kəndlilərə kəmək edəm.

Piri baba

Coq gözəl fikirdir. Allah sənə tevfiq versin.
(Bu halda Həçər xanьm, Şəmsi bəj, Zöhrə xanьm və Hejdərqulu daxil olurlar.)

Piri baba

Həçər xanьm coq xoş gəlmisiniz, səfa gətirmisiniz. Bujurunuz, bujurunuz...
(Cəngiz onlara əl verir.)

Həçər xanьm

Bəs Jasəmən və Qəmər hanь?

Cəngiz

Onlar indiçə meşəjə gəzməjə getdilər.

Həçər xanьm

Oqlum bəs sən nə yçyn getməmisən?

Cəngiz

Mən məktəb joldaşьm Fərmanь gözləjirəm, onunla dərslərimizi mytaləə edəçəjik.

Şəmsi bəj

Ana mən də meşəjə gedirəm.

Həçər xanьm

Get Jasəməngilə də xəbər et gəlsinlər. Vaqt joqdur tez gedəçəjik. (Şəmsi bəj gedir.)

Piri baba

Nejə o səfərki kibi tələsirsiniz?

Həçər xanьm

Xalam naxoşdur. Hejdərqulunu bizim dalьmьzça göndəribdir.

Piri baba

Allah şəfa versin, Hejdərqulu, Zylejxa xanьmьn naxoşluqu nədir?

Hejdərqulu

Sojuq dəjmədir. Qorgusu joqdur. Piri baba, xanьm mənə gojərti tapşьrmьşdьr.

Piri baba

Get xanьma nə lazьmdьr jьq. (Hejdərgudu gedir.)

Həçər xanьm

Piri baba, icəri gedək. Sizə deməli sezym var. (Kumaja girirlər.)

Zəhrə

(Cəngizin əlindən dutub)

Cəngiz səni dəjmək lazьmdьr.

Cəngiz

Dəj.

Zəhrə

Səni sevmək lazьmdьr.

Cəngiz

Sev.

Zəhrə

Bəs sən.

Cəngiz

Əfsus ki, mən də sevirəm.

Zəhrə

Necin əfsus Cəngiz, məhəbbət bir elə devlət, bir elə ne'mətdir ki, allah onu ən bəjəndiji dostuna baxş elər.

Cəngiz

Gərynyr ki, mən onun dostu dejiləm. Dosta bir belə bəla, çəfa vermək rəvamidir?

Zəhrə

Cəngiz, bəlanь, çəfanь özynə sən özyn cəkdirirsən. Nə ycyn mənim kibi yrəjijin dalьnça getməjirsən?

Cəngiz

Cynky mane olan səbəb coqdur.

Zəhrə

Bilirəm jenə dejəçəksən sən dyşmanьmьz Şahbaz bəjin qьzьsan. Sən bir bəj qьzь mən bir rəijjət oqlu. Cəngiz, məhəbbət aləmində bəj, gəda joqdur. Mən səni sevirəm, sən də məni. Başqalarь bizə nə lazьmdьr? Mən məhəbbət uqrunda hər şejdən kecirəm. Mən sənlə nərəjə istəjirsən getməjə hazьram. Bir başqa ölkəjə gedək, orada bəxtijar jaşajaq. Əjər bunu etməsən sən də mən də tələf olaçajьq.

Cəngiz

Zəhrə, nə demək istəjirsən?

Zəhrə

Onu demək istəjirəm ki, bu gyn səni həbs edəçəklər. Gəlmişəm səni xəbərdar edəm.

Cəngiz

Məni kim həbs edəçəkdir?

Zəhrə

Qəza naziri Səfi bəj.

Cəngiz

Səfi bəj məni nədə myqəssir edir?

Zəhrə

Guja sən həkymətin əlejhinə işləjirsən.

Cəngiz

A... bu hijlə ilə Səfi bəj məni tələf etmək istəjir. Sən bunu kimdən eşitmisən?

Zəhrə

Səfi bəj özy dedi. Kecən səfər buraja gəlməjimiz ona mə'lum olmuşdur. Məndən və Şəmsidən bəjyk

silist etdi və tapşırdı ki, sənlə əlaqə etməjək. Əks halda bizi də həbs edəçəkdir. Indi gəlmişik səni xəbərdar edib qacırdaq.

Cəngiz

Zöhrə, sizin bu fədakarlıqlı ölənə kibi unutmaram. Ələlxysus Şəmsi bəji; onda siz buradan tez gedin joqsa fəlakətə dyşərsiniz.

Zöhrə

Anamgil getsin mən getməjəçəjəm.

Cəngiz

Nə ycyn?

Zöhrə

Ah Cəngiz... gərynyr sən mənim məhəbbətimə inanmırsan. Inansajdın bu sualı mənə verməzdin. Sən fəlakətə dyşdykdə, mən kənardanmı baqım?

Cəngiz

Zöhrə, əqilli ol. Elə iş etmə. Nahaq jerə özyny bəlaja salma.

Zöhrə

Aqil olub qorqaqlar tək çanmı salamat saqlamaqdan, eşq çynuni olub sevgilim ilə həbsxanaja dyşməji ondan əfzəl bilirəm.

Cəngiz

Zöhrəm, ej parlaq ulduzum. Sənə jəmin edirəm ki, əjər bu bəladan xilas olaramsa, sənin arzını jerinə jetirərəm.

(Şəmsi bəj, Qəmər və Jasəmən daxil olurlar. Qəmər Cəngizin bojnunu quçaqlajıb aqlajır.)

Cəngiz

Aj dəli baçım, nə ycyn aqlajırsan?

Qəmər

Ah səni dutmaq istəjirlər, zindana salmaq istəjirlər. Joq, joq qojmaram. Səni hec kəsə vermərəm.

Cəngiz

Qəmər sakit ol, gəryrsən qardaşını nə dutublar və nə də həbsxanaja salıblar.

Jasəmən

Cəngiz əhvalatı bilirmisən?

Cəngiz

Bilirəm. Zöhrə xanım söjləjibdir.

Qəmər

(Zöhrə xanımı öpərkən.)

Zöhrə bizə etdijin jaqşılıqı ölənə kibi unutmaram.

Jasəmən

Bəs Həçər xanım hanı?

Zöhrə

Icəridə Piri babanın janındadır.

(Jasəmən icəri girir.)

Cəngiz

Şəmsi bəj bu gyn siz bir jaqşı insan olduqunuzu mənə sybut etdiniz. Dyşmana jaqşılıq etmək hər kişinin işi dejil.

Şəmsi bəj

Mən özymy sizə dyşman hesab etmirəm və sə'j edirəm ki, atalarımızın ədavəti biz evladlarına kecməsin.

Cəngiz

Mən də o fikirdəjəm.

(Piri baba, Jasəmən və Həçər xanım kumadan cıqırlar.)

Həçər xanım

Oğlum Cəngiz biz qoçalar belə qət' etdik ki, səni özymyz ilə aparaq.

Zöhrə

Çox gözəl fikirdir.

Şəmsi bəj

Ondan başqa carəsi joqdur.

Cəngiz

Mənim barəmdə etdijiniz fədakarlıqdan artıqça məmnun olub təşəkkyr edirəm. Fəqət məni əfv edəsiniz, təklifinizi rədd etməjə məcburəm.

Həçər xanım

Nə ycyn?

Cəngiz

Cynky sizləri də fəlakətə salmaq istəmirəm. Bu saat mənim joldaşım Fərman gələçəkdir. O Kijevə qajıtmaq istəjir. Mən də onunla gedərəm. Joqsa burada qalsam məni arajıb taparlar.

Piri baba

Cəngizin fikrini mən də bəjənirəm. Siz Həçər xanım tez gedin, burada olmaqınız acılmasın.

Həçər xanım

Onda uşaqlar gedək.

Zöhrə xanım

Ana mən Qəməri tək qojmaq istəmirəm. Izn ver bu geçə burada qalım.

Həçər xanım

Joq, izn verə bilmərəm. Cəngiz gedəndən sonra gəlib nə qədər istəsən qalarsan.

(Hejdərqulu daxıl olur.)

Hejdərqulu

Həçər xanım gedək joqsa Zylejxa xanım təşvişə dyşər ki, nə ycyn geç gəldilər.

Həçər xanım

Gedək. Salamat qalınız, allah sizə jar olsun.

Piri baba

Allah sizdən razı olsun, mən qoçanı jaddan çıqarmırsınız.

(Zöhrə Qəməri quçaqlajıb ağlajır.)

Qəmər

Qəm etmə inşaallah jenə göryşəçəjik.

Şəmsi

(Qəmər əvəzinə Zöhrəjə əl verib)

Qəmər bəjim xydahafiz.

Qəmər

Ha-ha-ha...

Jasəmən

Jenə nəjə gylyrsən a dəli qız?

Qəmər

Neçə gylməjim, Şəmsi bəj Zöhrəjə əl verib dejir Qəmər bəjim xydahafiz. (Gylyşyrlər.)

Piri baba

Qəmər jaqşı etdi ki, bizi gyldyrdy. Səfərə gedəni gylər yz ilə jola salmalı.

Həçər xanım

Xydahafiz. (Gedirlər.)

Cəngiz

Qəmər çəld camadanı icəridən gətir, kitablarımı qoj, camaşırlarımı gətir. (Qəmər gedib gətirir.)

Jasəmən

Anan ölsyn, zalımlar səni qojmadılar bu yc aj jajı rahat jejib, icib gəzəsən.

Cəngiz

Qəm etmə ana, bu gyn, sabah həkim olub gələçəjəm və sizləri gətyryb başqa bir şəhərdə təbiblik edəçəjəm. Qəmər, kitabları altdan qoj. Camaşırları ystdən.

(Səfi bəj iki strazmik ilə daxil olur.)

Jasəmən

Uj, bizdən nə istəjirsiniz. Nəjə gəlmisiniz?

Səfi bəj

Bu quldur juvasının daqıtmaqa gəlmişəm. Bunu mən gərək ijirmi il bundan əqdəm edəjdim.

Piri baba

Onda edə bilməzdin; cynky Əlimərdan saq idi.

Səfi bəj

Indi oqlunu da onun janına göndərərəm.

Cəngiz

Səfi bəj, kyj qalmaqal edib nə ycyn arvadları qorqudursan? Nəjə gəlmisiniz?

Səfi bəj

Onu həbsxanada bilərsən. Qacmaqa hazır olmaqından gərynyr mənim gəlməjimi sənə mə'lum etmişlər. Piri kişi, siz ilə işim sonradır. Cəngizi alın.

Jasəmən

(Səfi bəjin qabaqında diz ystə cökyr)

Səfi bəj, məni balalarının başına cevir, oqlumu əlimdən alma.

Cəngiz

Ana qalq. Belə alcaqların önyndə diz ystə cökmə. (Strazniklər Cəngizi araja alırlar, Qəmər Cəngizdən japışıb.)

Qəmər

Qojmaram.

Səfi bəj

Əllərinə qandal vurun. (Qəmər Cəngizin əllərini dutub.)

Qəmər

Qojmaram.

Cəngiz

Baçım sakit ol, qoj vursunlar.

Qəmər

Səfi bəj məni qardaşım ilə barabar zindana apar.

Səfi bəj

Əlimərdandan tərəjən quldur olar ja ysjancı. Səbr et sən də oraja gedəçəksən, anan da, bu Piri baban da.

Piri baba

Qəmər, Jasəmən, Cəngiz belə şəxsə jalvarmaq lazım dejil. Səfi bəj fələjin işini bilmək olmaz. Bu gynky şad jarın aqlar. Bu gynky hökm edən baş, jarın ajaqlar altında tapdalanar.

Səfi bəj

Sus qoça kaftar. Joqsa o ajaqlar altında tapdalanan baş öz başın olaçaqdır.

Jasəmən

(Cəngizin bojnunu quçaqlajaraq.)

Oqlum, kaş anan kor olajdı, səni qolu baqlı görməjəjdi.

(Cəngizi aparırlar.)

Cəngiz

Qəmər haraja gəlirsən?

Q ə m ə r

Mən də sənlə gedirəm.

C ə n g i z

Baçım qajıt.

(Piri baba gedib onu quçaqlajıb qojmajır, Səfi bəjgil qapıdan çıqıb gedirlər.)

Q ə m ə r
(qışqırır)

Baba buraq, joqsa özümy öldyrərəm.

P i r i b a b a

Jasəmən, gəl qızını qojma mən baçarmıram.

J a s ə m ə n

Qızım sakit ol, allah kərimdir, qardaşın tezliklə qurtaraçaqdır.

(Qəmərin yrəji bitab olur, Jasəmən yzynə su çırpır.)

Ç ə b i
(daxil olur)

Qəmərə nə olmuş?

J a s ə m ə n

Çəbi, Cəngizi Səfi bəj dutub həbsxanaja apardı:

Ç ə b i

Nə dejirsən. Coqdanmı getdilər?

J a s ə m ə n

Elə indiçə.

Ç ə b i

Bu saat Cəngizi burada Gərərsiniz. Mən getdim.

(çəld qapıdan çıqır.)

Q ə m ə r
(zəif səslə)

Ana Çəbi lələ nə dejirdi.

J a s ə m ə n

Çəbi getdi, dedi ki, Cəngizi bu saat gətirəçəjəm.

P i r i b a b a

Özyny nahaq jerə ölymə verəçəkdir. Bir tək Çəbi yc mysəlləh adamın əlindən dustaqmı ala bilər.

J a s ə m ə n

Çəbi Cəngizi coq istəjir. Doqrudan da onun xilası ycyn özyny ölymə verəçəkdir.

Q ə m ə r

Çəbi ləläni mən də coq istəjirəm. Yrəji coq nazik insandır. Bizim çymləmizi coq istəjir. Bu halda bir neçə tyfəng acılır.

J a s ə m ə n

Aman jarəb, bu gyllələri Çəbi lələjə atdılarmı?

Q ə m ə r

Jazıq lələ, səni çəlladlar öldyrdylərmi?

P i r i b a b a

Demədinmi nahaq jerə özyny gudaza verəçəkdir. Qoj gedim gərym neçə oldu?

Q ə m ə r

Joq baba, qojmaram, səni də öldyrərlər.

P i r i b a b a

Mənim diri qalmaqımdan nə fajda var? çavanları gora göndərib mənmi saq qalaçaqam?

J a s ə m ə n

Piri baba, biz iki arvadı pənahsızmı qojmaq istəjirsən.

Q ə m ə r

Ah... Bu carxi-fələk biz zavallıdan nə istəjir?

(Aqlajır.)

(Bu halda Əlimərdan cijnində tyfəng dəşyndə iki qatar patrondaş daxil olur.)

Jasəmən

(çəld qalğıb ona tərəf gedir)

Sən... Kimsən...

Əlimərdan

Kyrd qızıb, məni tanımırsan?

Jasəmən

(qışqırıb onun ystynə atılır.)

Əlimərdan.

Piri baba

Jasəmən nə dejirsən? Ölv də dirilərmi?

Əlimərdan

Əmi ölv dirilməz. Əlimərdan dirilər.

Piri baba

(onu quçaqlajıb öpyr)

Əlimərdan, gör Qəmərin nə gözəl qız olmuş.

Əlimərdan

(onu öpərkən)

On beş ildir ki sizdən ajrılmışam. Qızım mənsiz gynynyz neçə kecib. Dyşmanlarım sənə sataşmamışlar ki?

Qəmər

Ata. Cəngizin baçısına sataşmaq olmaz. Ah ata, kaş bir az tez gəlmiş olajdın, Cəngizimi məqrur dyşmanın əlindən alajdın.

Əlimərdan

Qəm etmə qızım, məqrur dyşman çəzasına catdı. Qardaşın bu saat gələr.

(Cəngiz, Ibad və Çəbi lələ daxil olur.)

Qəmər

Cəngiz gəldi. (Gedib bojnunu quçaqlajır.)

Ibad

Qəmər, məni tanımırsan?

Qəmər

Ah Ibad dajım. (onu quçaqlajır.)

Jasəmən

Ibad, qardaşım. (Bojnunu quçaqlajıb aqlajır.)

Ibad

Baçım nə yçyn aqlajırsan?

Jasəmən

Neçə aqlamajım. Sizin ikinizin də ölym xəbəri gəlmişdi. Indi bizimcin jenidən dynjaja gəlmişsiniz.

Ibad

Baçım o sizə jalan xəbəri cıqaran Səfi bəj də, bizi bu bəlalara salan Şahbaz bəj də çəzalarını aldılar. Baçım görməli idin neçə Şahbaz bəj ajaqlarıma dyşyb jalvarırdı ki, məni öldyrmə, onsuz da mən bidərman azara dyşmyşəm, bu gyn, sabah öləçəjəm. Dedim onda qoj səni bu əzijjətdən xilas edim. Tyfəngimin beş gyllәsini də onun yrəjinə boşaltdım. Ruhun şad olsun ej qejrətli nişanlım Qəmər. Ibad intiqamını dyşmandan aldı.

Cəngiz

Qəmər, hərgah Çəbi lələ tez atamgilə xəbər verməsəjdi indi məni burada saq görməjəçəjdin.

Qəmər

Saq olsun Çəbi lələ.

P i r i b a b a

Məjər sizin gəlməjinizi Çəbi bilirdi?

I b a d

Bilirdi, ançaq Əlimərdan tapşьrmьşdь ki hələ xəbər verməsin.

Ə l i m ə r d a n

Topal al bunu. (Pul verir.)

Ç ə b i

Saq ol sahib.

Ə l i m ə r d a n

Kyrd qьzь, mən gəlmişəm sizi aparmaqa. Tez ol hazьrlaş. Bu ittifaqdan sonra sizi burada qojmaq olmaz.

J a s ə m ə n

Bizi haraja aparaçaqsan.

Ə l i m ə r d a n

Irana, Arazьn o tajьna. Joldaşlarьm bu saat bizi meşədə gəzləjirlər. Gərək sybh acьlьnça Iran topraqьnda olaq. Daha durma. Çəld ol. Bir dəst paltardan və dəjişəçəkdən sivajь hec bir zad gətyrmə. Uşaqlar siz də gedin yst paltarlarьnьzь gətyryn. (Cəngiz və Qəmər gedirlər.)

I b a d

Piri baba sən də hazьr ol.

P i r i b a b a

Mən bu sinnimdə haraja gedib cьqaram.

I b a d

Piri baba, qorquram sənə əzijjət verələr.

Ə l i m ə r d a n

Mənim qorqumdan hec kəs əmimə əzijjət verə bilməz, ançaq uşaqlar gedirlər ona burada kim qulluq edəçəkdir.

P i r i b a b a

Oqlum, Çəbini də aparьrsan?

Ə l i m ə r d a n

Joq, Çəbi burada qalaçaqdьr.

P i r i b a b a

Onda məndən arxajьn ol.

Ə l i m ə r d a n

Əmi qorqma. Uşaqlarь Iranda qojub özym dəstəm ilə bu taja kecəçəjəm. Mənim hənyrtym gələn jerdə hec kəs çyr'ət edib sənə jaqьn dyşə bilməz.

(Jasəmən, Cəngiz və Qəmər gəlirlər.) Daha durmajьn gedək. (Topal Çəbi lələ dəsmala baqlь xijar ilə gəlir.)

Ə l i m ə r d a n

Topal o nədir?

Ç ə b i

Xijardьr sahib, uşaqlara jьqmьşam, jola gətyrsynlər.

Q ə m ə r

Saq ol Çəbi lələ! Baq Piri babadan myqajat ol.

Ç ə b i

Baş ystə xanьm.

Ə l i m ə r d a n

Daha durmajьn gedək. Topal şejlərdən gətyr. Əmi xydahafiz. Qəmi etmə, jenə gəryşəçəjik. (Piri baba ilə xydahafiz edib gedirlər)

P i r i b a b a

(jalnьz)

Kumanьn bylbylləri ucub getdi.

PƏRDƏ

BEŞINÇI PƏRDƏ

BIRINÇI ŞƏKIL

Dördyncy pərdədən yc il kecmişdir. Səhnə meşə icində bir bulaq gəstərir. Pərdə qalqdьqda Ş ə m s i b ə j, Q ə m ə r, Z ə h r ə x a n ь m və Ç ə b i gəryнyr.

Q ə m ə r

Sejrə cьqanьn çymləsi gərək işləsin. Şəmsi beladirmi?

Ş ə m s i

Bəli eladir.

Q ə m ə r

Onda dinləjin, hər birinizin vəzifəsini dejim. Sən Zəhrə burada qalьb syfrəni hazьr edəçəksən. Əti kabablьq doqrajьb, duzlajaçaqsan...

Z ə h r ə

Əti mən tək neçə doqrajaçaqam?

Q ə m ə r

A Zəhrə xanьm dejək ki, gimnazjada sənə qajqanaq bişirməji өjrətməmişdilər, onun ycyn də jumurtanь suja calьb sonra jaq tokmyşdyn. Bəs ət doqramaqa nə dèjirsən? (Gylyşyrlər.)

Z ə h r ə x a n ь m

Çanьm bir insaf edinizi, tək adam neçə ət doqraja bilər? Gərək biri əti dutsun o biri bьcaq ilə kəssin. Çəbi lələ beladirmi?

Çəbi

Bəli xanım elədir. Siz zəhmət çəkməjiniz, azardan jeni durmuşsunuz. Mən bunların hamısını yzəldərəm.

Qəmər

Çəbi lələ doqru dejir. Zöhrə sən balışının başının altına qoj uzan, kitab oqu. Biz də sənin əvəzinə işləjərik. Çəbi lələ sən meşədən odun gətir, oçaq qala, biz də Şəmsi ilə kabab ycyn cubuq kəsək, şiş hazır edək. Şəmsi tyfəngini gətyr, bəlkə baxtımız gətirdi, rastımıza av cıqdı, sən də atıb səhvən vurdun. (Gylyşyrlər.)

Zöhrə

Davşan əhvalatı bu yc ildə hələ jaddan cıqmajıbdır.

Qəmər

Xajır hec vaqtı cıqmaz. Hazır ol. İləri arş. (Gedirlər.)

Zöhrə
(jalnız)

Gediniz, gediniz ej iki baxtijar çavan. Siz də mənimlə bahəm bu yc il qanlı toqquşma, uruşma icində min dyrly əzijjət, məşəqqət cəkdinizsə axırda məramınıza nail oldunuz. Bu gyn, sabah iki xoşbaxt quşçıqaz kibi ucub özynyz ycyn jeni bir juva tikəçəksiniz. Orada şad və xyrrəm ömr syrəçəksiniz. Fəqət mən, vərəmli qızçıqaz öz arzıma catmajıb eşq atəşində şam tək ərijib bu gyn sabah sönəçəjəm. Ej fələk tökdyjym bu qanlı göz jaşıma rəhm et. Ja visalə tez jetir məni, ja al bu çanımı. Cəngiz, sevgilim. Tam yc ildir ki, səndən bir xəbər joqdu. Məni ölmyş sanıb çalajı-vətən oldun. Nərədəsən ej çəfalı, ej bəlalı aşiqim? Zöhrənin nalasin eşidirmisən? Ah, yrəjim gedir. (Jerə jıqılıb qəşş edir, səhnə bir myddət sykut icində qalır, sonra Cəngiz səjjah libasında əlində bir əl camadanı daxil olur. Bulaqdan su icir.)

Cəngiz

Ah nə sərin nə dadlısan ej vətənimin gözəl ceşməsi. Ölmyş ruhuma, jorqun çismimə jenidən bir həjat verdin. Nə həzin sədan gəlir, ej sevimli bulaqım. Səni bir nazənin pəri coq sevərdi. Məni tez-tez buraja gətirərdi. Ah xatıratım məni boqur. Zöhrəm ej parlaq ulduzum. Nə tez söndyn. Cəngizin gəlmiş, məçnun tək məzarını quçub jorqun ruhunu, sınıq qəlbini sənə təslim etsin. (Bylbyl oqujur.) Otyş, ötyş ej mənim tək möhnəti-jardan fəqan ejləjən bylbyl. Ej həmdərd rəfiqim. Bu bahar aləmi icrə insanlardan uzaq. Jar ycyn nalə etməkdə jalnız dejilsən. (Zöhrəjə tərəf gedir, onu göryb.) Ah bu röjamı ja həqiqətən Zöhrəmi burada jatmış göryrəm. Jarəb bu nə sirr? Demək Zöhrə ölməmiş. Irana jalan xəbər gəlmiş. Ah nə böjyk səadət. Qoj ojadım. Nə şirin ujquja batmış. Joq ojatma. Qoj bir qədər ujusun.

Ah şair nə gözəl dejir:

Əsmə dur əsmə ej nəsimi-bahar,
Ujujor jari-işvəkar ujujor.
Dalqalandıqda zylfi-zərrin tar
Sarıjor pənbə hysny altın nur.
O gözəl cöhrənin əsiri ikən
Əçəba qısqanırmısan məndən?
Əsmə, dur, dur! buraq, buraq ujusun,
Nevbəharın şu nazənin qızını.
Ötyşən quşlar iştə siz də susun
Susun artıq, şu Zöhrə jıldızını.
Seir edin iştijaqy həsrət ilə
Bu gözəl levhə sonra dyşməz ələ.
Gynəş, ej xilqətin gözəl gəlini
Ujujor, iştə nazlı həmşirən.

Sən də dur, sacma bir zijalarьnь
Sən də bir an icin cəkil gizlən.
Bir az əjlən bulutlu dynjada
Mane olma bu tifli-nevzadə.
Ujujor... uf, ej bəlalь gənyl
Carpьnьb durma. Sən də sus artьq.
Durma sus, iştə susdu həm bylbyl
Dur həjatim də getsə dur azaçьq.
Ujujor cynky aşinaji-xəjal
Ujujor cynky qajeji-amal.

(Zöhrə ojanьr)

Z ö h r ə

Ah məni öldyrmə.

C ə n g i z

Zöhrə, ej mənim sevimli dilbərim. Məni tanьmьrmьsan.

Z ö h r ə

Ah, Cəngiz. (Bojnunu quçaqlajьb aqlajьr.)

C ə n g i z

Nə ycyn aqlajьrsan ej parlaq ulduzum?

Z ö h r ə

Nə ycyn aqlamajьm, tam yc ildir ki, fəraq odu-na janьb nalə etmişəm. Indi bu tökdyjym göz jaşь visal ycyndyr. Mane olma.

C ə n g i z

Zöhrə, sən dirilmişsən, ah nə böjyk səadət.

Z ö h r ə

Ölən mənim əmin qьzь Nəçiбə idi. Kim isə sizə janlьş xəbər vermişdir.

C ə n g i z

Ah Zöhrəm, bilirmisən mən nələr cəkmişəm. Ölym xəbərin gəldikdə özymy həlak etmək istədim, Qə-mər mane oldu. Sonra atam və dajьm dutulub qətl olundular. Mən də Irandan qaчьb əçnəbi ölkəjə get-

dim. Almanjada həkimliji bitirdim. Fikrim bu idi ki, hec vətənə qajьtmajьm; cynky sənsiz vətən mənə viranə idi. Fəqət dözəmədim. Topraq məni çəkib gətirdi.

Z ö h r ə

Indi bizi bir birimizdən ançaq qəbr ajьra bilər.

C ə n g i z

Xajьr o da baçarmaz. Mən sənsiz diri qalmam. Zöhrə səni gördykdə çymləni unutdum, başqalarьnь sormadьm.

Z ö h r ə

Hamьmьz səlamətik. Indi biz burada jaşajьrьq; cynky Zylejxa xalam vəfat etmiş, mylky anama qalmьşdьr.

C ə n g i z

Bəs sən, tək tənha burada nə qajьrьrsan?

Z ö h r ə

Şəmsi ilə Qəmər mənim kefimi acmaq ycyn bu-raja sejirə gətiriblər. Onlar meşəjə getmişlər. Cən-giz, Şəmsi ilə Qəmər nişanlьdьrlar. Jaqьnda tojla-rь olaçaqdьr.

C ə n g i z

Biz də edərik bəlkə...

Z ö h r ə

Nə?

C ə n g i z

Başqasьna söz vermisən?

Z ö h r ə

Cəngiz, məni elə bivəfa sanьrsan?

C ə n g i z

Əfv et gözəlim mən zarafat edirəm.

Z ө h r ə

Sənin gəldijindən anamgilin xəbəri varmь?

C ə n g i z

Xajьr kimsə bilmir. Buradan gəldim ki, bulaqdan su icib evə gedəm.

Z ө h r ə

İndi Qəmərgil gələçəklər. Gəl ona kibi syfrəni hazьr edək. Əti doqrajaq.

C ə n g i z

Coq gözəl. (Syfrəni salьb boşqablarь dyzyrlər.)

Z ө h r ə

Fələjin işini bilmək olmaz. Bir az bundan iləri dynja mənim ycyn bir çəhənnəm idi, indi isə istəjirəm onu quçub өpəm.

C ə n g i z

Mənçə səadət ibarətdir məhəbbətdən. O olarsa, dynja bir çənnətdir. Olmazsa jaşamaqьn mə'nasь joqdur.

Z ө h r ə

Mən də o fikrə şərikəm.

C ə n g i z

Hazьr etdik, indi sən dur get jat. Gula mənim gəlməjimdən xəbərin joqdur. Gərək Qəmər nə edəçəkdir. Jəqin gedib səni ojadaçaqdьr. Sən ojandьqda mənə məhəl qojma.

Z ө h r ə

Jaqşь dejirsən.

Q ə m ə r

Çəbi lələ, au...-u-u..

C ə n g i z

Zəhrə tez ol jat. (Zəhrə gedib aqaçьn dalьnda uzanьr.)

Q ə m ə r

A-u-u-u-...

C ə n g i z

A-u-u-u-...

(Şəmsi bəjlə Qəmər daxil olurlar.)

Q ə m ə r

(Cəngizi gərməjib)

Aj saq ol Çəbi lələ hər şeji hazьr edibdir.

C ə n g i z

Siz də saq olunuz aj mənsiz sejrə cьqan çavanlar.

Q ə m ə r

Cəngiz (Atьlьb bojnuna sarьlьr buraqmaq istəməjir.)

C ə n g i z

Baçьm qoj Şəmsi ilə də göryşym.

Q ə m ə r

Doqrudan sən Cəngizsən?

C ə n g i z

Xajьr mən Cəngizin kəlgəsijəm.

(Şəmsi ilə өpyşyrlər.)

(Qəmər Şəmsini kənara cəkib pьcьldaşьrlar.)

C ə n g i z

Orada nə pьcьldaşьrsьnьz?

Q ə m ə r

Cəngiz sənə bir xəbər verəçəjəm. Amma deməjə qorquram.

Cəngiz

Qorqma baçьm de.

Qəmər

Baq yrəjini bərk saqla, qorqma... Belə... Zöhrə... saqdьr. Ölməjibdir...

Cəngiz

Ah yrəjim. (Əllərini yrəjinə qojur.) Joq sən məni aldadьrsan.

Qəmər

Vallah aldatmьram. Bu saat gətirim, gör. (Gedib Zöhrəni durqузur.) Zöhrə dur kabab hazьrdьr.

Zöhrə

Mənim xatьrьm kabab istəmir, qoj jatьm.

Qəmər

(onun əlindən dutub qaldьrьr)

Belə sənə kababdan şirin şej verəçəjəm. O da sevgilin Cəngizin aquşu. (Onu cəkə-cəkə gətirir.) Indi gördynmy doqru dejirəm.

Zöhrə

Cəngiz?

Qəmər

Zöhrə, Zöhrə ojan belə juqu dejil ej doqrudan da Cəngizdir göryrsən.

Zöhrə

Cəngiz xoş gəlmisən. Sələmətmisən?

Cəngiz

Təşəkkyr edirəm xanьm əfəndi sələmətəm.

Şəmsi

Baçьm Zöhrə nə edirsən? Yc ildən bəri ajrьlmьş sevgilin ilə beləmi göryşyrsən?

Qəmər

Coq gözəl dedin. Ej bunun eşqindən məçnun olan qardaşьm. Bu hissiz qurumuş çəsədə bənd olmuşsan?

Cəngiz

Bəli baçьm, əfsus ki, bu bivəfa Lejlaja bənd olmuşam. (Zöhrə və Cəngiz gylyşyrlər.)

Qəmər

Aha bunlar bizi ələ salьblar. Coqdan göryşyb öpyşyblər.

(Bu halda Çəbi lələ daxil olur.)

Çəbi

Vaj Cəngiz, Cəngiz. (Gah gylyr, gah gözlərini silir.) Mən gedim xanьmlarь muştuluqlajьm.

Cəngiz

Joq lələ, hələ kababь bişirək jejək, sonra bir jerdə gedərik. Sənin haqqьn bizim bojnumuzda coqdur. Səni lazьmьnça razь edəçəjik.

Çəbi

Allah sizi salamat etsin. Mənə də o qədər ömr versin ki, Qəmər xanьmьn uşaqlarьna lələlik edim.

Cəngiz

Çəbi lələ burada yz görəlik etdin ha. Bəs mənim uşaqlarьma?

Çəbi

Sənin uşaqlarьna da edərdim, ançaq qorquram verməjəsən.

Cəngiz

Nə ycyn?

Çəbi

Sən abrazonnьsan. Uşaqlarьna da rus matьşqasь dutaçaqsan. O da məni jaqьna qojmajьb dejə-

çək. Ej birit başqa, barancuq netorqaj. (Gylyşyrlər.)

Q ə m ə r

Çəbi lələ netorqaj nədir?

Ç ə b i

Jə'ni uşaqa dəjmə.

C ə n g i z

Joq Çəbi lələ, elə iş olmaz. Neçə məni saqlamısan, elə də uşaqlarımı saqlajaçaqsan. Göryrəm rusça jaqşı bilirsən. Ona görə səni öz janımda feldşer edəçəjəm.

Ç ə b i

Oturunuz bu saat kabablınızı bişirib gətirim. (Əjləşirlər, Çəbi lələ kabab gətirir, onlar da şişdən çəkib jeyirlər.)

Ş ə m s i

Cəngiz naqıl et görək harada qalmışdın və nə səbəbə bizə məktub jazmajırdın.

C ə n g i z

Şəmsi, başım coq bəlalar çəkmişdir, buradan gedən zaman əhvalım coq pərişan idi, ona görə də yc aj əçnəbi vilajətlərini sijahət etdim ki, bəlkə qəm və qyssədən bir qədər azad olam. Sonra Almanjada tibb faqultəsinə girib təhsilimi bitirdim.

Q ə m ə r

Ah sən nə daş yrəkli qardaşsanmış. Məni hec jad edirdinmi?

C ə n g i z

Neçə etmirdim. Fotoqrafına baqdıqça hər zaman səni qarşımda göryrdym.

Q ə m ə r

(Zöhrəni göstərərək.)

Bəs bu xanımın rəsmini?

C ə n g i z

O xanımın rəsmi yrəjimin ən dərin bir guşəsində məskən etmiş, onu oradan çıqartmaq qeyri-mymkyndyr.

Q ə m ə r

Demək indi sən həkimsən?

C ə n g i z

Bəli.

Q ə m ə r

Onda qulaqlını yrəjimə qoj gör nə səbəbə belə carpınır. (Cəngiz baqır, Qəmər onun başını quçub öpyr.)

Q ə m ə r

Ha-ha--ha... tapa bildinmi?

C ə n g i z

Tapdım, baçım xəstəlijin coq jamandır. (Çəbi lələ kabab gətirir.) Gərək pəhriz saqlajasan. Ələlxysus Çəbi lələnin gətirdiji bu kababdan. (Gylyşyrlər.)

Q ə m ə r

O həkimliji bu xanıma elə.

C ə n g i z

Bil'əks bu xanım gərək hər səhər caj əvəzinə bir şiş kabab jejib ystdən bir istəkan qırmızı şərab icsin ki, hala gəlsin.

Ç ə b i

Jeyə kabab gətirimmi?

Q ə m ə r

Joq lələ bəsdir, al bu cörəji də kabab bişir je. (Çəbi alıb səhnənin dalına gedir.)

Z ə h r ə

Bilmirəm Cəngizin gəlmək xəbərini anama nə tevr verəçəjik. Axır zamanlarda yrək getmə azarına dyşybdyr. Geçələr ojanıb birdən gizlin Cəngiz, Cəngiz dejə aqlajır.

Q ə m ə r

Mənim anam ondan gerijə qalmaz. Indijə kibi mən onu aldatmışdım ki, Cəngizi Istambulda gərən olubdur. Orada oqujur, qurtaran kibi gələçəkdir. Jaqşı oldu ki sözym jalan olmadı.

Q ə m ə r

Gedək, zavallı analarımızı şad edək. Çəbi lələ, Çəbi lələ.

Ş ə m s i

Çəbi lələ au-u-u-u-u...

Q ə m ə r

Çəbi lələ au-u-u-u...

Z ə h r ə

Nahaq jerə boqazlarınızı jırtmajın. Çəbi lələ jəqin evə qacmışdır ki, Cəngizin myzdəsini versin.

C ə n g i z

Hajdı gedəlim.

Q ə m ə r

Gedək.

Z ə h r ə

Bəs bu boşqabları kim aparaçaq?

Q ə m ə r

Sən indi də mənə naz edəçəksən? Istədijin bu idi o da gəlib cıqdı.

C ə n g i z

Bəhs etmək lazım dejil, hamısını mən apararam.

Q ə m ə r

Sən allah, sən bunu xarab eləmə, qoj işləməji öjrənsin. Joqsa bu tənbəldən sənə nə arvad olaçaqdır.

Ş ə m s i

Çanım, hamısını aparıram, bəhsiniz bitsin.

Q ə m ə r

Çan! Baq ər belə olar... (Gylyşyrlər.) Şəmsi tyfəngi mən aparaçaqam, boşqabları sən.

Ş ə m s i

Ejbi joqdur apararam. Mənim kibi avcının gərək sənin kibi arvadı olsun. (Gylyşyrlər. Boşqabları Qəmər baqlajıb Şəmsijə verir özy də tyfəngi cijninə salır, Zərə xanım da Cəngizin camadanını gətyryr.)

Q ə m ə r

(əl calaraq Zöhrəjə)

Ha beləçə, gərynyr sözym sənə tə'sir etdi.

Ş ə m s i

Qəmər elə ki, qarşına sıcan cıqdı gyllənin ikisini də təpəsindən caq. (Gylyşyrlər.)

Q ə m ə r

Hazır ol. Iləri arş... (Gedirlər.)

PƏRDƏ

IKINÇI ŞƏKIL

Səhnə dördyncy pərdənin mənzərəsini göstərir. Həçər xanım ilə Jasəmən sqamjada əjləşib dərdləşirlər:

Həçər xanım

Jasəmən, Qəmər ilə Şəmsi neçə bəxtijar oldular. Onlara baqdıqda yrəjim şad olur. Fəqət Zöhrəni elə pərişan, qəmgin şikəstədil gördykdə yrəjim parələnir. Zavallı qızçıqaz Cəngizin eşqindən şam tək janıb əriJir.

Jasəmən

Jazıq Cəngiz Zöhrənin ölym xəbərin eşidib çalaji-vətən oldu. Kim bilir başına nə fəlakət gəldi. Saq olsajdı indijə kibi sədası bir jerdən cıqardı.

Həçər xanım

Atası Nadir bəjin maçərası oqlu Cəngizdə təkrar etdi. Bilmirəm bu carxı dönmyş fələk bizdən nə istəjir. Məjər bu ikj bədbaxt ailədən aldıqı intiqam kifajət etməjir ki, jenidən bizə bəla hazırlajır. Zöhrə Cəngizin fəraqına dözə bilməjib vərəmləjib.

Jasəmən

Həçər xanım, Cəngizin təvəliyd sirrini acıb Zöhrəjə söjləməlisiniz. Ta ki sakit olub axırda başqasına ərə getməjə razı olsun.

Həçər xanım

Joq, joq onda evladlarımın ikisini də qajib edəçəjəm. Onlar mənə lə'nət, nifrət edib kycələrə ataçaqlar.

Jasəmən

Onda bəs nə etməli?

Həçər xanım

Özym də bilmirəm Jasəmən. Səhərdən yrəjim iztirab icində cırpınır. Gələçək bəlanı hiss edir.

(Çəbi lələ təngənəfəs daxil olur.)

Həçər və Jasəmən

Nə var, nə olmuş?

Çəbi

Qorqmajın jaqşı xəbər gətirmişəm. Cəngiz gəldi.

Jasəmən

Ah, xydaja sənə şykyr, oqlum gəldi.

Həçər

Bəs hanı?

Çəbi

Bulaq ystə kabab jejirlər, coqdan gəlmişdi, mən istəjirdim qacıb sizə xəbər verim, Cəngiz qojmadı. Dedi Çəbi lələ kababı bişir jejək, sonra bir jerdə gedərik. Mən dözə bilmədim, onları qojub gizlinçə qacdım.

Jasəmən

Coq saq ol Çəbi lələ, həmişə belə xejir xəbər olasan. Hər nə istəsən verəçəjəm.

Çəbi

Cəngizin saqlıqı mənə hər şejdən artıqdır.

(Cəngiz, Zöhrə, Qəmər və Şəmsi daxil olurlar.)

Q ə m ə r

Ana gər sizə kimi gətirirəm.

J a s ə m ə n

Ah Cəngiz oqlum. (Bojnunu quçaqlajıb öpyr.)

C ə n g i z

Şykyrlər olsun ki gəlib çymlənizi saq və salamat tapdım. (Həçər xanım onu qucaqlajıb öpərkən bitab olur.)

C ə n g i z

Qəmər stəkəndə bir az su gətir. Həçər xanıma su verəcəjəm. (Qəmər su gətirir, Cəngiz əl camadanından dərman cıqarır, tökyb Həçər xanıma verir.)

Z ö h r ə x a n ı m

Ana sənə nə oldu?

H ə ç ə r x a n ı m

Qorqma qızım, həmişəki yrək dəjynməmdir. Indi sakit oldum.

C ə n g i z

(Həçər xanıma)

Qəm etməjiniz, sizi bu yrək dəjynmədən tezliklə xılas edəcəjəm. Fəqət zəhmət həqqimi indidən tə'jin ediniz. Mənim şərtim budur.

H ə ç ə r x a n ı m

Oqlum nə istəsən verəcəjəm.

C ə n g i z

(Zəhrənin əlindən dutub.)

Istədijim bu qızın Zəhrədir.

H ə ç ə r v ə J a s ə m ə n

Vaj.

C ə n g i z

Nə ycyn təəççyb edirsiniz? Bilmirsiniz ki, biz coqdan bir-birimizi sevirik. Fəqət atalarımızın

ədavəti buna mane' olurdu. Indi isə o ədavət bitdi. Mənim atam Əlimərdan, Zöhrə xanımın atası Şahbaz bəj intiqamə qurban olub bu iki ailənin qanlı ədavətini itmama jetirdilər. Joqsa siz analar bu dyşmanlıqın davamını istəjirsiniz?

H ə ç ə r x a n ı m

Joq, joq.

C ə n g i z

Bəs nə səbəbə razı dejilsiniz?

H ə ç ə r x a n ı m

Onu sorma, Zöhrəni sənə vermək olmaz. Sənin ycyn başqa bir qız secmişəm.

C ə n g i z

Bəli anlajıram. Şahbaz bəjin arvadı Həçər xanım qızını öz xidmətcisi Jasəmənin oqlu Cəngizə verməji özynə ar bilir.

Q ə m ə r

Həçər xanım, mənim qardaşım Cəngiz qızınız Zöhrəjə lajiq dejilsə, sizin oqlunuz Şəmsi bəj də mənə lajiq dejil. Al bu da sizin nişanınız. (Barmaqından yzyjy cıqarıb onlara atır.)

Ş ə m s i

Ah Qəmər nə edirsən? Ana Cəngiz məndən elmli, tərbijəli bir oqlandır. Nə ycyn baçımı ona vermirsən.

Z ö h r ə

Ana gərynyr mənim ölymymy istəjirsən?

H ə ç ə r

Xydaja mən açiz qadına bir belə əzijjət vermədji özynə rəva gəryrsən. Nə ycyn məni öldyryb bu əzabdan xilas etmirsən.

C ə n g i z
(rişxənd ilə)

Bəli bəjyk əzabdьr. Nəçibə bir xanьm kərimə-sini өz kənizi oqluna neçə versin?

H ə ç ə r

Cəngiz jetər, yrəjimi daha parcalama. Mən sizi өzymə lajiq bilməsəjdim Jasəmənin qьznь oqluma almazdьm. Cəngiz, mən xalamьn vəsijjətini jerinə jetirmək istəjirəm. Onun xahişi odur ki sən Əli bə-jin qьzьnь alьb bu mylkə sahib olasan.

C ə n g i z

Mən məhəbbətimi devlətə satan oqlan dejiləm. Ja Zəhrə ja өlym. Indi iki ana bunu qət' ediniz.

Ş ə m s i b ə j

Ana unutmajьnьz ki, bu işdən mənim də өmrym asьlьdьr. Ja oqlunuzu bəxtijar edəçəksiniz ja qa-jib.

(Həçər xanьm Jasəmən ilə kənara cəkilib məs-ləhət edirlər. Cəngiz Zəhrə ilə Şəmsi Qəmər ilə da-nьşьrlar.)

Ş ə m s i

Qəmər nə tez mənim nişanьmь ystymə atdьn? Gөrynyr məni sevməjirsən.

Q ə m ə r

Bəs sən istəjirsən biz xoşbaxt olaq. Cəngiz ilə Zəhrə bədbaxt.

Ş ə m s i

Xajьr, mən onu istəmirəm, fəqət burada mənim taqsьrьm nədir ki, məni bədbaxt edirsən? Indi ana-mьn fikri bizə mə'lum oldu. Əlbəttə axьrda o fikir-dən əl cəkəçəkdir. O hec vaqtь Cəngizin və Zəh-rənin bədbaxtlьqьnь istəməz.

H ə ç ə r x a n ь m

Oqlum Cəngiz biz belə qət' etdik ki, sən Piri babadan izn istəjəsən; cynky o çymlənizin qoça babasь və aq saqqalьdьr. Hər gah o bu əmrə razь olarsa biz də ona tabe olarьq.

Q ə m ə r

Coq gөzəl. Əlbəttə Piri baba buna coq şadlьqla razь olaçaqdьr.

C ə n g i z

Mən də buna razьjam. (Kumaja girir.)

Ş ə m s i

Ana, Cəngiz ali məktəb qurtarmьş bir həkimdir. O baçьm Zəhrəni məndən artьq saqlajaçaqdьr. Bu-nu bilirmisən?

H ə ç ə r

Bilirəm oqlum.

Ş ə m s i

Bəs nə ycyn razь olmursan?

H ə ç ə r

Cynky məçburam.

Z ə h r ə

Ana, Zylejxa xalam bilsəjdi ki, onun vəsijjəti mə-ni bədbaxt edəçəkdir, hec vaqtь istəməzdi.

Ş ə m s i b ə j

Bir də xalamьn vəsijjəti bizim ycyn qanun de-jil ki, onu pozmaqdan açiz qalaq.

H ə ç ə r

Evladlarьm bu işdə bir qanun var ki, onu poz-maqda doqrudan da biz açizik. (Bu halda Cəngiz dəli kibi kumadan cьqьr.)

Cəngiz

Ha-ha-ha... Hərb meydanı acılmış yenidən. Yenə myharəbə, yenə qavqa, yenə qan.

Qəmər

Cəngiz, qardaşım, kim ilə myharəbə edirsən?

Cəngiz

Yer ilə, göy ilə, çymlə çihan ilə.

Zöhrə

Cəngiz, sevgilim sənə nə olmuş? Məyər məhəbbətimiz uğrunda tökylən qan kifayət deyilmiş ki, yenə də myharəbəyə cağırırsan?

Cəngiz

Sevgilim, nazlı dilbərim, eşqim, məhəbbətim. İnsanlar qavqası bitmiş, fələk myharəbəsi başlanmışdır.

Qəmər

Cəngiz qardaşım, sənə nə olmuş ki, fələk ilə myharəbə edirsən?

Cəngiz

(Zöhrəni göstərərək.)

Bu bağıma bağladığım eşq ystə.

Qəmər

Qardaşım nə söyləyirsən? Əqlin çaşmış, bağın mənəm. (Zöhrə ilə məni qarışdırırsan.)

Zöhrə

Ah Cəngiz, dəli olmuş. (Ağlayır.)

Cəngiz

Məni öz bağıma aşiq etdirməkdən fikrin nədir ey carxı-fələk? Məcnun kibi səhra bəyabanlara sal

maq? Mənə Fərhad kibi dağ daşlarını gəzdirmək? Budur məqsəd? Məni divanə edib çöllərə salmaq? Bundan nədir haçət? Xalq gördykdə desin: bax, bax, budur gəldi, həmşirəsinə eşq-məhəbbət yetirən aşiq. Yox, yox, mən sərsəri olmam. Divanəlik, açizlər, zəiflər işidir. Cəngizlər ondan azaddır. Bağım Zöhrə, indi bil mən Cəngizəm. Atam Nadirdir, anam Həçər.

Çymləsi

Ah.

Cəngiz

Əlvida, ey umudsuz xəyalım. Eşqin uğrunda Cəngiz canını fəda edib... (Çəld tapançasını çıxarıb özyny öldyryr.)

Zöhrə

Cəngiz. (Özyny onun ystə salır. Piri baba gəlir, Qəmər qəşş edir, Şəmsi onu dutur.)

Həçər xanım

Oğlum Cəngiz, nə etdin? Mən myqəssir anan öldyryn. Sizə yalvarıram. Öldyryn. Məni bir gyləyə qurban ediniz. Neyə durmusunuz?

Piri baba

Ey zor ilə qızları özlərinə arvad edən ərlər, budur dutduqunuz əməlin nəticəsi

PƏRDƏ

BIR EŞQIN NƏTIÇƏSI

Bir pərdədə iki şəkilli pijes

Bakъ—1922

IŞTIRAK EDƏNLƏR:

K ə r b ə l a j ı N ə b i. Əlli jaşında şişman.

Ş e v k ə t. On iki jaşında qacqın bir qız. Kərbəlajı Nəbinin xidmətcisi.

P ə r i Ç a h a n. 35 jaşında. Kərbəlajı Nəbinin qulluqcusu.

M o l l a R ə h i m. } Kərbəlajı Nəbinin
M ə ş ə d i S ə f d ə r q u l u. } kirajənişinləri.

Q ı z x a n ı m. Məşədi Səfdərqulunun arvadı.

M a r a l x a n ı m. Qommunistqa.

Ə l i. Onun oqlu. Səkkiz jaşında.

Ş i r ə l i.

Iki əsgər.

BIRINÇI PƏRDƏ

BIRINÇI ŞƏKIL

Səhnə Kərbəlajı Nəbinin qonaq odasını göstərir. Otaq bəzəkli bir otaqdır. Yc tərəfdən qapı açılır.

Pəri Çahan
(odanı nizama salarkən səjlənir)

Kişilərdə hec vəfa olmazmış. Xanım ələni hec bir aj olmaz, aqa evlənmək fikrinə dyşybdyr. Jaşı da əlli beşdən juqarıdır. Xanımın vəfatından bəri şadlıqlıdan bilmir ki, nə etsin. On beş jaşında çavan kibi gah oqujur, gah ojnajır, gah gyldən dəm vurur, gah bylbyldən. Bir söz eşq başına vurmuş. Ançaq başa dyşə bilmirəm ki, bu eşq kimədir. Məndən başqa burada arvad joqdur. Aqa əvvəllərdə mənlə mazaqlaşardı. Məni çimdiklərdi. Mənə söz atardı. Jəqin bu eşq mənədir. Nə jaqşı iş olardı ki, birdən aqa məni alajdı. Bu evə xanım edəjdi. Odur oquja-oquja gəlir.

Kərbəlajı Nəbi
(əlində həna daxil olur.)

Məzəlim aj məzəlim,
Gözəlim aj gözəlim,
Mən səni coq sevərəm,
Mən səni coq sevərəm.

Aj qız ej iləri gəl.

(Pəri Çahan iləri gəlir, saqqalını göstərərək.) De görym bu nədir?

Pəri Çahan

Buj, aj aqa nə dejirsən? Saqqaldır dajna.

Kərbəlajı Nəbi

A kişilər, bu qız dyz ijirmi beş ildir ki, mənim evində qulluqcudur. Mən bu «dajna» sözyny buna tərk etdirə bilmədim. A myrtəd qızı myrtəd! Xajır saqqal dejil.

Pəri Çahan

Aqa bəs nədir?

Kərbəlajı Nəbi

Nə bilim nədir? Sypyrgə cöpydyr. Koldur, kosdur, qanqaldı. Hər nə zibil isə ançaq saqqal dejil.

Pəri Çahan

Aj aqa nə danışırsan? Yzdə də qanqal bitərmi?

Kərbəlajı Nəbi

Elə mən də onu səndən soruşmaq istəjirdim. Bu gyn məni sən kafir qızı taj-tuşlar janında bijabır etmisən. Hər kəs göryr, dejir ki, Kərbəlajı Nəbi nə bərk qoçalmısan. Balam mən hardan qoça oldum? Coq olsa coq olsa otuz, otuz beş sinnim var.

Pəri Çahan

Vaxsej, aj aqa nə dejirsən? Demək mən bu evə qulluqcu gələndə sən on jaşında uşaq idin?

Kərbəlajı Nəbi

Kəs səsini kafir qızı kafir. Dəli şejtan dejir, bu saqqalı, bıqı qırqdır, tək jerə, ijirmi beş jaşında çavan ol. Onda da dejəçəklər ki, Kərbəlajı Nəbi qommunist olubdur.

Pəri Çahan

Aqa, Maral xanьm belə bizim qonşumuz hər gyn kycədən gedəndə mənə dejir ki, gəl səni də bolşevik eləjim.

Kərbəlajь Nəbi

Aj qьz nə dejirsən? Bolşevik!

Pəri Çahan

Aqa vallah doqru dejirəm. O aqşam məşədi Səfdərqulu jenə evə pijan gəlib jazьq Qьz xanьmь dəjməjə başladь. Onun qьşqьrьqьna Maral xanьm gəlib cьqdь. Vallah aqa, Məşədi Səfdərqulunun ystə elə qьşqьrdь ki, kişi qorqusundan pijanlьqdan lap ajьldь. Maral xanьm dedi: Bir də eşidəm ki, sən arvadьnь dəjyrsən, ja inçidirsən, dutub ceqaja salaçaqam.

Kərbəlajь Nəbi

Ceqaja?

Pəri Çahan

Bəli, ceqaja!

Kərbəlajь Nəbi

Bilmirəm bu kafir qьzь haradan gəlib mənə qonşu oldu? Pəri Çahan, bolşeviklər kafirdirlər. Onlar allahь inkar edirlər. Pejqənbərə, imama, myştəhidə, pirə inanmьrlar. Birdən əqlini unudub onlara qoşularsan, onda Inkir-Minkirə nə çavab verəçəksən. Məjər çəhənnəmin odundan qorqmursan?

Pəri Çahan

Xajьr, aqa, mən elə dinsizlərə qarьşmaram, arxajьn ol.

Kərbəlajь Nəbi

Bilmirəm bu şejtanь sən hardan mənim jadьma saldьn. Lap ovqatьmь təlx etdin. Xylasə xalasьna

lə'nət. Gələk saqqal məsələsinə. Bir de gərym mənim bu saqqalьm əvvəllərdə nə tevr olardь?

Pəri Çahan

Aqa, qap-qara şəvə kibi.

Kərbəlajь Nəbi

Belə atan oldu rəhmətlik. Onu şəvə kibi edən kim olardь?

Pəri Çahan

Belə mən. Həftədə iki dəfə, yc dəfə xina qojub jujardьm. Saqqalьn da qap-qara kəmyr kibi olardь.

Kərbəlajь Nəbi

Bəs onu indi nejə etmirsən a zalьm qьzь?

Pəri Çahan

Aqa, dedim jəqin xanьmьn jasьnь saqlajьrsan. Onun ycyn də saqqalьna xina qojmursan.

Kərbəlajь Nəbi

Xub, biri eləçək, biri dynjaja gələçək, burada saqqalьn gynahь nədir ki bu gynə dyşsyn?

Pəri Çahan

Aqa bujurarsan elə bu geçə saqqalьna xina qojaram.

Kərbəlajь Nəbi

Geçə nədir? Elə indiçə bu xinanь suja qojarsan. Bir azdan sonra da saqqalьma jaqarsan. Bu geçə xejir işim var.

Pəri Çahan

Aqa, o neçə xejir işdir?

Kərbəlajь Nəbi

Sən bilmirsən ki, o neçə xejir işdir? Gərmyrsən ki eşq topuquma vurubdur?

Pəri Çahan

Aj aqa eşq adamьn başьna vurar.

Kərbəlajь Nəbi

Eşq mənim başьma da, dəşymə də, belimə də, əlimə də, ajaqьma da, hətta baqьrsaqlarьma da vuruьbdur. Çəmi vyçudum eşq oduna janьr. Bu dəmdə mənə bir spicqa vursan şam kibi ərijib tökylərəm. Mən qabaqda eşqə, meşqə inanmazdьm. Dejərdim elə şej joqdur. Onu şairlər içad ediblər. Demə kişilər doqru dejirmiş. Nədir eşq? «Məhəbbət, bir bəla şejdir giriftar olmajan bilməz.» Vallahь ki belədir. Indi Pəri Çahan iş sənə qalьbdьr.

Pəri Çahan

Aqa mən razьjam.

Kərbəlajь Nəbi

Aj saq ol, mənim əqilli Pəri Çahanьm.

Pəri Çahan

Ançaq aqa, gərək bir az səbr edək; el bizə nə dejər? Bir ajdьr ki, xanьm ölybdyr. Hec olmasa qoj qьrqь cьqsьn.

Kərbəlajь Nəbi

Xejir, xejir, eşq məni jaman hala salьbdьr. Davam edə bilmirəm. Gərək bu geçə nə tevr olsa iş bitsin. El özy coq jaqşь bilir ki, mysəlman olan şəxs hec bir gyn də arvadsьz dura bilməz.

Pəri Çahan

Aqa, bəs mən bu otuz ili neçə ərsiz qalmьşam?

Kərbəlajь Nəbi

O da sənin səfehlijin. Mysəlman qьzь elə ki, doqquz, on jaşьna catdь ver getsin ərə.

Pəri Çahan

Aqa sənin fikrin odur ki, elə bu geçə kəbin kəsilsin?

Kərbəlajь Nəbi

Bəli.

Pəri Çahan

Axь mənim vəkilim joqdur.

Kərbəlajь Nəbi

Sən vəkili nejlirsən?

Pəri Çahan

Bəs qьz tərəfdən vəkil lazьm dejilmi?

Kərbəlajь Nəbi

A səfeh qьzь səfeh. Nə danьşьrsan? Məjər mən səni alьram?

Pəri Çahan

Bəs kimi alьrsan? Mən elə bilirəm məni alьrsan.

Kərbəlajь Nəbi

Səni? Ha-ha-ha-ha... Dynjanьn copuru elə mənə qalmьşdь. Sən elə copursan ki, başdan bir cuval darь təksən bir dənəsi də jerə dyşməz. Bir Pəri Çahana baq, kyl olsun o çahanьn başьna ki, sənin kibi pərisi var. A kişilər mən bu ad qojan ata-anaja lap məhəttəl qalmьşam. Gəryrsən mejmunə oqşajan qьzlara ad qojurlar. Dyrry-nisa, Mələk-mənzər, Mahi-taban.

Pəri Çahan

Jaqşь məni almьrsan, bəs kimi alьrsan?

Kərbəlajь Nəbi

Belə gözəlini, məzəlini.

Pəri Çahan

Məzəli kimdir?

Kərbəlajı Nəbi

Belə Şevkət, mənim çanım ona qurban olsun.

Pəri Çahan

Vaxsej, gər bu qoça kaftar, nə fikrə dyşybdyr. Şevkətin hec on bir jaşı tamam dejil, o hələ gəlin ojnadır.

Kərbəlajı Nəbi

Elə mən də onun ilə gəlin-gəlin ojnajaçaqam. Bir də baqıb gərəçəklər ki, Dynjaja bir bap-balaça bəbə gəlibdir. Ojnatsın nə qədər kefi istəjir.

Pəri Çahan

Mən bu işə hec vaqtı razı ola bilmərəm.

Kərbəlajı Nəbi

Səfeh qızı səfeh, sən mənə qəjjumsan ki, razılıq istəjim. Elə sən çəhənnəmə razı olma.

Pəri Çahan

Indi ki belə oldu. Mən bu işi pozaçaqam.

Kərbəlajı Nəbi

Neçə pozaçaqsan?

Pəri Çahan

O mənim işimdir.

Kərbəlajı Nəbi

Jenə bilək də...

Pəri Çahan

Belə Maral xanıma dejəçəjəm, o da səni bu işin ystə dutub ceqaja salaçaqdır.

Kərbəlajı Nəbi

A balam, Maral xanıma nə dəxli var? Şəriət təriqi ilə evlənirəm. Doqru dejiblər ki, arvadın hec əqli olmaz. Öz xejrini anlamaz. Gəl sən mənim işimi dyzəlt mən də sənin işini... O gyny Məhəmməd-Əli mənim janıma gəlmişdi, mənə baş saqlıqlıq verəndən sonra dərdini acıb dedi: kərbəlajı, mən Pəri Çahanı bəjənmişəm. Izn versən, elci göndərərəm dedi.

Pəri Çahan

Aj aqa, sən allah doqru dejirsən?

Kərbəlajı Nəbi

Məndən hec jalan eşitmisən? Gər sənə nə çyr çehiz verəçəjəm? Səni istəjən adam bir elə gözəl oqlandır ki, gərən kibi eşq mənim kibi topuquna vuraçaqdır. Indi de gərym razısanmı?

Pəri Çahan

Əlbəttə razıjam.

Kərbəlajı Nəbi

Onda gedək sən saqqalıma xina qoj, mən də nə edəçəjimi səjləjim. (Gedirlər. Sonra Şevkət ilə Əli əllərində quqla daxil olurlar.)

Əli

Nə ojnajaçajıq?

Şevkət

Hələ qoj laj laj calım, gəlinimiz jatsın, sonra baçı qardaş ojnarıq.

Əli

Jaqşı.

Ş e v k ə t

Laj laj dedim jatasan,
Qьzьl gylə batasan.
Qьzьl gyl baqьn olsun
Kəlgəsində jatasan.
Balam laj laj a laj laj.
Gylym laj laj a laj laj.

Ə l i

Mənim bəbəm jatdь.

Ş e v k ə t

Beşijə qoj, yzynə də çuna ərt. Mənim bəbəm hələ jatmajьbdьr. Qoj laj laj calьm o da jatsьn.

Laj laj dedim jatьnça
Gəzlərəm aj batьnça
Çanьm zinhara gəldi
Sən hasilə catьnça.
Balam laj laj a laj laj.
Gylym laj laj a laj laj.

Indi bu da jatdь. Qoj ikisi də bir jerdə jatsьn. (Qojur.)

Ə l i

Indi gəl baçь-qardaş ojnajaq.

Ş e v k ə t

Jaqşь.

Ə l i

A Şevkət baçь mənə bir naqьl səjlə.

Ş e v k ə t

Jaqşь qardaşьm Əli, mən sənə bir qəmgin naqьl səjlərəm. Qardaşьm, biri varmьş biri joqmuş bir Səlim adьnda kənd myəllimi varmьş. Bunun Gevhər adьnda bir arvadь, jeddi jaşьnda Əhməd adьnda bir oqlu, səkkiz jaşьnda Şevkət adьnda bir qьzь varmьş.

Ə l i

Vaj onun da adь Şevkət imiş?

Ş e v k ə t

O vaqt qьrqьn dyşyr, bunlarьn kəndinə dyşman tökylyr, adamlarь qьrьrlar. Səlim kylfətin gətyryb qacьr, geçə meşədə onlarьn ystynə tökylyb gylləjə duturlar. Şevkət qacьb aqaçlarьn arasьnda gizlənir. Səhər olanda Şevkət gəlib göryr ki, atasьnь, anasьnь və balaça qardaşьnь öldyryblər. Şevkət özyny onlarьn ystə salьr, zar-zar aqlajьr. (Aqlajьr.)

Ə l i

Baçьm, nə ycyn aqlajьrsan. Sən allah aqlama. Joqsa mən də aqlaram.

Ş e v k ə t

Neçə aqlamajьm? O balaça Şevkət mən özyməm. Atasьz-anasьz bir jetiməm. Məni yc il kəndli Çə'fər baba öz uşaqlarь ilə bir jerdə saqladь. Mən onlarь coq istəjirdim. Onlar da məni. Sonra məni Kərbəlajь Nəbi özynə qulluqcu gətirdi.

Ə l i

Mən elə bilirdim sən o qoça kişinin nəvəsisən.

Ş e v k ə t

Joq, qulluqcusujam. Onun arvadь məni coq istəjirdi, bir ajdьr ki öljybdyr.

Ə l i

Baçьm mən belə naqьl istəmirəm.

Ş e v k ə t

Gəl tapmaça dejim, sən də tap.

Ə l i

Jaqşь.

Ş e v k ə t

Tap gərym atdan hyndyr, itdən alcaq

Ə l i

Jəhər.

Ş e v k ə t

Tapdьn, bildin. O janь cəpər-bu janь cəpər, icində atlь capar?

Ə l i

Onu bilmirəm.

Ş e v k ə t

Nehrə.

Ə l i

Indi sən tap gərym: Biri bizə jaqьdьr, biri çənnət baqьdьr, biri jьqar gətirər, biri vurar daqьdar.

Ş e v k ə t

Ilin fəsilləri.

Ə l i

Baçьm mənə, o gynky tapьr-tupuru de.

Ş e v k ə t

Jaqşь.

Tapьr-tupur atlьlar
Qollarь baz bəndlilər
Şah evinə gedirsiz
Sьcan bəjə dejərsiz:
Pьspьsa xanьm,
Dabançьqь xəstə xanьm,
Dyşyb dəvə gəlynə.
Boqulur xəstə xanьm.

(Gylyşyrlər.)

Ə l i

Aqşam bizə gələçəksənmi?

Ş e v k ə t

Gələçəjəm. Həm sənin dərsini öjrədəçəjəm həm də Maral xanьmdan dərs alaçaqam.

Ə l i

Anam dejirdi ki, Şevkəti məktəbə qojaçaqam.

Ş e v k ə t

Ah nə jaqşь olardь. Atam jazьq məni oqudurdu.

Ə l i

Mən gedim. (Şevkət ilə öpyşyr, bu halda Kərbəlajь Nəbi saqqalь baqlь daxil olur.)

K ə r b ə l a j ь N ə b i

Ədə sən kimsən? Burada aşnabazlьq edirsən? Sənin qulaqьnь elə cəkərəm ki, jerindən qopar. Qurmusaqьn biri.

Ə l i

Mən Maral xanьmьn oqlujam.

K ə r b ə l a j ь N ə b i

Maral xanьmьn oqlu? Bala mən sənlən zarafat edirdim. Mən səni coq istəjirəm. (Çibindən qanfet cьqarьb ona və Şevkətə verir.) Alьn gedin həjətdə ojnajьn. Oqlum, birdən mən dedijim sözy anana dejərsən ha. Mən sənlə zarafat eləjirdim. Dedim gərym qorqaq uşaq dejilsən ki?

Ə l i

Mən hec kəsdən qorqmuram.

K ə r b ə l a j ь N ə b i
(kənara)

Nejə qorqasan, Maral xanьm kibi qommunist anan var. (Əlijə.) Indi balalarьm gedin ojnajьn. Buraja qonaq gələçəkdir. (Əlilə Şevkət gedirlər.)

Kərbəlajı Nəbi

O şejtan qızı Maral xanımdan coq qorquram. (Molla Rəhim və Məşədi Səfdərqulu daxil olurlar.)

Molla Rəhim

Səlamyn əlejkym

Kərbəlajı Nəbi

Əlejkyməssəlam.

Məşədi Səfdərqulu

Kərbəlajı, bizə gərə qulluq?

Kərbəlajı Nəbi

Qulluq dejil, bujuruqdur. Atam siz mənim ilə bu xarabaja şəriksiniz? Sən molla Rəhim, yc ajdır ki, kirajə vermirsən. Bu da beş ajdır.

Molla Rəhim

Kərbəlaji and icirəm o hərəmi məhtərəminizin pak olan ruhuna, hec gəlirim joqdur. Tykəzbanı satıb paltarı cıplaq qojmuşam. (Səfdərqulu qəhqəhə ilə gylyr.)

Kərbəlajı Nəbi

Ədə bu nə dejir? Tykəzbanı satıb paltarı cıplaq qojmuşam.

Məşədi Səfdərqulu

Kərbəlajı, bijol bil ki, molla Rəhim coq səhv vurandır. O demək istəjirdi ki, paltarı satıb, Tykəzbanı cıplaq qojmuşam. O geçə evinə bir qonaq gəlib gedəndə dejib, arvad tez ol başmaqı dut, qonaq lampanı gejsin. (Gylyşyrlər.)

Kərbəlajı Nəbi

Jazıq nə etsin, kitaba baqmaqdan başı xarab olubdur. Xub dejək ki, mollanın işi xod dejil, gəliri

joqdur. Bəs məşədi Səfdərqulu sən nə dejirsən? Özyn gəryrsən ki, bir gyn ev naloqunu qassaja geç verəndə qomunxoz adamın atasını jandırır. Sənin arvadın Qızxanım səhərdən aqşama kibi o evdə bu evdə cərək bişirib, paltar jujub pul qazanır. Hamısını gətirib sənə verir. Sən də onun hamısını şaraba verirsən. Hec mənzil kirajəsi dərdinə qalmırsan. Jə'ni bu zəhrimarı icməsən olmaz? A kişi sən nəjə buna nəsihət etmirsən?

Molla Rəhim

Etməkdən jorulmuşam. Tərk edə bilmir.

Məşədi Səfdərqulu

Aj kərbəlaji bi jol bunu bil ki, hər kəs bir şejə eşq baqlar. Biri arvada, biri ata, biri quşa, biri qoca, biri nə bilim nəjə. Mən başı daşlı da bu şaraba eşq baqlamışam.

Molla Rəhim

Mən də pula aşiqəm. Amma onun yzyny hec gərmyrəm.

Məşədi səfdərqulu

Əsli aşiq sənsən. Aşiq gərək mə'şuqəsini az-az gərsyn.

Kərbəlajı Nəbi

Molla Rəhim, sən mənim işimi dyzəlt, mən də sənin o mə'şuqəni belə çiblərinə doldurum. Həm kirajə pulunu da baqışlajım.

Məşədi Səfdərqulu

Kərbəlajı, bəs bu xejir işdən mənim xejirim nə olaçaqdır?

Kərbəlajı Nəbi

Sənin kirajəni baqışlajıb, o qədər pul verəçəjəm ki, o mə'şuqən şarabın kypynə girib nə qədər istəsən icəsən.

Məşədi Səfdərqulu

Aj saq ol Kərbəlajь. Mən də bu jolda başьmdan kecərəm.

Molla Rəhim

Indi əmrinizi bujurun.

Kərbəlajь Nəbi

Mən istəjirəm qulluqcum Şevkəti alam. Qьz hərcəndi kicikdir. Amma on iki jaşь var. Şəriət ilə kəbin dyşər. Mən bilirəm ki, qьz əz ixtijarь ilə mənə gəlməjəçəkdir. Ona görə gərək burada hileji-şər'i oluna. Onun da jolunu molla Rəhim, siz bilirsiniz.

Molla Rəhim

Madam ki, qьz razь dejil, nə etmək olar?

Kərbəlajь Nəbi

A molla Rəhim, bunu mənə dejirsən? Hansь qьzьn razьlьq ilə kəbinini kəsmisən? Hansь qьzь əzynyz danьşdьrьb razьlьqьnь almьsьnьz? Jalancь şahid də dynjada coq.

Məşədi Səfdərqulu

A kişi, Kərbəlajь dyz dejir. O şahidin biri də mən.

Kərbəlajь Nəbi

Aj saq ol məşədi Səfdərqulu. Fikrimi anlamьsan.

Molla Rəhim

Məncə qьzьn janьnda nə nikah, nə kəbin sözy acьlmamalь. Nə qədər kicik olsa da bu sözləri anlar. Gərək onu caqьrьb dejək ki, kərbəlajьnь sənə siqə edirik; cynky şəriətimizdə qьz xejlaqь gərək gizlənsin. O da qulluqcu ycyn cətindir. Ançaq Pəri Çahan da təsdiq etsin ki, o da Kərbəlajьja siqədir.

Kərbəlajь Nəbi

Coq gözəl fikirdir. Pəri Çahandan arxajьn olunuz. Onun ilə bu barədə danьşmьşam. Molla sonra?

Molla Rəhim

Daha bunun sonrasь joqdur. Kəbini kəsərik, başqa razьlьqьnь almaq o sizin xysusi işinizdir.

Kərbəlajь Nəbi

Coq əcəb. Pəri Çahan! Pəri Çahan!

Pəri Çahan
(daxil olur)

Nə bujursan?

Kərbəlajь Nəbi

Şevkəti buraja caqьr. Özyn də gəl. (Gedir.)

Məşədi Səfdərqulu

Kərbəlajь, necə gyndyr ajьqlьqdan başьm lap catlajьr.

Kərbəlajь Nəbi

A kişi sən nə səbirsiz adamsan. Elə bu geçə, sənnən maxsusi kef edəçəjəm. Ançaq gərək qьz ycyn də bir vəkil hazьr edəsən.

Məşədi Səfdərqulu

O barədə arxajьn ol. (Şevkət ilə Pəri Çahan daxil olurlar.)

Kərbəlajь Nəbi

Qьzьm Şevkət, bizim şəriətimizdə arvad tajfasь naməhrəm kişilərə yzy acьq gərykə bilməz. Mən sənə naməhrəməm, belə acьq mənim janьma girib cьqanda həm sən, həm də mən gynah edirik. Indi gərək bu molla bizə siqə oquja ki, biz bir birimizə məhrəm olaq.

Şevkət

Siqə nədir?

Kərbəlajь Nəbi

Siqə bir duadьr ki, bu molla oqujaçaq, onda biz bir-birimizə ər-arvad kibi olaçaqьq.

Şevkət

Ər-arvad? Joq mən onu istəmirəm.

Molla Rəhim

Qьz, Kərbəlajь səhv dedi, jə'ni sən ər-arvad kibi Kərbəlajьnьn janьna yzy acьq girib cьqa bilərsən.

Şevkət

Pəri Çahan, sənə də belə dua oqujublar?

Pəri Çahan

Bəli.

Şevkət

Onda mən də razьjam.

Kərbəlajь Nəbi

Aj saq ol mənim gyl balam, bylbyl balam. A kişilər bilmirsiniz neçə bu mənim məzəlim, gəzəlimdir. Indi get, Pəri Çahan sənə aldьqьm paltarlarь və qejri şeiləri göstərsin. (Gedirlər.)

Molla Rəhim

Indi vəkillər və şahidlər lazьmdьr.

Məşədi Səfdərqulu

Onlarьn hamьsьnь mən bu geçə hazьr edərəm.

Kərbəlajь Nəbi

A kişi sən nə jaqşь adamsan. Ala bu pulu çibinə qoj. (Pul verir.) Ədə birdən evi bərbad oqlu gedib icib məst olarsan, işləri xarab elərsən.

Məşədi Səfdərqulu

Xajьr, arxajьn ol, icməjin də vaqtь var.

Molla Rəhim

Indi myrəxxəst olaq!

Kərbəlajь Nəbi

Bujurun, işinizdə olun, bu aqşam maxsusi burada bir balaça kef cəkərik.

Məşədi Səfdərqulu

Kərbəlaji, sənin bu geçəki kefin kaş məndə olajdь. Xydahafiz.

Kərbəlajь Nəbi

Adə bu Ərdəbil lotusu nə dejir?

Məşədi Səfərqulu

O söz. (Gedirlər.)

Kərbəlajь Nəbi

Adə nə əçəb iş oldu. (Cьrtьq vura-vura ojnajьr.)

Məzəlim aj məzəlim,
Gəzəlim aj gəzəlim
Səni mən coq sevirəm,
Səni mən coq sevirəm.

IKINÇI ŞƏKIL

Haman odada geçə, P ə r i Ç a h a n syfrə salıb masaja boşqab dyzyr, janında Ş e v k ə t.

P ə r i Ç a h a n

Mən stolu hazır edirəm, sən də o şamları jandırıb dyz.

Ş e v k ə t

Lap toja oqşajır.

P ə r i Ç a h a n

Toi deiil, bəs nədir?

Ş e v k ə t

Bu kimin tojudur?

P ə r i Ç a h a n

Sənin.

Ş e v k ə t

A qız nə danışırsan? Məni kimə verirlər?

P ə r i Ç a h a n

Aqaja, özyn mollanın janında razı olmadınmı?

Ş e v k ə t

Mən dua oqumaqa razı oldum. O duanın adı nə idi?

P ə r i Ç a h a n

Siqə.

Ş e v k ə t

Hə siqə.

P ə r i Ç a h a n

Nə təfavyty var? O da o birisinin tajıdır.

Ş e v k ə t

Sən allah doqru dejirsən?

P ə r i Ç a h a n
(gylyr)

Joq zarafat edirəm.

Ş e v k ə t

Sənə də siqə oqunanda belə qonaqlıq oldu?

Əlbəttə hətta oqujan, calan da vardı. Mən də o qədər ojnadım ki, ajaq ystə durmaqa taqətim qalmadı.

Ş e v k ə t

Ah, ojnamaqı mən coq sevirəm.

P ə r i Ç a h a n

Sən də aqaja de. Məşədi Səfdərqulu qonşusu Şirəlini caqırsın o calsın, sən də belə nə qədər kefin istəjir ojna.

Ş e v k ə t

Pəri Çahan, sən allah doqru dejirsən? Jə'ni aqaja desəm gətirdər.

P ə r i Ç a h a n

Əlbəttə gətirdər.

Ş e v k ə t

Jaqşı sən də ojnajaçaqsanmı?

Pəri Çahan

Əlbəttə ojnajaçaqam. Indi gəl gedək səni gejindirim. (Gedirlər, sonra Kərbəlajı Nəbi, Məşədi Səfdərqulu daxil olurlar.)

Kərbəlajı Nəbi

Sənə dedim ki, bu zəhrimarı icmə. Joqsa işləri xarab edərsən. Genə qulaq asmadın. Indi bu geçə ic nə qədər qarnın dutur.

Məşədi Səfdərqulu
(jarım məst)

Kərbəlajı, bi jol bunu bil ki, mysəlman arvadı dəjylməjə jaranıbdır. Başı jarılmaqa, qabırqaları sınmaqa.

Kərbəlajı Nəbi

Elə gərək mənim xejir işimdə bunu edəjdin?

Məşədi Səfdərqulu

Axı a kişi mən nə edim? Sən verdijin pula bir az zəhrimar alıb evdə icirdim. Arvad da dutdu ki, bəs bu pulu hardan almısan? Bu söz biləmə doqundu. Dedim arvad neçə? Mən kişi dejiləm? Mənim çibimdə pul olmaz? Dedi joq. Sən kişi dejilsən, kişi olsajdın mən arvadın pulu ilə dolanmazdın. Jəqin jenə mənim şejlərimdən satmısan.

Kərbəlajı Nəbi

Ədə dejəjdin, pulu mənə Kərbəlajı Nəbi veribdir. Dava qurtarardı.

Məşədi Səfdərqulu

Bəs demədim, onda da dutdu ki, sən jalan dejirsən. Sən Kərbəlajıja pul verməkdən Kərbəlajı sənə

nə səbəbə pul versin. Mən əhvalatı naqıl etdim. Jenə bədin qızı inamajıb, dedi: Sən məni aldadırsan. O qoçalıqda kişi 11 jaşında qulluqcusunu almaz.

Kərbəlajı Nəbi

Jə'ni belə dedi? O qoçalıqda kişi?

Məşədi Səfdərqulu

Bəli!

Kərbəlajı Nəbi

Onda əçəb etmisən ki, onun qol-qıcını sındırmısan. Mən qoçajam?

Məşədi Səfdərqulu

Bu söz mənim lap biləmə doqundu. Aqaçı götyryb nə jemisən turşulu aş. Başını jardım. Qolunu sındırdım, aqlaja-aqlaja bir baş cıqıb getdi.

Kərbəlajı Nəbi

Ədə, birdən Qızxanım gedib şikajət zad elər.

Məşədi Səfdərqulu

Allah vurub onu, kysyb jenə xalasıgilə gedər. A kişi onları boşla getsin. Kefini pozma. Kərbəlajı, syfrədə şişə görynmyr.

Kərbəlajı Nəbi

Qorqma almışam, ançaq molla Rəhim gələçəkdir. Onun janında mən icə bilməjəçəjəm. Qoj gəlsin, onu jedirdək, jola salaq, sonra öz kefimizdə.

Məşədi Səfdərqulu

Ha-ha-ha...

Kərbəlajı Nəbi

Ədə, a biç. Nəjə gylyrsən?

Məşədi Səfdərqulu

Kərbəlajь, o da lotudur. Sən ələsən şarabьn kypynə girir.

Kərbəlajь Nəbi

A kişi nə danьşьrsan? Vaj sənin zatьna lə'nət a belə molla. (Şevkət daxil olur.)

Şevkət

Aqa!

Kərbəlajь Nəbi

Belə çan, nə bujursan mənim gözəlim, məzəlim?

Şevkət

Pəri Çahan dejir ki, o sənə siqə olanda calqьcь gətirmişdin. Indi mənə də gətirsənə. Axь mən də ojnamaq istəjirəm.

Kərbəlajь Nəbi

Belə mənim bu gözlərim ystə, mənim nazlь balam. Get Pəri Çahana de ki, Şirəlini buraja caqьrsьn. Tarьnь da gətirsin. (Şevkət gedir.)

Məşədi Səfdərqulu

Kərbəlaji, qьz ilə aranь jaman sazlamьsan ha.

Kərbəlajь Nəbi

Sən ələsən məşədi, özymy on səkkiz jaşьnda çavan kibi hiss edirəm.

Məşədi Səfdərqulu

Şərabdan da vurub qьzmьş şirə dənəçəksən.

Kərbəlajь Nəbi

Ədə məşədi, gərək qьzьn janьnda icməjəm. Joqsa məndən yrkyb qacar.

Məşədi Səfdərqulu

A kişi sənin toruna dyşən haraja qaca bilər?

Kərbəlajь Nəbi

Əlbəttə. Kycələrdə diləncilik edən bir jetim qьzь gətirib özymə arvad etmişəm. Daha nəjə öz vəlijjinnəmətinə şьllaq atsьn?

Şirəli

(əlində tar daxil olur)

Salam əlejkym. Kərbəlajь, tojun mybarək olsun.

Kərbəlajь Nəbi

Əlejkyməssəlam Şirəli. Səndən coq razьjam. Mənim bu işimdə coq zəhmət çəkmisən.

Şirəli

A kişi, təki sən belə tojlardan tez-tez edəsən, mən də gələm. (Gylyşyrlər.)

Məşədi Səfdərqulu

Ədə Şirəli, o gor ba-gorun qьzь evə qajьtdь?

Şirəli

Qьzxanьmьn qol-qьlcalarьnь elə sьndьrmamьsan ki, bir də xarabana qajьtsьn

Məşədi Səfdərqulu

Hələ ona o da azdьr.

Şirəli

Kərbəlajь, syfrə zijnətini stolda gərmyrəm.

Kərbəlajь Nəbi

Bu pijaniskələr məni lap təngə gətirdilər (Şqafь acьb şərab cьqardьr.) Ala bu biri, bu da biri, bu da biri.

Məşədi Səfdərqulu

Kərbəlajь bundan Fatьja tuman olmaz.

Kərbəlajь Nəbi

Ədə sən dojmaz oqlu dojmazsan.

Məşədi Səfdərqulu

Kərbəlajь, bunun biri mənim. Biri sənin, biri də bu çənabьn. Bəs mollanьn pajь? Siz ələsiniz mən öz pajьmdan bir damçь da ona verməjəçəm. Zalьm oqlu il uzunu mənim xarçьma icir.

Şirəli

Aşna kişinin haqqьnda bəhtan dejirsən. Mən insafьmdan kecə bilmərəm. Pul o jazьqьnkь olur, icmək də sənlə mənim. Ona da bir tula pajь veririk. Dinə də bilmir; cynky qorqur ki, paxьrьnь acaq.

Kərbəlajь Nəbi

Gəryrəm siz jaqşь sirr saqlajьrsьnьz. Jəqin mənim icməjimi də ona səjləmisiniz. (Gylyşyrlər.)

Məşədi Səfdərqulu

Əlbəttə, sizin içinizdə kişi bir özymy göryrəm. Ap-acьq icirəm. Hec kəsdən gizlətmirəm.

Şirəli

Kərbəlajь jenə gözləjəçək adamьn var?

Kərbəlajь Nəbi

Xejir, birçə molla Rəhim qalьbdьr.

Məşədi Səfdərqulu

O şarabьn qylqyləsini eşidən kibi burada hazьr olaçaqdьr.

Kərbəlajь Nəbi

Onda bujurunuz başlajaq. (Əjləşirlər, finçanlarь şarab ilə doldururlar.)

Şirəli

Bu pijalanь Kərbəlajьnьn saqlьqьna icək və arzu edək ki, belə siqələrdən coq etsin və biz dostlarь da unutmasьn.

Məşədi Səfdərqulu

Saq ol Kərbəlajь. Bu geçəki kefini allah ömrynə hesab etsin.

Kərbəlajь Nəbi

Saq olun, əziz dostlarьm (Icirlər.)

Məşədi Səfdərqulu

A kişi gör myrtəd qьzь myrtəd, nə dejir? Kərbəlajь qoçadьr. Iş sinndə dejil, yrək çavan olsun.

(Molla Rəhim təqjiri libas daxil olur)

Məşədi Səfdərqulu

A kişi gəl də Kərbəlajьnьn xejir işində də icməjib hacan icəçəksən?

Molla Rəhim

Adə məni Kərbəlajьnьn janьnda bijabьr etmə.

Şirəli

A kişi Kərbəlajь əhli-ruhdur. Işlərdən baxəbərdir. Bujur. (Molla Rəhim əjləşir)

Məşədi Səfdərqulu

Indi mollanьn pajьnь mejdana cьqar.

Kərbəlajь Nəbi

Ədə bəs nə fikir edirsən? Nə qədər icirsən ic, dalь baqlьdьr.

Məşədi Səfdərqulu

Ha belə de, mən də gylə-gylə icim. Şirəli, mollanьn pijaləsini doldur. (Şirəli doldurur.)

Məşədi Səfdərqulu

Bu pijaləni də icək o gözəl xanımın saqlığına.

Kərbəlajı Nəbi

Şair bu sözləri jəqin mənim məzəliçə gözəlimə dejibdir.

Əzizim, gözlərim, çanım, yzyn göstərgilən ajə
O dyşsyn topraqa, mejraç elə sən ərşi-ə'lajə.

Molla Rəhim

Əhsən, əhsən. (Icirlər.)

Şirəli

Kərbəlajı, şarab nə şarab, adama ruh verir. Saq ol.

Kərbəlajı Nəbi

Nuşi-çan. (Pijalələri doldururlar.)

Məşədi Səfdərqulu

Bu pijaləni də dostumuz əhli-ruh molla Rəhimin saqlığına icək. Arzu edək ki, belə-belə hileji-şər'dən coq dyzəltsin və belə keflərdən də bizi məhrum etməsin.

Molla Rəhim

Əzizlərim, dynjanın ləzzəti iki şejdir. Biri bu şarabdır, biri də zənən. Əbəs jerə şair bunları tə'rif etməjir. Bu iki şeji dynjadan gətyr gər jerdə nə qalır.

Şarabın nəhji biz yrəfa ycyn dejil. Avam ycyndyr.

Şirəli

Kişi haq söz dejir. Şarab, qadın; fəqət şarab Kərbəlajının şarabı kibi kohnə və qadın da onun zevçəsi kibi on jaşında olmalıdır.

Molla Rəhim

Saq ol. (Icirlər.)

Kərbəlajı Nəbi
(oqujur.)

Zahid coq ejləmə məni təklifi-çənnətə
Mən qojmram behiştə qədəm nazlı jarsız.

Molla Rəhim

Saqi kərəm ejlə çam gəzdir,
Durma qədəhi mydam gəzdir.
Devrana coq e'tibar qılma.
Gəzdir qədəhi qərar qılma.

Şirəli

Belə mənim başım ystə. (Pijalələri doldurur.)

Məşədi Səfdərqulu

Bu pijaləni icək, bizim Şirəlinin saqlığına və təvəqqe edək ki, bir az bizim ycyn calsın.

Şirəli

Ançaq bu şərt ilə ki, mən calım, molla Rəhim də ojnasın.

Molla Rəhim

Xajır, xajır mən baçarmaram. O Kərbəlajının işidir. Eşq başına vurmuş. Sən calsan o davam etməjəçəkdir.

Pəri Çahan

Gəl, gəl vallah mən də ojnajaçaqam. Istəjirsən mən qabaqça ojnajım. (Şevkət daxil olur.)

Şevkət

Vaj dədə vaj, burada caxır icirlər. Joq mən istəmirəm, mən gedirəm.

Kərbəlajı Nəbi

Gəl mənim gözəlim, mənim məzəlim. Bu caxır dejil, qırmızı şərbətdir. Görmürsən molla Rəhim də icir. Molla da hec caxır icərmi? (Ajaq üstə qalqır pijan kibi jıxrqalanır.) Gəl mənimlə ojnajaq gözəlim.

Şevkət

Sən pijansan, mən sənlə ojnamaram.

Kərbəlajı Nəbi

Düzdür mən pijanam. Ançaq caxırdan joq sənin eşqindən mənim gözlərim. Adə Şirəli cal. (Şirəli calır.) Aj qız Pəri Çahan gəl mənnən ojnajaq Şevkət baqsın. (Ojnajırlar cırtıq calır, Kərbəlajı Nəbi Şevkəti quçaqlajıb ojnamaqa çəkir. Şevkət qışqırır.)

Şevkət

Buraq məni, buraq məni, sən pijansan. Səndən qorquram. (Bu halda Maral xanım, Qızxanım, Əli və iki milis əsgərlər ilə daxil olur.)

Hamı

Vaxsej.

Şevkət

Maral xanım, məni bunların əlindən al.

Maral

Qorqma qızım, qorqma, aj alcaqlar, aj sitəmkarlar bu mə'sumə qızçıqazın başına nə iş gətirirsiniz. Söjlə qoça məl'un.

Kərbəlajı Nəbi

Biz, biz bir balaça kef edirdik.

Maral

Bəli bir balaça, jetim qızı da aldadıb özünə gəlin gətirmisən eləmi?

Kərbəlajı Nəbi

Biz onu aldatmamışıq. Öz ixtijarı ilə mənə gəlibdir. Bunlar da şahiddir. Kəbini də bu molla Rəhim kəsibdir.

Şevkət

Maral bacı vallah jalan dejirlər, bunlar məni aldatdılar ki, sənə dua oqujuruq ki, yzy acıq Kərbəlajının janına girib çıqa biləsən.

Maral

Bilirəm qızım, hamısının bilirəm, mənə bu Qızxanım söjləjibdir.

Məşədi Səfdərqulu

A gor-ba-gorun qızı gör sənin başına nə iş gətirəçəjəm?

Maral

Sus, alcaq. Sənin çəzan bunların hamısından artıq olaçaqdır. Gör öz zəhmətilə sən binamus əri saqlajanı nə hala salıbsan?

Qızxanım

Başına dönym Maral bacı, məni bu əzdəhanın əlindən al.

Maral

Qorqma bacım, bu əzdəhaları mən bir hala salaçaqam ki, sən özün də əhsən dejəsən.

Molla Rəhim

Başına dönym Maral xanım, bu işdə mənim taqsırım joqdur. Bu şahidlərin şəhadəti ilə şəriət üzrə mən kəbin kəsmişəm. Hərgah indi qız inkar edir, burada da mənim taqsırım joqdur.

Şevkət

Mən hacan sənə izn verdim ki, mənə kəbin kəsəsən. Mən siqə oqumaqa razı oldum.

M a r a l

Aj alcaqlar, gərmyrsynyz ki, bu mə'sumə qьz-çьqaz hec siqə nə olduqunu da anlamьr. Onu aldadanьn biri də bu Pəri Çahan olubdur.

P ə r i Ç a h a n

Çəmi taqsьr bu qoça kaftardadьr. Məni joldan cьqardan o oldu. Dejir mən Şevkətə aşiq olmuşam. Onun eşqindən dəli olmuşam.

M a r a l

Onu əqlə gətirərlər. Aj alcaq binamuslar. Siz unutmajьnьz ki, indi Şura həkymətidir. Indi qadьnlar azadədir. Ixtijarlarь əz əllərindədir. (Əsgərlərə.) Alьn bunlarь.

P ə r i Ç a h a n

Məni də?

M a r a l

Səni də. Hajdь.

H a m ь

Vaj atamьzьn evi jьqьldь.

PƏRDƏ

Faciə bir pərdədə

1922

IŞTIRAK EDƏNLƏR:

M i r K a z ı m A q a. Şəhərin axundu, 65 jaşında.
T y k ə z b a n. Onun arvadı, 40 jaşında.
M ə h ə m m ə d. Onun oğlu, 22 jaşında.
K y l s u m. Onun qızı, 17 jaşında.
M o l l a F ə t t a h. Məhəllə mollası Tykəzbanın qardaşı 60 jaşında.
Q ı y n c a. Onun qızı; Məhəmmədin nişanlısı, 18 jaşında.

BIRINÇI PƏRDƏ

Səhnə M i r K a z ı m aqanın otaqını göstərir. Otaq Şərq səliqəsilə bəzənmiş. Pənçərələr qalın pərdələr ilə örtülmüş. Divan üstə şal mitəkkələr. Iki böyük divar ajnası. Külsüm ajnanın önündə durub özünə bəzək verir. Təzə paltarına baqır. Ora-burasını düzəldir. Bu vaqt anası daxil olur.

K ü l s ü m

Ana, donum gən tikilmiş, daraltmaq lazımdır.

T ü k ə z b a n

Oğlum, gən olmaqın zərəri joqdur, təki dar olmasın. Həmişə belə zəif olmajaçaqsan ki... ətə, qana gəlib dolaçaqsan.

K ü l s ü m

Aj ana, nə dejirsən? Libas mənə tikilmiş ja mən libasa? Mən hacana kibi gözləjim ki, ətə, qana gəlib libas bədənimə görə olsun? Bəlkə hec kökəlməjəçəjəm.

T ü k ə z b a n

Nə üçün kökəlməjəçəksən? Allaha şükür, jemək-içməjimiz boldur.

Aqanın müridləri evimizi hec bir zaddan kəm-kəsr qojmajır. Hər bir jeməçəjimizi jığıb verirlər. Burada hec bir ehtijaçımız joqdur. Qəssab Səfər də hər gün ət pajımızı göndərir. Atanın da nəziri jüz-jüz gəlir.

K ü l s ü m

Anaçan, dediklərin hamısı doğrudur, amma mən jenə də hala gəlmirəm. Bilirmisən buna səbəb kimdir?

T ü k ə z b a n

Kim olaçaq? Sən özün, sənin tərslijin. Nə qədər jalvarıram ki qızım, je, ic hala gəl.

Həkim də bujurmuşdur ki, coqlu süd və bol jumurta jesin. Amma sən bunların hec birinə əməl etmirsən.

K ü l s ü m

Xajır ana, mənim belə zəjif düşməjimə səbəb bunlar dejil. Siz atam-anamsınız! Quşu qəfəsə salan kibi, məni də bu otaqa salıb dustaq etmişsiniz.— Sən axund mir Kazım aqanın qızı Seidə xanımsan—dejə mənə hər bir şeji nəhj etmişsiniz. Bu dört divarın ici mənim dünjamdır! (Aqlajır.)

T ü k ə z b a n

Külsüm, jenə sənə nə olmuş? Joqsa bu geçə pis juqu görmüşsən?

K ü l s ü m

Bəli, görmüşəm

T ü k ə z b a n

Xejir ola, qızım, söjlə görüm.

K ü l s ü m

Ana, juqumda gördüm ki qardaşım Məhəmmədin tojudur.

T ü k ə z b a n

Doğru görmüşsən, qızım, aqan sabahkən mənə dedi ki: Tükəzban, bu həftə Məhəmmədin gəlnini gə-

tirməli; cynky məhərrəm ajь jaqьnlaşьr. Mənim өzym də tələsirəm ki Qjoncanь tez gətirək. Həm mənə kөmək etsin, həm də sənə joldaş olsun. Daha nə gөrdyn, qьzьm?

K y l s u m

Gөrdym ki evimizdə bөjyk şadlьqdьr. Həmin bu otaqьmьz qonaq ilə doludur. Bir janda mənim, bir janda Məhəmmədin çavan joldaşlarь oturmuşlar. Bir dəstə oqujan, calan da hazьrdьr. Calqьcьlar caьrlar. Bir oqlan o çərgədən, bir qьz bu çərgədən qalqьb ojnajьrlar. Onlar otururlar, başqalarь rəqs edir. Sonra oqujan başladь. Ah! Hec olmazsa juqumda isə də evimizdə bir şadlьq, bir toj gөrdym!

T y k ə z b a n

Kəs səsini, bihəja! Mir Kazьm aqanьn evində toj, balaban? Qьzlar oqlanlar ilə ojnamaq?

K y l s u m

Aj ana, mən nə edim? Juqudur, gөryrəm. Mənim əlimdə dejil ki, gөrməjim. Bəs sən hec belə juqu gөrməjirsən?

T y k ə z b a n

Mən qələt edərəm, başьmь daşdan-daşa dөjərəm, elə juqu gөrmərəm. Gөrynyr ki, sən elə şejlərdən fikir edirsən, juquna da girir.

Aqan sənə du'a өjrətmiş. Nə ycyn jatanda oqumursan ki, şejtan da juquna girib sənə elə şej gөstərməsin?

K y l s u m

Ana, jatanda dua da oqujuram, bismillah da dejirəm, amma jenə də belə juqular gөryrəm. Mən nə edim? Ixtiar məndə dejil ki.

T y k ə z b a n

Jaqşь, bəs dajьn qьzь Qjynca nə ycyn gөrmyr? Cynky beş vaqt namazьn hec birini kecirməjir, amma sən tənbəli mən hər səhər gyçlə durquzuram ki, sybh namazьnь qьlasan.

K y l s u m

Anaçan, elə bilirsən ki Qjynca belə juqular gөrmyr? Vallah mənə elələrini naqьl edir ki, desəm qulaqlarьnь dutub qacarsan?

T y k ə z b a n

Kəs səsini, bihəja! Onu da sən xarab etmisən. Bu işlərin hamьsьna səbəb bu qonşumuz erməni kilfətidir. Өzlərinə taj-tuş tapьblar! Erməni qьzь Suruş!

K y l s u m

(gylərək)

Aj arvad, Suruş dejil, Siranuş.

T y k ə z b a n

Eh, mən nə bilim. Kafir adь jadьmda qalьrmь ki, vallah atan bilsə ki erməni evinə gedirsən, aləmi bir-birinə vurar. Səni də өldyrər. (Cьqьr.)

K y l s u m

(tək)

Өldyrsə, bir dəfəlik qurtulurdum. Ej kaş! Mir Kazьm aqanьn qьzь olunça bir coban qьzь olajdьm. Daqlarda, cəmənlərdə, təbiət yzərində jaşajajdьm, cicəklər dərəjdim, şьrlajan bulaqlara baqa idim, sərin sularьndan icəjdim!.. (Aqlajьr.)

(Məhəmməd daxil olur. Əmmamə və əbasьnь cьqarьr.)

M ə h ə m m ə d

Baçьm, aqlajьrsan?

K y l s u m

Neçə aqlamajьm, qardaşьm? Mənim qəlbim, ruhum, vyçudum hamьsь xəstə. Mərəzimdən xilas olmaq ycyn bilirmisən mənə nə təklif edirlər?

M ə h ə m m ə d

Bilirəm, baçьm, coqlu syd ic, bol jumurta je dejirlər.

K y l s u m

Bəli. Lakin mənim myaləçəm bumu?

M ə h ə m m ə d

Xajьr, baçьm, bu mərəzin myaləçəsi başqa şejdir. Bu mərəzə mybtəla olan tək bir sən dejilsən. Bytyn islam qadьnlarьdьr. Bu xəstəlik iki nurdan məhrum qalmadan naşь baş vermiş, biri ruhu jyksəldən elm nurudur. Digəri gynəşdir ki, zijasь ilə dynjanь tənvir edir. Hejvanata, nabatata həjat bəxş edir. Onsuz bu gözəl dynja dəhşətli bir zylmat olurdu.

Bu lətif, rəngin cicəklər, gyllər sənin kibi sararьb solub məhv olurdu. Baçьm, sən qynca gyly o nurdan məhrum etmişlər. Sənə bu dəmdə o gözəl təbiət yzərində jaşamaq lazьmdьr, sənə gəzmək, gylmək, jemək, icmək, qonuşmaq lazьmdьr. Qəlbini əsla sьqmajьb hər zaman şad saqlamalьsan.

K y l s u m

Doqru, fəqət bu mənə myjəssər dejildir; cynky mən mysəlman qьzьjam. Mysəlman qadьnь ycyn bu ne'mətlər jaranmamьşdьr. O başqalarь ycyn jaranmьşdьr. Bunlarь bizə nəhj etmişlər. Ah! Məhəmməd! Nə ycyn mən binəva qьzçьqazь oqutdun? Nə

ycyn mənə mənligimi anlatdьn? Nə haçət ki səjlədjirsən dynja gözəldir, genişdir, intihasьzdьr. Mənim dynjam, qardaşьm, baq gər nə geniş, nə jyksək bir aləmdir. (Əli ilə otaqьnь göstərir.)

Bu səqf mənim julduzlu səmamdьr. Bu xalьlar ilə döşənmiş jer mənim cicəkli cəmənlərim, jaşьl ormanlarьmdьr. Bu divarlar da mənzərəli daqlarьm, jyksək qajalarьmdьr. Qardaşьm, burada dynjaja gəldim. Buradan da tezlik ilə məni aparьb qəbrə qojaçaqsьnьz.

M ə h ə m m ə d

Sus, sus baçьm! Odlu qəlbimə jenidən atəş atma. Qadьnlarьmьzьn belə təbiətə myqajjir, hyrr jaranmьş nev' bəşərə jaraşmaz halь məni coqdan dyşyndyryr. Carə arajьrdьm ki, nə jol ilə onlara kömək edim. Indi tapmьşam. Baçьm, jəmin edirəm qadьnlarьmьzьn bu jolda tökylən qanlь göz jaşlarьna. Jəmin edirəm sənin kibi hənuz qynca gyl ikən saralьb solan gyl cöhrələrinə. Jəmin edirəm sənin kibi belə zindanlarda, çəhalət zənciri altьnda sьzlajan mə'sumələrə, sizləri bu əsarətdən xilas etmək jolunda çavan ömrymy qurban edim.

K y l s u m

Qardaşьm, bir tək sən nə elijə biləçəksən? Rysvaji-çahan olub tələf olaçaqsan.

M ə h ə m m ə d

Tələf olsam da bir çьqьr acaram, taki məndən sonra gələn çavanlar da o jol ilə gedib axьrь sizləri xilas edərlər. Ej çəhalət, ej jeddi jaşlь div! Hazьr ol, Məhəmməd gəlir!..

(Mola Fəttah və mir Kazьm aqa daxil olurlar.)

Mir Kazьm aqa

Baçьna jeddi başlь divdən naqьl dejinçə əhkamidinijjəni öjrətsən daha əfzəl olmazmь?

Məhəmməd

Ata, elə mən də baçьma ondan söjləjirəm, lakin əfsus! Axundlarьmьz o əhkami ja özləri anlamьrlar, ja da anlajьb da qəsdən çəmaətə başqa surətdə jetirirlər.

Mir Kazьm aqa
(Kylsuma)

Sən bu danьşьqa nə qulaq asьrsan? Otaqьna get! (Kylsum cьqьr.)

Molla Fəttah
(istehza ilə)

Baçь oqlu, göryrəm sən jaqşь anlamьsan! De görym dinimizdə sənin kibi başьnь acьb tərk ədəblik edənə, jaxud başqalarь kibi saclarьnь uzadьb özlərini xariçilərə oqşadanlara nə nəzər ilə baqьr?

Məhəmməd

Mən o barədə şəriətdə bir şej görməmişəm, olsa da dinə joq bəlkə adətə, sihhətə dəxli vardьr.

Molla Fəttah

Baçь oqlu, göryrəm şəriəti axund molla Çəlaldan jaqşь təhsil etmisən! Mir Kazьm aqaja dedim ki, qoj Məhəmmədi özym oqudum. Dedi:—joq, baçьn oqludur. Səndən xof etməz. Indi bujur. Gör Çəlalьn babь fikri Məhəmmədə nə xoş gəlir.

Mir Kazьm aqa

Fəttah, səhv edirsən. Məhəmmədin əqidəsi elə dejil. O sən qoça daјьsьnь mybahəsəjə cəkir, fəqət onu başqa bir zamana qojunuz. Indi mətləb ystə

gələk. Oqlum, dajьn ilə belə qət' etmişik ki, çymə aqşamь Qjyncanь kəcyrək; cynky məhərrəmylhəram jaqьnlaşьr. Buna sən nə dejirsən?

Məhəmməd

Nə dejəçəjəm? Ixtijar sahibisiniz.

Mir Kazьm aqa

Coq əçəb. Indi ikinçi məsələjə kecək. Sənə iki jol secmişəm, ki din-islama xidmət edəsən. Biri Kərbəlajь-Myəllajə gedib təhsilini bitirəsən. Sonra da gəlib çəmaətimizə və'z edəsən. Digəri mərsijəxanlьqdьr. Bu axьrьnçь myqəddəs vəzifəni jyrytməjə indi də hazьrsьnьz. Gözəl səsin də var. Demək, evladьm, iki təriq: va'izlik, rovzəxanlьq hansьna mejlin artьq isə, onu sec.

Məhəmməd

Ata, coq dərin dyşynçələrdən sonra özymə bir myqəddəs, bir mystəqim təriq secmişəm. Sənin məqsədin mən fərzəndini bir sahib-minbər görmək dejilmi ki, o minbərdən vətəndaş'arьmь, dindaşlarьmь doqru jola də'vət edim?

Mir Kazьm aqa

Bəli, nami-mybarəki qojulmuş sən evladьndan çəddimiz bunu tələb edir.

Məhəmməd

Ata, indi dinlə gör evladьn nə gözəl, nə myqəddəs bir mənbər bəjənmiş?

Molla Fəttah

Səjlə. Joqsa bajaq məni şybhəjə salmьşdьn.

Məhəmməd

Ata, tə'rif etdijim minbərdən sizlər kibi quru və'z etmək joq, həjatь təsvir edən maraqlь vəq'ələr,

dəhşətli, qanlı faciələr səjləjərək, göstərərək, çə-maəti doqru jola də'vət edəçəkdir, bu evladın.

M i r K a z ı m a q a

Əhsən, əhsən oqlum.

M ə h ə m m ə d

Zalimlərin sitəmlərini, məzlumların qanlı göz jaşlarını göstərərək, qəlbləri lərzənak edəçəkdir—mən evladın.

M o l l a F ə t t a h

Əhsən, afərin baçı oqlu.

M i r K a z ı m a q a

O minbəri-myqəddəsin ismi nədir, evladım?

M ə h ə m m ə d

Səhnədir ismi onun pədərim.

M o l l a F ə t t a h

Səhnə nədir?

M ə h ə m m ə d

Dajım, səhnə ajinəsidir həjati-bəşərin!

M i r K a z ı m a q a

O səhnə hansı myqəddəs binadadır?

M ə h ə m m ə d

Bəli, doqru. O myqəddəs binadır; cynky orada jyksəlir həqiqət bajraqı. Orada janır həqq oçaqı. Ora bir ədalətxanadır ki, hər kəs vyçdanən əməlinə görə ja mykafat, ja da myçazat alır. Ora bir ibrətxanadır ki, hər kəs orada cirkin əməlini göryb də ibrət alır, istiqfar edir, insafa gəlir.

M o l l a F ə t t a h

Atan səndən sorur ki o hansı binadır?

M ə h ə m m ə d

O binanın adı teatrodur.

M i r K a z ı m a q a v ə M o l l a F ə t t a h

Nə? Teatro?

M ə h ə m m ə d

Bəli, teatro.

M i r K a z ı m a q a

Teatro! Lotular jıqılınçaqı...

M ə h ə m m ə d

Xajır, yrəfa oçaqı.

M o l l a F ə t t a h

Şejtan juvası!

M ə h ə m m ə d

Xajır, mələk odası!

M i r K a z ı m a q a

Ora mejxanadır!

M ə h ə m m ə d

Xajır, ora ibrətxanadır.

M o l l a F ə t t a h

Sən babi olmusan.

M ə h ə m m ə d

Xajır, mən həq jolu tapmış bir insan olmuşam.

M i r K a z ı m a q a

Sən dəli olmusan.

M ə h ə m m ə d

Xajır, mən aqil olmuşam.

Molla Fəttah

Bunlarьn hamьsьna bais o babi molla Çəlaldьr.

Mir Kazьm aqa

Doqru dejirsən, odur.

Məhəmməd

Nahaq jerə molla Çəlalь myqəssir edirsiniz. O sizdən gerijə qalmaz. O da sizin kibi din-islamьn əsasьnь atьb, sac qojanlara, cəkmə gejənlərə, rusça oqujanlara kafir dejənlərdəndir.

Mir Kazьm aqa

Bəs səni bu şejtan joluna kim və nə vadar edir?

Məhəmməd

Məjər mənim dutduqum jol şejtan joludur? Orada nə edəçəjimi səjləmədimmi?

Molla Fəttah

Səjlədin. Orada ojunbazlьq, mytryblik edəçəksən.

Mir Kazьm aqa

Ah! Yrəjim partlajьr! Sejid evladь ojunbazlьq?! Oqul, o qojduqum ad sənə həram olsun! Çəddim səni tezlik ilə əlimdən alsьn!

Molla Fəttah

Mən qьzьmь belə myrtədə vermәm. Bu saat molla Vəlini caqьrьb nikahьnь pozduraçaqam.

Məhəmməd

Baq, şəriəti bu gynə salmьşssьnьz. Ehkami-dinijəjə belə əməl edirsiniz.

Molla Fəttah

Neçə?

Məhəmməd

Kərimәniz өz ixtijariləmi mənə gəlmiş?

Molla Fəttah

Bəli.

Məhəmməd

Onda caqьrьnьz gəlsin və өz ixtijarilə də nikahьnь geri oqutsun. Şəriətin jolu budur, dajьm.

Molla Fəttah

Sus! Mənə şəriət өjrətmə. Dini-islamda sənin kibi dəlijə nikah joqdur. Bu burasь. Səni şəkdən cьqarmaq ycyn də qьzьmь bu saat burajа gətirdərəm. Gərərsən ki sən divanədən ikrah edib əl cəkəçəkdir. Tykəzban! Tykəzban! (Tykəzban daxil olur.)

Tykəzban

Nə bujurursan, qardaşьm?

Molla Fəttah

Bu saat gedib Qjyncanь gətirərsən.

Tykəzban

A qardaş, belə toj olurmu? Qoj qom-əqrəbamь jьqьb qajda ilə toj edim. Qjynca anadan jetimdir. Nəjə onu taj-tuş janьnda xar edirsən? Nəjə gənlyny sьndьrьrsan.

Mir Kazьm aqa

Tykəzban, sənin tojun jasa dəndy!

Tykəzban

Vaj! Aj kişi nə dejirsən? Өlənimiz kimdir?

Mir Kazьm aqa

Bu oqlun Məhəmməd.

Tykəzban

A kişi nə dejirsən? Sən allah mənlə belə zərafat etmə.

Mir Kazьm aqa

Arvad, oqlun dəli olmuş. Dəlijə də qьz vermək şəriətlə, çajiz dejil.

Məhəmməd

Ana, bunlar dejirlər ki, mən dəli olmuşam. Mən də istəjirəm ki Qıynca gəlsin ozyndən soruşum ki, mən dəlijə joldaş olmaq istəjir, ja joq?

Tykəzban

Elə bu, gər məni neçə qorqutdular! Oqlum, bunlar jalan dejirlər. Sənin eşqindən dəli-divanə olan Qıyncadьr.

Molla Fəttah

Hec vaqtь!

Tykəzban

A qardaş, nə dejirsən? Bizdən nə pislik gərdyn ki, daha qьzьnь vermək istəmirsən? Vallah vermәsən, Qıynca ozyny əldyrəçəkdir, ja da Məhəmmədə qoşulub qacaçaqdьr. Bu saat gedib gətirərəm. Gərərsən doqru dejirəm, ja joq. (Cьqьr.)

Mir Kazьm aqa

Bu işlərdə myqəssir mən ozyməm. Nə ycyn o islam topraqьnь buraqьb bu viranəjə gəldim. Nə bilim. Dedim ki bura mənim vətənimdir. Ata-babalarьmьn xaki-paki buradadьr. Qoj əlsəm də burada əlym. Hec bu gynlərimi dyşynmədim. Evladlarьmьn fikrinə qalmadьm. Bilmədim ki bu rus topraqьnda onlar xariçi jolilə gedəçəklər.

Molla Fəttah

Əlbəttə səhv etmisən. Gərək gəlməjəjdin. Indi mən ozym də Ərəbistana kəcmək fikrindəjəm. Bu işləri ki mən gəryrəm, bir az cəkməz, burada mysəlmanlьq nişanəsindən hec bir zad qalmaz.

(Tykəzban, Kylsum, Qıynca ipək carşafa byrynərək daxil olurlar.)

Tykəzban

Qardaşьm, indi qьzьndan ozyn soruş, gər Məhəmmədə getmək istəjir ja joq?

Məhəmməd

Qıyncaçьqьm. Hansь zalimdən qorqaraq belə cadraja byrynyb gizlənmisən? Joqsa qələm qaşlarьnda, ahu baqьşlarьnda, şəhla gəzlərində bir qysurmu gəryrsən? Jetər, jetər, gəzəlim! Sən kibi Qıynca gyllərin acьlmaq zamanь gəlmiş! (Çəld onun başьndan carşafь cəkib atьr.)

Mir Kazьm aqa

Nadyryst, bihəja!

Molla Fəttah

Qьzьm, gəryrsənmi? Bu din-təriqətdən dənmyş. Bu sejid evladь əmmaməni atьb lotu libasь gejib teatrda ojunbazlьq etmək fikrindədir. Sən bu kafirə, bu divanəjə getmək istəjirmisən?

Qıonca

Aqa, Məhəmməd mənim qəlbimin şahidir. Ozynə nə vəzifə secərsə, mənə xoşdur. Mən onun vəfalь bir qulujam.

Mir Kazьm aqa və molla Fəttah

Va şəriəta, va milləta!

M o l l a F ə t t a h

Sus, bihəja! O sənin qəlbinin sultanı isə, mən də sənin çisminin, həjatının sultanıjam.

T y k ə z b a n

Qardaş, sənə jalvarıram, bu iki çavanın göz jaşı tökməjinə bais olma. Onu bədbaxt etmə.

K y l s u m

Daji, mən də jalvarıram, Qıyncanı Məhəmmədən ajırma.

M o l l a F ə t t a h

Çəkilin, siz qadınların məsləhətinə qulaq asıb bu dynjada biabru, axirətdə də çəhənnəm oduna janmaq istəmirəm.

M ə h ə m m ə d

Ej mənim sejid atam, ej mənim axund dajım.

M i r K a z ı m a q a

Sus, şejtan məl'un! Sən dinsiz daha mənim evladım dejilsən! Çəkil. Evimdən çıq! Rəd ol!

M ə h ə m m ə d

Indi mən baqırıram. Vaj o millətin halına ki, sizin kibi jol göstəräni var!

(Getmək istəjir.)

Q ı y n c a

Məhəmməd, məni bunlara buraqıb haraja gedirsən?

K y l s u m

Qardaşım, məni də özynlə apar, burada qojma.

M ə h ə m m ə d

Səbr ediniz, ej qynca gyllərim. Məhəmməd sizləri bu zylmətdən, bu əzijjətdən, bu əzraillərin pənçəsindən xilas etmək ycyn gedir.

PƏRDƏ

ŞEJTAN

Bir pərdədə yc şəkilli pjes

1922

IŞTIRAK EDƏNLƏR:

Ş e i t a n. Iblis libasьnda. } Çinlər.
M a r z a v a n. }
Ç u r ç a n. }
T e j m u r. Dəmirci.
Ə l i. Onun oğlu, 12 jaşьnda.
A s l a n. Teimurun joldaşь. Dəmirci.
R i z v a n. Qommunist.
S a dьq K i ş i. Qoça kəndli.
H y s e j n q u l u. Kəndli.
Q a r a H y s e j n Kəndli.
Gylpəri, Nazpəri, Ş a h p ə r i, Kənd qьzlarь.

BIRINÇI PƏRDƏ

BIRINÇI ŞƏKIL

Səhnə bir daqıq göstərir. Ş e j t a n bir daş ystə oturmuş. Hyzurunda M a r z a v a n durmuş.

Ş e j t a n

Marzavan, Avropadan nə xəbər var? Söjlə.

M a r z a v a n

Babaçan, səpdijin toxumların barını tez görəçəksən. Firənglər tərəfindən qovulmuş Əmir Fejzəli ingilislər Əraqi-ərəbə sultan tə'jin etmişlər. Ingilislərin bu sijasətindən firənglər rənçidə olaraq tyrklərlə gizli my'ahədənamə baqlamışlar.

Ş e j t a n

Ha, ha, ha. Marzavan, bu işin aqibətini öz gözynlə görəçəksən. Şejtan babana əhsən dejəçəksən.

M a r z a v a n

Jaqın Şərq məsələsi əski Antantanı pozdu. Jeni antanta Uzaq Şərqə əl atır.

Ş e j t a n

Bu da iblis babanın insan qanı tökmək ycyn bir tələsidir.

M a r z a v a n

Almanların ölmyş çəsədindən myzəffər firənglər qorqurlar. Bilirmisən onlar nə tədbir etmişlər?

Ş e j t a n

Söjlə baqalım.

M a r z a v a n

Almanjada hərbə lazım nə şej varsa, toplajıb Firəngistana göndərsinlər.

Ş e j t a n

Tyrk-junan myharəbəsi nə haldadır?

M a r z a v a n

Qral Qonstantin əhd etmiş ki, ta Istanbulu alıb jenidən başına taç qojmajınça—qılınçını qınına salmasın.

(Çurçan daxil olur.)

Ş e j t a n

Söjlə görym ulu Qafqasda nə xəbər var, Çurçan?

Ç u r ç a n

Səni şad edəçək bir xəbər joq, babaçan.

Ş e j t a n

Söjlə baqalım.

Ç u r ç a n

Ulu Qafqas unutmuş tanrısını...

Ş e j t a n

Bu xəbər şad edir iblisini.

Ç u r ç a n

Səni də jad edən joqdur, babaçan.

Ş e j t a n

Buna mən hec inanmam. Çurçan. Bəşərijjət arasında olmaz elə zaman ki, şejtanı unudsun insan.

Çurçan

Gördyjymy söjləjirəm, babaçan.

Şejtan

Demək ki, ulu Qafqasda tökylmyr daha qan?

Çurçan

Xajır, babaçan:

Şejtan

Inanmam, Çurçan. Erməni, gyrçy, tyrk qan tökməsinlər? Bu nə halət? Bəs bəjlər, xanlar, qnjazlar neçə olmuşlar? Daşnaqlar, mysavatcılar, menşeviklər harda qalmışlar? Qocular, burzujlar, qolcomaqlar nə edirlər?

Çurçan

Çymləsini həkmdarlıqdan endirmişlər.

Şejtan

Kimlər?

Çurçan

Qommunistlər. Ulu Qafqasda başqa bir halət: byxl, həsəd, kin, kədurət, ədavət bysbytyn jox olmuş. Orada çan dejib çan eşidirlər.

Şejtan

Nə fəna xəbər gətirmişsən, Çurçan! Jer yzyndə sevgili bir məskənim vardisə, o da Qafqasdı. Qommunistlər onu məndən ala bilməzlər. Mənə iblis, mənə şejtan dejərlər. Erməni, gyrçy, mysəlman qardaş olmuşlar? Ha, ha, ha. Rahat jaşajıb çan dejib çan eşidirlər? Ha, ha, ha. (Ajaqa qalqıb.) Çurçan, Marzavan, mən onların iclərinə elə bir fitnə salım ki, jenidən bir-birini atəşə jaqsın, capsın, talasın, qırsın, oda atsın. Analar bətnindən balalar cıqarıb

nizəjə taqsın. Nəhrlər su jerinə qanlar aqıtsın. Bəhr sijah ilə Xəzərin icləri qızıl qan ilə dolsun. Kəndlər, şəhərlər, meşələr, qırlar od alıb məş'əl kibi jansın. Çəhənnəmə dönsyn!

Ulu Qafqas, hazır ol! Şejtan gəlir!

PƏRDƏ

IKINÇI ŞƏKİL

Səhnə dəmirci dykanını gəstərir. Əli kərvk basır. Tejmur ilə Aslan dəmir dəjyrlər.

Tejmur

Oqlum, kərygy bas. Joqsa jorulmusan?

Əli

Xajır babaçıqım, jorulmamışam.

Aslan

Jorulma, oqlum, sən zəhmətkeş balasısan. Sən işdən qorqma, qoj iş səndən qorqsun.

(Şejtan səjjah libasında daxil olur.)

Şejtan

Atəş... çahanda varsa tə'rifə lajiq bir şej o da sənsin. Ej jandırıçı od, səni gərdykdə qəlbim şad olur, ruhum rahat. Ej qırmızı işıq səni mən coq sevirəm!

Aslan

Joldaş sən kimsən?

Tejmur

Nə soruşursan? Dedijindən gərmyrsənmi bu adam atəşpərəstdir.

Şejtan

Doqru, mən atəşpərəstəm; cynky xamırım oddan juqurulmuş; odu mən coq sevirəm.

Aslan

Joldaş, bizim topraq azadə bir jerdir. Hər kəs nəjə sitajiş edirsə-etsin. Burada din, məzhəb ystə qovqa joqdur, mysəlman, xristijan, bytpərəst, atəşpərəst hamısı insandır, bizə qardaşdır.

Şejtan

Pəh, pəh, nə gəzəl məslək! Ej azəri tyrkləri mən səjjaham, dynjanı sejr edərək, buraja gəldim, belə səadətlə jaşajan insanlar gərmədim. Siz coq bəxtijarsınız... Əfsus ki... qonşu dyşmanlarınız bunu puc edəçəklər...

(Rizvan daxil olur. Şejtan onu gərmyr.)

Tejmur

Kimlər?

Şejtan

Gyrçylər ilə ermənilər.

Aslan

Səhv edirsən, joldaş, onlar bizim dostlarımızdır. Kəhnə ədavət, kəhnə həkymətlə getdi.

Şejtan

Ha, ha, ha. Ej sadədil azəri tyrkləri! Siz qəflətdəsiniz. Ermənilər, gyrçylər geçə-gyndyz jatmajıb jeni hərb ycyn silah hazırlajırlar. Intiqam, intiqam dejərək, myharəbə ycyn plan çəkirlər. Indi burada siz nə qajırırsınız?

Aslan

Kəndli qardaşlarımız ycyn əkin aləti qajırırıq.

Şejtan

Bu işləri buraqınız; geçə-gyndyz siz də onlar kibi qılınçlar, xənçərlər japınız. Firsəti fovtə verən aqil dejil, divanədir. Kecmişinizi jada salın. Siz

eјş-işrətə məşqul olduqda, onlar top, tyfəng jьqьb hazьrlaşьrdьlar. Gərdynyzmy, gözəl vətənimizi nə hala saldьlar? O gynlərinizi unutdunuzmu? Vuruşmaqьnьzьn sonu neçə oldu? Gözəl vətəniniz viranəjə döndy. Qanlarьnьz aqьb sellərə döndy, arvad-uşaqlarьnьz cəllərə dyşdy. Bunu unutdunuzmu?

Tejmur

Sən kimsən? Bunu haradan bilirsiniz?

Şejtan

O zaman mən burada idim.

(Rizvan pusqudan cьqьb iləri gəlir.)

Rizvan

Doqrudur, o zaman sən burada imişsən. Buna şəkkim joqdur. Joldaşlar, bajaqdan bəri mən bu hərifi dinləjirəm. Bunun kim olduqunu anlajьrsьnьzmь?

Aslan

Kim olduqunu bilmirəm. Lakin sözlərindən, gözlərindən şərarət odu jaqьr. Mən bunu göryrəm.

Rizvan

Doqrudur, joldaşlar, insanь bir-birilə vuruşduranlar belə hərifləərdir. Bunlara provaqator dejərlər. Bunlarьn əsli adlarь Şejtandьr. Joldaşlar, bunlara aldanmajьnьz. Gyrçy, erməni zəhmətkəşləri bizə dyşman dejillər. (Şejtan joq olur.) Onlarь bizlərlə toquşduranlar belə şejtanlar idi. Harada belə ara qarьşdьran adam gərdynyz dutub bizə veriniz (dönyb baqьr) baq, hərif giriz vermiş, hərgah dyz adam idi nə ycyn qacdь?

Tejmur

Joldaş Rizvan? Qorqmajьn. Belə fitnələrə aldanmarьq. Qonşularьmьz ilə də qardaşlьqь pozmadьq.

Rizvan

Elə də lazьmdьr. Indi iş dalьnça. (Cьqьr.)

Aslan

Oqlum Əli, kərygy bas!

PƏRDƏ

YCYNÇY ŞƏKIL

Səhnə S a d ь q kişinin kumasьnь göstərir. Həjətda N a z p ə r i çorab höryr, G y l p ə r i paltar və Ş a h p ə r i də kəmlək tikirlər. Ş e j t a n səjjah libasьnda qoltuqunda bir qutu həjətə daxil olur. Qьzlarь baş aşaqь işləjən halda gördykdə öz-özynə:

Şejtan

Nə gözəl fyrsət! Bu Həvva evladlarьnь aldadьb buradan aparmalь. Sonra—qьzlarьnьzь dyşmanlar aparmьş—dejə fitnə salmalь... (Qьzlara.) Jarəb, bunlar nə gözəl qьzlardьr? Sanki göjdən enmiş pərilərdir. Isminiz nədir, mələklər?

G y l p ə r i

Mənimki Gylpəri.

N a z p ə r i

Mənimki Nazpəri.

Ş a h p ə r i

Mənimki də Şahpəri.

Şejtan

Demədimmi siz pərisiniz? Simalarьnьz buna şahiddir. Siz kibi pərilərə belə işlər jaraşarmь? Toqda, gözəlim (Nazpərinin əlini əlinə alьb) bu şumşad kibi barmaqlara nə jaraşar gözəlim?

G y l p ə r i

Həna jaqmaq. (Gylyşyrlər.) Ha, ha, ha.

Şejtan

Bunlarьn nə gözəl səsləri var? Sanki səma musiqisidir bu sədalər. (Bir jaqut yzyg Nazpərinin barmaqьna taqьr.) Indi baqьnьz?

G y l p ə r i

Ah, nə gözəldir? Neçə parlaqdьr? Kaş mənim elə bir yzyjym olajdь!

Şejtan

Səbr et, gözəlim, sənin barmaqьna başqa bir qaş jaraşar. Baq, oda bu! (Almas yzyjy onun barmaqьna taqьr.)

Şahpəri

Doğrudan da nə jaraşьqlьdьr?

Şejtan

Mənim qutumda sizlərə lajьq şejlər coqdur. (Rəng-bə-rəng şişə mьnçьqlarь göstərir.)

G y l p ə r i

Ah, nə gözəl şejlərdir!

Şejtan

Indi siz pərilərə nə lazьmdьr?

Şahpəri

O şej ki bizim kəndli atalarьmьzda joqdur. Pul lazьmdьr ki, bu şejləri səndən alaq.

N a z p ə r i

Şahpəri dyz dejir. Bizim atalarьmьz kasьbdьr.

G y l p ə r i

Kaş bu şejləri bizə göstərməjəjdin, baba!

Şeytan

Gözəl şey görmək savabdır. Göryrəm bunları almaqa sizdə para joqdur. Lakin mən də sizin köməjinizə möhtaçam. Hərgah mənim təklifimi qəbul edərsinizsə, bu yzykləri sizə baxışlaram.

Gylpəri

Mən qəbul edərəm.

Nazpəri

Mən də.

Şeytan

Coq saq olun! Indi dedijimə jaqşı fikir veriniz. Mən böjyk təbibəm. Qədim bir tibb kitabında oqumuşam ki, sizin bu daqlarda bir nev' cicək bitir. Bu cicək indijə kibi myaləçəsi tapılmajan vərəm xəstəliginə dərmandır. Mən bu məqsədlə uzaq vətənimdən buraja gəlmişəm. Bu daşları da satıb özymə jemək və jol xarçı dyzəldirəm. Mən sizin bu daqlarınıza nabələdəm. Gözlərim də siz çavanlarınkı kibi iti dejil. Əgər mənə kömək edib o cicəji tapa bilsək, göstərdijim çəvahirlərdən sizə pəşkəş verərəm və jazdıqım tibb kitabında siz pərilərin adlarını da qejd edərəm. Görynyz insanlara nə böjyk xidmət edirsiniz? Adlarınız da min illərçə dillərdə söjlənər. Razı olursunuzmu?

Çymləsi

Razıjıq.

Gylpəri

Ançaq atalarımızdan izn almaq lazımdır.

Şeytan

Joq. Onu etməjin. Qorquram sizi qojmajalar və bu sirr öz aramızda qalmalıdır. Coq gəzmijəçəjik. Bəlkə baxtımız gətirdi, tez tapdıq. Gedək, qızlarım

Qızlar

Gedək. (Ajaqa qalqırlar. Bu halda Rizvan daxil olur.)

Şeytan

Jenə bu şiş papaq nə pis vaqtda gəldi!

Rizvan

Baçılar, işlərinizi qurtardınızmı?

Gylpəri

Xajır, bir az qalıbdır.

Rizvan

Joldaşlar, tənbəllik etməjin. Özynyz bilirsiniz ki, alman qardaşlarımız açından qırılırlar, cıplaq balaları sizin köməjinizə möhtaçdır. Bir saat geçikməjiniz, neçə mə'sum uşaqların ölymynə bais olar. Bu barmaqlarınızdakı yzyklər hardandır?

Şahpəri

Bu kişidən almışıq. (Rizvan diqqətlə Şeytana baqır.)

Rizvan

Ha, tanıdım; həmin hərif. Yzyklərinizə baqım. (Göstərirlər. Şeytan qacır.) Bunlar qijmətli daşlar dejillər, şişədir.

Gylpəri

Vaj sənə lə'nət. Şeytan kişi, biz də elə bilirik ki, qijmətli daşlardır. Nə jaqşı hələ pul verməmişik.

Nazpəri

O cicək aqtarmasa da hilədir.

Rizvan

Nə cicək?

Gylpəri

Dejirdi ki bizim daqlarda vərəm naxoşluquna dərman bir cicək bitir. Bizi onu aramaqa aparırdı.

Rizvan

Onun tələsindən jaqşı qurtardınız. Bu sizə bir dərs olsun. Bundan sonra belə şejtan şəxslərə aldanmajınız. Bu adam dəmirci joldaşları da aldatmaq istəjirdi. Daha durmajın iş dalınça. Bir azdan sonra gələçəjəm, ona kibi siz də işlərinizi qurtarınız. Sadıq babaja dejin ki, ianə şejlərini buraja toplasın, gəlib sijahı edəçəjəm. (Gedir)

Nazpəri

Gedək, işlərimizi qurtaraq. (Nazpəri və Şahpəri kumaja girirlər. Sadıq kişi həjətə daxil olur.)

Sadıq kişi

Gylpəri, Rizvan gəlmişdirmi?

Gylpəri

Bəli, gəlmişdi. Indiçə getdi; dedi ki bir azdan sonra gələçəjəm. Sadıq baba şejləri toplasın, gəlib sijahı edəçəjəm.

Sadıq kişi

Jaqşı, get gələn adamlar ycyn cərək hazırla.

Gylpəri

Baş ystə (Kumaja girir. Qara Hysejn dalında bir cuval, həjət qapısından girir.)

Sadıq kişi

Gətir oqlum? Gətir, ruzun bol olsun. Bir əvəzinə min alasan.

Qara Hysejn

Sadıq baba, özyn bilirsən ki bu il taxılım az oldu. Özymyzə catmır.

Sadıq kişi

Bilirəm, oqlum, sən də onu bil ki Almanjadakı qardaşlarımız açından ələf jejirlər. Aqaçların qabıqlarını gəmirirlər. Allah kərimdir. Bizlər bir-birimizə kömək edib təzə məhsula cıqarıq, amma onlar açından tələf olurlar.

(Həsənqulu dalında cuval daxil olur)

Sadıq kişi

Oqlum, Həsənqulu, sənin bu ehsanın hamısından qijmətlidir; cynky sən kasıbsan, el özy səni ianə ilə saqlajır.

Həsənqulu

Sadıq baba, o gyny joldaş Rizvan Almanja açlıqını elə halda naqıl etdi ki, nə dejim? O vaqtdan bəri cərək boqazımdan getmir. Zibil eşib symyk arajan qardaşlarımız gözymyn qabaqında dururlar.

Qara Hysejn

Mənim balaça oqlum da cərək jejəndə öz pajından ajırır ki, jıqıb aç uşaqlara göndərəçəjəm.

Həsənqulu

Sadıq baba, bir şej jıqa bilmişsənmi?

Sadıq kişi

Allah bərəkət versin, beş jyz puta qədər toplanmışdır. Hər kənd bir belə jıqsa, açların imdadına catarıq.

(Aslan ilə Tejmur daxil olurlar.)

Aslan

Sabahınız xejir.

Sadıq kişi

Aqibətiniz xeyir. Mənə görə qulluq?

Tejmur

Sadıq baba, bzi şəhərdən göndəriblər ki, kəndli qardaşlarımıza kömək edək.

Aslan

Dəmircijə möhtaç nə işiniz var isə, qajıraçajıq.

Həsənqulu

Mənim baltam sınıbdır.

Qara Hysejn

Mənim də dəhrəm və dərjazım!

Tejmur

Joldaşlar, hamısının qajıraçajıq, arxajın olunuz.

Sadıq kişi

Evladlarım, mən bu jaşa catmışam, belə qardaşlıq, joldaşlıq dəvranı görməmişəm. Çymlə insanlar birdir—dejən coq olmuş, lakin indiki kibi bolşeviklərdən səvajı əmələ gətirən olmamışdı.

(Şejtan təbib libasında, qoltuqunda bir davaçat qutusu daxil olur.)

Sadıq kişi

Kimsən? Sən'ətin nədir?

Şejtan

Mən təbibəm.

Həsənqulu

Nə jaqşı vaqtda gəlmişsən. Mənim balaça qızım naxoşdur.

Qara Hysejn

Mənim də arvadım.

Şejtan

Mən saqlara həkimlik edirəm.

Tejmur

Qəribə təbibdir, saqları saqaldır...

Şejtan

Bəli, saqları saqaldıram. Saq mən o şəxsə dejirəm ki bu dynjada hec bir qəmi və qyssəsi olmaja. Hansının dərdi joqdur? Hərəniz bir dərdə mybtəlasınız. Mən ömrymy sərf edib bu dərmanları içad etmişəm. Bunların hər birində başqa bir xasijjət var. (Bir şişə göstərir.) Bu dərmandan bir finçan icənin bədəni qızışıb qyvvətə gəlir. Birin də icərsə, qəm-qyssəsi gedib şad və xyrrəm olar. Birisini də icərsə, qızmış şirə dönyb pəhləvan tək mejdanda mybariz istər. Bu dərman da juqusuzlar ycyndyr. Bir həb atsa, şirin juquja gedib rahat olar. Lakin dərmanlarımın şahi budur.

Bunu qəljanın başına qojub cəkəndə adam ycyn bir başqa aləm acılır. Onu tə'rif etməkdən özym də açizəm. Bir, sözlə rəbbiniz və'd etdiji çənnəti bu dynjada göryrsynyz.

Rizvan

Mən sən hərifi jenə də göryrəm.

Şejtan

Jenə bu şiş papaq!

Rizvan

Joldaşlar, bu hərifi jhatə ediniz. Qacmaqa qojmajınız. (Onun ətrafını alırlar.)

Rizvan

(qutudan şişəni əlinə alır)

Bilirsinizmi bu nədir?

Hamı

Xayır.

Rizvan

Bu şeytan içadi qonjaqdır. Bunu icib məst olanları və nə halda və nə çyr fəna işlər japdıqlarını görmyssynyz.

Sadıq kişi

Ha, adamı qızmış aslana döndərdijini anladım.

Rizvan

Bu da tirjakdır. Həbbini atanları nə hala salır. Onu da görmyssynyz.

Aslan

Ej hərif, bizi bunlarla aldadırdın?

Rizvan

Bu da əsrardır. Bunu cəkən adam bir hala dyşyr ki, at ləpiri kibi su onun gözyndə bir bəjyk caj görynyr. Paltarını sojunur ki o cajı yzyb kecsin. (Gylyşyrlər.)

Tejmur

Vaj sənə lə'nət, hərif gör bizi nəjə öjrədirmiş?

Aslan

Tejmur, dejəsən o bizi aldadan şəxsə oqşajır.

Rizvan

Onun özydyr, ançaq libasını dəjişdirmiş. Bir az bundan iləri başqa surətdə qızlarınızı aldadıb daqlara aparmaq istəjirdi, mən qojmamışam.

Qara Hysejn

Pəs nə yçyn bunu dutub həbsə almajırsınız?

Rizvan

Dutulaçaqdır və çəzasın da alaçaqdır. Qojun görək kimdir.

Həsənqulu

Kim olaçaqdır? Şərir fəsadcının biri.

Şejtan

Rytbəmi azaltma.

Rizvan

Bəs sən kimsən?

Şejtan

(yst libasını atır)

Şeytan.

Çymləsi

Şeytan!

Şejtan

Ej vaj bu nə aləm, bu nə devran, bu nə halət
Nerdən jetib insanlara beylə məlakiijət
Bu bəndələrim-qullarım hər an mənə tabe'
Olsunmu o zəhmətlərim indi hamı zaje'
Qan jaqdıraram fitnə ilə ərzə səmadən,
Qorqmam nə bəşərdən, nə mələkdən, nə qəzadən:
Beş guşəli jıldız məni məqlub edir ej vah,
Mənsə jənə öz qyvvəi-nacizimə gymrah
Qacmaq, buların əmri olubdur mənə myşkyl
Etmək gərək ol Asijadə fitnəni təşkil
Ha! ha! ha!

PƏRDƏ

YENI HƏYAT

Bir pərdəli pyes

1923

IŞTIRAK EDƏNLƏR:

U s t a I m a n. 50 jaşında bir papaqçı
S ə l i m ə . Onun arvadı. Firqəçi.
A l l a h q u l u. Onun oğlu, komsomol.
S ə k i n ə . Onun qızı, pionerka.
N a z l ı . Onun baçısı qızı.
M ə h ə m m ə d R ə h i m. Nazlının əri, Usta Imanın dykan şəriki.
A x u n d R ə h m ə t u l l a h. Molla.
H a ç ı I s m a j ı l. Taçir.

BIRINÇI PƏRDƏ

Səhnə u s t a I m a n ь n qonaq otaqьnь gəstərir. Otaq səliqə ilə bəzənmiş. Saq tərəfdə A l l a h q u l u Lenin guşəsi dyzəltmiş, divardan Lenin və başqa rəhbərlərin şəkilləri asьlmьş. Masa ystə kitablar, qlobus, insan qafasь və qejri tədris ləvazьmatь. Sol tərəfdə S ə k i n ə əz masasьnь pioner tərzilə bəzəmiş. N a z l ь otaqь səliqəjə salarkan u s t a I m a n daxil olur

U s t a I m a n

Aj qьz Nazlь, Səlimə evdədirmi?

N a z l ь

Xajьr dajьçan, evdə hec kəs joqdur.

U s t a I m a n

Qьrьlmьşlar hara getmişlər?

N a z l ь

Səlimə Zenotdelə içlasa getmiş.

U s t a I m a n

Nə mənə? Çinatdel?

N a z l ь

Belə o urus kilsəsinin qabaqьnda bir bəjyk ev var ha, ora Zenotdel dejirlər. Orada arvadlarь oqudurlar. Onlara tamaşa gəstərirlər. Qublarь da var.

U s t a I m a n

Demək, Səlimə Çinatdel olmuş?

N a z l ь

Bəli.

U s t a I m a n

Mənim bu myrtəd oqlum Allahqulu əzy komsomol olduqu bəs dejil idi, arvadь da joldan cьqardьb çinatdel elədi.

N a z l ь

Bəli dajьçan, joqsa Səlimə elə jerləri haradan tanьrdь?

U s t a I m a n

Indi ehtijatlь olmalь. Joqsa kafir qьzь məni dutdurar.

N a z l ь

Doqru dejirsən dajь. O gyny mənə dejirdi ki, bir də hynəri var mənə bir cьrtma vursun o saat həbsə saldьrram.

U s t a I m a n

Gəzəl şəriəti bu dinsiz bolşeviklər gər nə gynə saldьlar? Ərin arvada ixtijarь joqdur, uşaqa ixtijarь joqdur, bəs bu kylbaşьn nəjə ixtijarь var?

N a z l ь

Dajь, mən istəjirdim sənə dejəm, amma qorqurdum. Indi ki, iş acьldь qoj o birisini də dejim.

U s t a I m a n

Daha nə var?

N a z l ь

Allahqulu Səkinəni o kycələrdə «çuravej-çuravej» oqujan uşaqlarьn dəstəsinə jazdьrьbdьr.

Usta Iman

Nə? O baldırlarъ acьq, əllərində dəjənək kycələri dolaşan qarqa kibi qaqqьldaşan dəstəsinə?

Nazlь

Bəli, bəli onlara pijanerkə dejirlər.

Usta Iman

Vaj sənin zatьna lə'nət a belə oqul. A kişilər az qalmьşam mən də dindən cьqam. Əgər allah var neja bu şəhəri alt-yst etmir. Əstaqfyrulla, lə'nət şejtana. (Hirsli gəzinir.)

Nazlь

Aj dajь sən allah sakit ol. Hər şeji yrəjinə salma.

Usta Iman

Axь mən neçə sakit olum? Gərmyrsənmi bu dinsiz oqlu mənim başьma nə həngama gətirib? Arvad—çinatdel, oqul komsomol, qьz pənirkə. Nejə partlьjьb gəbərmirsən usta Iman?

Allahqulu

(qoltuqunda kitab daxil olur, masa dalьnda oturub kitabьn vərəqlərini kəsir.)

Usta Iman

A bidin oqlu, bidin...

Allahqulu

Kaş dedijin sözlər doqru olajdь.

Usta Iman

Bəs doqru dejil?

Allahqulu

Xajьr doqru olsajdь mən elə ata ilə fəxr edərdim.

Usta Iman

Adə, sərsəm olmusan nədi? Hansь ata ilə fəxr edərdin?

Allahqulu

Sən dejən bidin ata ilə.

Usta Iman

Səsini kəs myrtəd oqlu myrtəd.

Allahqulu

Elə atanь da şadlьq ilə qabul edərdim.

Usta Iman

Hansь atanь?

Allahqulu

Myrtəd atanь.

Usta Iman

A biiman oqlu biiman, sən mənim yrəjimi partladaçaqsan.

Allahqulu

Doqrudur, mən sən Imanьn oqlujam ançaq, əfsus ki, «bi»siz.

Usta Iman

A qьz Nazlь tez ol su ver icim. Joqsa doqrudan da bu bidin bimәzhəb mənim baqrьmь catladaçaqdьr.

Nazlь

Aj dajь, sən allah hirslənmə. Joqsa o səfərki kibi yrəgim bitab olar.

Allahqulu

Ata, son sözlərin doqrudur. Mənim nə dinim var, nə də məzhəbim.

Usta Iman

A qız de eşit, mən neçə hirslənməjim, Arvad —çinatdel, oqul—komsomol, qız—pənirkə.

Nazlı

Ala ic, özyn də təbiətdən cıqma. (Usta Iman suju alıb icir.)

Allahqulu

Bibi qızı doqru dejir. Nejə özyndən cıqıb hər söz başı fəhş edirsən. Kişi kibi sözyny de, çavab al.

Usta Iman

Mən kişi olsajdım arvadım çinatdel, oqlum komsomol, qızım da pənirkə olmazdı.

Nazlı

Aj dajı, daha bəsdir. Nejə kişi dejilsən. Hamı ərlərin arvadları Zenatdel qlubuna gedirlər. Orada ojun cıqardanlara tamaşa edirlər. Burada nə pis iş var?

Usta Iman

Joqsa sən kafir qızı da oraja gedirsən?

Nazlı

Xajır mən oraja getmirəm.

Usta Iman

Bəs bu işləri hardan bilirsən?

Nazlı

Ora gedən arvadlar söjləjirlər.

Usta Iman

(Allahquluja)

Bir de görym arvad—çinattel, oqul—komsomol, qız—pənirkə bəs mən başı daşlının adı nə?

Allahqulu

Sən də qejrətli, məşədi, kərbəlajı mysəlmanların qırqıq başlarına namus papaqı tikən usta Imansan.

Usta Iman

Belə atan oldu rəhmətlik, doqru söz dedin. Bəs mənim bu batmış başıma bu biqerjət, binamus papaqımı kim tikmiş? (Papaqı jerə zollajıb ajaqları ilə tapdalajır.)

Nazlı

Aj dajı sənə qurban olum sakit ol. Birçə otur. (Altına sandalja cəkib oturdur, papaqını dyzəldib başına qojur, sonra su verir.) Bu suju ic hirsin jatsın.

Usta Iman

Joq, daha səbr kasam dolub daşıbdır. Gərək yrəjimdə nə varsa dejəm.

Allahqulu

Onda başla gəlsin.

Usta Iman

Sən anadan olandan yc aj sonra, aj kaş hec olmajajdın, mən böjyk bajram edib molla ilə qur'an ilə sənə bu batmış Allahqulu adını qojdum. Indi onu nejə dəjişmisən. Siz dinsiz bolşeviklər, adın da dyşmanısınız?

Allahqulu

Hansı ad ki, bizim əqidəmizə dyz gəlmir onu dəjişdiririk. Mən hec kəsə qul olmaq istəmirəm. Onda da adı var, özy joq allaha!

Usta Iman

Baj allah sənə lə'nət ejləsin.

A l l a h q u l u

Varsa eləsin.

U s t a I m a n

Oьz eşidirsən, a allaha inkar edən şejtani-məlun! Bəs allah kibi bəjyk bir adьn əvəzinə nə qojmusan. Mənə xəbər veriblər ki, özynə zilimi, milimi bir belə ad qojmusan.

A l l a h q u l u

Doqrudur, adьmь dəjişmişəm, bəjyk Oqtjabr bajramь mynasəbətilə jeni adlar qojurdular. Mən də özymə Cili adь qojdum.

U s t a I m a n

O neçə addьr?

A l l a h q u l u

Bəjyk rəhbərimiz Ilicin saqdan sola cəvirmə adьdьr.

U s t a I m a n

Daha nə dejim? Kyfr bu topraqь basmьş. Buradan qacmaq lazьmdьr. Geç tez allah-təala və təbarək Lut şəhri kibi bu şəhri də alt-yst edəçəkdir.

A l l a h q u l u

Joqsa onun ycyn Məşhəd zijarəti bəhanəsilə buradan qacьrsan?

U s t a I m a n

Xajьr o dejil, fikrim odur ki, gedib imam həzrətlərinin qəbri-şərifinə jьqьlьb jalvaram ki, siz bidinləri həq jola gətirsin.

A l l a h q u l u

Xajьr biz ilə işin olmasьn. Aqana jalvar ki, məşədi, kərbəlajьlarь insafa gətirsin. Arvadlarьnь hec

zad ystə gyndə dərd dəfə dəjyb başlarьnь jarmasьnlar. Qol-qabьrqalarьnь sьndьrmasьnlar. Onlarьn ystə yc arvad almasьnlar. On jaşьnda qьzlarьnь qoça kaftarlara ərə verməsinlər. Uşaqlarь məktəbə girmək istəjəndə mane olmasьnlar.

N a z l ь

Aj dajь, Allahqulu bunlarь lap doqru dejir.

U s t a I m a n

Kəs səsini bihəja. Gəryrəm səni də bu məl'unlar joldan cьqartmьşlar.

N a z l ь

Dajьçan, dynən geçə məşhədi Səfdərqulu arvadь Şah Sənəmi o qədər dəjmyş ki, jazьq arvadьn bədəni qara tuluqa dənmyş.

U s t a I m a n

Coq əçəb də etmiş. Gərynyr ərinin itaətindən cьqmьş. O da dəjmyş. Arvadьn əqli kəm olar. Özy də hyçət. Onlarь başьna buraqmaq olmaz.

A l l a h q u l u
(istehza ilə)

Dyz bujurursan ataçьqьm. Qlara Setkinin əqli məşədi Səfdərquludan kəmdir?

U s t a I m a n

Aj qьz, sən bu səfih sözlərə nə qulaq asьrsan. Get xörəjini bişir. (Nazlь cьqьr.) Mən Qlara-mьlara tanьmьram. O arvad əqilli olsajdь allah-təala onu kişi jaradardь.

(Səlimə daxil olur.)

U s t a I m a n

Arvad hardan gəlirsən?

S ə l i m ə

Sənə nə borçdur hardan gəlirəm.

U s t a I m a n

Bəs mən sənin ərin dejiləm?

S ə l i m ə

Əfsus ki, ərimsən.

U s t a I m a n

Nə ycyn əfsus?

S ə l i m ə

Cynky gor-ba-gor olmuş atam məni gəzy jaşlь zor ilə sənə vermiş. Ijirmi il bu viranədə sənin zylmyn altьnda çəhənnəm odu çəkmişəm. Elə indiçə işьqlь dynjaja cьqmьşam.

U s t a I m a n

Cynky dinsiz axirətsiz çinatdel olmusan, beləmi?

S ə l i m ə

Bəli, qluba cilen olmuşam. Bu da mənim yzvylyk kitabcam. Bujur baq. (Göstərir.)

U s t a I m a n

Çəhənməmə başbilit cьqarmьsan.

S ə l i m ə

Xajьr, sənin zylmynyn myqabilində bu kitabca mənim qalqanьmdьr. Indi hynərindi mənə əl qaldьr. Atana od vurub jandьrram.

U s t a I m a n

Odu mənə bu kafir oqlu vurmuş. Səninki lazьm gəlməz. Arvad—çinatdel, oqul—komsomol, qьz—pənirkə. Bu çəhənnəm dejil bəs nədir?

S ə l i m ə

Sən bizə sənələrçən çəhənnəm odu çəkdirmisən. Biz ki sənə bir şej etməmişik.

U s t a I m a n

Tələsmə, vaqt gələr jenə ixtijarь əlimə alaram, onda sizə göstərərəm.

A l l a h q u l u

Bilirik, coq sənin kibi məşədi, kərbəlajьlar əllərini göjə qaldьrьb dua edirlər ki, Şura hökyməti jьqьlsьn. Fəqət Antanta kibi nərlər jьqa bilməjən bir hökyməti, sizin kibi məşədilər jьqa bilməz. Proletariatьn parlaq gynəşini sizlər kibi jarasalar söndyrə bilməzlər.

S ə l i m ə

A kişi ej, baq dilini faraqat qoj. Joqsa Zenotdelə xəbər verərəm. Səni dutub Ceqaja salarlar.

U s t a I m a n

Aj arvad, sən də qalmaqal axtarьrsan. Kylfət söhbətidir edirik. Bunun çinatdelə nə dəxli var.

S ə l i m ə

Coq dəxli var. Sənin kimilər ja gərək Şura hökymətinə tabe olalar, ja da itilib hansь ölkəjə istəjirlər gedələr.

U s t a I m a n

Jaqşь aj arvad, onu da edərik, daha açьqьn dutmasьn.

S ə l i m ə

Neçə açьqьn dutmasьn, o gyny qьzьn kitab pulu istəjir, dejirsən itil çəhənnəmə. Bəs belə atalьq olar?

U s t a I m a n

Axьr mən başь kylly nə edim? Kitab bir olar, iki olar, joqsa on jaşьnda qьza altь-jeddi kitab la-

zьmdьr. Bu da sizin şura məktəbiniz. Jazьq qьzьn başьnь doldururlar ki, jer belə fьrlanьr, aj, gyn belə fьrlanьr. Bəh, bəh bu da elm oldu. Onlarь jaradan istər belə fьrladar, istər tərsinə fьrladar. Ja da hec fьrlatmaz. Bunun balaça qьzlara nə dəxli var. Çanьm nə ycyn allahьn işinə qarьşьrsьnьz? Allahьn səbri coq isə də qəzəbi də az dejil. Axьrda təngə gəlib ikinçi dəfə tufan edər. Bu kyfrə myrtəkib olmuş əlkəni suja qərq edər. Dejər indi jer hansь tərəfə fьrlanьr?

A l l a h q u l u
(qəhqəhə ilə gylyr.)

Ha-ha-ha... ataçьqьm belə mevhumat ilə sizləri aldatmьşlar; elə naqьllara biz ançaq gylyryk.

U s t a I m a n

Nuhun oqlanlarьndan biri də sənin kibi tufana inanmьrdь, gylyrdy, dalqalar icində boqulanda inandь ki, allah da varmьş, onun qəzəbi də.

M ə h ə m m ə d R ə h i m
(daxil olur)

Usta əmi, Xorasan joldaşlarьn dykana xəbər göndərmişlər ki, saat beşdə Irana bəjyk paraxod gedir. Pənçşənbə gynynə qalmaq istəmirlər. Saat da xoşdur. Getmək istəsəniz hazьrlaşьn.

U s t a I m a n

Əlbəttə istəjirəm, sən get dykanь baqla, tapşьrdьqьm şejləri al gətir ki, Iranda satьb jol xarçьmь cьqardьm. Daha durma vaqt azdьr.

M ə h ə m m ə d R ə h i m

O tapşьrdьqьn şejlərdən syvajь başqa mal alьmmь?

U s t a I m a n

Xajьr, xajьr.

M ə h ə m m ə d R ə h i m

Ançaq sən də hazьr ol. Vaqt azdьr. (Cьqьr.)

U s t a I m a n

Arvad, dur sən də tuman-köjnək, jorqan-döşək hazьr et.

S ə l i m ə
(istehza ilə)

Usta Iman, zijarətin qəbul olsun. Bəs bu evi kimin umuduna qojub gedirsən?

U s t a I m a n

Çinatdel arvadьmьn, komsomol oqlumun, pənirkə qьzьmьn umuduna.

A l l a h q u l u

Anam doqru dejir. Sən ailənə zylm edirsən. Өzyn bilirsən ki, mənim sənə ehtijaçьm joqdur. Həm qulluq edirəm, həm də oqujuram. Өz zəhmətim ilə özymy dolandьrьram. Evə də kömək edirəm. Lakin bu nə zijarət bazlьqdьr. Nə ycyn zəhmət ilə qazandьqьn pullarь aparьb Xorasan lotularьna jedirirsən?

S ə l i m ə

Oqlum, sən elə bilirsən bunun məqsədi zijarətdir? Xajьr bu Məşədə kefə gedir.

U s t a I m a n

Arvad gynah etdin, əstəxfar et. Mən aqamьn qulluquna gedirəm.

S ə l i m ə

Xajьr sən aqanьn java kənizlərini siqə etməjə gedirsən.

Usta Iman

Arvad nə sarsaq-sarsaq danьşьrsan? Əjər mənə e'tibar etmirsən bismillah bujur səni də aparьm.

Səlimə

Al ej, kyl başьna. Sən elə fikir edirsən ki, mən qьsqançlьq edirəm? Bəli sənin gyl çəmalьna, sərvi-qamətinə aşiqəm.

Usta Iman

Aşiq olsajdьn gedib çinatdel olmazdьn.

Səlimə

Əlbəttə siz məşədi-kərbəlajьlar Zenotdeli sevməzsiniz; cynky arvadlarьnьza etdijiniz zylmyn qarşьsьnь o alьr.

Allahqulu

(ajaqa qalqaraq)

Ata mən jacejqaja gedirəm.

(Səlimə o biri odaja gedir.)

Usta Iman

Bəs məni ətyrməjə gəlməjəçəksən?

Allahqulu

Içlasьmьz tez qurtarsa gələrəm.

Usta Iman

Sənin o sabrannьn mənim zijarət səfərimdən əfzəldir ki, qalmaq istəmirsən?

Allahqulu

Əlbəttə, min qat əfzəldir. Biz jeni dynja, jeni həjat qururuq. Sən və sənin joldaşlarьn da əski dynjadan bərk-bərk japьşьb bizə mane olursunuz.

Usta Iman

Siz jeni dynja tikmirsiniz, insanlarь əski bytpərəstlijə, daha doqrusu dinsizlijə də'vət edirsiniz.

Allahqulu

Sənnən mybahəsə etməjə vaqtьm joqdur, get imama jalvar ki, tezlik ilə bizi jьqsьn. Joqsa siz sadiq bəndələri də joldan cьqardaçajьq. (Cьqьr.)

Usta Iman

(jalnьz)

Arvad—çinatdel, oqul—komsomol, qьz—pənirkə, hec bilmirəm imam həzrətləri mən gynahkar atanьn taqsьrьndan kecəçəkdirmi?

Məhəmməd Rəhim

(əlində bir dolu xurçun daxil olur)

Usta əmi tapşьrdьqlarьnьn hamьsьnь əmələ gətirdim. Lakin mallarь sən dejən qijmətə ala bilmədim. Dykancьlar malьn qijmətini artьrmьşlar.

Usta Iman

Vaj allah sizin insafьnьzь kəssin. Bidin uşaqlarь bidin. Elə qamunxoz jaqşь eləjir ki, bu alverciləri sьqьr. Beş köpijə aldьqlarь malь bir manata satьrlar.

Məhəmməd Rəhim

Puldan da bir az kəm oldu. Məşədi Ibrahьm jyz manat əvəzinə altmьş manat verdi, dedi: əldə pulum ançaq budur. Usta Iman zijarətdən qajьdьnça jerdə qalanь da hazьrlajьb evə verərəm.

Usta Iman

Ejbi joqdur. O dyz adamdьr. Ançaq alanda özündə saqla, evə vermə. Çymlətanь necədir?

Məhəmməd Rəhim

Altı iyz əlli manatdır. (Çibindən çıqarıb sanıjır. Nazlı daxil olur.)

Nazlı
(Məhəmməd Rəhimə)

A kişi dajıma pul ver, Xorasandan mənə ipək jajlıq alsın.

Məhəmməd Rəhim

Pulum joqdur. Bunlar dajının puludur. Irandan mal alaçaqdır.

Nazlı

Bəs mənim başım jajlıqsız qalsın?

Məhəmməd Rəhim

Hələlik köhnəsilə dolan. Sonra alaram. (Pulları usta Imana verir.) Bujurunuz, dyz altı iyz əlli manatdır.

Usta Iman
(pulları sanarkən)

Baçı qızı sənə jajlıq da alaçaqam, başqa sovqat da. Ançaq bu evdən, eşikdən myqajat ol. Joqsa o dinsizlər mən gəlinçə evi sojaçaqlar. Bir də mənim arvadıma qoşulub çinatdel olma.

Nazlı

Dajıçan, doqrudur məni də joldan çıqarmaq istəjirlər, lakin arxajın ol, mən elə iş etmərəm ki, sizə binamusluq gəlsin.

Məhəmməd Rəhim

Elə bir balaça o jan-bu jan elədin o saat kəbinini verib evdən qovaçaqam.

Usta Iman

Nazlı mənim namuslu, baçımın qızıdır. O pis iş etməz. (Cəl qapı dəjylyr.)

Məhəmməd Rəhim

Nazlı o biri otaqa kec. Jəqin axund Rəhmətulla ilə haçı Ismajıldır. (Nazlı jan qapıdan, Məhəmməd-Rəhim orta qapıdan çıqırlar, sonra axund Rəhmətullah, haçı Ismajıl, dallarınça Məhəmməd Rəhim daxil olurlar.)

Rəhmətullah

Səlamyn əlejkym.

Usta Iman

Vəəlejkyməssəlam. Coq xoş gəlmisiniz, bujurunuz, bujurunuz. (Otururlar.)

Haçı Ismajıl

Nə jaqşı oldu ki, Məhəmməd Rəhim ilə göryşdyk. Joqsa sizin göryşynyzdən məhrum olaçaqdıq.

Usta Iman

Zyvvar bu aqşam çıqır. Mən də joldaşlardan ajrılmaq istəmirəm.

Rəhmətullah

Coq gözəl, bu gyn saat xoşdur və bir də bujurmuşlar ki, zyvvar nə qədər məkanından tez çıqsa, bir o qədər səvabı artıq olar; cynky zair nijjət baqladıqı saatdan aqası onu gözləjir. Başqa kitabi-myqəddəsdə jazmışlar ki, xydavəndi-aləm elə əçələ edən zairin hər bir dəqiqəsinə bəhiştdə bir huri, hər bir saatına bir qılman bəxş edəçəkdir.

Haçı Ismajıl

Çənabi-axund ələlxysus ki, belə kyfr zamanında.

Rəhmətullah

Bəli, bəli.

Haçı Ismayıl

Usta Iman, bu divarlardakı şəkillər kimdir?

Usta Iman

Dinsiz bolşeviklərin rəhbərləridir.

Rəhmətullah

Onları nə üçün evdən asmısan? Məjər bilmirsənmi ki, bu otaqda namaz qılmaq çaiz olmaz.

Usta Iman

Neçə bilmirəm, jaqşı bilirəm. Lakin nə edim, arvad çinatdel, oğul komsomol, qız pənirkə. Mən başıma nə kyl tökym? Qurban olduqum allahın da səbri coq.

Rəhmətullah

Bəli səbri coqdur, lakin bəlası da az dejil. Neçə oldu qevmi-Ad? Neçə oldu Lut əhli? Hamısını bir tyrfətil-eynində fot etdi.

Haçı Ismayıl

Axund, bu bolşeviklər belə məşhur tarixləri məgər oqumurlar?

Rəhmətullah

Aj haçı, mən tarix sözy demirəm ki ona şybhə edələr? Mən qur'anın lap ortasından söjləjirəm.

Usta Iman

Aj axund, sən nə danışırsan? Onlar allahı, peyğəmbəri, imamı, qur'anı, kitabı, hamısını inkar edirlər. Sən onlara nə qandıraçaqsan?

Haçı Ismayıl

Onlarla mübahəsə etmək də günahdır.

Rəhmətullah

Doğru buyurursan. O kafirlərin sözlərini də açıza almamalı.

Usta Iman

Onsuz da olmur. Mən bu evdə o kafir oğlum ilə gündə on dəfə savaşıram.

Səkinə

(pioner libasında daxil olur)

Ata gəldim pioner paltarımı sənə göstərim. Neçədir jaraşırmı?

Usta Iman

Cəkil, itin belindən gəlmiş. Joqsa durub əlindəki dəjənək ilə o acıq baldırına o qədər döjərəm ki, colaq olub bir də kyçələrdə çuravej-çuravej oqumazsan.

Səkinə

Ata, pioneri döjmək, söjmək olmaz. Biz azadə sanlı proletariat qoşunujuq.

Rəhmətullah

Siz əçinnə qoşunusumuz. Allah kökynyzy jer yzyndən götyrsyn.

Səkinə

Molla, sən jerində faraqat otur, coq mənim kibi balaça qızlarını kəbinlərin qoça kişilərə kəsmisən.

Usta Iman

Sus myrtəd qızı myrtəd.

Səlimə

(daxil olur)

A kişi nə qışqırırsan, nə olmuş?

Usta Iman

Daha nə olaçaqdır. Kim bu ərə getməli qızı belə dəşyy acıq, baldırı acıq, əli dəjənəkli etmiş? Kim? Kim?

Səlimə

Belə mən, mən.

Usta Iman

Sən qələt etmisən. Atan Çə'fərqulu ilə, baban kosa Mehdi ilə. It qızı it. Bu saat səni boqub öldyrəçəjəm. Bu evə də od vurub jandıraçaqam. Daha mən təngə gəldim. (Onun ystə hyçum edir.)

Səkinə

(aqaç ilə qarşısını alaraq uça səslə)

Jasaq.

Usta Iman

Cəkil itin qızı it.

Məhəmməd Rəhim

Usta əmi sakit olunuz uşaqdır. Qəbahətini anlamır.

Rəhmətullah ilə haçı Ismajıl

(qalqıb gedərkən)

Usta Iman xydahafiz. Iltimasi-dua.

Usta Iman

Baqışlajınız, halımı gəryrsynyz. (Cıqırlar.)

Səlimə

A kişi məni boqub öldyrəçəksən?

Məhəmməd Rəhim

Səlimə baçı rahat olunuz.

(Paraxod iki dəfə fit verir. Nazlı bir bəjyk baqlama ilə daxil olur.)

Nazlı

Dajı, sənə lazım olanların hamısını buraja qojmuşam.

Usta Iman

Ədə Məhəmməd Rəhim, paraxod iki dəfə fit verdi. Tez fajton dalınça get. (Məhəmməd Rəhim cıqır.)

Səlimə

Indi bu dava-şavadan sonra cıqart gərym evə nə qədər pul verəçəksən?

Usta Iman

Bir de gərym sənə pul nə lazımdır? Hər nə lazım olsa Məhəmməd Rəhim alıb verəçəkdir.

Səlimə

Mən Məhəmməd Rəhimin əlinə baqan dejiləm, cıqar öz əlimə ver.

Səkinə

Ata mənə cəkmə pulu ver.

Usta Iman

Sənə cəkmə lazım deiil. Baldırının acan qız ajaqjalın da gəzə bilər. (Allahqulu daxil olur.)

Səlimə

Oqlum jaqşı vaqtda gəlmisən, atan gedir, evinə pul vermək istəmir.

Allahqulu

Elə iş ola bilməz. Kişi kibi söz vermisən. Kişi kibi də əmələ gətir. Joqsa səni buraqmaq joqdur.

Usta Iman

(qoltuqundan kisəsini cıqardıb acır, bir qədər pul gətyryb Səliməjə verir.)

Ala bu da sənin ev xarçьn. Daha yrəjin sakit olsun.

S ə l i m ə

(sanьjьb)

Elə bu? Bir elə puldan evə bunu verirsən. Bu pul hec beş gynə də catmaz.

U s t a I m a n

Bu pullarь tərpətmək olmaz. Bunlara Irandan mal alьb gətirəçəjəm. Mənim də calьşьb vuruşduqum sizincindir.

S ə l i m ə

A kişi bizi ələ salmьsan? Өzyny lotuluqa qojmusan? (Pulu onun dəşynə cьrpьr.) Al, Xorasanda sənə siqə ycyn lazьm olar. (Jenə fit səsi gəlir.)

U s t a I m a n

A dinsiz balalarь dinsiz, siz mənim başьma nə gətirirsiniz? Indi ki belə oldu hec bir qara kəpik də vermirəm. A qьz Nazlь şejləri gətyr gedək. (Getmək istəjir. Səkinə qapьnьn aqzьnь kəsib.)

S ə k i n ə

Jasaq.

U s t a I m a n

Cəkil kafir balasь kafir.

S ə k i n ə

Jasaq!

M ə h ə m m ə d R ə h i m

(daxil olur)

Usta əmi, paraxod son fiti verdijinə gərə fajton dutmadьm.

U s t a I m a n

Vaj sizin zatьnьza lə'nət, məni zijarətdən qojdunuz. A kafir uşaqlarь kafir, çəmi vəbalьm sizin bojnunuza gəlsin.

A l l a h q u l u , S ə l i m ə , S ə k i n ə

(ycy də)

Gəlsin.

U s t a I m a n

Axirətdə nameji-əmalьnьz sol əlinizə verilsin.

У с у д ə

Qoj verilsin.

U s t a I m a n

Aj mysəlmanlar, axь mən başь daşlь, mən gəzyjaşlь nə edim? Arvad—çinatdel, oqul—komsomol, qьz—pənirkə.

PƏRDƏ

COÇUQ HEKAJƏLƏRI

QORQULU NAQŁLLAR

I

ƏHMƏD VƏ MƏLEJKƏ

Qьşьn orta ajь idi. Sojuqdan hamь qacьb evlərdə gizlənmişdi. Səmədin kylfəti isti otaqda syfrənin başьna çəm olub jemək ycyn onu gəzləjirdi. O isə o biri otaqda өz işinə məşquldu.

Səməd əlli jaşьnda saf yrəkli, rəhmdil bir kişi idi. Səmədin kylfəti qoça anasьndan, arvadьndan, bir doqquz jaşьnda oqlundan və bir də jeddi jaşьnda qьzьndan ibarətdi. Səməd oqlu Məhəmmədi ibtidai şəhər məktəbində oqudurdu və bu ildən də qьzь Fatmanь şəhər qьz məktəbinə vermişdi. Səməd başqa mysəlman atalara bər'əks olaraq uşaqlarьnьn dərslərinə, adab və tərbijəsinə coq fikir verərdi.

Səməd işini qurtarьb jemək otaqьna gəldi. O syfrənin başьnda əjləşdi, jeməjə başladьlar. Şam qurtardь. Səmədin xərəjin ystyndən caj icmək adəti idi. Bu vaqt kylfətə ja kitab ja gyndəlik qəzetlərdən oqujardь. Bu da olmasajdь gəzib gərdyjy vilajətlərdən danьşardь. Buna gorə də gəzlyjy gөzynə taqьb əlinə qəzeti gətyrəndə hamь sakit olub onun danьşьqьnь gөzləjirdi.

Səməd isə səsini cьqartmajьb өz-өzynə javaşçadan oqumaqa başladь.

Fatma bu sakitlijə davam etməjib qoça nənəsinə dedi:

—Nənə, mənə bir qorqulu naqıl söjlə.

Fatmanın qardaşı Əhməd baçısından bu sözy eşidib dedi:

—İndi ki, qorqulu naqıl istəjirsən bəs nejə o gyny nənəm Məlik Məhəmmədin naqılını söjləjəndə «div» adı gələn vaqt məmənin quçaqına qısıldın?

—Joq mən hec qorqmajırdım,—dejə Fatma çavab verdi.

Bu halda Səməd qəzeti jerə qojub dedi:

—Jaxşı qızım bu geçə nənənin əvəzinə mən sənə bir qorqulu naqıl söjlərəm bu şərtlə ki, qorqmajasan.

—Joq ata, qorqmaram, söjlə.

Səməd cajdan bir necə qurtum icib başladı:

—Qızım, biri varıdı biri joqudu. Şərqi-şimalda meşə icində, caj kənarında «Tatarçıq» adında bir kənd vardı. Bu kəndin əhli əkincilik və carvadarlıq ilə gyzəran edərdi. Qızım, həmin bu naqıl olunan kənddə Nurəddin adında bir kişi vardı. Bu Nurəddinin on jaşında Əhməd adlı bir oqlu, altı jaşında Məlejkə adlı bir qızı və Xədiçə adında bir arvadı vardı. Nurəddinin sənəti əkincilik idi və mal-qaradan ançaq bir atı vardı. Naqıl olunan zaman bahar və jaj coq quraqlıq kecməjə görə o vilajətdə taxıl susuzluqdan janıb tələf oldu. Coq çəkmədi ki, ətraf və əknafda açlıq başlandı. Pajızın əvvəlindən Nurəddin arabasını qoşub şəhərə kirajəcilijə getdi. Orada qazandıqı pulunu dört gyndən, beş gyndən bir evinə göndərirdi. Kylfəti də onunla gyzəran edərdi.

Əhməd kənd məktəbində oqujurdu. Atası tərəfindən gələn məktubları asança oquja bilirdi. Bir necə gyn bundan əqdəm Əhməd jazıb atasından özy ycyn bir başlıq və baçısı ycyn bir əlçək istəmiş-

di. Hər ikisi bu şejlərin tezçə alınmasını xahiş edirdi. Lakin beş gyn kecdi, bir həftə kecdi, on gyn kecdi, atalarından bir xəbər cıqmadı. Xədiçə bərk qorquja dyşmyşdy. Evdə pul və cörək də tykənmişdi.

Bir dəfə, əziz balalarım söz vaqtına cəkər, belə bir geçədə qarlı covqunun şiddətli vaqtında Əhməd və Məlejkə atalarının jolunu səbirsiz gözləjən zaman kim isə qapını dəjdy. Uşaqlar çəldi:

—Atam gəldi,—dejə qapıja tərəf jygyryşdylər. Amma onun əvəzinə kyrkə byrynmyş, əlləri əlçəkli, başı başlıqlı qonşuları Şəhabəddin içəri daxil oldu. O kişi Nurəddinlə bərabər arabacılıqa getmişdi. Bunu gərçək Xədiçənin yrəjini qorqu aldı.

Uşaqlar:

—Əmi, bəs atamız hanı?—dejə soruşduqları vaqt ondan çavab almadılar. Şəhabəddin Xədiçəni bajıra caqırıb ərinin atlı-arabalı dərəjə ucub ölməjini xəbər verdi və onun çibindən cıqan altı manatı verib çəld getdi. Xədiçənin ruhu qacmış, nitqi dutulmuş içəri girdi və uşaqlarını baqrına basıb zar-zar aqladı. Bunların ah-naləsi, boranın gurultulu səsi bir-birinə qarışmışdı. Bunlar axırda sakit oldular. Əhməd anasından sordu:

—Ana, bu açlıq ildə atasız biz neçə dolanaçajıq, açından öləçəjik.

—Qorqma oqlum, bu saclarımı satıb sizi aç qojmaram—dejə Xədiçə oqluna təsəlli verdi; sonra hər ikisini sojundurub jataqa uzandırdı, bir azdan sonra uşaqlar juquja getdilər. Amma o geçəni Xədiçə sybhə kibi jata bilmədi. Fikir, xəjalat onu gətyrmyşdy. Sahıbsız arvad, jetim uşaqlar açlıq ildə neçə dolansın?

Bir necə myddət kecdi. Xədiçənin pulu lap qurtardı. Javaş-javaş ev şejlərini satmaqa başladı.

Xədiçə bir də baqdь gördy ki, evdə heç bir şej qalmajьbdьr. Uşaqlar da açdьr. Cörək üçün hansь qonşuja getdisə əli boş qajьtdь; çünky hamь bunlarьn gynyndə idi. Açьndan zavallь uşaqlar taqət və gyçdən dyşmyşdylər. Jazьq Xədiçə, hər jerdən umudu kəsilmiş, dizlərini quçaqlajьb bir künçdə mumija kibi oturmuşdu. Gizlin aqlamaqdan gözlərinin jaşь da qurumuşdu.

Qьzьm aqşam oldu, açьndan Mələjkənin qьrmьzь janaqlarь saralmьşdь...

Birdən Fatma özyny atasьnьn quçaqьna atьb dedi:—ata demə, demə qorquram.

Səməd qьzьnьn başьnь sьqallajaraq dedi:

— Qorqma qьzьm, dalь jaqşьdьr. Qulaq as, harada qaldьm. Hə Xədiçə Mələjkəni sojundurub jerə qojdu ki bəlkə juquja gedə, amma jazьq uşaq rahat ola bilmirdi. Axьrda Xədiçə onu sakit etmək üçün dedi:

— Qьzьm Mələjkə, gözlərini jumub jat. Onda geçə mələk baçamьzdan sənə cörək salar. Mələjkə gözlərini jumdu. Bir azdan sonra juquja getdi. Amma Əhməd anasь ilə ojaq qalmьşdь. Geçədən xejli keçmiş baçadan gumbultu ilə bir şej içəri dyşdy. Ana və oğul diksinmiş ajaqa qalqdьlar ki, görsynlər o dyşən nədir. Gördylər ki, ağzь baqlь bir torbadьr. Xədiçə əli əsə-əsə torbanьn ağzьnь acdь. Gördylər ki, iki cörək, jemiş, çyçə, jumurta və qejri jeməli şejlərlə doludur. Bunu görçək Əhməd dedi:

— Ana gördynmy mələk baçamьzdan bizə cörək saldь. Xədiçə hejrətdə qalьb çavab verə bilmədi. Bu halda torbanь boşaldanda içindən kaqьza bükülmyş bir jumru şej də cьqdь. Acanda gördylər ki, hamьsь qьzьl puldur. Bunu görəndə ana və oğul daha da artьq təəççyb etdilər. Bu halda Əhmədin gözynə pula bükülmyş kaqьzda jazь sataşdь .

— Ana burada jazь var. Qoj görək nədir?—dejə Əhməd kaqьzь oqudu.

«Qьzьm Mələjkə, mən bir qoça səjjaham. Jolda evinizin javuqunda fajtonumun carxь oxdan cьqdь, onu salьnçan mən istədim ki, sizdə bir az qьzьnьb rahat olam. Qapьja gəldikdə anan dediji sözləri eşitdim. Geri qajьdьb bu şejləri və pulu sənin üçün hazьr etdim və təzədən gəlib baçanьzdan atdьm. Jaşa qьzьm, jaşa, mən qoça babanь da jaddan cьqartma. Xüdahafiz.

Səjjah Çəmaləddin.»

Bu halda Mələjkə ojanьb dedi:

— Ana mələk baçamьzdan cörək saldьmь?

— Bəli qьzьm, ançaq mələk joq, baban Çəmaləddin,—dejə Xədiçə Mələjkənin qabaqьnь jeməli şejlərlə doldurdu, o geçəsi iki bala bir ana şadlьqlarьndan bilməjirdilər ki nə etsinlər. Axьrda hamь şüdy-xürrəm jьxьlьb jatdьlar. İndi siz də əziz balalarьm, durun jatьn səhər dərsə gedəçəksiniz; bu sözlərlə Səməd sözüny tamam etdi.

1912.

II

ABBAS VƏ ZEJNƏB

Məhəmməd və Fatma şamdan sonra sabahkı dərslərini hazırlajıb jazılarını jazıb oturmuşdular. Tez-tez atalarının yzynə baqırdılar. Səməd uşaqlarının fikrini dujub dedi:

— Jenə naqıl istəjirsiz?

— Bəli ata,—dejə Məhəmməd çavab verdi.

Fatma dedi:

— Ata bu gyn myəlliməmiz bizə Əli Baba və Qırq quldurun naqılını oqudu. Sən də bizə quldurdan səjlə.

— Jaqşı qızım, ançaq bunu bil ki, quldurlar elmsiz, tərbijəsiz tajfadan cıqarlar. Hejvanın vəhşisi qurd, pələng və şir olan kibi insanın da vəhşisi bunlardır. Ançaq təfavytləri odur ki, quldurlar onlardan necə qat rəhmsiz, insafsız və zalımdırlar. Qulaq as, bu naqıldan özyn bilərsən.

— Qızım, bahar fəslində Dan julduzunun parlaq bir vaqtı idi. «Qajadibi» adlı kəndin əhli hələ jatmışdı. Bu kənd Zaqafqasjanın çənub tərəfində uça daqlarla ihatələnmiş bir caj qıraqında, meşə kənarında japılmışdır.

Birdən azancının «Allah əkbər» səsi uçaldı. Çytcylər bundan əvvəl ojanmışdılar, o zəhmətkeşlər zəmilərinə çyt əkməjə getdilər.

Getdikçə dan jerinin qızartısı artırdı. Dərələrdən və cajlardan duman qalqırdı. Gynəş daqın dalından ahəstə-ahəstə cıqırdı. Hələ özy gəryn-

məjirdi, amma şəfəqi qarşıdakı uça daqın başına dyşmyşdy. Sonra javaş-javaş qalqıb daqın dalından gəryndy və ruh verən qızıl zərrələrini aləmə daqıdıb çymlə jatmışları ojatdı. Cəmənlərdə, sejrəngahlarda gizlənmiş pərvanələri və arıları ojatdı. Quşların çəh-çəhi havaja uzandı. Bunların xoş avazları çytcyny şurə gətirdi. O da ahəstə-ahəstə çytyny syryb öz nəqməsini oqudu. Daq dəşyndə syrysyny otaran coban da bajatı nəqməsini tytəjində uçaltdı.

Gynəş javaş-javaş qalqırdı. Onun qızıl şəfəqi getdikçə gymyş rənginə dənyrdy. Qajadibi kəndinin əhalisi durub hərə öz işinə getdi.

***

— Abbas baq, gör mən nə qədər jıqmışam.

— Afərin baçım Zejnəb, indi otur bunları dəstə dutaq bazarda satıb sənə coqlu kişmiş alaçaqam.

— Fındıq da.

— Jaqşı fındıq da alaram.

Baçı və qardaş ətəklərinə jıqdıqları qulancarı jerə tökyb bir təpənin ystyndə oturdular, onları dəstə dutmaqa başladılar. Bu iki uşaq atadan jetim idi və bir quru daxmadan başqa ataları bunlara bir şej qojmamışdı, ançaq anaları Fatma çəhrəcilik edib bir nev gyndəlik cörəjini qazanırdı. Uşaqlar hənuz kicik olduqlarından analarına bir o qədər köməkləri catmajırdı. Abbasın on jaşı və Zejnəbin 7 jaşı vardı. Abbas ançaq bu ildən hər gyn meşəjə odun qırmaqa gedirdi və qırdıqı odunu şələləjib bazarda dykancılara bir az pula satırdı. Iki gyn bundan qabaq Abbas odun ilə bərabər bir dəstə qulançar da jıqıb bazara gətirmişdi və onu bir şahı pula satıb anasına vermişdi.

Bu gyn Abbas meşəjə getməjə hazırlananda Zejnəb də qulancar jıqmaq həvəsilə anasından ryx-

sət istədi; amma Fatma hec birini qojmaq istəmirdi; cynky quldur Səfərdən qorqurdu. Dərt il bundan əqdəm Səfərin qardaşы el davasыnda Qajadibi əhli tərəfindən əldyrylmyşdy. Amma qatili kim olduqu mə'lum dejildi. Ona görə Səfər qardaşыnыn qanыnы bytyn kənddən iddea edirdi.

Bir dəfə Qajadibi çamaatы Səfərdən belə dəhşətli bir sifariş aldы: Ej qajadibililər. And icirəm məni jaradan xaliqə. And icirəm anamыn, baçыmыn namusuna ta sizin bəjyk-kicijinizi, arvad-uşaqlыnыzы qыrыb o gözəl vətəninizi odlajыb tar-mar etməjinçə dynjada jaşamajam; vaqtыnыza hazыr olun. Bu xəbər hamыnы bərk qorquja salmышdы; cynky Səfər dəlibaş bir adam idi.

Bu sifarişdən coq kecməmişdi ki, Səfəri adam əldyrmək ystyndə Sibirə göndərdilər. Dərt ildi ki ondan bir xəbər-əsər joqdu. Ançaq bu jaqын zamanda Səfərin Sibirdən qacыb başына özy kibi dəliqanlыlarы çəm edərək quldurluq etməji hər jerə jajыlmышdы. Qajadibi əhli də bərk qorquda idi. Fatma necə gyndy ki, issizdi. Ona görə istər-istəməz uşaqlara izn verdi. Onlar da sevinə-sevinə meşə tərəfə yz qojdular.

Fatma əqilli, xoş rəftar bir arvad idi. Öz uşaqlarына da jaqşы rəftarы, bir-birilə mehriban dolanmaqы tərbijə vermişdi. Uşaqlar da analarыnыn gözəl sifətlərini və tərbijəsini gətyrmyşdylər. Coq analar bu iki tiflin tərbijəsinə həsrət cəkirdilər.

Abbas uzun bojlu, nazik bədən, aq bənizli, ala gözly, xoş sifət bir uşaqdы. Zejnəb qara qaş, qara göz, dolu bədənli, uzun saclы, qырmызы janaqlы bir qызdы. Abbas baçыsыnы artыq dərəçədə sevirdi, hec bir gyn olmazdы ki, öz qazançыndan baçыsына bir şej almajajdы. Abbas yzyny baçыsына cevirib dedi:

— Zejnəb, bu jыqdыqыmыz qulancar azdыr, buna hec bir şahы da verməzlər. Dur gedək mən bir jaqşы qulancarlы jer bilirəm. Orada qulancar jыqaq və həm də mən odun doqrajыb şələ qajырым.

— Axы qardaş, mən jorulmuşam?

— Javaş-javaş gedərik, orada sən jorqunluqunu alarsan, mən özym tək jыqaram,—dejə Abbas dəhrəsini və siçimini gətyryb ajaqa qalqdы və baçыsыnыn da əlindən dutub daqын dəşyndəki urmanlыqa yz qojdu. Bir qədər meşə ilə gedəndən sonra bir gözəl və səfalы sejrəngaha cыqdылar. Bu sejrəngah jaşыl təzə və tər otla, gözəl ətirli rəngli cicəklərlə zijnətlənmişdi. Rəng-bə-rəng pərvanələr və arылar bu cicəkdən o cicəjə ucub bahar gynəşilə ojnaşырdылar. Hər rəngə calan çyr-bə-çyr çyçylər otlara mərçan kibi sarылmышды. Bir tərəfdən cicəklərin qoqusu, bir tərəfdən quşlarын çəh-çəhi və bir tərəfdən də baharын xoş meji insanы biruh edirdi. Sejrəngahын bir tərəfi qajaja dirənmişdi, bu qajadan bir bulaq aqыb şырылtы ilə aşaqы tökylyrdy. Sujun zərrələri havada gynəşin şəfəqindən almas parcalarы kibi parылdajырды. «Şырlanbulaq» adы ilə bu bulaq məşhurdu. Zejnəb bu gylystanы bu carqat kibi sərilmiş lalələri və cicəkləri gərçək jorulmaqыны unudub «Ah nə gözəl cicəklər var»—dejə qыşqырды və qardaşынын əlini buraqыb gyl jыqmaqa qacdы. Abbas da ipini və dəhrəsini jerə qojub qulancar jыqmaqa məşqul oldu. Zejnəb gah cicək jыqырды və gah da qыşqыra-qыşqыra pərvanələri qovurdu. Bir azdan sonra jorulub bir laləzarlыqda oturdu və lalələrdən gəlin qajырmaqa başladы. O vaqt Abbas qulancar jыqa-jыqa cəməndən xejli uzaqlaşыb bir kolluq dərəjə dyşmyşdy.

Gyn qalqыb gyn ortaja jaqынlaşmышды. Qəflətən daqlarын arasына bir gurultu dyşdy. Abbas elə bildi ki, göj guruldajыr, amma juqarы baqdыqda bir bulut da görmədi. Bu gurultudan bir dəqiqə kecməmiş elə bir gurultu başlandы ki, dejəsən bu saat gojlər ucub jerə tökyləçəkdir. Abbas başыны juqarы

qaldьrьb gərdy ki, gyllə daqlarьn başьndan kəndlərinə və zəmilərdə jer əkən çytcylərin və qojun otaran cobanlarьn ystynə dolu kibi jaqьr. Quldurlar—dejə Abbas qьşqьrdь. Bu əvvəl istədi ki dərədə gizlənsin. Sonra jadьna dyşdy ki, Zejnəb cəmində acьq jerdə qalmьşdьr. Dərhal baçьsьna tərəf qacdь ki, onu da gətyryb ajь kahasьnda gizlənsin. Abbas özyny o vaqt jetirdi ki, Zejnəb cəmində başь acьq, saclarь dəşynə tökylmyş, avcь oxundan qacan çejran tək «Abbas qardaş»—dejə o tərəf-bu tərəfə qacьb qьşqьrьrdь, və daqlardan da birəhm quldurlarьn gyllələri onun ystynə dolu kibi jaqьrdь. Abbas uçadan səsləndi:

—Baçь Zejnəb, qorqma burdajam. Zejnəb qardaşьnьn səsini eşidib ona tərəf qacdь. Lakin otuz qədəm getməmişdi ki, birdən oh... dejib jerə jьqьldь. Abbas özyny baçьsьna jetirib gərdy ki, Zejnəbin sinəsindən al qan qətrə-qətrə tökylyr, otlarь və cicəkləri lalə rənginə döndərmişdir.

Abbas mənə su ver.

—Dur baçьm qacaq Şьrlanbulaqa.

Zejnəb istədi ki, qacsьn, amma baçarmadь. Abbas onu coq cətinliklə quçaqьna gətyryb bulaqa tərəf aparmaqa yz qojdu. Lakin on qədəm getməmişdi ki, quldurlar bunlarь təzədən gylləjə dutdular. Abbas özyny və baçьsьnь bir cuqur jerə saldь ki oranь gyllə dutmajьrdь. Zejnəbin lalə kibi olan yzy solub aq zanbaqa dənmyşdy.

—Abbas jandьm mənə su ver—dejə Zejnəb nalə edirdi. Baçьsьnьn susuzluqu Abbasьn yrəjini nihajət dərəçədə jandьrdь.

—Baçь bu saat sənə su gətirəçəjəm,—dejə Abbas bulaqa tərəf jygyrdy. Gyllə mydam onun ystynə jaqьrdь.

Abbas özyny bulaqa jetirdi. Araxcьnьnь su ilə doldurub qajьtdь. Bu dəfə Abbas qaca bilməjirdi,

qorqurdu ki suju tökylsyn. Abbas o qədər Zejnəbə jaqьnlaşdь ki, onun su naləsini eşitdi, birdən Abbas ufultu ilə jerə jьqьldь. Namərd gyllə bijnəva uşaqьn sol böjryndən dəjib dalьndan cьqmьşdь. Abbas qalqьb jerimək istədi. Lakin yc qədəm getməmişdi ki, dybarə jьqьldь. Abbas syrynə-syrynə özyny baçьsьnьn ystynə saldь, gərdy ki, gözləri jumuludur. Amma dodaqlarь ajrьla qalmьşdьr. Elə bil ki dejir:

—Qardaş, Abbas mənə su ver.

Abbas Zejnəbi quçaqlajьb өpə-өpə dejirdi:

—Baçь, Zejnəb gözlərini ac gəlmişəm.

Bu hadisədən altь saat kecdi. Dəxi tyfəngin gurultusu kəsilmişdi. Daqlarьn arasьnь tysty almьşdь. Bu tysty Qajadibi kəndinin janmьş evlərinin və baqlarьnьn tystysy idi. Beş-altь saat bundan qabaq çənnət baqьna bənzəjən Qajadibi kəndi, indi janьb kyl olmuşdu. Əhalisi isə bir parasь qətlə jetişib jerdə qalanь da qacьb daqlarda, meşələrdə gizlənmişdi. Quldur Səfər qardaşьnьn intiqamьnь belə aldь.

Gyn batdь. Aj cьqdь. Naqьl olunan jerlərdən bir zihəjatьn səsi cьqmьrdь. Hejvanlar və quşlar insanlarьn vəhşi hərəkətindən belə xofə dyşmyşdylər ki, hələ çyr'ət edib juvalarьndan cьqa bilməjirdilər. Aj javaş-javaş qalqьb qəmgin-qəmgin insanlarьn dutduqu vəhşi əməllərə baqьrdь.

Geçədən xejli kecmiş bir arvad daqlarь, daşlarь, meşələri arajьrdь. Bu arvad Fatma və aradьqь da iki balasь idi.

—Zejnəb, Abbas, gözəl balalarьm, jetim balalarьm haradasьnьz? Səs verin—dejə Fatma nalə edirdi. Lakin cəmən yzyndə lalələr arasьnda quçaq-quçaqa verib qanlarьna qəltan olmuş Zejnəb və Abbas bu iki mə'sum, analarь Fatmanьn naləsini eşitməjirdilər.

1912.

III

NURƏDDIN

Aqşam caqь idi. Səmədin kylfəti caj syfrəsində hazьrdь. Məhəmməd jazьsьnь qurtarьb diqqətlə əz-özynə oqujurdu, və qələtlərini də dyzəldirdi. Fatma isə əllərilə başьnь dutub dərin fikrə getmişdi. Səməd yzyny qьzьna tərəf dutub soruşdu.

— Qьzьm nə fikrə getmisən?

Fatma çavab verdi:

— Ata, myəlliməmizin əmrinə görə gərək sabaha bir elə naqьl dyzəldəm ki, ondan belə mə'na cьqsьn: «Jaqşьlьq elə əvəzini görərsən» indi qulaq as səjləjim gör jaqşьdьrmь.

— Coq gözəl qьzьm, səjlə görym.

Fatma səjlədi; atasь da bəjənib tə'rif etdi. Məhəmməd dedi:

— Ata, mənə də myəllimimiz atalar sözyndən olan «jaqşьlьqa jaqşьlьq hər kişinin işidir, jamanlьqa jaqşьlьq ər kişinin işidir» sözynə mynasib bir hekajə dyzəldib jazmaqь əmr etmişdir. Hərgah izn versən oqujaram.

Oqu oqlum görym nə tevr jazmьsan.

Məhəmməd oqudu. Səməd bunu da bəjəndi. Fatma soruşdu:

— Ata, Hansьmьzьnkь jaqşьdьr?

—Qьzьm, qoj birisini də mən səjləjim sonra baqaq gərək kiminki ə'ladьr—dejə Şəməd çavab verdi.

Məhəmməd və Fatma ikisi də bir aqьzdan:

— Səjlə ata, səjlə—dedilər.

Səməd başladь:

—Evladlarьm. Qafqasda haçь Nəsir adlь bir taçir sakin idi. Bu taçirin Həlimə adlь bir çavan arvadь vardь. Həlimə çamalda gözəl olduqu kibi xasijjətdə ondan da gözəldi. Bu arvadьn dynjada evladsьzlьqdan başqa bir qəm-qyssəsi joqdu. Axьrda bunlarьn bir oqlu oldu. Haçь Nəsir o gyn oqlunun təvəllydyny şadlьq edib şəhərin fəqir-fyqərasьna pul və xərək pajladь. Oqlanьn adьnь Nurəddin qojdular. Ata və ana geçə və gyndyz Nurəddinin başьna dolanьrdьlar.

Haçь Nəsir hər il jarmarqaja mal xiridinə gedərdi və qajьdanda arvadь və oqlu ycyn hər çyr sevqat gətirərdi. Bir dəfə haçь Nəsir oqlu ycyn kibrit qutusu irilikdə bir Gylystan kitabь da gətirmişdi, Həlimə bu qəribə şeji haradan aldьqьnь sorduqda, haçь Nəsir çavab verdi:

— Bir gyn jarmarqada bazardan mənzilimə qajьdarkan bir nəfəri köpry ystyndə başьnь aşaqь sallajьb aqlajan gördym. Mən dajanьb bunun səbəbini sordum. Kişi dedi:

— Mən əhl-əjal sahьbь bir kasьb adamam. Əslim Iranlьdьr. Əldə xьrdavat satmaqla 300 manat pul dyzəldib buraja gəldim ki, mal alьb aparam. Bir saat bundan qabaq pulumun hamьsьnь çibimdən cьqartmьşlar.

Bu kişinin halьna yrəjim jandь. Çibimdən 300 manat cьqardьb dedim:

— Al kişi, bu sənin yc jyz manatьn, get mal al kəsbindən qalma. Qazanьb sonra pulumu qajtararsan. Indi isə balaça Nurəddinimə dua et. Kişi əlimdən öpyb adьmь və mənzilimi soruşdu və sevinə-sevinə cьqьb getdim. Aqşam mənzilimdə caj icdijim zaman həmən kişi içəri daxil olub:

— Haçь, sovqat ycyn bundan əziz bir şejim joqdur,—dejə Gylystan kitabьnь mənə uzatdь.

— Qoj mən Rəhim tərəfdən sevgili evladьnьz Nurəddinə Sə'dinin bu Gylystan kitabь jadigar olsun. Sonra dybarə razьlьq edib getdi.

Həlimə kitabь ipək parcaja tikib Nurəddinin bojnundan asdь və dedi: Oqlum bəjyjər bu kitabь oqujar.

Nurəddin bəjyjyb səkkiz jaşьna catdь. Haçь Nəsir oqlunu məktəbə qojdu. Nurəddin oqumaqda birinçi şəjird idi. Joldaşlarь ilə coq mehriban rəftar edərdi. Ona görə də hamь onu sevərdi. Xatьrьnь istərdi.

Coq cəkmədi ki, haçь Nəsirin tiçarət işləri tənəzzylə başlajьb javaş-javaş var-joqu əlindən cьqmaqa başladь. Vəfalь Həlimə ərinə yrək verib coq da qəm və qyssə cəkməjə qojmazdь. Bir dəfə Həlimə hamamdan cьqanda özyny sojuqa verib jorqan-döşəjə jьqьldь. Haçь Nəsir istəkli arvadьnьn ystynə myaləçə ycyn necə məşhur həkim gətirdisə də zatilçəm azarьndan saqala bilmədi. Həlimə doqquzunçu geçə Nurəddin dejə-dejə vəfat etdi. Həlimə oqlunu hər geçə özy sojundurub əzizləjə-əzizləjə jatьrardь. O da anasьnьn bojnunu quçaqlajьb:

— Ana, geçən xejrə qalsьn,—dejə öpərdi və şirin juquja gedərdi. O idi ki, haman geçə qulluqcu onu rahat edəndə anasь jadьna dyşyb təzədən aqlamaqa başladь. Geçə jarьdan kecdi. Lakin Nurəddin jata bilmədi. Aqlamaqьnь kəsib Xəjalata getmişdi.

Ah birdən anam dirilə... Ja da ki anam hec ölməmişdir. Bilmirlər. O gyny myəllimimiz söjlədi ki, bir elə juqu var ki ölymə oqşajьr; necə gyn, hətta necə aj azarlь öly kibi qalьb axьrda jenə dirilir. Coq ittifaqlar dyşyr ki elə azarlьnь olmyş zənn edib dəfn edirlər. Ah bəlkə anam da elə juquja getmişdir onu olmyş bilib basdьraçaqlar, joq, joq qojmaram, səhər

tezdən atama dejəçəjəm ki, hələ anamь basdьrmasьnlar. Bəlkə ölməmişdir.

Belə fikir və xəjalatda ikən Nurəddin sybh vaqtь juquja getdi və gynortaja kibi jatdь. Nurəddin juqudan ojanьnça Həliməni dəfn etdilər. Haçь Nəsirin başь jas jerinə gələn adamlara qarьşdьqьndan oqlundan bixəbərdi.

Nurəddin gözlərini acdь. O biri otaqda molla həzin bir səslə qur'an oqujurdu. Mollanьn xoş avazь juqudan jeni ajьlmьş Nurəddinə laj-laj kibi tə'sir edib onu bir myddət ujqu ilə ajьqlьq halətində saqladь. Sonra bu qur'an nə ycyn və kim ycyn oqunur fikri Nurəddinin başьna dyşdy. Bu isə anasьnьn ölməjini jadьna saldь. Birdən geçəki fikri Nurəddinin başьna ildьrьm kibi şaqьjьb onu jerindən dik qaldьrdь. Bu halda qulluqcu Bahar icəri daxil oldu, Nurəddin soruşdu:

— Bahar, de görym anamь basdьrdьlarmь?

Bahar gözlərinin jaşьnь silərək, bəli basdьrdьlar, kaş onun əvəzinə mən öləjdim məni basdьrajdьlar,— dejə çavab verdi.

Anasьnьn dirilməsindən zavallь Nurəddinin umudu daha kəsildi, lakin onu ölym juqusunda ikən dəfn etmək şəkki hələ yrəjində idi. O idi ki, aqşam baş-saqlьqьna gələn adamlar daqьlandan sonra atasь ilə göryşəndə bu fikrini acьb ona dedi, atasь da onu şəkdən cьqardьb sakit etdi.

Anasьnьn vəfatьndan sonra Nurəddində böjyk təqjir görynyrdy. Həmişə dejib danьşan, gylyş yzly və mehriban bir uşaq olduqu halda indi qəmgin və mə'jus olub məktəb joldaşlarьndan kənar dururdu. Həmfikri, həmsirri ançaq kitablarь olmuşdu. Əvvəl vaqtlar joldaşlarь onun bu halətini anasьnьn vəfat etməjinə görə təbii bilib bu xəjalda idilər ki, sonralar jenə həmişəki halьna dyşəçəkdir, lakin bir aj kecdi, iki aj kecdi, bir il kecdi Nurəddin əvvəlki ha-

lьna dyşmədi. Ançaq biliji ilə myəllimlərini hejrətə gətirirdi. Coq vaqt onlara elə sual verirdi ki, çavabьnda onlar açiz qalьrdьlar.

Haçь Nəsirin əli aşaqь dyşməjə görə Nurəddin dəxi əvvəlki kibi məktəbə öz fajtonlarьnda getmirdi. Bu təqjirdən Nurəddin bir o qədər qəm cəkmirdi; cynky təbiətində təkəbbyrlyk, təşəxxyslyk əsla qojulmamьşdь. Haçь Nəsir nə qədər oqlunun elm və ədəb kəsbində göstərdiji sə'j və qejrətdən fərəhlənirdisə bir o qədər də onun pərişanlьqьndan qəmgin olardь və bilməzdi ki, nə jolla onu şad etsin. Axьrda haçь Nəsir evlənmək fikrinə dyşdy.

Bir kasьb kişinin qьzьnь alьb evimə gətirməlijəm ki, Nurəddjnə analьq edib onu bu qəm və qyssədən azad etsin—dejə haçь Nəsir fikir etdi. Bir ittifaq bu xahьşь tezliklə əmələ gətirməjə səbəb oldu. Haçь Nəsir bir qejri şəhərdə sakin olan şərikilə hesab cəkməjə getmişdi. Bu şəhərin ijirmi verstlijində olan kənddə Imamverdi adlь haçь Nəsirin tanьşь vardь. Necə myddətdi ki, ondan bir xəbər, əsər joqdu.

Bu uzun jolu gəlmişkən qoj bu dostuma da bir baş cəkim,—dejə haçь Nəsir jola rəvan oldu. Kəndə catdьqda ondan-bundan xəbər dutub axьrda Imamverdini tapdь. Imamverdi altьmьş jaşьnda bir qoça kişi idi. Kənddə özynə görə jaqşь evi-mylky vardь. Amma indi onlarьn hamьsь satьlьb borçlarьna verilmişdi. Imamverdi haçь Nəsiri bir köhnə daxmaja də'vət edərək dedi:

— Haçь Nəsir, sən gərən devlət əlimdən cьqdь. Indi mənə qalan ançaq bu ucuq daxmadьr. Evladdan da bir qьzdan başqa bir kəsim qalmamьşdьr.

— Hərgah mənim işlərim əvvəlki kibi dyzgyn olsajdь, sənə əl dutardьm.

— Bilirəm, bilirəm—dejə Imamverdi çavab verdi.

Sonra yzyny qьzьna sarь dutub dedi:

— Gylpəri, tez ol, nahar tədaryk et. Haçь Nəsir jol gəlib açdьr.

Gylpəri xörək hazьrlamaqa, Imamverdi və haçь Nəsir söhbət etməjə məşqul oldular.

Gylpəri qьsa bojlu, dolu əndamlь, qarabuqdajь, bəd xasijjət, ijirmi yc jaşьnda bir qьzdь. Gylpərinin bəd xasijjəti onun indijə kibi qьz qalmasьna səbəb olmuşdu. Kənddə hec kəs ona javьqlaşьb elci dyşməjirdi. Imamverdi ilə haçь Nəsirin uzun söhbətinin nətiçəsi bu oldu ki, qəza, haçь Nəsiri dolaşdьrьb Imamverdi ilə qohum etdi.

Iki gyndən sonra haçь Nəsir Gylpərini evinə arvad gətirdi və Nurəddini öpərək dedi:

— Oqlum, bu sənin təzə anandьr. Iləri gəl, gedib əlindən öp. Evimizə xoş gəlmisən de.

Bu xəbərin tə'sirindən Nurəddinin rəngi və ruhu qacьb bədəni ditrəməjə başladь. O saat sevgi'i anasьnьn surəti gözlərinin önyndə durdu. Uça bir səslə ah ata nə tez anamь jaddan cьqardьn dejə Nurəddin aqladь və birinçi dəfə olaraq atasьnьn sözyndən cьqьb onun əmrini jerinə jetirmədi. Oqlunun sözləri haçь Nəsirin yrəjinə oq kibi sançьlьb gözlərini jaşartdь. Gylpəri bu əhvalatdan qəzəbnak olub:

— Tazə gəlini beləmi qəbul edərlər? Sən məni buraja jasamь gətirmisən,—dejə qьşqьrdь.

— Gylpəri, «Açьqьn dutmasьn. Doqru dejirsən, gərək sənin pişivazьna cьqьla idi. Şadlьq olunajdь; ançaq onu da qohum-əqraba edər. Halbu ki mənim hec kəsim joqdur. Bu gyndən bu ev-eşijin xanьmь sənsən; ançaq səndən təvəqqe edirəm ki, bu oqluma həqiqi analьq edib yrəkdən sevəsən. Nurəddin ədəbli, tərbijəli uşaqdьr, indi anasь jadьna dyşyb aqlajьr. Sonra həmişə sənin itaətində olaçaqdьr. Gəl gedək otaq'arьnь, şejlərini sənə göstərim. Bunu dejib haçь Nəsir Gylpərini o biri otaqa apardь.

Gylpəri haçь Nəsirin evinə qədəm qojduqu saatdan zavallь Nurəddinin mysibəti başlandь. Gylpəri өz pis xasijjətini tezliklə byruzə verdi. Səhərdən aqşama kibi əllərini bir işə vurmajьb nөkər və qulluqcularьn ystynə qьşqьrьb səjməji өzynə peşə etmişdi. Ələlxysus jazьq Nurəddinin gyny qara olmuşdu. Onu tez-tez səjərdi və hec zad ystyndə dөjərdi. Lakin qejrətli uşaq əsla səsini cьqarmazdь. Hətta atasьna şikajət etməjib өzyny onun janьnda şad saqlardь ki, atasь qəm etməsin.

Get-gedə Gylpərinin zylmy artьrdь. On ildən zijada haçь Nəsirə xidmət edən bir nөkər bu tevr rəftara daha davam edə bilməjib qulluqdan cьqdь. Nurəddin olmasajdь Bahar da coqdan cьqьb gedərdi. Lakin vəfalь qulluqcu mərhum xanьmьnьn jaqşьlьqьnь unutmajьb Gylpərinin hər zylmynə davam edirdi; ta ki əli balaça Nurəddindən yzylməsin.

Haçь Nəsir bu işləri gөryb ikinçi dəfə evlənməjə coq peşiman idi. Gylpərinin yzyny az gөrmək ycyn səhər sybhdən bazara gedib bir də aqşam evə qajьdardь. Bir tərəfdən tiçarət işlərinin getdikçə dolaşьb zərər gətirməsi, digər tərəfdən də evinin binizamlьqь haçь Nəsiri azara salьb mum kibi əridirdi.

Nurəddin də Gylpərinin bu hərəkətindən vaqtьnьn coqunu məktəbdə kecirərdi.

— Tələsmə bu gyn, sabah o kөpəkləmiş atan өlyb gedər, ixtijar dyşər mənim əlimə, onda səni birçə saat da o məktəbində qojmaram,—dejə Gylpəri qьşqьrardь.

Bir ilə jaqьn idi ki, Gylpərinin zylmy davam edirdi. Bir gyn Nurəddin evə geç gəldikdə Gylpəri hirslənib onu dөjməjə başladь. Bu halda qəflətən haçь Nəsir qapьdan icəri girdi və Nurəddini Gylpərinin əlindən alьb qejzlənmiş dedi:

— Aj nəmək-bəhəram, mən sənin kibi bir kasьb qьzьnь dilənçilikdən qurtarьb өzymə arvad etdim ki, sən də o jaqşьlьqьn əvəzində bu uşaqa analьq edib qajqьsьnь cəkəsən. Joqsa onun ycyn çəllad olasan. And icirəm Həlimənin o pak olan ruhuna, bundan sonra səni bu evdə bir gyn saqlamaram. Get şejlərini hazьrla. Bu saat tələqini verib səni boşajaçaqam. Bunu dejə haçь Nəsir çəld bazara tərəf getdi. Bu ittifaqdan jarьm saat kecməmişdi ki, haçь Nəsirin dykanda yrəji catlajьb vəfat etmək xəbəri gəldi. Bir azdan sonra mejitini evə gətirdilər. Batində bu bəlaja şad olan Gylpərinin zahirdə başьna dөjyb, yzyny çьrьb, өzyny mejitin ystynə salmasь Nurəddinə atasьnьn өlymyndən jaman tə'sir etdi. Ona görə əvvəl istədi ki, Gylpərinin bu rijai-əməlini acьb adamlara səjləsin, amma atasьnьn həmişə ona verdiji «kylfətin sirrlərini acьb өzgələrə səjləmək qəbehdir» nəsihəti jadьna dyşyb bu fikirdən daşьndь və bir buçaqa cəkilib mat və məbhut dajandь. Nurəddin өzyny saqlajьb qəsdən aqlamьrdь ki, Gylpərijə oqşamasьn. Lakin batindən bixəbər adamlar onun belə lal durmasьnь vəfasьzlьqa və Gylpərinin elə jalandan yzyny çьrmasьnь vəfalьlьqa həml etdilər. Atasьnьn dəfni və tə'zijəsi Nurəddinə juqu kibi gəlirdi.

***

Haçь Nəsirin ycy cьqan kibi Gylpəri Nurəddinin yzyndən өpə-өpə əlinə pul verib dedi:

— Oqlum daha dərsindən qalma, dur məktəbə get, dərslərin qurtarandan sonra da joldaşlarьnь gөtyryb gəzməjə get ki, kefin acьlsьn. Bu gyn atajьn borçlularь gələçəkdirlər. Mənim başьm onlara qarьşaçaqdьr. Daha dajanma oqlum get.

Bu əmrə Nurəddinin өzy də şad oldu və dərhal hejbəsini gөtyryb çəld getdi. Jol uzunu Nurəddin Gylpəri barədə fikir edirdi.

Atam өləndən bəri Gylpəri mənimlə coq mehriban dolanьr, hərgah əvvəldən belə olsajdь hec ata-

nıьn da baqrь catlajьb ølməzdi. Gørəsən Gylpərinin mənimlə belə rəftar etməsinə səbəb nə oldu. Bu hal onda mənə rəhmi gəldijindənmi, joqsa atasь Imamverdinin qorqusundanmь əmələ gəldi. Imamverdi jaqşь kişidir. O məni coq istəjir. Ah gørəsən Gylpərinin bu halь coqmu cəkəçəkdir. Qorquram Imamverdi baba gedəndən sonra jenə məni dəjmədə başlaja. Onda kimim var ki, mənə kømək etsin. Hərgah Bahar kømək edərsə o saat onu da qovar; cynky indi hamь ixtijar onun əlindədir.

Bu fikir və xəjalatda ikən Nurəddin gəlib məktəbə catdь. Gylpərinin belə dəjişməsinə səbəb, Nurəddinin zənn etdiklərinin hec biri dejildi. Gylpəri jaqşь bilirdi ki, øzynyn evladsьz olmasьna gørə Haçь Nəsirin çəmi mal və devləti tək Nurəddinə qalaçaqdьr və o da hənuz uşaq olduqundan hər ixtijarь qəbul etmək əlinə kecəçəkdir. Indi hiləgər qadьn bu qəjdamluqu aqtarьrdь və məramьna da catdь. Gylpəri ərindən coq pul gəzləjirdi, lakin haçь Nəsirin var-joqunu hesaba cəkib borçlarьnь verəndən sonra bir qədər nəqd pul, bir ev, və on iki min manatlьq çəvahirat və ev şeji də anasьndan Nurəddinə irs qalьb və ona da Gylpərini qəjjum tə'jin etdilər. Nurəddin evlərinə qajьtdьqda Bahar onu əhvalatdan xəbərdar etdi. Nurəddin Gylpərinin dəjişməsini indi başa dyşdy. Bahar dedi:

— Qorqma, nə qədər ki, sən saqsan Gylpəri bir qəpijinə də əl vura bilməz və səni də inçidə bilməz; cynky onda onu qəjjumluqdan cьqardarlar.

Bu søzlərdən Nurəddin coq şad oldu. Baharьn dediji də dyz oldu. Gylpəri Nurəddinə daha əzijjət vermədən onunla mehriban dolanmaqa başladь.

Bahar doqrudur Nurəddini Gylpəri tərəfdən arxajьn etdi, amma øzy onun bu dəjişilməsinə əsla inanmьrdь. Gylpərinin yrəjində bir gizli fikir bəslə-

məsinə şəkki joqdu. Ona gørə gəzləjirdi ki, Nurəddinə o tərəfdən bir zəfər jetişməsin. Gylpəri də bunu dujub Baharь bir jolla rədd etmək fikrində idi. Ançaq aşkar qovmaqdan cəkinirdi; cynky Bahar kørpə vaqtьndan haçь Nəsirin evində bøjymyşdy. Hamь onun xatьrьnь istəjirdi və ona qulluqcu nəzərilə baqmajьrdь.

Imamverdiømrynyn coqunu kənddə kecirməjə gørə şəhər dolanaçaqьna adət etməmişdi. Bu səbəbdən əzijjət cəkirdi. Axьrda qьzьna dedi:

— Gylpəri, indi işlərin qajda ilə gedir, daha mənə ehtijaç joqdur. Şəhərin havasьnь gøtyrmyrəm, ona gørə mən gedirəm. Siz də inşaallah Nurəddin azad olub jaja buraqьlan kibi jьqьşьb gəlin. Ta ki yc aj jajь o gøzəl ab-havada kecirib çana gələsiniz.

Gylpəri atasьnьn əmrinə razь oldu. Imamverdi Nurəddinlə ajrьlanda onu øpərək dedi:

— Oqlum dərslərinə sə'j et ki, imtihanьnь jaqşь verəsən; allah qojsa gəlib gørərsən ki bizim kənd nə gøzəl jerdir. Sənə tilo qajьraçaqam. Hər gyn cajda balьq dutarsan. Orada cimərsən, meşəjə gedib cijələk, morux, gøbələk jьqarsan.

Imamverdi xydahafiz edib jola dyşdy.

Nurəddin Imaverdi babanьn ajrьlьqьna qəmgin oldusa da, onun verdiji və'dələrə coq şad idi; cynky anadan olandan øz şəhərlərindən başqa bir jeri gørməmişdi. Cajь, meşəni ançaq kitabda oqumuşdu. Bu səbəbə gørə jaj tə'tilini səbirsiz gøzləjirdi. Gylpəri də bu işə şad idi. Ançaq onun şadlьqьna başqa səbəblər vardь. Bir il bundan əvvəl kəndlərində joldaşlarьnьn təzə cit libaslarьna həsrət aparan Gylpəri indi ipək paltarda ysty-başь qьzьl və çəvahьrat ilə bəzənmiş kəndlərinə qajьdaçaqdь. Qabaqlarda ona jaqьn dyşməjən elcilər indi qapьsьndan əl cəkməjəçəklər. Amma bunlarьn hamьsьndan onu coq

şad edən şej yrəjində bəslədiji gizlin fikir idi, jə'nī orada Nurəddinin devlətini özynə mal etməjə bir carə arajьb tapmaqdь. Axьrda Nurəddinin səbirsiz gözlədiji gyn gəlib catdь. Yc gyn idi ki, Gylpəri səfərə jьqьşьrdь. Bu jьqьşmaq Baharь bərk təşvişə salmьşdь; cynky Gylpəri evin çəmi şejlərini sandьqlara doldurub özy ilə aparmaq fikrində idi.

— Xanьm, yc ajdan ətry bir belə şeji jyk eləjib aparmaqьn nə mə'nasь var?—dejə Bahar sorduqda;

— Joq Bahar, əzijjət olsa da umud olub burada qojmaq olmaz—dejə Gylpəri çavab verdi. Bahar umud edirdi ki, Gylpəri onu da kəndə aparaçaqdьr. Lakin hər bir şej hazьr olandan sonra Gylpəri ona dedi:

— Bahar, sən şəhərdə qalasьsan. Evi səndən başqa hec kəsə umud olub qoja bilmərəm.

Bahar nə qədər jalvardьsa da Gylpəri razь olmadь. Nurəddin də təvəqqe etdi, mymkyn olmadь.

— Joq, joq! Evi Bahardan başqa hec kimə tapşьra bilmərəm—dejə Gylpəri təvəqqei rədd etdi.

— Həççə getməjirik ki, yc ajdan sonra jenə buradajьq.

— Bahar, xydahafiz, evdən jaqşь myqəjjəd ol. Bahar Nurəddini quçaqlajьb əpdy.

— Jaqşь jol, allah səni bəladan hifz etsin. Ax görəsən bir də sənlə göryşəçəjəmmi...

Baharь aqlamaq boqub daha danьşmaqa qojmadь.

Kəc jola dyşdy. Nurəddin Bahardan ajrьlmasьna görə bir qədər bikef oldu. Amma sonra görmədiji jerlərə vaqondan baqdьqça, qəmi jadьndan cьqdь.

Vaqon coq syr'ətlə gedirdi. Nurəddin birdən altьja kibi sanajьnça bir tel aqaçь kecirdi. Mənzərələr tez-tez dəjişirdi. Gah goj ot və cəmənlərlə bəzənmiş dyzəngah, gah jaşьl təpələr və daqlar, gah

qaranlьq meşələr və dərələr və gah da ajdьn cajlar və jollar görynyrdy. Nurəddin hejrətdə idi; cynky bunlarьn hec birini görməmişdi. Indijə kibi tozlu, tytynly şəhərdən bir qejri jerə cьqmamьşdь.

Gylpəri bir necə gyn qabaq kaqьz vasitəsilə jazьb hansь gyn cьqmalarьnь atasьna mə'lum etmişdi və ilavə fajton və araba dutub onlarь kəndlərinin jaqьnьndakь şənərdə gözləməjini rəça etmişdi. Lakin səfərin ikinçi gyny gəlib oraja catdьqda, vaqzalda nə atasьnь və nə də bir tanьş adam görmədi. Bu isə Gylpərini bərk təşvişə saldь. Çəld nökəri Çə'fəri göndərib iki nəfər hambal caqьrtdь, janьndakь və baqazdakь şejləri daşьdьb ikinçi qlas salonuna jьqdьrdь. Gylpəri Çə'fəri gətyrmyşdy ki, onlarь buraja kibi ətyryb jenə geri qajьtsьn. Vaqzalda iki saata kibi gözlədilər amma hec kəs gəlib cьqmadь. Gylpərinin təşvişi getdikçə artьrdь; cynky janьndakь qijmətli şejlərin tələf olaçaqьndan qorqurdu. Hərcəndi bu şəhərdə tanьşlarь vardь, amma onlara da yrəji qьzmajьrdь. Axьrda Gylpərinin daha atasьnьn gəlməsindən umudu kəsilib nökəri ilə jola dyşməjə nacar qaldь.

Gylpəri Çə'fəri göndərib iki fajton dutdurdu. Fajtonun birinə nökər və şejləri qojub o birinə də özy Nurəddinlə oturdu və qorqa-qorqa jola dyşdy. Şəhərdən kəndə uzaq dejildi. Hamьsь ijirmi verst idi. Lakin Gylpərini qorquja salan daqlar arasьndan və meşələr icindən kecən jollardь ki, oralarda coq vaqtь sojqunculuq ittifaq dyşərdi. Gylpəri erkən gedib mənzilə catmaq ycyn fajtonlarь qovdururdu və fajtonculara da iti syrmək əvəzində caj pulunu artьq verməji və'də etmişdi. Gylpərinin qorququ başьna gəldi. Belə ki, aqьr jykly fajton əjri-yjry və əniş joquş jollara catdьqda bir döngədə aşьb oqu və carxь sьndь. Bu hadisə zyhur edən vaqt gynəş enib da-

qьn dalьnda gizlənmişdi. Gylpəri artьq iztiraba dyşyb səjlənirdi.

— Allah bu nə iş idi mənim başьma gəldi, indi bu jol icində bu qorqulu daqlar arasьnda neçə olaçajьq. Gərəsən atamьn başьna nə iş gəldi ki, bu vaqta kibi gəlib cьqmadь. Kaş şəhərdə qalьb ondan xəbər gözləjəjdim.

Fajtoncu:

— Xanьm, onlardan kecmişdir. Gəl biz gedib kənddən kəmək caqьraq. Gylpəri buna razь olmadь.

— Joq, hec vaqtь şejlərimi burada qojub getmərəm, ajrь carə varsa arajьb tapьn.

Fajtoncular dedilər:

— Xanьm ajrь carə joqdur. Hərgah fajtonun oqu sьnmamьş olsajdь, carxь bir tevr sarьjardьq və javaş-javaş syryb özymyzy kəndə salardьq. Indi isə umudumuz bir allaha qalmьşdьr.

Bu sözlərdən sonra Gylpərinin iztirabь dəxi də artdь. Aqşam oldu. Sojuq dyşdy. Dərələrdən duman qalqmaqa başladь. Hec kəs gəlib cьqmadь. Geçə orada qalmaqьn qorqusu coqdu. Gylpəri yzyny fajtonculara tərəf dutub dedi:

— Geçə bu jol ystyndəmi qalaçajьq? Sorduqda fajtoncular çavabьnda açiz qaldьlar. Nurəddin bu ittifaq dyşəndən bəri fikrə gedib carə arajьrdь. Nurəddin öz sьnьflarьnda ən fərasətli uşaq sajьlьrdь. Nurəddin yzyny onlara dutub dedi ki, mən bir carə tapdьm. Qulaq asьnьz söjləjim: Sьnan fajtonun dört atь var. Şejləri bu atlara jykləjib biz gedərik, fajton sahibi burada qalar. Sonra kənddən buna kəmək göndərərik.

Bu təklif çymlənin xoşuna gəldi. Ələlxysus Gylpəri şaddь ki, beləçə asan jolla Nurəddin onlarь cətinlikdən qurtardь. Vaqtь itirməjib atlarь jyklədilər və jola rəvan oldular. Səfərin qorqulu jeri qabaqda

idi. Meşənin ici ilə səkkiz verst jol gedirdi. Kəc meşəjə catdьqda qaranlьq lap cökmyşdy. Çə'fər jykly atlar ilə qabaqda və fajton dalda gedirdi. Gylpəri bərk qorqurdu. Nurəddin qorqaq uşaq dejilsə də meşənin vahiməsi onu da basmьşdь. Elə sakitlik idi ki, nə bir zihəjatьn səsi cьqьrdь, nə də bir japraq tərpənirdi. Odur ki bir jandan bu sakitlijin özy də insanь vahiməjə salьrdь. Qəflətən bir qorqulu səs meşəni götyrdy. Bu səsdən Nurəddin diksindi. Gylpəri qьşqьrdь. Fajtoncu dedi:

— Qorqma xanьm, bajquşdur ulajьr.

— Vaj allah səni joq etsin. Gör nə murdar səsi var,—dejə Gylpəri qarqьş elədi.

Meşənin qurtaraçaqьna iki verst qalmьş bir atlь jaraqlь adam Çə'fərin qabaqьnь kəsdi.

— Dajan, tərpənmə. Atdan dyş joqsa odladьm.

— Əmir Aslan aqa atma mənəm.

— Çə'fər sənsən?

— Bəli aqa mənəm.

Atlь tyfəngini cijininə salьb Çə'fərə sarь ilərilədi.

— Çə'fər bu kəc kimindir?

— Aqa Gylpəri xanьmьndьr. Odur özy də daldan fajton ilə gəlir. Jolda fajtonumuzun biri sьndь, ona görə də şejləri atlara jykləmişik, şəhərdə nə qədər Imamverdi babanь gözlədiksə də gəlib cьqmadь, axьrda nacar qalьb özymyz jola dyşdyk.

— Çə'fər, sən javaş-javaş syr get mən də fajtonla bərabər gəlirəm,—dejə Əmir Aslan atьnь qamcьladь. Gylpəri atlьnь gərçək qorquja dyşdy.

— Jaman jerdə qaranlьqladьq.

Qorqma xanьm jəqin sizin adamlardandьr. Qabaqьnьza gəlibdir,—dejə fajtoncu Gylpərijə yrək verdi. Əmir Aslan fajtona javuqlaşьb uçadan səsləndi:

— Indi neçəsən əmi qьzь, sizi dutub var joqunuzu əlinizdən alьmmь?

Gylpəri bu səsi eşitçək sevinib qьşqьrdь.

— Əmir Aslan, əmi oqlu sənsən, nə jaqşь gəldin bəs atam hanь? Gərək fajton dutub qabaqьmьza gələ idi, bilmirəm kaqьzьm gəlib catmadь və başьna bir iş gəldi ki, indijə kibi bir xəbəriniz olmadь.

Əmir Aslan dedi:

— Mənim sizin gəldijinizdən xəbərim olmamьşdьr, өzym də evdən səhər cьqmьşam, jəqin əmimin indijə kibi gəlib cьqmamaqьna səbəb kөrpyny sel aparmasь olmuşdur. Çə'fərdən başьnьza gələn hadisəni eşitdim. Əmi qьzь, kөcdən belə gөrynyr ki, daha bir də geri qajьtmajaçaqsan. Jaqşь da elərsən, adam gərək verdiji sөzyn ystyndə dursun.

Gylpəri səhbəti dəjişdirmək ycyn dedi:

— Əmi oqlu dejəsən Nurəddini gөrmyrsən?

Əmir Aslan Nurəddini indiçə gөrdy və Gylpərinin də işarəsini anladь.

— Nyrəddin sən coq xoş gəlmisən. De gөrym məndən qorqdunmu?

— Səndən nejə qorqum. Adam da adamdan qorqarmь?—dejə Nurəddin çavab verdi.

— Oqujan uşaq qorqaq olar.

— Xajьr, səhv edirsiniz, oqumajan uşaq qorqaq olar. Oqujan uşaqьn elmi olar, hər şejin sirrini bilər, ona gөrə də qorqmaz.

— Jaqşь, indi ki sən elə qocaq oqlansan, gəl mənim atьmь min bir az da mən fajtonda dinçimi alьm—dejə Əmir Aslan Gylpərijə gөz vurdu. Gylpəri Əmir Aslanьn işarəsini başa dyşdysə də jenə razь olmajьb dedi:

— Joq, joq. Nurəddini at jьqar.

— At coq dinçdir. Adam jьqan dejil. Javaş-javaş fajtonun janьnça syrər. Ançaq atdan qorqan dejil isə...

— Mən qorqaq dejiləm,—dedim.

Axьrda Gylpəri razь oldu. Əmir Aslan atdan dyşyb Nurəddini mindirdi. Nurəddin өzyny atьn ystyndə gөrçək onu tərkimlədi. At sьcrajьb qacdь. Gylpəri qorqdu. Amma Nurəddin atda bөrk oturmuşdu. Əmir Aslan dedi:

— Maşalla, qocaq uşaqdьr.

Sonra fajtona minib Gylpəri ilə gizlin səhbətə başladь.

Əmir Aslan Imamverdinin kicik qardaşь Tanrьqulunun oqlu idi. Bundan başqa Tanrьqulunun evladь olmamьşdь. Ona gөrə validejni Əmir Aslanь əzizləjib ərköjyn bəjytmyşdy. Balaça Əmir Aslan ycyn «joq» kəlməsi joq idi. Hər xahişi ata anasь tərəfindən fevri əmələ gəlirdi. Əmir Aslan өzgə uşaqda bir şej gөrsəjdi, o saat gərək ona da alьna idi. Joqsa sakit olmazdь. Belə tərbijənin nətiçəsi tezliklə ortaja cьqdь. Əmir Aslan doqquz jaşьna catdьqda atasь ona hejbə və cərəkə aldь. Tazə paltar gejdirib hədijjə ilə onu mollanьn janьna oqumaqa apardь. Ycgyndən sonra Əmir Aslan cərəkəsini çьrьb məktəbdən qacdь. Ata anasь nə qədər jalvardьsa da, bir şej cьqmadь. Atasь coq tə'kid edəndə Əmir Aslan dedi:

— Dedə mən məktəbə getməjəçəjəm. Orada molla adamьn ajaqьnь falaqqaja salьb dөjyr. Istəjirsən məni şqolaja qoj gedim. Tanrьqulu rusça oqumaqьn ziddinə gedənlərdən idi. Bu fikri onun başьna salan və onu şqolaja dyşmən edən kənd mollasь axund molla Iman idi. O həmişə dejərdi:

— Tanrьqulu, məbada oqlunu şqolaja qojasan. Orada mysəlman uşaqlarьnь təmiz urus edirlər. Başlarьna tyk qojdurub şapqa qojurlar. Oqutduqlarь da Sə'di, Hafiz əvəzinə başdan ajaqa tylky, caqqaldьr.

Tanrьqulu axundun birinçi dərəçə myridlərindən hesab olunurdu. Odur ki, oqlunun şqolaja girmək

xahişi onu caşdьrdь. Nə axundun əmrindən cьqa bilirdi, nə də oqlunun oqujub ədəbli, elmli olmasьndan əl cəkə bilirdi. Axьrda məsləhət ycyn Əli bəjin janьna getdi. Əli bəj elmli və qoça bir kişi idi. Tanrьqulu həmişə onun hərmətini saqlardь və hər məsləhəti olsajdь gedib onunla həll edərdi. Tanrьqulu Əli bəjgilə gələndə orada Əli bəjdən başqa bir şəxs də gordy. Buna gərə Tanrьqulu əvvəlçə bu adamьn jaльnda fikrini acьb Əli bəjə demək istəmədi. Amma elə ki Əli bəj bu mənim jaqьn dostum mirzə Həsəndir tanьş olun—dedikdə, fikrini dəjişdirib əhvalatь ona naqьl etdi. Əli bəj uşaqь şqolaja qojmaqь məsləhət geryb dedi:

— A kişi, hec kəsin səzynə qulaq asma. Istəjirsənsə oqlun adam olsun, şqolaja qoj. O ki qaldь axund molla Iman, onun fikri başdan ajaqa janlьş və xətadьr. Burada hec bir uşaqь rus etməmişlər. Əjər etmişlərsə, budur, onlarьn myəllimi səjləsin. Mirzə Həsən gylymsynyb dedi: Əgər islamlьq başa tyk qojub şapqa gejmək ilə puc olursa, bəli onda molla Imanьn dediji dyzdyr. Ançaq o, bu səzy hansь kitabdan gətyrdyjynə mən də məəttəl qalmьşam. Bu fikr molla Imanьn əz başьndan cьqma bir şeidir. Qardaşьm oqlunu tezliklə göndər gəlsin. Peşiman olmazsan.

Tanrьqulu bu iki adamьn məsləhətinə gərə oqlunu şqolaja qojdu.

Əmir Aslan şqolada coq davam etmədi. Nadinç, səjyşkən, bu doqquz jaşьnda uşaq, çəmi myəllimləri təngə gətirmişdi. Hec bir gyn olmazdь ki, Əmir Aslan bir uşaqla savaşьb dəjysməsin. Bunun bəd əxlaqlьqьnь dyzəltməkdə myəllimlər açiz qalmьşdьlar. Buna da bais ata, anasь idi; cynky yc saat məktəbdə kecirdiji vaqtdan başqa gynyn jerdə qalanьnь Əmir Aslan hər bir əmr və nəhjdən azad idi. Hər nə gənly istəsəjdi onu edərdi. Axьrda joldaşlarьnьn

birini bьcaqlajьb jaralanmaqьnьn ystyndə Əmir Aslanь məktəbdən xariç etdilər. Tanrьqulu Əmir Aslanь bir-iki il ora-bura atdьsa da bir şej cьqmadь. Əmir Aslan əmisi qьzь Gylpəridən iki jaş bəjyk idi. Qardaşlar bu iki tifli bir-birinə kərpə vaqtlarьndan ad etmişdilər. Amma Imamverdi Əmir Aslanьn oqumajьb belə bitərbijə qalmasьndan artьq narazь idi və bu barədə də qardaşьnь myqəssir edirdi.

— Belə tərbijə olmaz. Uşaq gərək izn olmajan şeji dutmasьn. Bəjyk kicik anlasьn. Bunun axьrь peşimancьlьqdьr,—dejə Imamverdi qardaşьna məzəmmət edərdi. Əmir Aslan on altь jaşьna catanda ata, anasь dal-ba-dal vəfat etdi və nənəsi Pystə qarьdan başqa evlərində bir kəs qalmadь. Atasь ələndə Əmir Aslana jaqşь mal-devlət və pul qojmuşdu. Bir-iki ilin ərzində jaramaz oqul bunlarьn hamьsьnь kefə, qumara qojub tələf etdi. Imamverdi nə qədər calьşdьsa da qardaşь oqlunu pis joldan qajtara bilmədi və axьrda onunla bilmərrə əlaqəsini kəsib evinə qojmadь. Nə qədər əlində devlət vardьsa Əmir Aslan Gylpərijə jaqьn dyşmyrdy. Amma elə ki var-joqunun hamьsь ejşi-işrətə qojulub puc oldu. Gylpərini almaq fikrinə dyşdy. Lakin Imamverdi nə qədər saqam bu iş baş dutmaz,—dejə onun təklifini rədd etdi. Gylpərinin gənly əmisi oqlunda idi. Ona gərə ona qoşulub qacmaq istərdi. Lakin Əmir Aslan bu əmrə razь dejildi; cynky onun fikri Gylpərini almaq deji, əmisinin devlətini ələ salmaq idi. Bu isə Imamverdinin razьlьqь ilə mymkyn olardь. Axьrda Əmir Aslan Gylpəridən əl cəkib bir devlətli dul arvad aldь. Əmir Aslan arvadьn gətirdiji devləti tezliklə qumara və kefə qojub əzyny də boşadь. Pis jola əjrənmiş Əmir Aslan ycyn pul lazьmdь. Ona gərə javaş-javaş oqurluqa və jol kəsməjə şyru' etdi. Bu jolda neçə dəfə həbsə dyşyb cьqdь. O ətrafda bir jol kəsmə, bir oqurluq olmazdь ki, Əmir Aslanьn orda əli ol-

mamьş olajdь. Indi fajtonda əjləşib Gylpəri ilə səhbət edən Əmir Aslan belə hərifdi.

Əmi qьzь və əmi oqlu səzy bu jerdə qojdular ki, Əmir Aslan Gylpəri ycyn əmisinə elci dyşsyn. Hərgah Imamverdi bu dəfə də razь olmasa, Gylpəri atasьndan izinsiz Əmir Aslana gəlsin.

***

Nurəddin Çə'fərə catdьqda atьn başьnь cəkdi. Lakin qьzьşmьş kəhlən at qyvvətsiz uşaqa qulaq asmadь və qaraltьdan yrkyb daha da bərk qacmaqa başladь. Nurəddin gərdy ki, atь əz gyçy ilə saqlaja bilməjəçəkdir. Jygəni buraqьb iki əli ilə jəhərin qaşьndan məhkəm japьşdь ki, atdan jьqьlmasьn. Çə'fər Nurəddini bu halda gərdykdə istədi atьn qabaqьnь kəssin. Ançaq baçarmadь. Çə'fər qabaqda Əmir Aslana nəkər idi. Ona gərə onun atьnьn xasijjətini jaqşь bilirdi. Bu atьn adь Çejranbasan idi və əzy də bir dinç atdь. Amma qьzьşьb qacanda hec bir at dalьndan cata bilməzdi. Dəngənin birində qəflətən bir fajton jolu kəsdi. Çejranbasan joldan meşəjə sapьdьb Nurəddini ystyndən jerə atdь. Bu jerə dəjməjin zərbindən zavallь uşaqьn yrəji getdi. Bunu gərçək fajtoncu fajtonu saqladь. Onun icindən Imamverdi baba cьqьb Nurəddinə tərəf jənəldi. Jaqьnlaşanda gərdy ki, bir uşaq hərəkətsiz jerə sərilibdir. Imamverdi əjilib uşaqa baqanda təəççyblə qьşqьrdь.

— Sybhanallah, bu ki Nurəddindir. Bu at ilə nə ycyn gəlsin. Imamverdi çəld uşaqьn başьnь dizi ystə alьb sinəsini acdь.

— Oqlum Nurəddin, Imamverdi baba mənəm.

Nurəddin zəjif səslə ufuldadь və sonra əzynə gəlib Imamverdi babanь tanьdь. Imamverdi Nurəddinin bədəninin o jan-bu janьna baqdь ki, gərsyn jaradan, aqrьdan nəji var. Əlini saq dizinə vuranda Nurəddin qьşqьrdь:

— Baba ora dəjmə, aqrьjьr. Qьcьm sьnьbdьr. Joq oqlum qorqma, sьnmamьşdьr. Jəqin cьqьbdьr, bunu dejə Imamverdi Nurəddini ysulluça quçaqьna aldь və fajtona qojdu. Bu halda kəc gəlib bunlara catdь. Imamverdi baba elə ki Əmir Aslan və Gylpəridən əhvalatь bildi və onlarь bir fajtonda oturmuş gərdy qəzəblənmiş qьşqьrdь:

— Sizin əqliniz harada idi? Bir tikə uşaqь kəhlən ata mindirib geçə vaqtь meşəjə buraqmaq olarmь?

Əmir Aslan taqsьrь bojnuna alьb əmisindən yzr istədi. Sonra fajtondan dyşyb atьnьn dalьnça getdi. Gylpəri calьşьrdь ki, atasьnьn açьqьnь jatьrtsьn.

— Ata açьqьn dutmasьn, bunlar hamьsь qəza işidir. Fajton jolda sьndь. Sən gəlib cьqmadьn...

— Mən nə edim, gynortadan bəri cajьn o tərəfində kəprynyn qajrьlmasьnь gəzləjirdim. Səhər sel gəlib aparmьşdь,—dejə Imamverdi çavab verdi.

— Ata, o da qəzadan dejilmi, amma şykyr allaha ki, axьrь xejirdir. Nurəddinin qьcьnь kənddə sьnьqcь Qara Hysejnə saldьrarsan cьqar gedər.

Kəc meşədən cьqdь. Bu vaqtь aj da cьqmьşdь. Nurəddini Imamverdi baba fajtonun icində balьşlarь dyzyb rahat etmişdi. Aqşamdan iki saat kecmiş kəc gəlib kəndə catdь.

Kəc gəlib Gyllyçə kəndinə catanda bu kəndin əhalisi jatmьşdь. Kənd əhli gyn batanda jatьb gyn cьqanda da juqudan durar. Imamverdi baba Gyllyçəni Nurəddinə tə'rif etməkdə səhv etməjirmiş. Gəzəl hava, saf su, daq, baq, meşə insana başqa bir ləzzət verir. Bu kənd daqьn dəşyndə japьlьb gyn cьqan tərəfində jaqşь mejvə baqlarь və meşə, çənub tərəfində gəzəl zəmilər və şimal tərəfində gəzəl cəmənlər var idi. Daqdan savuq bulaqlar yzy aşaqь kəndə sarь aqьrdьlar. Gyllyçənin dadlь mejvələri ətrafda məşhurdu. Bu kəndin hər evinin qabaqьnda

baqdan ilavə gözəl baqca da vardь. Bu baqcalarda ev sahibləri ətirli gyllər və cicəklər əkmişlərdi. Kənardan baqanda daq dəşyndə japьlmьş bu kənd bir gylystan şəklində gərynyrdy. Buna görə də Gyllyçə adьna sahib olmuşdu.

Imamverdi babanьn evi kəndin yst tərəfində bir hyndyr jerdə idi. Buradan coq gözəl mənzərələr acьlьrdь. Imamverdi babanьn həjətəndə iki tikilisi vardь. Biri kəhnə daxma idi, o biri də iki otaq və mətbəxli, qabaqь ejvanlь təzəçə evdi. Evin qabaqь gözəl bir baqca idi. Bu baqca jaqşь mejvə aqaçlarь, ətirli gyl və cicəklərlə dolu idi. Baqcanьn ortasьnda bir sojuq bulaq topraqdan cьqьb carhovuza tökylyrdy. Bu su ilə Imamverdi baba baqcasьnь və bostanьnь sulajьrdь. Imamverdi baba bu tazə evin bir otaqьnda Gylpəri və o birində Nurəddin ycyn mənzil tədaryk etmişdi

Imamverdi baba bilirdi ki, cьqьqь jerinə tez salmaq lazьmdьr. Hərgah tez saiьnmazsa jerinə ət gələr və sonra onu dyzəltmək cətin olar. Buna görə kylfət bir balaça rahat olaq kibi geçə olmaqa baqmajьb baqbanь Mehdi kişini göndərdi ki, sьnьqcь Qara Hysejni jatmьş da olsa durquzub gətirsin.

Bir azdan sonra Qara Hysejn gəldi. Bu kişi Imamverdi jaşьnda qьrq ildən artьq sьnьqcьlьq edən və ətrafda məşhur olmuş bir zat idi. Qara Hysejn Nurəddinin qьcьnь əlləşdirib dedi: Saq ajaqь diz qapaqьndan cьqmьşdьr. Sonra şaqqьltь ilə ajaqь jerinə saldь və qьcьn dərt ətrafьna aqac dyzyb bərk sarьdь. Nurəddin aqrьja davam edib əsla səs cьqarmadь.

— Jaşasьn belə qocaq uşaq,—dejə Qara Hysejn Nurəddini tə'rif etdi. Sonra da evdə tapşьrdь ki, Nurəddinin qьcь yc gyn belə qalasьdьr, hec tərpətməjin, sonra gəlib özym acaçaqam. Bundan sonra yzy-

ny Nurəddinə cevirib dedi: əqilli oqlum, ajaqьnь hec tərpətmə, onda aqrьtmaz və sən də rahat olarsan.

Qara Hysejn xydahafiz edib getdi. Geçədən xeyli kecdi. Amma Nurəddin ajaqьnьn aqrьsьndan jata bilmirdi. Imamverdi baba onun janьnda oturub keşijini cəkirdi. Amma Gylpəri o biri otaqda xoruldajьrdь. Axьrda Nurəddin juquja getdi. Bir də gözyny acanda gördy ki gynəş pənçərədən icəri dyşmyşdyr. Imamverdi baba Nurəddinin janьna gəldi.

—Sabahьn xejr oqlum. Rahat jata bildinmi? Ajaqьn aqrьjьrmь?

— Azaçьq aqrьjьr baba.

— Darьxma oqlum, allah qojsa bir necə gynə saqalьb duraçaqsan və səni gəzməjə aparaçaqam. Bir baq gör babanьn nə gözəl baqcasь vardьr.

Bu sözləri dejə Imamverdi pənçərəni acdь və özy də bajьra cьqdь. Sybhin təmiz havasь, gyllərin və cicəklərin qoqusu otaqь ətirləndirirdi. Quşlar gəm-göj budaqlarda oturub oquşurdular. Pənçərənin aqzьnda bir tut və bir gilas aqaçь bitmişdi. Gilasьn budaqlarь pənçərəjə o qədər javьq idi ki, əl uzandanda catьrdь. Bu aqaçьn ysty qьrmьzь gilasla dolu idi. Quşlarьn bə'zisi gilas və bə'zisi də tut aqaçьnda oturub gah oqujurdular və gah da balaça dimdikləri ilə tutdan və gilasdan qopardьb jejirdilər. Nurəddin bunlara coq həvəslə baqьrdь. Bu quşlardan sercədən başqa qejrilərini tanьmьrdь. Nurəddin bir də gördy ki bir ana sərcə aqzьnda bir göj çyçy pənçərənin ystynə qondu və oradan çik-çik səsi gəldi. Nurəddin gözlərini dolandьranda gördy ki, bir juvadan dərt dənə sərcə balasь başlarьnь bajьra cьqarьb çivildəjirlər. Analarь ucub juvanьn aqzьna qondu. Balalarь sarь aqьzlarьnь acьb çiviltini bərkitdilər. Ana sərçə aqzьnь acьb çyçyny birinin aqzьna

verib ucdu. Bir azdan sonra jenə aqzьnda çyçy juvanьn janьnda hazьr oldu. Bu dəfə çyçyny o biri balasьna verdi. Gələn dəfə ycyнçysynə və sonra dördyнçysynə verdi. Bu qajda ilə ana sərcə balalarьna dən daşьjьrdь və bir dəfə də olsa nevbəti pozmajьrdь. Bu sərcə juvasь və onun icində olan balalarьn jaşamalarь Nurəddinə bir məşqələ oldu. Bir dəfə balaça sərcələrdən biri juvadan syryşyb ucaraq otaqьn icinə dyşdy. Bu halda Imamverdi baba icəri daxil oldu.

— Baba, indiçə juvadan bir sərcə balasь ucub icəri dyşdy. Onu dut mənə ver.

Imamverdi sərcəni dutub Nurəddinə verdi.

— Oqlum jaxşь өjrətməli vaqtьdьr...

— Baba sərcəni neçə өjrədirlər? Mənə də өjrət-

— Jaqşь oqlum, өjrədərəm.

Imamverdi sərcəni Nurəddindən alьb jerə qojdu və bir az kənara cəkilib muşqurmaqa başladь. Sərcə muşquruqu eşidəndə çik-çik etməjə başladь. Amma ucub caqrьqa gəlmədi. Imamverdi baba dedi:

— Indi bu toxdur. Ona görə mənə qulaq asmьr-Qoj bir az aç qalsьn, o vaqtь muşquranda ucub gələçəkdir. Indi oqlum gəl sərcən icin mənzil qajьraq. Imamverdi baba bunu dejib rəfdən bir boş tytyn qutusu və bir qədər pambьq gətyrdy və Nurəddinə verdi.

— Bu da sərcənin evçiji.

Nurəddin sevinib sərcəni qutuda rahat etdi.

— Baba, sərcəm açьjanda nə verim.

— Cөrək cejnəjib ver. Tut ver amma bunlardan jaqşьsь çyçydyr. Mən baqcamьzdan dutub gətirərəm.

Bu halda Çə'fər əlində padnos icində caj-cөrək, şora batьrьlmьş təzə inək jaqь icəri daxil oldu. Cajь Nurəddinin qabaqьna qojub halьnь soruşdu və dedi:

— Aqa, bu gyn mən evə qajьdьram, nə qulluqun varsa bujur.

Nurəddin dedi: məndən Bahara salam-dua jetir, amma ajaqьmьn cьqmaqьnь demə. Yrəji xarab olar və bir də mymkyn olsa mənim şəkil dəftərlərimi və rəng qutumu göndərəsiniz. Gələndə almьşdьm ki burada şəkil cəkəm. Jadьmdan cьqьb qalьbdьr.

— Baş ystə aqa, өzym adam tapьb göndərərəm, hələ ki xydahafiz. Allah sənə tezliklə şəfa versin,— dejə Çə'fər getdi.

Ycyнçy gyny Qara Hysejn gəlib Nurəddinin ajaqьnь acdь dedi:

— Indi oqlum, ajaqьn jaqşьdьr. Daha sarьmajaçaqam. Ançaq bir myddət gərək ysullu dolanasan. Atьlьb dyşməjəsən. Bir iki gyn evdən cьqma. Javaşça-javaşça evdə gəz. Ejvanda otur, babanьn baqcasьna tamaşa elə, sonra səni baqьma gəzməjə apararaçaqam.

Qara Hysejn xydahafiz edəndə Imamverdi baba ona pul verdi. Amma qəbul etməjib dedi:

— Mən hec vaqt pul qəbul etmərəm. Hələ sənin-lə dostluqum dursun. Nurədinin atasь mənə coq jaqşьlьq edibdir. O jaqşьlьqьn əvəzində mən ona hec bir şej etməmişəm. Indi borçumu verirəm. Artьq bir şej etmirəm.

Qara Hysejn gedəndən sonra Imamverdi baba Nurəddinin başьnь sьqallajьb dedi:

— Gөryrsən oqlum, jaxşьlьq nə gөzəl şejdir. Atanьn jaqşьlьqьnьn əvəzini evladьna edirlər. Baq oqlum bu əjləşdijin evi atanьn kөməkliji ilə tikdirmişəm. Indi mən də bunu və qabaqьndakь baqcanь vəsijət etmişəm ki sənə verilsin. Bunu bu kənddə hamь bilir, mən ələndən sonra bunlar sənindir. Bunlarьn Gylpərijə dəxli joqdur...

Gylpəri pənçərənin qabaqьndan kecərkən bu sözləri eşidib dedi:

— Ata, o nə şejdir ki mənə dəxli joqdur?

— Icəri gəl dejim.

Gylpəri gəldi, Imamverdi baba dedi.

— Indi Nurəddinə vəsijjət edirəm ki, bu oturduqu ev və qabaqьndakь baqca onundur. Sənə dəxli joqdur. Bu vəsijjətimi sənə dejirəm. Qьzьm bunu əmələ gətirərsən. Özyn də jaqşь bilirsən ki, bunlar onun atasьnьn pulu ilə tikilmişdir.

Gylpəri dedi:

— Ata əmrini jerinə jetirməjə hazьram. Ançaq mənim də səndən bir təvəqqəm var.

— Söjlə qьzьm görym nədir?

— Mən söjləməjəçəjəm. Əmir Aslan söjləjəçəkdir.

— Mənim Əmir Aslan ilə hec bir işim ola bilməz. Bunu özyn də bilirsən. Bir də siz buraja gələndən bəri o Nurəddini joqlamaqь əldə bahana edib buraja tez-tez gəlib gedir. Mənim tərəfimdən ona de ki bir də buraja gəlməsin. Joqsa qovaram.

— Ata elə iş etmə, bu gyn o səndən bir şej təvəqqe edəçəkdir. Onun təvəqqeini qəbul et; cynky mən də o təvəqqeə şərikəm.

— Jenə dejirəm Əmir Aslan ilə mənim hec bir işim ola bilməz.

Onda nə etməli? Sənsiz olaçaqdьr. Məni baqьşla.

— Gylpəri, acьq danьş görym nə istəjirsən?

— Bu gyn Əmir Aslan sənə mənim ycyn elci dyşəçəkdir sənin razьlьqьnь istəjirəm.

— Hec vaqtь.

— Onda sənsiz olaçaqdьr.

— Nə qədər saq varam bu iş baş dutmaz.

— Baqarьq. Indi də mən balaça qьz dejiləm ki, ijirmi beş jaşьnda hər ixtijarь öz əlində bir arvadam. Mən dedim ki, bu iş ata izni ilə olsun. Sən istəmirsən daha taqsьr məndən gətyryldy. Təvəqqe edirəm ki, bir də mənim işimə qarьşmajasan.

Bunu dejəndən sonra Gylpəri hirslə qapьnь vurub cьqdь. Imamverdi baba kyrsyjə cəkyb başь aşaqь xejli fikrə getdi. Bir azdan sonra Əmir Aslan gəldi. Imamverdi baba o biri otaqa kecdi, orada iş nə jerdə qalmaqьnь Nurəddin bilmədi. Ançaq oradan Imamverdi babanьn qьşqьrьqь gəlirdi. Bu ittifaqdan yc gyn kecmiş Gylpəri atasьndan izinsiz kəbinini kəsdirb Əmir Aslana gəlin kecdy. Gylpəri gətirdiji şejlərin hamьsьnь özy ilə bərabər apardь. Gylpəri Nurəddinin Imamverdi babanьn janьnda qalmaqьna mane olmadь. Nurəddin bu işə coq şad idi; cynky Gylpəri buraja gələn gyndən onunla mehriban rəftar etməji atьb əvvəlki kibi pis dolanьrdь. Qьzьnьn belə itaətsizliji Imamverdijə artьq dərəcədə tə'sir etmişdi.

Nurəddinin ajaqь təmiz saqalmьşdь. Hər gyn Imamverdi baba ilə gah baqcada bal arьsьna tamaşa etməjə məşqul idi, gah da ipək qurduna tut japraqь daşьjьrdь. Gah da mejvə baqьna gedib Imamverdi baba ilə mejvə dərirdi. Ja da cajda balьq duturdu və burada cimirdi, və gah da meşəjə gedib morux, göbələk jьqьrdь. Haraja getsəjdi sərcəsini də özy ilə aparьrdь. Imamverdi baba sərcəni qьrmьzь rəngə bojamьşdь. Ona görə Nurəddin ona «Qьzьlça» adь qojmuşdu. Indi Qьzьlça elə öjrənmişdi ki, Nurəddin haraja getsə idi, öz-özynə caqьrьlmamьş sərcə də ucub onun dalьnça gedirdi. Hər həftə şənbə gynləri Gyllyçə kəndində bazar olardь. Bu gynləri ətraf və əknafda sakin olanlar tokylyb bazara gələrdilər. Kimi mal almaqa və kimi mal satmaqa

gəlirdi. Imamverdi baba da hər şənbə Nurəddin ilə bazara cıqardı. Nurəddin'n məktəb paltarı çymlənin nəzərini özynə çəlb edərdi. Ələlxysus kənd uşaqlarının... Nurəddin Imamverdi babanın janında coq gözəl vaqt kecirirdi, və şykr edirdi ki, Gylpəri onu özy ilə aparmadı. Şəhərin natəmiz havasından saralıb, hejvaja dönən Nurəddini bir ajın ərz'ndə tanımaq olmurdu. Ətə, çana gəlib yzy lalə kibi qızarırdı. Əfsus ki, zavallı Nurəddin ycyn bu xoşbaxtlıq coq cəkmədi. Gylpəri ərə gedəndə öz razılığı və Nurəddinin razılığı ilə onu atasının janında qoymuşdu. Amma indi nədən isə fikrini dəjişdirib Nurəddini öz janına aparmaq istəjirdi. Lakin Imamverdi baba əsla razı olmajırdı. Buna görə də hər gyn ata və qız arasında bu barədə qavqa vardı. Bu isə Nurəddinə coq tə'sir edirdi. Axırda Nurəddin dedi:

— Baba, daha Gylpəri ilə dalaşma. Mən razıjam. Onun janında olanda nə olar? Qoj gedim jenə hər gyn sənin janına gələrəm.

Imamverdi baba istər-istəməz razı oldu. Nurəddin də Əmir Aslanın evinə köcdy. Az bir myddətdə Əmir Aslan Gylpərinin əlində olan nəqd pulunu gah jalvarmaq və gah da qorqutmaq ilə alıb qumara, kefə tələf etdi. Əmir Aslan elə bilirdi ki, Gylpəri haçı Nəsirin devlətindən lazımınça jykyny dutubdur. Amma onun əli boş olmasi tezliklə mə'lum oldu. Bu çəhətə Əmir Aslan gyndə Gylpəri ilə dava, qalmaqal etməjə başladı. Gylpəri işi bu halda gördykdə necə myddətdən bəri yrəjində Nurəddinin dev əti barəsində bəslədiji gizlin fikri acıb Əmir Aslana söjlədi və ondan bu işə carə istədi. Əmir Aslan coq şad olub dedi:

— Hərgah indijə kibi bunu məndən gizləməsəjdin coqdan carə tapmışdım. Jenə də taparam.

Sənin işin joqdur.

***

Nurəddin elə bilirdi ki, hər vaqt istəsə Imamverdi babanın janına gedə bilər. Lakin bu fikrin jamlış olmasi ertəsi gyny ona mə'lum oldu. Bu tərəfdən də Gylpəri və ələlxysus Pystə qarı jazıq uşaqa göz verib işıq vermirdi. Ançaq Əmir Aslan öz fikri çıhətinçə Nurəddin ilə mehriban dolanıb onu janından iraq qojmajırdı. Haraja gedirdi özy ilə aparırdı. Bir dəfə Əmir Aslan Nurəddini gətyryb baqına gəzməjə apardı. Orada onu gilas aqaçına cıqartdı ki gilas dərsin. Nurəddin gilas ilə ətəjini doldurub aşaqı dyşmək istədikdə Əmir Aslan dedi:

— Nurəddin, o əlin ilə dutduqun budaqın başında gör nə coq gilas var. Cıq o şaxı sındır. Eləçə evimizə aparaq. Nurəddin dedi:

— Budaq nazikdir. Qorquram sına.

— Bəs sən dejirdin mən qorqaq dejiləm, o budaq mən jekəlikdə adamı gətyrər.

Bu sözlərdən Nurəddin qejrətə gəlib juqarı dırmaşdı. Aqaçın başına catdıqda, budaq şaqıltı ilə sınıb jerə dyşdy. Amma Nurəddin iki budaqın arasına pərcim olub ölymdən xilas oldu. Nurəddin aşaqı dyşəndə Əmir Aslan sınıq budaqı cijninə gətyryb dedi:

— Gedək Nurəddin. Allah bu səfər səni ölymdən qurtardı, bunu dejib qəhqəhə ilə gyldy.

Nurəddin Əmir Aslanın «bu səfər» deməsinə və gylməsinə təəççyb etdisə də onun fikrini anlamadı.

O biri gyn Əmir Aslan Çejranbasanı cullajıb dedi:

— Nurəddin, atımızı apar həm cajda sula və həm də bir az gəz. Nurəddin razı olmajıb dedi:

—Mən Çejranbasandan qorquram. Onu hec vaqtı minməjəçəjəm.

— Axьrь ki qorqaqlьqьnь bojnuna aldьn. Bunu dejib Əmir Aslan atьn belinə sьcradь.

— Elə isə gəl tərkimə min, gedib cajda cimək. Nurəddin cimməji coq sevirdi. Ona görə də tez razь oldu.

Cajda Əmir Aslan sojunub atь mindi və sujun dərin jerinə salьb bir necə dəfə yzdyrdy. Sonra yzyny Nurəddinə tərəf dutub dedi:

— Hərgah qorqmursan, gəl səni də mindirim; Nurəddin râzь oldu. Əmir Aslan Nurəddini ata mindirib, noxtanьn uçundan japьşdь. Əmir Aslan atь lap dərin jerə salьb bir necə dəfə yzdyrdy. Bir dəfə at dərin jerə dyşəndə qəflətən ipi cəkdi. At burxulub Nurəddini ystyndən saldь. O dəxi suja batdь və bir necə sanijədən sonra sudan cьqьb yzməjə başladь. Hərgah bu dəmdə Nurəddinin nəzəri Əmir Aslana dyşsə idi onun gözlərindən parlajan odu və yzyndən zyhur edən açьqь görərdi. Nurəddin yzyb kənara cьqanda Əmir Aslan sordu:

— Bu yzməji haradan öjrənmişsən?

— Imamverdi baba öjrətmişdir. Sizə gəlməmişdən əvvəl hər gyn cajda cimirdik. Indi Imamverdi baba azarlamьşdьr.

— Onu haradan bilirsən, joqsa qacьb getmişsən?

— Xajьr, dynən baqbanьndan eşitdim.

— Jenə dejirəm ki, sənin onun ilə əsla işin olmasьn. Tez ol gejin gedək.

Nurəddin Əmir Aslanь açьqlь göryb dinməz söjləməz tezçə gejindi. Jol uzunu Əmir Aslan fikirdə olub bir kəlmə söz söjləmədi. Əmir Aslan bu ittifaqdan sonra jenə öz pis fikrindən əl götyrməjib Nurəddini tələf etməjə təzə hijlə aramaqa başladь. Nurəddin isə başьna gə'ən xatalarь qəza işi bilib Əmir Aslandan şəklənməjirdi. Ançaq bir ittifaq onu şəkkə saldь. Bir dəfə Əmir Aslan onun ilə bazardan evə qa-

jьdanda jolda cəpər ystyndə bir gyrzəni qьvrьlьb jatmьş gördylər. Əmir Aslan dedi:

— Nurəddin, gör nə gözəl korar balasьdьr. Dut aparьb kirpimizə verək. Jesin. Qorqma korarьn zəhəri joqdur. Adamь vurmaz.

— Mən də bilirəm zəhəri joqdur. Ançaq o korar dejil, gyrzədir.

— Joq, sən tanьmьrsan korardьr.

— Korarьn başь sarьmtьl olur, elə qara rəngli olmajьr.

— Onu sənə kim dejibdir?

— Imamverdi baba. Necə dəfə baqcada korarь mənə göstəribdir.

Əmir Aslan qəhqəhə ilə gylyb dedi:

— Korardan qorqursan. Ona görə də ilanь bahana gətirirsən. Nurəddin bir söz demədjib, əlindəki aqaç ilə tez ilanьn başьndan vurub öldyrdy.

— Indi baq gör ilandьr ja korardьr. Bu halda jol ilə gedən iki adam buna baqьb dedi:

— Əlbəttə ilandьr. Özy də gyrzədir. Adamlar gedəndən sonra Əmir Aslan ilanьn o jan-bu janьna baqьb dedi:

— Dyzdyr, mən səhv edirəm bu korar dejil. Ilan korara coq oqşajьr. Ona görə səhv etmək olar.

Nurəddin ona çavab verməjib ançaq fikrindən bunu kecirdi:

— Sənə qulaq assajdьm, indi mejitim bu jol ystyndə qalmьşdь.

Bu ittifaqdan sonra Nurəddin Əmir Aslandan şəklənib sərvərəq dolanmaqa başladь.

Bir dəfə Nurəddin sərcəsini götyryb baqcada ojnamaq bahanasь ilə qacьb Imamverdi babanь joqlamaqa getdi. Imamverdi baba döşəkdə jatьrdь, azardan coq zəif dyşmyşdy. Jazьq kişi Nurəddini quçaqlajьb sevindijindən aqladь. Nurəddin də başьna gələn hadisələri naqьl etdikcə Imamverdi baba-

nьn yzyndə təşviş artьrdь. Nurəddin axьrıncь ilan fəqərəsini naqьl etdikdə, Imamverdi baba daha səbr edə bilməjib zəif səslə belə qьşqьrdь:

— Joq, daha səni orada qojmaq olmaz. Mən azarlьjam. Durmaqa taqətim joqdur. Səni o iki şejtanьn şərindən myhafəzə etməji baçarmьram. Oqlum gərək tezliklə şəhərə Baharьn janьna qajьdasan. Joqsa tələf olarsan; indi get mən də gərym nə carə taparam ançaq sərvəqt ol. Əmir Aslanьn səzynə əsla inanma.

Imamverdi baba Nurəddini quçaqlajьb opdy. Zavallь kişinin gəzlərindən jaş dolu kibi jaqьb yzyny, aq saqqalьnь islatdь.

Nurəddin coq qəmgin evə qajьdьrdь. Jol uzunu başьna gələn qəza-qədərdən fikir edirdi.

— Indi anlajьram ki, Əmir Aslan nə məqsəd ilə məni gah uça nazik budaqa cьqardьrmьş, gah dərin suja salьrmьş və gah da ilanь korar adьna əlim ilə dutdururmuş. Bəli mənim əlməjimi istəjirmiş. Ançaq burasьnь anlamьram ki, mən ona nə etmişəm ki, mənim əlymymy istəsin və bundan ona nə mənfəət ola bilər. Bu barədə fikirdə ikən birdən Baharьn bu səzy jadьna dyşdy: «Qorqma aqam, nə qədər sən saqsan Gylpəri sənin bir qəpijinə də əl vura bilməz».

— Demək ki mən əlsəm malьm Gylpərijə dyşəsidir. Əlbəttə belədir, bu sadə fikri mən indijə kibi nejə anlamamьşam.

Nurəddin evə qajьdanda həjətdə Əmir Aslana rast gəldi.

— Harđan gəlirsən?

— Baqcadan gəlirəm,—dejə Nurəddin çavab verdi və qьzarьb başьnь aşaqь saldь. Cynky Nurəddin əmryndə əvvəlinçi dəfə idi ki jalan dejirdi.

Bunun halətindən jalan deməjini dujub Əmir Aslan açьqlь jenə sordu:

— Dyzyny de gərym harada idin?

— Imamverdi babanь joqlamaqa getmişdim.

— Sən nə çyr'ət edib mənim əmrimdən cьqьrsan? Əmir Aslan bunu dejə qьşqьrdь və Nurəddini comaq ilə dəjyb ambara saldь və aqzьnь kilidləjib getdi.

Bu ittifaqdan iki gyn sonra Imamverdi babanьn filiç azarьndan dili dutulmaq xəbəri gəldi. Gylpəri və Əmir Aslan çəld gejinib getdilər, amma Nurəddini aparmadьlar. Ilan fəqərəsindən bəri Əmir Aslan Nurəddin ilə mehriban dolanmaqь bilmərrə buraqьb hər bir çyz'i şeji bahana edərək onu tez-tez dəjyb ambarda dustaq edirdi. Geçə Əmir Aslan ilə Gylpərinin səhbətindən Nurəddin anladь ki, Imamverdi babanьn dili dutulubsa da hələ əlym halәti joqdur. Bu xəbərdən Nurəddin şad olub əz-əzynə dedi:

— Joq Əmir Aslan məni əldyrsə də səhər sybhdən qacьb babamь joqlamaqa gedəçəjəm. Bu fikir ilə Nurəddin jatdь. Nurəddin Pystə nənə ilə bir otaqda jatьrdь. Səhər gəzlərini acanda gərdy ki, Pystə nənə otaqda joqdur. Bundan şad olub çəld gejinməjə başladь. Sonra sərcəsini gətyryb baqcaja girdi ki, gizlinçə baq arasь Imamverdi babagilə getsin. Nurəddin nar koluna catdьqda qəflətən onun dalьndan Əmir Aslan ilə Gylpərinin səsini eşitdi. Çəld və ysulluça kolun icinə girib gizləndi. Əmir Aslan Gylpərijə đejirdi:

— Sənə jenə dejirəm ki, zəhər verməkdən başqa carəsi joqdur.

— Jazьq baba, bu zalьmlar sənə zəhər vermək istəjirlər. Joq qojmaram nə jaqşь oldu ki, bunlarьn fikrini bildim. Nurəddin bu fikirdə ikən Əmir Aslan başladь: